# PEDAQOJİ UNİVERSİTETİN
# XƏBƏRLƏRİ

# TRANSACTIONS
## OF PEDAGOGICAL UNIVERSITY

**ISSN 2520-2014**

***Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası***

***Series of humanitarian, social, pedagogical and psychological sciences***

**2024, C. 72, № 3**

**Jurnal 24 may 1991-ci il tarixdə Azərbaycan Respublikası**
**Mətbuat Komitəsində qeydiyyatdan keçmişdir (şəhadətnamə № 307)**
***(1953-cü ildən nəşr edilir)***

# PEDAQOJİ UNİVERSİTETİN XƏBƏRLƏRİ

***Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası,*** **2024, C.72, №3**

**BAŞ REDAKTOR** T.ü.e.d., prof. C.M.Cəfərov
**EDITOR-IN-CHIEF** Prof. Dr. J.M.Jafarov

**REDAKSİYA HEYƏTİ**

F.-r.e.d., prof. A.D.Zamanov ***(baş redaktorun müavini),*** psix.e.d., prof. R.İ.Əliyev, f.ü.e.d., prof. M.N.Hüseynova, p.ü.e.d., prof. M.İ.İlyasov, f.e.d., prof. H.Ə.Qasımov, p.e.d., prof. F.A.Rüstəmov, f.ü.e.d., prof. F.Ç.Rzayev, t.e.d., prof. O.B.Sultanov

**REDAKSİYA ŞURASI**

F.e.d., prof. Y.M.Babayev, f.e.d., prof. T.S.Cavadov, p.e.d., prof. M.R.Dadaşova, p.ü.e.d., prof. M.M.Əmirov, f.e.d., prof. Z.A.Xəlilov, s.ü.e.d., prof. J.H.Qədimova, t.e.d., prof. X.M.Məmmədov, f.ü.e.d., dos. N.M.Sadıqova, p.ü.f.d., prof. İ.N.İsayev, p.ü.e.d., prof. Ş.Q.Əliyeva, p.ü.f.d., dos. N.Ə.Abdullazadə, p.ü.e.d., dos. N.T.Hüseynova
F.ü.f.d. N.Q.Aslanova ***(məsul katib)***

**EDITORIAL BOARD**

Prof. Dr. A.D.Zamanov ***(ass. editor)***, Prof. Dr. R.I.Aliyev, Prof. Dr. M.N.Huseynova, Prof. Dr. M.I.Ilyasov, Prof. Dr. H.A.Gasimov, Prof. Dr. F.A.Rustamov, Prof. Dr. F.Ch.Rzayev, Prof. Dr. O.B.Sultanov

**ADVISORY BOARD**

Prof. Dr. Y.M.Babayev, Prof. Dr. T.S.Javadov, Prof. Dr. M.R.Dadashova, Prof. Dr. M.M.Amirov, Prof. Dr. Z.A.Khalilov, Prof. Dr. J.H.Gadimova, Prof. Dr. Kh.M.Mammadov, Ass. prof. Dr. N.M.Sadigova, Prof. Phd I.N.Isayev, Prof. Dr. Sh.Q.Aliyeva, Ass. prof. Phd N.A.Abdullazadeh, Ass. prof. Dr. N.T.Huseynova
Phd N.G.Aslanova ***(executive secretary)***

***©ADPU, 2024***
***©ASPU, 2024***

# MÜNDƏRİCAT

## Humanitar elmlər

***Aslanova N.Q.***
AZƏRBAYCAN POEZİYASINDA SƏRBƏST ŞEİRİN YARANMASINA DAİR...... 9
***Cəbiyeva H.M.***
ALMAS İLDIRIMIN MÜHACİRƏT HƏYATININ BƏZİ MƏQAMLARINA DAİR 15
***Dadaşlı Y.B.***
SOVET DÖVRÜ AZƏRBAYCAN ƏDƏBİYYATŞÜNASLIĞINDA 1920-1930-CU İLLƏR MƏRHƏLƏSİNİN DÖVRLƏŞDİRİLMƏSİNİN İDEOLOJİ VƏ METODOLOJİ ƏSASLARI ........ 23
***Dəmirova C.V.***
MƏHƏMMƏD İBN ƏL-HƏSƏN ƏT-TUBİ YARADICILIĞININ İDEYA-MƏZMUN MÜXTƏLİFLİYİ ........ 39
***Hacıyeva G.H.***
Gİ DE MOPASSANIN QADIN OBRAZLARI ........ 48
***Hüseynoğlu S.***
MÖVZU RƏNGARƏNGLİYİ, DİL ZƏRİFLİYİ... ........ 57
***Məmmədova Ş.N.***
İSMAYIL ŞIXLININ ƏFSANƏ VƏ RƏVAYƏTLƏRİNİN ETNOKULTUROLOJİ SEMANTİKASI........ 67

## İctimai elmlər

***Hüseynova N.Ə.***
MÜASİR AZƏRBAYCAN MƏDƏNİYYƏTİNİN İNKİŞAFINDA TOLERANTLIQ PRİNSİPLƏRİNİN ROLU ........ 74
***İsayeva T.M.***
XX-XXI ƏSRİN ƏVƏLLƏRİNDƏ AZƏRBAYCANLILARIN RUSİYADA İCTİMAİ, MƏDƏNİ VƏ MAARİFÇİLİK FƏALİYYƏTİ ........ 83
***Kərimov Z.H.***
İRƏVAN ŞƏHƏRİNDƏ MAARİFİN İNKİŞAFINDA XEYRİYYƏÇİLİYİN ROLU (XIX ƏSRİN II YARISI – XX ƏSRİN ƏVVƏLİ) ........ 89
***Məmmədov N.R.***
XANKƏNDİDƏ REALLAŞAN YARIŞLAR DÜNYAYA SÜLH MESAJI VƏ TARİXİ ZƏFƏRİN GÖSTƏRİCİSİ KİMİ ........ 97
***Müseyibzadə C.Ş.***
AZƏRBAYCANIN REGİONAL TƏŞKİLATLARLA İQTİSADİ ƏMƏKDAŞLIĞININ GENİŞLƏNDİRİLMƏSİ ........ 107

## Pedaqoji-psixoloji elmlər

***Həsənova M.F.***
TƏLƏBƏ ŞƏXSİYYƏTİNİN FORMALAŞMASINA TƏSİR EDƏN AMİLLƏR ....... 119
***Hümbətova A.A.***
MÜƏLLİMİN EMOSİONAL İNTELLEKTİNİN TƏLİM PROSESİNİN KEYFİYYƏTİNƏ TƏSİRİNİN PSİXOLOJİ ASPEKTLƏRİ ........ 126
***İbrahimov F.N., Abdurahmanov V.Ə.***
ROBERT QANYEYƏ MƏXSUS "ÖYRƏNMƏNİN ŞƏRTLƏRİ"NƏ DAİR İNFORMASİYANIN İNTERPRETASİYASI ........ 134

***Mədədov P.Y.***
MÜƏLLİMLƏRİN İNNOVATİV KOMPETENSİYASININ İNKİŞAF ŞƏRTLƏRİ ... 146
***Novruzova X.T.***
İKT MÜHİTİNDƏ TƏLİMİN PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ ................................ 154
***Vəzirov H.N., Tağıyeva R.M., Kərimova V.A., Məmmədova M.A.***
STİQMATİZASİYANIN FƏLSƏFƏSİ VƏ PSİXOLOGİYASI .................................. 163

# СОДЕРЖАНИЕ

## *Гуманитарные науки*

***Асланова Н.Г.***
О ВОЗНИКНОВЕНИИ СВОБОДНОГО СТИХА В АЗЕРБАЙДЖАНСКОЙ ПОЭЗИИ ........ 9
***Джабиева Х.М.***
О НЕКОТОРЫХ ЭПИЗОДАХ ЖИЗНИ АЛМАСА ИЛДЫРЫМА В ЭМИГРАЦИИ ........ 15
***Дадашли Я.Б.***
ИДЕОЛОГИЧЕСКИЕ И МЕТОДОЛОГИЧЕСКИЕ ОСНОВЫ ПЕРИОДИЗАЦИИ ПЕРИОДА 1920-1930-Х ГОДОВ В АЗЕРБАЙДЖАНСКОМ ЛИТЕРАТУРОВЕДЕНИИ СОВЕТСКОГО ПЕРИОДА ........ 23
***Дамирова Дж.В.***
ИДЕЙНО-СОДЕРЖАТЕЛЬНОЕ РАЗНООБРАЗИЕ ТВОРЧЕСТВА МУХАММЕДА ИБН АЛЬ-ХАСАН АТ-ТУБИ ........ 39
***Гаджиева Г.Г.***
ЖЕНСКИЕ ОБРАЗЫ ГИ ДЕ МОПАССАНА ........ 48
***Гусейноглу С.***
РАЗНООБРАЗИЕ ТЕМ, ИЗЯЩЕСТВО ЯЗЫКА........ 57
***Мамедова Ш.Н.***
ЭТНОКУЛЬТУРОЛОГИЧЕСКАЯ СЕМАНТИКА ЛЕГЕНД И ПРЕДАНИЙ ИСМАИЛА ШИХЛИ ........ 67

## *Общественные науки*

***Гусейнова Н.А.***
РОЛЬ ПРИНЦИПОВ ТОЛЕРАНТНОСТИ В РАЗВИТИИ СОВРЕМЕННОЙ АЗЕРБАЙДЖАНСКОЙ КУЛЬТУРЫ ........ 74
***Исаева Т.М.***
СОЦИАЛЬНО-КУЛЬТУРНАЯ И ПРОСВЕТИТЕЛЬСКАЯ ДЕЯТЕЛЬНОСТЬ АЗЕРБАЙДЖАНЦЕВ В РОССИИ В НАЧАЛЕ XX – XXI ВЕКОВ ........ 83
***Каримов З.Х.***
РОЛЬ БЛАГОТВОРИТЕЛЬНОСТИ В РАЗВИТИИ ОБРАЗОВАНИЯ В ИРЕВАНЕ (ВТОРАЯ ПОЛОВИНА XIX ВЕКА – НАЧАЛО XX ВЕКА) ........ 89
***Мамедов Н.Р.***
ОРЕВНОВАНИЯ, ПРОВОДИМЫЕ В ХАНКЕНДИ КАК ПОСЛАНИЕ МИРУ МИР И ПОКАЗАТЕЛЬ ИСТОРИЧЕСКОЙ ПОБЕДЫ ........ 97
***Мусеибзаде Дж.Ш.***
РАСШИРЕНИЕ ЭКОНОМИЧЕСКОГО СОТРУДНИЧЕСТВА АЗЕРБАЙДЖАНА ЧЕРЕЗ РЕГИОНАЛЬНЫЕ ОРГАНИЗАЦИИ ........ 107

## *Педагогико-психологические науки*

***Гасанова М.Ф.***
ФАКТОРЫ, ВЛИЯЮЩИЕ НА ФОРМИРОВАНИЕ ЛИЧНОСТИ СТУДЕНТА ..... 119
***Гумбатова А.А.***
ПСИХОЛОГИЧЕСКИЕ АСПЕКТЫ ВЛИЯНИЯ ЭМОЦИОНАЛЬНОГО ИНТЕЛЛЕКТА ПЕДАГОГА НА КАЧЕСТВО ОБРАЗОВАТЕЛЬНОГО ПРОЦЕССА ........ 126

***Ибрагимов Ф.Н., Абдурахманов В.А.***
ИНТЕРПРЕТАЦИЯ ИНФОРМАЦИИ ОБ «УСЛОВИЯХ ОБУЧЕНИЯ» РОБЕРТА ГАНИ ........................................ 134
***Мададов П.Ю.***
УСЛОВИЯ РАЗВИТИЯ ИННОВАЦИОННОЙ КОМПЕТЕНТНОСТИ ПЕДАГОГОВ ........................................ 146
***Новрузова Х.Т.***
ПСИХОЛОГИЧЕСКИЕ ОСОБЕННОСТИ ОБУЧЕНИЯ В СРЕДЕ ИКТ ................. 154
***Везиров Х.Н., Тагиева Р.М., Керимова В.А., Мамедова М.А.***
ФИЛОСОФИЯ И ПСИХОЛОГИЯ СТИГМАТИЗАЦИИ .......................................... 163

# TABLE OF CONTENTS

## Humanitarian sciences

***Aslanova N.G.***
ON THE EMERGENCE OF FREE VERSE IN AZERBAIJAN POETRY .................. 9
***Jabiyeva H.M.***
SOME NUANCES ABOUT THE ALMAS ILDIRIM'S EMIGRATION LIFE .......... 15
***Dadashli Y.B.***
IDEOLOGICAL AND METHODOLOGICAL BASES OF PERIODIZATION OF THE PERIOD OF 1920-1930 YEARS IN AZERBAIJANI LITERARY STUDIES OF THE SOVIET PERIOD ........................................................................................ 23
***Damirova J.V.***
THE DIVERSITY OF IDEAS AND CONTENT OF MUHAMMAD IBN AL-HASSAN AT-TUBI'S WORK ........................................................................ 39
***Hajiyeva G.H.***
FEMALE IMAGES OF GUY DE MAUPASSANT .................................................... 48
***Huseynoghlu S.***
THE VARIETY OF THE SUBJECT, THE ELEGANCE OF THE LANGUAGE........ 57
***Mammadova Sh.N.***
ETHNO-CULTURAL SEMANTICS OF LEGEND AND NARRATIVES ISMAIL SHIKHLI ........................................................................................................ 67

## Social sciences

***Huseynova N.A.***
THE ROLE OF THE PRINCIPLES OF TOLERANCE IN THE DEVELOPMENT OF MODERN AZERBAIJANI CULTURE ………………………….……………. 74
***Isaeva T.M.***
SOCIAL, CULTURAL AND EDUCATIONAL ACTIVITIES OF AZERBAIJANIS IN RUSSIA AT THE BEGINNING OF THE XX-XXI CENTURIES ………………. 83
***Karimov Z.H.***
THE ROLE OF CHARITY IN THE DEVELOPMENT OF EDUCATION IN IRAVAN (SECOND HALF OF THE XIX^th^ CENTURY – BEGINNING OF THE XX^th^ CENTURY) ……………………………………………………………….….. 89
***Mammedov N.R.***
COMPETITIONS HELD IN KHANKENDY AS A MESSAGE TO THE WORLD PEACE AND AN INDICATOR OF HISTORIC VICTORY ...………………………. 97
***Museyibzada J.Sh.***
ENHANCING AZERBIJAN'S ECONOMIC COOPERATION VIA REGIONAL ORGANIZATIONS ……………………..........................................................…………. 107

## Pedagogical-psychological sciences

***Hasanova M.F.***
FACTORS AFFECTING THE FORMATION OF A STUDENT'S PERSONALITY 119
***Humbatova A.A.***
PSYCHOLOGICAL ASPECTS OF THE INFLUENCE OF THE TEACHER'S EMOTIONAL INTELLIGENCE ON THE QUALITY OF THE EDUCATIONAL PROCESS ........................................................................................................ 126

***Ibrahimov F.N., Abdurahmanov V.A.***
INTERPRETATION OF ROBERT GANE'S "CONDITIONS OF LEARNING" ........ 134
***Madadov P.Y.***
DEVELOPMENT CONDITIONS OF TEACHERS' INNOVATIVE COMPETENCE 146
***Kh.T.Novruzova***
FEATURES OF PSYCHOLOGICAL READINESS OF TEACHING TO USE ICT... 154
***Vazirov H.N., Tagiyeva R.M., Karimova V.A., Mammadova M.A.***
PHILISOPHY AND PSYCHOLOGY OF STIGMATIZATION .................................. 163

# Humanitar elmlər

*UOT 82*

***N.Q.Aslanova***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*n.q.aslanova@gmail.com*

## AZƏRBAYCAN POEZİYASINDA SƏRBƏST ŞEİRİN YARANMASINA DAİR

https://doi.org/10.30546/170899876.72.03.2024.02

***Açar sözlər:*** *poeziya, sərbəst şeir, qafiyə, lirika, leytmotiv, ədəbi proses*

Məqalədə Azərbaycan ədəbiyyatında sərbəst şeirin yaranma tarixini araşdırılmışdır. Sərbəst şeirin tarixinin uzaq olmasına baxmayaraq, onun geniş şəkildə tədqiq olunmadığı diqqətə çatdırılmışdır. Bu şeir forması daim sənətkarların diqqət mərkəzində olmuş, onun digər vəznlərdən daha üstün olması kimi yanaşmalar da ədəbi prosesdə özünə yer almışdır.

XIX əsrin sonu – XX əsrin əvvəllərində Avropada yarandığı elmi müstəvidə bəlli olsa da, spesifik poetikası olan verlibr müasir şeir forması kimi qəbul olunur.

Tədqiqat işində sözügedən şeirin digər ənənəvi vəznlərdəki nümunələrdən yalnız forma baxımından deyil, həmçinin daha dərin fəlsəfi poetikası ilə fərqləndiyi diqqətə çatdırılır. Bu mənada sərbəst şeir poeziyada tədqiq olunmalı maraqlı, özünəməxsus spesifikası ilə seçilən mövzulardandır.

***Н.Г.Асланова***

## О ВОЗНИКНОВЕНИИ СВОБОДНОГО СТИХА В АЗЕРБАЙДЖАНСКОЙ ПОЭЗИИ

***Ключевые слова:*** *поэзия, свободный стих, рифма, лирика, лейтмотив, литературный процесс*

В статье рассматривается история свободной стиха в азербайджанской литературе. Доводится до сведения, что, несмотря на далекую историю свободного стиха, он не получил широкого изучения. Данная форма стиха всегда была в центре внимания мастеров, а такие подходы, как его превосходство над другими размерами стиха, заняли свое место в литературном процессе.

Хотя на научном уровне известно, что верлибр зародился в Европе в конце XIX – начале XX века, он с своей специфической поэтикой считается современной формой поэзии.

В исследовательской работе указывается, что рассматриваемая форма стиха отличается от примеров других традиционных размеров стиха не только формой, но и более глубокой философской поэтикой. В этом смысле свободный стих – одна из интересных тем для изучения в поэзии, отличающаяся своей уникальной спецификой.

***N.G.Aslanova***

**ON THE EMERGENCE OF FREE VERSE IN AZERBAIJAN POETRY**

***Keywords:*** *poetry, free verse, rhyme, lyric, leitmotif, literary process*

The article examines the history of free verse in Azerbaijani literature. Although the history of free verse is far away, it has been noticed that it has not been widely studied. This form of poetry has always been the center of attention of masters, and approaches such as its superiority over other rhythms have taken their place in the literary process.

Although it is scientifically known that free verse originated in Europe in the late 19th – early 20th centuries, it is considered a modern form of poetry with its specific poetics.

In the research work, it is pointed out that the verse in question differs from examples of other traditional rhythms not only in terms of form, but also in its deeper philosophical poetics. In this sense, free verse is one of the interesting topics to be studied in poetry, distinguished by its unique specificity.

Müasir ədəbi prosesə nəzər yetirdikdə sərbəst şeirə marağın getdikcə artması dinamikasını müşahidə etsək də, onun xüsusiyyətləri və formalaşma şəraitinin hələ də birmənalı şərh olunmadığını görərik. Sözügedən məsələ ilə bağlı bir-birinə əks olan baxış bucaqları mövcud olmuşdur. Bəzi tədqiqatçılar sərbəst şeirin poetik dəyərini inkar etmiş, bəziləri isə tam əksinə, bu dəyəri yüksək qiymətləndirərək sərbəst şeirin formalaşma prosesi hələ sonlanmamış onun ən üst qatda dayandığını bildirmişlər.

Sərbəst şeir (verlibr) – frans. “vers libre” – sərbəstliklə ifadə olunan, standart qafiyə düzülüşü, digər vəznlərə xas olan şeir parametrlərindən azad, spesifik poetikası olan şeir formasıdır.

Verlibrin müasir şeir forması kimi qəbul olunmasına baxmayaraq, məlum olduğu kimi, o, XIX əsrin sonu – XX əsrin əvvəllərində Avropada yaranmışdır. XX əsrdə yaşayıb-yaratmış Azərbaycan şairlərinin böyük əksəriyyəti sərbəst şeir vəzninə geniş yer ayılrmışlar. Belə ki, sərbəst şeirin parlaq nümunələrinə R.Rza, Ə.Kərim yaradıcılığında xüsusilə daha çox rast gəlinir. M.Rəfilinin Azərbaycan ədəbiyyatında ilk sərbəst şeir nümunəsi qələmə aldığı qəbul olunmaqdadır.

Bəllidir ki, sərbəst şeir özünəməxsus poetik spesifikası, strukturu ilə digər vəznlərdən seçilir. Qafiyə heca vəznində iki və daha artıq misralar arasında və ya çarpaz şəkildə verilirsə, sərbəst şeirdə qafiyə ardıcıl şəkildə deyil, bir neçə misradan sonra, yaxud dalbadal da istifadə oluna bilər.

Vəzn və qafiyə baxımından tənzimlənən poeziyadan təkcə formal olaraq deyil, həm də daxili quruluşu ilə fərqlənən sərbəst şeir poetik yaradıcılığın xüsusi növüdür. İstənilən intonasiya çalarını çatdıran çevik ritm, struktur sabitliyinin olmaması müəlliflərə şeirin bədii dünyasının mahiyyətini maksimum dəqiqliklə əks etdirməyə imkan verir. Sərbəst misralar sisteminin strukturuna xas olan güclü mexanizm lirik ifadənin artan informasiya məzmununu təmin edir. Bəhs edilən şeir sənətinin xüsusiyyətləri poetik mətnin hər bir sözünə və ya səsinə diqqəti yönəldir və bu, bizə sərbəst şeirin estetikası ilə paralellik aparmağa imkan verir. Sərbəst şeirin estetikası təfərrüata diqqət yetirməyə, ətraf aləmin hər bir hadisəsində universalı görmək bacarığına əsaslanır.

Sərbəst şeirin lirik subyektinin fərqli cəhəti dünyanın ən həssas qavrayışıdır. Ən əhəmiyyətsiz hadisə, ən kiçik detal, təbiət aləmində baş verən dəyişikliklər zəngin hisslər oyatmağa qadirdir. Lirik ifadənin subyekti insanla yer kürəsi arasındakı əlaqəni aydın formada hiss edir ki, bu da onu daim harmoniya axtarışında olmağa sövq edir. Bəzi şairlərin müraciət etdiyi lirik mövzu postmodernist dünyagörüşü ilə seçilir: ironik pərdənin arxasında tənhalıq və anlaşılmazlıq hissi gizlənir.

Sərbəst şeirə müraciət edən sənətkarların dünyagörüşünün əsas fəlsəfi və estetik əsasları fərdin dəyərinin ekzistensial dərk edilməsində, insan və ətraf aləm başlanğıclarının bir bütöv kimi qəbul olunmasındadır. Bir çox sərbəst şeir nümunəsinin ironik və refleksiv mahiyyəti postmodernist həssaslığın özünənəməxsus bədii təcəssümünə çevrilir.

Azərbaycan ədəbiyyatında poeziya nümunələrini araşdıran tədqiqatçılardan Ş.Ədilli sərbəst şeirin spesifik özəlliklərininə uyğun olaraq onun 8 növünü ayırd edir:

“1. Eyni bölgülü qafiyəli sərbəst şeir
2. Fərqli bölgülü qafiyəli sərbəst şeir
3. Qismən bölgülü qafiyəli sərbəst şeir
4. Bölgüsüz qafiyəli sərbəst şeir (qafiyəli nəsr)
5. Eyni bölgülü qafiyəsiz sərbəst şeir
6. Fərqli bölgülü qafiyəsiz sərbəst şeir
7. Qismən bölgülü qafiyəsiz sərbəst şeir
8. Bölgüsüz qafiyəsiz sərbəst şeir (mənsur şeir)” (2, s.70).

Rus poeziyasında sərbəst şeir nümunələrini tədqiq edən tədqiqatçılardan Q.F.Çernikova verlibrin növlərindən bəhs edir: “XX əsrin ikinci yarısında sərbəst şeirin poetik təcəssümlərinin geniş spektrinə

baxmayaraq, funksional elementlər toplusu prinsipi əsasında müəyyən növləri ayırmaq mümkündür. Biz əsas alt növlər kimi ənənəvi və avanqard azad şeiri fərqləndiririk. O, öz növbəsində şərq, aforistik, assosiativ, süjetli, meditativ, minimalist növlərə bölünür. Bundan əlavə, şairlər bir neçə növü özündə birləşdirən sintetik formalar yaratmışlar" (8, c.6).

Azərbaycan poeziyasında sərbəst şeir formasının inkişafı öz başlanğıcını, əsasən, XX əsrin 20-30-cu illərindən götürmüşdür. Onu da qeyd etmək lazımdır ki, sözügedən şeir forması ilk vaxtlardan zaman-zaman mübahisələrin yaranmasına gətirib çıxarmışdır. Şeirin bu formasına müraciət edən bir qisim şair sərbəstliyin kölgəsindən kənara çıxa bilməyərək uğursuz alınan şeirlərini poetik düşüncənin böyük uğuru hesab etmişlər. Qafiyə, bölgü, ritm və ahəng uyumuna tabe olmayan sərbəst şeirlər zamanında ədəbi prosesdə tənqidlə üzləşmişdir.

Sərbəst şeir yarandığı ilk illərdə vəznin tələblərinə uyğun olaraq orada müraciət, bədii xitab özünü daha çox büruzə vermişdir. Sərbəst şeirdə özünü göstərən bu yanaşma dövrün ideoloji tələbinə tabe tutularaq diqqəti cəlb edirdi. Lakin hər hansı amildən asılı olmayaraq poetik sənətkarlıq əsas görülməlidir. Qeyd etmək lazımdır ki, həmin dövrdə Səməd Vurğunun qələmə aldığı sərbəst şeir nümunələri məhz poetik dil, üslub özəlliyi baxımından seçilirdi.

Onu da qeyd etmək lazımdır ki, sərbəst şeir qələmə alınarkən bəzən hisslərin təsvir və tərənnümündən daha çox formalizm, əlaqəsiz fikirlər özünü büruzə vermişdir. Məhz bu səbəbdən istər XX əsrin 20-30-cu, eyni zamanda 40-50-ci illərində belə qələmə alınan bəzi sərbəst şeir nümunələrində ənənə və novatorluq prinsipi gözlənilməmiş, klassik ənənələr, milli-mənəvi hisslərdən uzaqlaşma aydın şəkildə nəzərə çarpmışdır.

Araşdırmaçıların haqlı olaraq qeyd etdikləri kimi, sərbəst şeir, demək olar ki, XX əsrin 50-ci illərinə qədər özünün poetik, xəlqi formasını tapa bilməmişdir. Sərbəst şeirə müraciət edən bəzi şairlər sərbəst şeiri qafiyənin olmaması, misraların bilərəkdən sındırılması, ahəngin olmaması kimi başa düşürdülər. Lakin unutmaq olmaz ki, sərbəst şeirdə qafiyə bədii fikrin daha vurğulu, emosional ifadəsi üçün vacib hesab edilən əsas məqamlardandır. Bu zaman şair poetik fikri qafiyələrin axınında məhdudlaşdırmır, əksinə, qafiyəni fikrə tabe tutur. Bəzən sənətə yeni gələn şairlərin şeirlərində sərbəstlikdən sui istifadə qabarıq formada müşahidə olunur, sözçülüyə, uzunçuluğa geniş yer verildiyi diqqətdən qaçmır. Bu zaman şeir hansı vəzndə yazılmasından asılı olmayaraq zəif, sönük forma alır. Bunun nəticəsi olaraq poetik istedadın azlığı, sərbəst şeiri tam sərbəstlik kimi qavramaq bədii yaradıcılıqda böyük uğursuzluğa gətirib çıxaran amillərdəndir.

Yuxarıda qeyd olunduğu kimi, sərbəst şeirin parlaq nümunələrini yaradan şairlərimizdən olan R.Rzanın qələmə aldığı poetik sərbəst şeir nümunələrində sənətkarlıq özəlliklərinin rəngarəngliyi özünü büruzə verməkdədir. Onun əsərləri təkcə bu vəzndə formaca yenilikdə yox, dildə, fonetik konfiqurasiyalarda, bədii təsvir və ifadə vasitələrinin yeniliyindədir, desək, yanılmarıq.

R.Rzanın sərbəst şeir nümunələrində istifadə olunan qafiyələr bir-birini izləyir, səslərin alliterasiyası, ahəng uyumu şeirə ritmik-melodik ruh qatır:

Nə payızdı,
nə qışdı…
Bir çinar qurumuşdu.
Nə suyunu kəsdilər onun,
nə üstünə kölgə düşdü.
Ağac ayaq üstə qurumuşdu.
Nə yarpaqları saraldı,
saplağı sınmış kimi.
Nə xəzəli töküldü
Yuvasından uçan quş kimi.
Elə bil ki, gövdəsi üşümüşdü.
Çinar, beş yüz ildən bir az,
bircə yaz,
az yaşadı (6).

Araşdırmalardan, aparılan tədqiqatlardan məlum olur ki, sərbəst şeir ənənəvi vəznlərdən təkcə struktur baxımdan deyil, eyni zamanda daha dərin, fəlsəfi müstəvidə fərqlənir.

Uzun tarixi keçmişinin olmasına, eyni zamanda sərbəst şeir yazan sənətkarların, sərbəst şeirə tez-tez müraciət edən şairlərin sayının getdikcə artmasına baxmayaraq, poeziyanın bu sahəsi geniş tədqiq edilməmişdir. Bu baxımdan araşdırılması vacib olan tədqiqat mövzusu böyük aktuallıq kəsb edir.

**ƏDƏBİYYAT**

1. *Akimova E.* Çağdaş poeziya və ədəbi təmayüllər. Bakı: Elm və təhsil, 2016, 316 s.
2. *Ədilli Ş.* Azərbaycan şeirində forma məsələləri. Bakı: Elm və təhsil, 2014, 144 s.

3. *İsmayılzadə N.* Müasir Azərbaycan və türk poeziyasında sərbəst şeir (Rəsul Rza və Nazim Hikmət yaradıcılığı əsasında): fil. elm. nam. ... diss. Bakı, 2007, 144 s.
4. *Müşfiq M.* Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2004, 352 s.
5. *Rəfili M.* Ədəbiyyat nəzəriyyəsinə giriş. Bakı: Azərnəşr, 1958, 282 s.
6. *Rza R.* Seçilmiş əsərləri: 5 cilddə, V c., Bakı: Öndər, 2005, 254 s.
7. *Vurğun S.* Seçilmiş əsərləri: 5 cilddə, V c., Bakı: Şərq-Qərb, 2005, 264 s.
8. *Черникова Г.Ф.* Поэтика русского верлибра второй половины XX века: автореф. дисс. … канд. филол. наук. Астрахань, 2005, 20 с.
9. https://az.wikipedia.org/wiki/Sərbəst_şeir#cite_note-kitabxana.net-3
10. https://adalet.az/az/writers/detail/azerbaycan-sheiri2018-171624
11. http://www.anl.az/down/meqale/amea_fs/2021/01/766670(meqale).pdf
12. http://rasulrza.musigi-dunya.az/poemalar/qizilqul_olmayaydi.shtml

Redaksiyaya daxil olub 17.09.2024

Pedaqoji Universitetin Xəbərləri. Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası –2024, C.72, №3, s. 15-22
Transactions of Pedagogical University. Series of humanitarian, social, pedagogical and psychological sciences – 2024, V.72, №3, pp. 15-22

*UOT 82*

***H.M.Cəbiyeva***
*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*hulyajabiyeva1@gmail.com*

# ALMAS İLDIRIMIN MÜHACİRƏT HƏYATININ BƏZİ MƏQAMLARINA DAİR

https://doi.org/10.30546/170899876.72.03.2024.05

***Açar sözlər:*** *Almas İldırım, mühacirət həyatı, Elazığ, Malatya, Türk Milliyyətçilər Dərnəyi*

Almas İldırımın həyatının mühacirət illəri mühacirətəqədərki dövrü ilə müqayisədə çox az araşdırılmışdır. Bu mövzuda yazan müəlliflərin, əsasən, biri digərini müxtəlif formada təkrarladığını müşahidə edirik. Zaman-zaman şairin mühacirət həyatına dair yeni faktların meydana çıxması onun tərcümeyi-halının bu yöndən daha ətraflı araşdırılmasını zəruri edir.

Məqalədə şairin Türkiyədəki həyatının həm məlum, lakin səthi toxunulan, həm də az bilinən və elmi araşdırmalardan kənarda qalan bəzi məqamları barədə bəhs edilir. Belə ki, A.İldırımın II Dünya müharibəsində Almaniyanın mümkün zəfərini Azərbaycanın yenidən istiqlala qovuşması vasitəsi kimi görməsi, siyasi mühacirətimizin öndər simalarından Mirzə Bala Məhəmmədzadəyə yazdığı məktub (1941), Türk Milliyyətçilər Dərnəyində vəzifə tutması, teatral istedada malik olması, səhnə fəaliyyəti və s. məqamların araşdırılıb təqdim edilməsi şairin həyatının mühacirət dövrü barədə təsəvvürləri daha da dolğunlaşdırır, onun Türkiyədə sadəcə bədii yaradıcılıqla məşğul olmaqla qalmayıb, bir sıra sosial-mədəni, ictimai-siyasi fəaliyyətlərin də iştirakçısı olduğunu göstərir. Onu da qeyd edək ki, şairin sözügedən fəaliyyətləri onun poeziya və publisistikasında təbliğ və tərənnüm etdiyi ideyalarla səsləşmiş, biri digərini tamamlamışdır.

***Х.М.Джабиева***

# О НЕКОТОРЫХ ЭПИЗОДАХ ЖИЗНИ АЛМАСА ИЛДЫРЫМА В ЭМИГРАЦИИ

***Ключевые слова:*** *Алмас Илдырым, жизнь в эмиграции, Элязыг, Малатья, Кружок турецких националистов*

Годы жизни Алмаса Илдырыма в эмиграции изучены очень мало по сравнению с периодом до эмиграции. Мы видим, что авторы, пишущие на эту тему, в основном в различных формах повторяют друг друга. Время от времени появление новых фактов об эмиграционной жизни поэта заставляет рассмотреть его биографию более подробно с этой точки зрения.

В статье говорится о некоторых эпизодах жизни поэта в Турции, как известных, но затронутых поверхностно, так и малоизвестных и оставшихся за пределами научных исследований. Так, взгляд А.Йылдырыма на возможную победу Германии во Второй мировой войне как средства восстановления независимости Азербайджана, его письмо Мирзе Бале Махаммадзаде, одному из ведущих деятелей нашей политической эмиграции (1941 г.), занимаемой должности в Ассоциации турецких националистов, рассмотрение и представление сценической деятельности и других моментов еще больше обогащают представление о периоде жизни поэта в эмиграции, и это показывает, что он не только занимался художественным творчеством в Турции, но и участвовал в ряде общественно-культурных, общественно-политических мероприятий. Также отметим, что деятельность поэта в данных направлениях перекликалась с идеями, воспеваемыми им в его поэзии и публицистике, дополняли друг друга.

***H.M.Jabiyeva***

**SOME NUANCES ABOUT THE ALMAS ILDIRIM'S EMIGRATION LIFE**

***Keywords:*** *Almas Ildirim, emigrancy life, Elazıgh, Malatya, Turkish Nationalists Association*

Emigrancy period of the Almas Ildirim's life compared to his pre-emigrancy period have been researched insufficiently. Somehow the authors's works which were written about the theme of emigrancy are similar but different in their forms. While there appear new facts about the Poet's emigrancy life it necessitates the investigation of his biography in a wide spectrum.

The article deal with not only the facts about the Poet's life in Türkiye which are known yet superficially studied, but also those which are little-known and remained far away from the scientifical research. Thus, the Almas Ildirim's hope for Azerbaijan's regaining its liberty as a result of Germany's anticipated victory in the World War II, his letter written for one of the leading personalities in our political emigrancy such as Mirza Bala Mammadzadeh, his post in Turkish Nationalists Association, his theatrical talent and stage performances, the representation of the research and investigation of the other points enriches our knowledge about the Poet's emigrancy phase of life in Türkiye, simultaneously manisfesting the Poet's some socio-cultural or socio-political activity alongside his ongoing literary work. It should be noted that the Poet's so-called activities coincide with the ideas he described in his poetry and publicism. It should be noted that the Poet's so-called activities coincidence with the ideas he described in his poetry and publicism.

Almas İldırım haqqında araşdırmaların müəllifləri onun həyatının mühacirətəqədərki dövrünə nisbətən çox yer vermiş, mühacirət dövrü həyatı barədə təqdim etdikləri bilgilər isə zaman-zaman cüzi fərqlərlə bir-birini təkrarlamışdır. Şairin ilk ətraflı bioqrafiyası Feyzi Ağüzümün Almas

İldırımın "Seçilmiş şeirləri" [8] kitabında yer almış "Almas İldırımın hal-tərcüməsi" adlı yazısıdır. Bu yazı özündən sonrakı araşdırmalar üçün dəyərli bir mənbə rolunu oynamışdır. Belə ki, şair haqqında ilk sistemli monoqrafiyanın müəllifi akademik Bəkir Nəbiyev yazır: *"... F.Ağüzümün bioqrafik yazısından indiyədək A.İldırım haqqında Bakıda nəşr edilmiş istisnasız olaraq bütün məqalələrin müəllifləri faydalanmışlar. Şairin həyat yolu barədə bəzi əlavələri çıxmaq şərtilə, bütün müəlliflər A.İldırımın tərcümeyi-halına dair faktları təkrar etmişlər"* [4, s.19]. Biz də F.Ağüzümün şairin mühacirət dönəmi həyatına dair təqdim etdiyi faktların sonrakı araşdırmalar üçün faydalı olduğunu qeyd etməklə yanaşı, B.Nəbiyev və Ənvər Arasın da bu yöndəki tədqiqatlarının önəmini vurğulamağı özümüzə borc bilirik. Lakin zaman keçdikcə A.İldırımın mühacirət həyatına dair yeni faktların meydana çıxması onun elmi tərcümeyi-halının bu yöndən daha ətraflı araşdırılmasını zəruri edir. Biz bu məqaləmizdə şairin Türkiyədəki həyatının həm məlum, lakin səthi toxunulan, həm də az bilinən və elmi araşdırmalardan kənarda qalan bəzi məqamları barədə bəhs edəcəyik.

A.İldırım Türkiyədə yaşadığı müddət ərzində yalnız dövlət işlərində çalışmaqla və bədii-publisistik yaradıcılığını davam etdirməklə qalmamış, sosial çevrələrə qatılaraq bölgənin mədəni-maarif işlərində də fəallıq göstərmişdir. Bu barədə Ənvər Arasın "Xəzərdən Xəzərə Almas İldırım" kitabında [5] bəzi bilgilər yer almaqdadır. O, qeydlərində Elazığdan olan Mehmet Ərgönül adlı bir şairə istinadən, A.İldırımın müxtəlif təmsillər (burada: tamaşa – *H.C.*) tərtib etdiyini, hətta onun özünün də bu təmsillərdə rol aldığını vurğulamışdır [5, s.65-66]. Həmçinin müəllif şairin oğlu Azər Almasdan alınmış reportaja əsasən qeyd edir: *"Almas İldırımın oğlu Azər bəyin ifadəsinə görə, Ağında Azərbaycanın dünya çapında məşhur olan bəstəkarı, dramaturqu Üzeyir Hacıbəylinin "O olmasın, bu olsun" adlı tiyatro əsərini səhnəyə qoyar, öyrənci və öyrətmənlərlə birlikdə oyuna iştirak edər"* [5, s.66].

Biz bu barədə araşdırmaları daha da genişləndirərək deyə bilərik ki, A.İldırım 1934-cü ildə Elazığda açılmış Xalq evinin fəaliyyətində yaxından iştirak etmiş, bölgənin əhalisinin sosial-mədəni yönümdən inkişafına öz töhfəsini vermişdir. Təkcə Elazığda deyil, ölkənin bir sıra digər bölgələrində də açılan bu Xalq evləri əhalinin maariflənməsini, mədəni səviyyəsinin, dünyagörüşünün artırılmasını, cəmiyyətin daha faydalı fərdlərinə çevrilməsini hədəfləmişdir. Elazığ Xalq evinin tərkibində müxtəlif (dil, ədəbiyyat, tarix, təmsil, idman, nəşriyyat, kitabxana və s.) şöbələrin fəaliyyəti isə bu hədəflərə çatmağa xidmət edən əsas vasitələrdən olmuşdur. Belə ki, Yavuz Haykır yazır: *"Təmsil şöbəsi Elazığ və çevrəsindəki bölgə qadın və qızlarının sosial qalxınmalarını təmin üçün təmsillərə böyük önəm vermiş, 5 piyesi ikişər dəfədən on dəfə təmsil etmiş və 5000-dən fazla yurddaş bu təmsilləri iz-*

*ləmişdir"* [9, s.125]. A.İldırımın da iştirakçısı olduğu bu tip fəaliyyətlər, quruluş verdiyi əsərlər, müxtəlif tamaşalarda ifa etdiyi rollar Elazığın gənc türk nəslinin tərbiyələnməsi və maariflənməsi yolunda təqdirəlayiq bir addım olmuşdur. Bütün bunlar onun teatral istedada malik olduğunu da təsdiq edən faktlar kimi diqqəti çəkir.

Elazığ Xalq evi yaradılmasından 1 il sonra "Altan" adında dərgi buraxmağa başlamışdır. Dərginin əsas fəaliyyət istiqamətləri Elazığın ədəbi-mədəni, tarixi-coğrafi özəlliklərini əks etdirməklə yanaşı, bu bölgələrin zəngin və rəngarəng şifahi xalq yaradıcılığı incilərini tanıtmaq olmuşdur. Dərginin yazar heyəti içərisində Elazığda qısa müddətdə sayılıb-seçilən ziyalı kimi tanınmış A.İldırım da olmuşdur. Onun sözügedən yayım orqanında "İrəliləyən Elazizə", "Tunceli dağlarına", "Uzaqdakı soydaşlara çağırış" kimi şeirləri çap olunmuşdur ki, bu şeirlərdən sonuncusu Türkiyənin Cümhuriyyət bayramı münasibəti ilə yazılmışdır.

Qeyd edək ki, A.İldırım Türkiyədə yaşadığı zaman İkinci Dünya müharibəsi başlamışdı. Dövrün türkçüləri müharibənin tərəflərindən biri olan Almaniyaya xilaskar gözü ilə baxır, almanların sovetlər üzərində qələbə çalacağı təqdirdə, türk xalqlarının da yenidən öz müstəqilliklərinə qovuşacaqlarına, hər birinin öz hürr dövlətini quracaqlarına inam bəsləyirdilər. Mühacirətşünas alim N.Cabbarlının da doğru qənaətinə görə, "...II Dünya müharibəsi dövründə azərbaycanlı döyüşçülərin bir qismi könüllü olaraq almanların ruslara qarşı vuruşmaq üçün təşkil etdikləri milli birliklərə (legionlara) daxil olmuş və bu birliklərin tərkibində rus əsarətinə, bolşevizmə, totalitar sovet rejiminə qarşı rəşadətlə vuruşmuşlar. Milli birliklərə qoşulmuş soydaşlarımızın nəzərində düşmən faşist Almaniyası deyil, onların vətənini işğal edərək, üçrəngli bayrağını endirmiş, millətini əsarət altına almış bolşevik Rusiyası idi" [1, s.55]. A.İldırım da öz mübarizəsini almanların mövqeyində durmaqla aparırdı. Xeyli diqqətçəkən fakta nəzər yetirək. "Yeni Konya" qəzetinin yazarlarından, 1934-cü ildə Elazığa müəllim kimi təyinat alan, şairlə burada tanış olub dostlaşan Ramiz Arda "Xatirələrimin acı bir yarpağı: Bir dava adamı Almas İldırım" adlı xatirələrində A.İldırımın ona dediklərini çatdırır: *"Almanların Rusyaya saldırıb bir sel gibi irəlilədikləri zaman bir gün bana açıldı: Rusya gediyor, parçalanıyor, dedi, Almanyada, İstanbulda, İranda bulunan Azərbaycan türkləri hərəkətə keçdilər, həpimiz birlikdə Rusyaya sızaraq yurdumuza gedəcəyiz. Almanların hərəkətlərini təqib edəcək və içdən-içə çalışaraq müstəqil türk yurdları qurularkən işin başında bulunacağız, bən bu gün-yarın məktub bəkliyorum İstanbuldakı təşkilatımızdan"* [6, a: s.3]. A.İldırım bütün bunlardan R.Ardaya gizli şəkildə bəhs etmiş, övladlarını və yoldaşını özü ilə aparmağın ilk başda mümkün olmayacağını, onları Ardaya tapşırdığını, daha sonra ailəsini yanına aldıracağını demişdir. R.Ardaya görə, şairin söylədikləri

sadəcə boş vədlər deyildi; o, Məhəmməd Əmin Rəsulzadə və Mirzə Bala Məhəmmədzadəyə güvənirdi [6, a: s.3]. Lakin, təəssüf ki, 2 fevral 1943-cü il Stalinqrad döyüşündə almanların sovet qoşunlarına məğlubiyyəti ilə bir çox istiqlal mücahidi kimi, Almasın da Vətənin tezliklə əsarətdən qurtulub azadlığa qovuşacağı ilə bağlı gözləntiləri puç oldu. Baş verən bu olaydan bir müddət ciddi mənəvi sarsıntı keçirməsinə baxmayaraq, möhkəm iradəyə malik olan şair özünü toparlayıb gücünü səfərbər etmiş və yenidən qutsal mücadiləsini yürütmüşdü.

A.İldırımın İstanbulda yerləşən gizli təşkilat deyə bəhs etdiyi mərkəz, zənnimizcə, M.Ə.Rəsulzadə tərəfindən İstanbulda qurulan, əsas qayəsi sovet hakimiyyətini çökdürərək yenidən Azərbaycanı öz müstəqilliyinə qovuşdurmaq olan Azərbaycan Milli Mərkəzidir. Bu mərkəz öz ətrafında Azərbaycan Xalq Cümhuriyyətinin süqutu ilə fərqli-fərqli ölkələrdə mühacir həyatı yaşamağa məhkum olmuş vətəndaşlarımızı toplamışdır. Xatirədə A.İldırımın dilindən verilmiş bu tarixi faktlara, İstanbuldakı təşkilat məsələsinə və s. göstərdiyimiz mənbədən başqa heç bir yerdə rast gəlməmişik. Qeyd etdiklərimiz bir türkçü şair kimi, A.İldırımın başında ilk növbədə M.Ə.Rəsulzadənin durmuş olduğu Azərbaycan Milli Hərəkatının – Azərbaycan davasının bu və ya digər dərəcədə bir parçası olduğunun göstəricisidir. Şairin M.Ə.Rəsulzadə, M.B.Məhəmmədzadə kimi mühacirlərimizdən başqa, Ə.Cəfəroğlu ilə də əlaqəsi olduğunu A.Almasdan alınan müsahibələrin birindən öyrənirik. Ona atasının Azərbaycandan kimlərlə əlaqə qurduğu, məktublaşdığı barədə sual ünvanlanır. A.Almasın cavabı isə belədir: *“M.Ə.Rəsulzadə, Mirzə Bala, Ə.Cəfəroğlu. Mənim ağlımda qalan bunlar. Bunlar nədən ağlımda qaldı? Atam öldükdən sonra bən İstanbula oxumağa gəldiyimdə bunlar bana ikinci ata oldular”* [11].

A.İldırımın epistolyar irsindən yalnız Azərbaycan milli hərəkatının öncül simalarından Mirzə Bala Məhəmmədzadəyə 22.08.1940-cı ildə əski əlifba ilə türkcə yazdığı bir cavab məktubu son dövrlərdə ortaya aşkara çıxarılmışdır. Öncə, Mirzə Baladan məktub almasından dolayı çox sevindiyini, həyəcanlandığını ifadə edən şair daha sonra Malatyadakı həyat şəraiti, dolanışığının bir qədər çətin olması, səhhətinin pozulması, yeni vəzifəyə təyin olunmasının ailəsinin yaşamına müsbət təsirləri və s. haqqında məlumat verir. Bu baxımdan da şairin öz qələmi ilə yazılmış sözügedən məktub onun mühacirət həyatının müəyyən məqamlarına işıq salan əhəmiyyətli bir mənbədir. A.İldırımın *“Sizə vətəndən nasıl ayrıldığımız və qürbət ellərdə keçirdiyimiz günlər haqqında ayrıca yazacağım”* [3, s.20-21] deməsindən aydın olur ki, şair məktublarına davam edəcək və öz həyatı, başına gələn olaylar barədə daha təfsilatlı məlumat vermək fikrindədir.

A.İldırımın mühacirət dönəmi həyatına dair daha bir önəmli fakt onun Türk Milliyyətçilər Dərnəyi ilə bağlılığıdır. Qeyd etmək lazımdır ki, 1951-ci

ildə ilk olaraq Ankarada qurulan bu Dərnəyin 15 ay ərzində Türkiyənin müxtəlif bölgələrində 60 şöbəsi fəaliyyətə başlamış, A.İldırım da Dərnəyin Malatya şöbəsində vəzifə tutmuşdur. Bununla bağlı olaraq, "Demokrat Malatya" qəzetinin 1951-ci ilə aid 198-ci sayında Dərnəyin Malatya şöbəsinin açılış mərasimi ilə bağlı bir xəbər paylaşılmışdır. Həmin xəbərdə dərnək başqanının nitqindən sonra milli şeirlər oxunduğu, xüsusilə A.İldırımın "Kremlini yakacağım" şeirinin böyük alqışa səbəb olduğu ifadə edilmişdir [10, s.1]. Onu da qeyd edək ki, şair TMD-nin Malatya şöbəsində Heysiyyət divanı üzvlərindən biri kimi fəaliyyət göstərmiş, dərnəyin ölkə ərazisində təşkilatlanmasına öz xidmətlərini göstərmişdir. Onun həmin vəzifəyə seçilməsi xəbərini "Məfkurə" qəzetindəki "Dərnəyimizin Malatya və Kırıkkale Şöbələri Ümumi Heyət Toplantıları: Malatya" adlı xəbərdən öyrənirik. Bu toplantı 25.11.1951 tarixində keçirilsə də, xəbəri 02.02.1952 tarixində dərc edilmişdir. Qəzetdən oxuyuruq: *"Heysiyyət divanına Almas İldırım, Musa Diltəmiz, Zülfikar İnanç, Əkrəm Kağızmanlı, İsmail Yardım, Mövlud Oğuz seçildilər"* [7, s.2].

Türk milliyyətçiliyini yüksək səviyyəyə qaldırmaq, türk milliyyətçilərini təşkilatlandıraraq onları vahid bir çevrədə toplamaq, türklər arasında milli birlik ideyalarını yaymaq, cəmiyyətdə baş verən haqsızlıqlara qarşı mübarizə aparmaq, yeni nəsil türk gənclərini əsl türk milliyyətçiləri kimi görə bilmək Türk Milliyyətçilər Dərnəyinin qurulma məqsədlərindəndir. Belə bir mühüm amal uğrunda fəaliyyət və mübarizəsinə baxmayaraq, TMD çox qısa bir müddət sonra – 1953-cü ildə qapadılmışdır.

A.İldırımın həyatı ilə bağlı daha bir əhəmiyyətli məsələ onun 3 May 1944-cü il "İrqçilik–Turançılıq" davası adlanan siyasi olaydakı rolu ilə bağlıdır ki, biz bu məsələyə ayrıca müstəqil bir məqalə həsr etdiyimizdən bu araşdırmamızda toxunmağı məqsədəuyğun saymadıq.

A.İldırımın Türkiyənin Elazığ, Tunceli, Malatya vilayətlərinin bir sıra ilçə və nahiyələrinin dövlət idarələrində müxtəlif məsul vəzifələrdə çalışması bəlli faktlardır. Onun həmin vəzifələrin icrasına vicdanla yanaşması isə R.Ardanın yuxarıda bəhsi keçən xatirə yazısında xüsusi vurğulanır. Bu yazı A.İldırımın mücadiləsinin qayəsini düzgün müəyyən etməsi və onun bir sıra şəxsi keyfiyyətlərini əks etdirməsi, dövlət qulluqçusu kimi sənədli obrazını yaratması baxımından çox əhəmiyyətlidir və oxuculara şairi daha yaxından tanıdır. O, doğru qənaətə gələrək, şairin yeganə və müqəddəs qayəsinin Azərbaycanı müstəqil görmək olduğunu qeyd edir: *"Yer üzündə onun qədər çocuq, ailə, yiyəcək, giyəcək, istiqbal əndişəsindən uzada bir insana rastlamadım. Bir tək şey var: Sadəcə vətənin hürriyyətə qovuşması. Müstəqil Azərbaycan!..."* [6, b: s.3]. R.Arda daha sonra A.İldırımın Ağında nahiyə müdiri vəzifəsinə təyin edilməsinin yerli əhali arasında birmənalı qarşılanmadığını, barəsində müxtəlif fikirlər yürüdüldüyünü, söz-söhbətlər

gəzdiyini bildirir, ardınca bunları da əlavə edir: *“Yalnız şu cəhəti kəsin olaraq bəlirtmək faydalı olur ki, o, Ağın’da qaldığı dörd il içində heç kimsənin könlünü qırmadı, kimsəyi incitmədi. Bunun da səbəbi bəsit: O, bir idarə adamı olmaq için yaradılmamışdı, kimsəyə bağırmadığı gibi, qaşını belə çatmazdı. O sadəcə qayə adamıydı; kəndi qayəsinin adamı; ondan ötəsi onu bəlki iligləndirməzdi belə!...”* [6, b: s.3].

Bəli, R.Ardanın xatirələri bir daha onu təsdiq edir ki, A.İldırımdan ötrü tutduğu məsul vəzifə şəxsi firavanlığını təmin etmə, şöhrət, rəyasət vasitəsi deyil, özünə ikinci vətən bildiyi Türkiyəyə xidmət vasitəsi idi. O bir dava adamı idi, “Azərbaycan davası”nın, türklük mücadiləsinin adamı... Bu qayə uğrunda da yaşayıb-yaratdı, mücadiləsini sürdürüb əbədiyyətə qovuşdu. Bəzilərindən fərqli olaraq, heç zaman heç bir vəzifəsindən sui-istifadə etmədi. Dövlətə və onun vətəndaşlarına sədaqətlə xidmət etdi. Bu yoldan sapan məmurları da ifşa və rüsvay etməkdən çəkinmədi. Onun “Demokrat Malatya” qəzetində çap olunmuş tənqidi mahiyyətli şeirləri və publisistik yazıları da bu fikirlərimizin sübutudur. A.İldırım son dərəcə həssas, duyğusal, hər kəsə qarşı nəzakətli və diqqətli bir ziyalı olmuşdur. O, təkcə yaradıcılığında deyil, gündəlik həyatda da, dövlət qulluğunda da bu məziyyətlərə, sabit duruşa sadiq bir insan idi.

A.İldırım 14 yanvar 1952-ci ildə Malatyada vəfat etmişdir. Şairin İran sərhədində saxlanılan zaman yaşadığı işgəncələrin böyrəklərində qalıcı fəsadlar yaratması çox erkən – heç 45 yaşına çatmamış ölümünə səbəb olmuşdur. A.İldırımın vaxtsız vəfatı Azərbaycan mühacirətinin, onu yaxından tanıyan türkiyəli soydaşlarının, dostlarının dərin kədərinə səbəb olmuş, şairin dəfn mərasiminə bölgə əhalisinin müxtəlif təbəqələrini təmsil edən insanlar, sənətinin pərəstişkarları, habelə Malatya valisi başda olmaqla vilayətin dövlət idarələrinin qulluqçuları da qatılmışlar. O, Malatyada – Sancaqdar qəbiristanlığında böyük bir izdihamın müşayiəti ilə torpağa verilsə də, məzarı sonradan itib-batmış, axtarışlara baxmayaraq, tapılmamışdır. A.Almas bir müsahibəsində atasının qəbrinin dağıdılaraq üzərindən yol çəkildiyini söyləmişdir. Şairin nəvəsi, A.Almasın oğlu İldırım Rutil Almas isə babasının məzarının tapılması üçün Azərbaycan tərəfindən yardımlar edilərək Türkiyəyə heyət göndərildiyini, buna baxmayaraq, məzarın yerinin müəyyənləşdirilə bilinmədiyini təəssüflə qeyd edir: *“Azərbaycan dövləti Almas İldırımın məzarının tapılması ilə bağlı böyük işlər gördü. Azərbaycandan Türkiyəyə heyət göndərildi, Türkiyə hökumətinin də dəstəyilə axtarış aparıldı. Amma ovaxtkı qəbiristanlığın ərazisindən yol çəkiləndə bir çox məzar düzgün daşınmadı, itib-batdı. Sonra da güclü sel yuyub apardı. Nəticədə məzarlığın yarısı məhv olub. Biz Almas İldırımın məzarının tapılmamasının qəribə bir tilsiminin olduğuna inanırıq”* [2, s.80].

Araşdırmamızda A.İldırımın həyatının mühacirət dövrü barədə təqdim etdiyimiz faktlar onun Türkiyədə sadəcə bədii yaradıcılıqla məşğul olmaqla qalmayıb, bir sıra sosial-mədəni, ictimai-siyasi fəaliyyətlərin də iştirakçısı olduğunu göstərdi. Lakin bunu da qeyd edək ki, şairin sözügedən fəaliyyətləri onun bədii-publisistik yaradıcılığında təbliğ və tərənnüm etdiyi ideyalarla səsləşmiş, biri digərini tamamlamışdır. Məsələn, tamaşalarda yer almasında, pyeslər səhnələşdirməsindəki bacarığında onun ədəbiyyat adamı olması da, təbii ki, rol oynamışdır. Elazığ əhalisinin maariflənməsi üçün sərf etdiyi səylər isə türkiyəli qardaşlarımıza göstərdiyi diqqət və qayğının təcəssümü sayıla bilər. Digər tərəfdən, A.İldırımın II Dünya müharibəsində Almaniyanın zəfərinə bəslədiyi ümid, bu zəfəri vətəni Azərbaycanın yenidən istiqlala qovuşması vasitəsi kimi görməsi, siyasi mühacirətimizin öndər simalarından M.B.Məhəmmədzadəyə yazdığı məktub, Türk Milliyyətçilər Dərnəyində önəmli vəzifə tutması, adının "İrqçilik-Turançılıq" olaylarında hallanması və s. məqamlar şairin həyatının mühacirət dövrü barədə təsəvvürlərimizi daha da genişləndirir, onu sadəcə ədəbiyyat adamı kimi deyil, fəal ictimai-siyasi mövqeyi olan milliyyətçi ziyalı kimi təqdim etməyə əsas verir.

## ƏDƏBİYYAT


1. *Cabbarlı N.* Azərbaycan mühacirət nəsri. Bakı: Elm və təhsil, 2011, 138 s.
2. *Əhməd D.* Almas İldırım xatirələrdə. Bakı: XAN nəşriyyatı, 2017, 132 s.
3. *Əhməd D.* Almas İldırımın məktubu aşkarlandı // Birlik, 2016, № 1-2 (24), s.20-21
4. *Nəbiyev B.* Didərgin şair (İkinci nəşr). Bakı: XXI YNE, 2005, 120 s.
5. *Aras E.* Hazar'dan Hazar'a Elmas Yıldırım. Elazığ: Manas yayıncılık, 2007, 660 s.
6. *Arda R.* Hatıralarımın acı bir yaprağı: Bir dâva adamı «Elmas Yıldırım» // Yeni Konya. 1961-1962; a) 5 ocak 1962, sayı 4436, s.3; b) 6 ocak 1962, sayı 4437, s.3
7. Derneğimizin Malatya ve Kırıkkale şubeleri umumi heyet toplantıları // Mef kûre, 1952, 26 ocak, s.2
8. Elmas Yıldırım'ın seçilmiş şiirleri. Ankara: Azerbaycan Kültür Derneği, 1953, 78 s.
9. *Haykır Y.* Elazığ (Elaziz) Halkevi yayınları ve Altan dergisi // Türk Dünyası Araştırmaları Dergisi, 2007, sayı 171, s.121-162
10. Türk Milliyetçiler Derneğinin açılış merasimi // Demokrat Malatya. 1951, 23 ekim, s.1
11. https://video.azertag.az/video/52724


Redaksiyaya daxil olub 27.09.2024

Pedaqoji Universitetin Xəbərləri. Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası –2024, C.72, №3, s. 23-38
Transactions of Pedagogical University. Series of humanitarian, social, pedagogical and psychological sciences – 2024, V.72, №3, pp. 23-38

*UOT 82-09*

***Y.B.Dadaşlı***
*ADPU-nun Cəlilabad filialı*
*yadulla@mail.ru*

# SOVET DÖVRÜ AZƏRBAYCAN ƏDƏBİYYATŞÜNASLIĞINDA 1920-1930-CU İLLƏR MƏRHƏLƏSİNİN DÖVRLƏŞDİRİLMƏSİNİN İDEOLOJİ VƏ METODOLOJİ ƏSASLARI

https://doi.org/10.30546/170899876.72.03.2024.07

***Açar sözlər:*** *ədəbiyyat tarixi, ədəbiyyatın dövrləşdirilməsi, dövrləşdirmə konsepsiyaları, metodoloji əsaslar, ideoloji qüsurlar*

Sovet dövrü Azərbaycan ədəbi-nəzəri fikrinin aktual problemlərindən biri də ədəbiyyat tariximizin dövrləşdirilməsi ilə bağlıdır. Sövet dövründə fəaliyyət göstərən Azərbaycan alimləri ədəbiyyat tariximizlə bağlı müxtəlif dövrləşdirmə konsepsiyaları irəli sürmüşlər. Məqalədə F.Köçərli, B.Çovanzadə, Ə.Abid və başqa alimlərin Azərbaycan ədəbiyyatını dövrləşdirmə nəzəriyyələrinin əsas xüsusiyyətləri göstərilir. Məqalədən anlaşılır ki, bəzi tədqiqatçılar Azərbaycan ədəbiyyatını dövrləşdirərkən sovet siyasi rejiminin tələblərini əsas götürmüş, buna görə də ideoloji qüsurlara yol vermişlər. Azərbaycan Demokratik Respublikası dövrü ədəbiyyatının ayrıca mərhələ kimi götürülməməsi siyasi sistemin ədəbiyyat üzərinə qoyduğu qadağa ilə əlaqələndirilir. Ədəbiyyat tariximizin elmi əsaslarla yazılmasında yeni dövrləşdirmə konsepsiyasının yaradılmasının vacibliyi əsaslandırılır.

***Я.Б.Дадашли***

## ИДЕОЛОГИЧЕСКИЕ И МЕТОДОЛОГИЧЕСКИЕ ОСНОВЫ ПЕРИОДИЗАЦИИ ЭТАПА 1920-1930-х ГОДОВ В АЗЕРБАЙДЖАНСКОМ ЛИТЕРАТУРОВЕДЕНИИ СОВЕТСКОГО ПЕРИОДА

***Ключевые слова:*** *история литературы, периодизация литературы, концепции периодизации, методологические основы, идеологические изъяны*

Одна из актуальных проблем азербайджанской литературно-теоретической мысли советского периода связана с периодизацией нашей литературной истории. Азербайджанские учёные, работавшие в советский период, выдвигали различные концепции периодизации относительно нашей литературной истории. Из статьи видно, что некоторые исследователи при периодизации азербайджанской литературы взяли за основу требования советского политического режима, поэтому допустили идеологические ошибки. Непринятие литературы периода Азербайджанской Демократической Республики как отдельный этап связано с запретом,

наложенным политической системой на литературу. Обоснована важность создания новой концепции периодизации в написании истории нашей литературы на научной основе.

***Y.B.Dadashli***

**IDEOLOGICAL AND METHODOLOGICAL BASES OF PERIODIZATION OF THE 1920-1930S STAGE IN AZERBAIJANI LITERARY STUDIES OF THE SOVIET PERIOD**

***Keywords:*** *literary history, periodization of literature, concepts of periodization, methodological bases, ideological flaws*

One of the pressing issues of Azerbaijani literary and theoretical thought of the Soviet period is related to the periodization of our literary history. Azerbaijani scholars who worked in the Soviet period put forward various concepts of periodization regarding our literary history. It is evident from the article that some researchers took the requirements of the Soviet political regime as a basis for the periodization of Azerbaijani literature, and therefore made ideological mistakes. The failure to accept the literature of the period of the Azerbaijan Democratic Republic as a separate stage is related to the ban imposed on literature by the political system. The importance of creating a new concept of periodization in writing the history of our literature on a scientific basis is substantiated.

Bütün türk–müsəlman Şərqində ilk müstəqil dövlət olan Azərbaycan Xalq Cümhuriyyətinin 1920-ci ilin aprel ayının 28-də Sovet Rusiyasının XI Qırmızı Ordusu tərəfindən çökdürülməsi sosial-siyasi həyatda olduğu kimi, ədəbi-mədəni mühitdə də əsaslı dəyişikliklərin yaranması ilə sonuclandı. Sovetlər Birliyi dönəmində Azərbaycan ədəbiyyatının ayrı-ayrı klassikləri haqqında yazılan elmi-tədqiqat əsərlərində və ədəbiyyat tarixlərində araşdırılan problemə və dövrləşdirilmə konsepsiyasına milli maraqlar baxımından deyil, ideoloji yönümdə yanaşılması siyasi rejimin ədəbiyyat siyasətindən irəli gəlirdi. Sovet siyasi rejimi Sovetlər birliyinə daxil olan ölkələrdə olduğu kimi, Azərbaycanda da ədəbiyyatdan öz ideoloji tələblərinə uyğun istifadə etməyə çalışırdı. Buna baxmayaraq, iyirminci əsrin əvvəllərində Azərbaycanın realist və romantik ədibləri, o cümlədən mollanəsrəddinçilər və füyuzatçılar istibdada, mənəvi əsarətə qarşı amansız mübarizə aparır, Vətənimizin azadlığı, ana dilimizin təmizliyi, xalqımızın milli şüurunun oyanması, azərbaycançılıq və türkçülük ideologiyasının aşılanması uğrunda çarpışırdı. Göstərilən problemlər XX yüzillik Azərbaycan ədəbi-nəzəri və estetik fikrinin qaynaqlarını yaradan Firidun bəy Köçərli, Abdulla Sur, Yusif Vəzir Çəmənzəminli, Əmin Abid, Əli Nazim, Bəkir Çobanzadə, Hənəfi Zeynallı kimi ədəbiyyatşünas alimləri də düşündürür, onların estetik amalına çevrilirdi. Onları düşündürən və narahat edən başlıca problemlərdən

biri də Azərbaycan ədəbiyyatı tarixçiliyi elminin yaradılması ilə bağlı idi. Azərbaycan ədəbiyyatşünaslığı və estetik fikir tarixində çox böyük xidmətləri olan görkəmli pedaqoq, tənqidçi və ədəbiyyat tarixçisi kimi məşhurlaşan Firidun bəy Köçərli "Azərbaycan tatarlarının ədəbiyyatı" adlı kitabını 1903-ci ildə Tiflisdə rus dilində nəşr etdirmiş, bununla da milli ədəbiyyat tarixçiliyinin əsasını qoymuşdur. Akademik Bəkir Nəbiyev (1930-2012) "Firidun bəy Köçərli" (1984) monoqrafiyasında yazırdı: "Azərbaycan tatarlarının ədəbiyyatı" adlı həmin kitabında Köçərli ədəbiyyatımızın tarixini bütövlüklə əhatə edə bilməsə də, Vaqif dövründən başlayaraq realist ədəbiyyatımızın qisa icmalını vermiş, özünün əsas tədqiqat obyekti kimi Vaqif, Zakir, Axundov, S.Ə.Şirvani, N.Vəzirov, Ə.Haqverdiyev xəttini götürmüş, M.F.Axundov realizminin xüsusiyyətləri üzərində müfəssəl dayanmışdı" (12, s.103). Bu kitab F.Köçərliyə böyük şöhrət gətirmiş, "ərbabi-qələm"in, "maarifpərvər ədib"lərimizin" xahişlərini nəzərə alan ədib yaradıcılıq axtarışlarını davam etdirərək, "öz ana dilimizdə milli ədəbiyyatımıza dair bir kitab tərtib" etməyi qərarlaşdırmışdır. F.Köçərlinin on illik elmi tədqiqatları əsasında ərsəyə gələn, 1925-1926-cı illərdə iki cilddən ibarət nəşr olunan "Azərbaycan ədəbiyyatı tarixi materialları" kitabı 128 sənətkarın həyat və yaradıcılığını, əsərlərindən nümunələri çevrələyir, Azərbaycan ədəbiyyatının varlığını təsdiqləyir. Eyni zamanda özündən sonrakı dövrün ədəbi və estetik fikrini istiqamətləndirirdi.

Azərbaycan ədəbiyyatı tarixinin öyrənilməsində Abdulla Surun (1883-1912) da mühüm xidmətləri vardır. O, "Füzuliyə bir nəzər" məqaləsində dahi Azərbaycan şairi Məhəmməd Füzulinin həyat və yaradıcılığı haqqında ətraflı məlumat vermiş, "Nəfiyə bir nəzər" məqaləsində isə şairin ədəbi irsini təhlil obyektinə çevirmişdir. Azərbaycan ədəbiyyatı tarixinə aid elmi əsər yazmağı qarşısına məqsəd qoyan A.Surun bu gün fraqmentləri əlimizdə qalmış "Türk ədəbiyyatına bir nəzər" əsəri öz dövrünün ədəbiyyat tarixləri içərisində xüsusi çəkiyə malikdir. Bununla yanaşı, görkəmli yazıçı və ədəbiyyatşünas alim Yusif Vəzir Çəmənzəminli də Azərbaycan ədəbiyyatı tarixini yazmağı qarşısına məqsəd qoymuş, "Azərbaycan ədəbiyyatına bir nəzər" əsərini yazmaqla milli ədəbiyyat tariximizin qaynaqlarından birini yaratmışdır. Qarşıda ədəbiyyat tariximizin yaradılması problemi dayanırdı. Onu da xatırlatmaq lazımdır ki, 1920-ci ilin əvvəllərində ali məktəb tələbələrinin təhsil alması üçün hələ də Azərbaycan ədəbiyyatı tarixi dərsliyinin ortada olmaması o dövrün pedaqoq və ədəbiyyat xadimlərini ciddi düşündürürdü. O zaman Azərbaycan Xalq Maarif Komissarlığının qarşısında duran əsas problemlərdən biri də ali məktəb müəllim və tələbələrinin mənəvi ehtiyaclarını ödəmək üçün Azərbaycan ədəbiyyatı tarixinə dair dərsliyin yazılması və nəşri məsələsi idi. 1920-ci illərin əvvəllərində Azərbaycan ədəbiyyatı tarixinə dair iki əsərin əlyazması qalmışdı ki,

bu əsərlərdən biri Hüseyin əfəndi Qayıbovun (1830-1917) "Azərbaycanda məşhur olan şüəranın əşarına məcmuədir" toplusu, digəri isə Firidun bəy Köçərlinin "Azərbaycan ədəbiyyatı tarixi materialları" əlyazma kitabı idi. Hər iki əsər müəlliflərinin maddi imkansızlığı səbəbindən vaxtında nəşr olunmamışdı. Respublika Maarif Komissarlığını bu əsərlərdən hansının elmi-pedaqoji baxımdan nəşrinin zəruriliyi məsələsi ciddi düşündürürdü. O zaman xalq maarif komissarı Mustafa Quliyev (1893-1937) hər iki əsərin əlyazmasını bir neçə yazıçı və pedaqoqa vermiş, bu əsərlərdən hansını Azərbaycan ədəbiyyatı tarixi səviyyəsində çap etməyin daha məqsədəuyğun olduğu haqqında öz rəylərini bildirməyi məsləhət görmüşdür. Görkəmli yazıçı, dramaturq və pedaqoq Abdulla Şaiq (1881-1959) də başda olmaqla yazıçı və pedaqoqlar F.Köçərlinin əsərinin nəşrini zəruri sayırlar. Beləliklə, Azərnəşr əsəri 1925-1926-cı illərdə "Azərbaycan ədəbiyyatı tarixi materialları" adı altında iki cild, dörd hissədə çapdan buraxır. Elmi-nəzəri müqəddiməsi, şairlərin yaşadığı ərazi haqqında tarixi-coğrafi məlumat verməsi, onların həyat və yaradıcılıqları ilə bağlı oçerk və annotasiyalar salınması, zəngin poetik irsin geniş yer alması, tərtibat zamanı coğrafi və xronoloji prinsiplərin gözlənilməsi və başqa xüsusiyyətləri F.Köçərlinin kitabına üstünlük qazandırmış, bu kitabı milli ədəbiyyat tarixi səviyyəsinə qaldırmışdır. Odur ki, "Azərbaycan ədəbiyyat tarixi materialları"nın müəllim və tələbələrin mənəvi ehtiyacını ödəyən bir dərslik olduğunu nəzərə alaraq, yazıçı və pedaqoqların bu əsərin nəşrini zəruri saymalarını təbii hal hesab etmək lazımdır.

Elmi və ədəbi qaynaqlardan məlumdur ki, 1903-cü ildən etibarən Azərbaycanın müstəqil dil və ədəbiyyatını meydana çıxarmaq üçün ədəbi məlumat və materiallar toplayan Salman Mümtaz (1884-1941) 1925-1928-ci illərdə Molla Pənah Vaqif, Qasım bəy Zakir, Seyid İmadəddin Nəsimi və başqa Azərbaycan ədəbiyyatı klassikləri haqqında yazdığı məqalələri "Azərbaycan ədəbiyyatı" silsiləsi biçimində nəşr etdirlmiş, orta yüzilliklər ədəbiyyatımızın qaynaqlarını yaratmışdır. Düzdür, Azərbaycan ədəbiyyatı tarixini yazmaq üçün ədəbi şəxsiyyətlərin bioqrafiyası və yaradıcılığını tədqiq etməyin zəruriliyinə diqqət yönəldən alim milli ədəbiyyat tarixi yazmadığından, təbiidir ki, dövrləşdirmə də aparmamışdır.

XX əsrin 20-ci illərində Azərbaycan ədəbiyyatı tarixinin dövrləşdirilməsi konsepsiyası görkəmli türkoloq alim Bəkir Çobanzadənin (1893-1937) ədəbi-nəzəri görüşlərində mühüm yer tuturdu. O, xüsusilə "Son dövr Krım-tatar ədəbiyyatı tənqid təcrübələri" (1928) və "Türk dili və ədəbiyyatının tədris üsulu" (1926) monoqrafiyalarında ədəbiyyat tarixçiliyi, ədəbiyyat tarixinin dövrləşdirilməsi prinsipləri, ədəbiyyat tarixi üsulları məsələlərinə geniş yer ayırmışdır. B.Çobanzadə çox yaxşı bilirdi ki, ədəbi fikri düzgün dövrləşdirmədən, onun tərtib pirinsiplərini müəyyənləşdir-

mədən ədəbiyyat tarixini obyektiv işıqlandırmaq mümkün deyildir. B.Çobanzadə “Azəri ədəbiyyatının yeni dövrü. Nasionalizmdən internasionalizmə” (1930) monoqrafiyasında yazırdı: “Azəri ədəbiyyatının tarixi hər ədəbiyyatın olduğu kibi, müxtəlif məsələlərə dayir ayrı-ayrı tədkiklər, monoqrafilər meydana gətirilmədikcə yaradıla bilməz. Bu kibi hazırlık işi yapılmadan ortaya çıkacak əsərlər əski Şərk bicimində yazılmış təzkirələrdən daha dərin, daha yüksək ola bilməz” (6, s.4). Göründüyü kimi, B.Çobanzadə ədəbiyyat tarixinin yazılmasında üstünlüyü çox doğru olaraq dövrləşdirmə konsepsiyasına verirdi ki, bu da alimin elmi-metodoloji baxışlarını şərtləndirən amillər sırasındadır.

B.Çobanzadə ədəbiyyat tarixini dövrləşdirmənin elmi-nəzəri və metodoloji əsaslarını ilk öncə “Son dövr Krım-tatar ədəbiyyatı tənqid təcrübələri” əsərində aparmışdı. Alim bu qənaətə gəlmişdir ki, türk-tatar xalqlarının islamdan əvvəlki dövrlərdən başlayaraq miladi yeddinci əsrə qədər iki “dürlü ədəbiyyatı” olmuşdur. Bunlardan biri “xaqanların və tekinin (prinsin) ifadə aləti” olan Orxon kitabələri, digəri isə “qara kamık-qara xalq”ın yaratdığı ağız ədəbiyyatıdır. Alim islamdan sonra türk-tatar xalqlarının yaratdığı ədəbiyyatı üç dövrə bölür: a) Saray ədəbiyyatı ; b) Dini, yaxud mövlud ədəbiyyatı ; c) Son dövr ədəbiyyatı. B.Çobanzadə “Son dövr ədəbiyyatı” deyərkən 1905-ci ildən sonra yaranan ədəbiyyatı nəzərdə tutur, bu dövrü iki mərhələyə ayırır: a) 1905-1917 və b) 1920-1927-ci illər ədəbiyyatı (6, s.19-20).

B.Çobanzadənin türk-tatar xalqlarının ədəbiyyatını islam faktoru əsasında dövrləşdirməsi, bu xalqların ədəbiyyatını islamdan əvvəlki və islamdan sonrakı dövrlərə ayırması bu gün faktiki olaraq özünü doğrultmur, çünki ədəbi fikrin dövrləşdirilməsi konsepsiyasının islam faktoruna əsasən aparılması metodoloji baxımdan da yanlışlıq hesab olunur.

Bəkir Çobanzadə “Türk dili və ədəbiyyatının tədris üsulu” əsərinin “ikinci qisim”ində türk-tatar ədəbiyyatının dövrləşdirilmə konsepsiyasının elmi-nəzəri və estetik prinsiplərini də işləyib hazırlamışdır. Alim çox doğru olaraq bu qənaətə gəlmişdir ki: “Bizim ədəbiyyatı və onun inkişafını anlamamıza bağlı olaraq, bu dövrlər dürlü-dürlü ola bilər, digər tərəfdən, ədəbiyyatın məntiqi və elmi bir tərzdə dövrlərə bölünməsi onun inkişaf və təkamül cəhətindən asanca anlaşılmasını və tədris edilməsini intaz edir” (8, s.251). Alim türk-tatar xalqları ədəbiyyatının dövrləşdirilməsi məsələsi ilə bağlı V.N.Perets, R.Meyer, M.F.Köprülüzadə, Kummer, V.M.Friçe, Sakulin, Qordlevski kimi rus, türk və Avropa alimlərinin elmi konsepsiyalarını təhlil süzgəcindən keçirir və obyektiv dəyərləndirir. O, ədəbiyyatı dövrləndirmənin birinci üsulu olaraq “təqvimi” (xronoloji) prinsipi götürür, Riçard Meyer kimi Avropa ədəbiyyatçılarının elmi dövrləşdirmədə xronoloji prinsipə əsaslanmalarına haqq qazandırır. Rus ədəbiyyatşünaslarının sovet

dövrü rus ədəbiyyatını “otuzuncu illər”, “qırxıncı illər” mərhələlərinə ayırmasını da razılıqla qarşılayır və bu məqamda rus və Avropa alimləri ilə birləşir. B.Çobanzadə ədəbiyyat tarixini həm üfüqi, həm də şaquli istiqamətlərdə araşdırmağı zəruri hesab edir. Alim üfüqi istiqamət dedikdə, Azərbaycan ədəbiyyatını türk xalqları ədəbiyyatının tərkib hissəsi kimi öyrənməyi məsləhət görür. Şaquli istiqamət dedikdə isə “türk ədəbiyyatının da özünəməxsus təbəqələri olduğu”nu nəzərdə tutur. B.Çobanzadə “geniş sahədə doğan və inkişaf edən” Azərbaycan ədəbiyyatının “özunəməxsus dövrləri” olduğunu qeyd-şərtsiz qəbul edir, lakin “indiyə qədər yazılmış olan Azərbaycan ədəbiyyatı tədqiqinə aid ayrı əsərlər”ə rast gəlməməsinə təəssüflənirdi. Göründüyü kimi, Bəkir Çobanzadənin türk-tatar xalqlarının ədəbi fikrini dövrləşdirmə konsepsiyası düzgün metodoloji əsaslardan qaynaqlanırdı. Görkəmli ədəbiyyatşünas alim və tənqidçi Təyyar Salamoğlu “Bəkir Çobanzadə” məqaləsində türkoloq alimin ədəbiyyat tarixini dövrləşdirmə konsepsiyasını düzgün dəyərləndirərək yazır: “B.Çobanzadənin ədəbiyyat tarixini ümumtürk ədəbiyyatı kontekstində tədqiq və dövrləşdirmə siyasəti təpədən-dırnağa millіliklə türkçülüyün vəhdətindən güc alırdı” (14, s.133). Bu dəyərli qiymət Bəkir Çobanzadənin türkçülük ideologiyası ilə silahlanmış milli düşüncəli bir sənətkar olduğunu bir daha təsdiqləyir.

Türkiyənin elmi-nəzəri və estetik fikir tarixində görkəmli filoloq, ədəbiyyat tarixçisi kimi şərəfli yer tutan professor Məhəmməd Fuad Köprülü (1890-1966) təkcə türk ədəbiyyatı tarixinə aid deyil, eyni zamanda Azərbaycan ədəbiyyatı tarixinə dair də tədqiqatlar aparmışdır. Bu tədqiqatların səmərəli nəticəsi olaraq “Azəri” (2000) və “Azəri ədəbiyyatına aid tədqiqlər” (1926; 1996) əsərləri meydana çıxmışdır. “Azəri” monoqrafiyasında alim Azərbaycan ədəbiyyatının təşəkkülü və inkişaf mərhələlərini xronoloji prinsip əsasında aparmış, görkəmli sənətkarlar haqqında yığcam məlumatlar vermişdir. M.F.Köprülü Azərbaycan ədəbi fikrini dövrləşdirərkən sülalə adları prinsipini əsas götürmüş, tarixilik prinsipini gözləməklə yanaşı, müəyyən əsrləri dövlətlərin adları ilə adlandırmışdır. O, XII-XIV əsrləri “İlxanilər və Cəlayirilər dövrü”, XV əsri “Qaraqoyunlu və Ağqoyunlular dövrü”, XVI-XVIII əsrləri “Səfəvilər dövrü”, XVII-XIX əsrləri “Əfşarlar, zəndlər və qacarlar dövrü” biçimində araşdırmış, bu dövrlərin tarixi və ədəbi şəxsiyyətlərini tanıtmışdır. M.F.Köprülü XIX-XX əsrləri “Azəri ədəbiyyatında yeniləşmə dövrü” kimi səciyyələndirmiş və iki dövrə ayırmışdır. XIX əsrin əvvəllərindən 1905-ci ilə kimi mərhələni birinci dövr, 1905-1920-ci illər mərhələsini isə ikinci dövr kimi xarakterizə etmişdir. M.F.Köprülünün milli ədəbiyyat tariximizi dövrləşdirmə konsepsiyası elmi dəyərini bu gün də saxlayır.

Mühacir həyatı yaşamaq məcburiyyətində qalan, doğma yurd-

yuvasından didərgin salınan dünya şöhrətli türkoloq və ədəbiyyatşünas alim Əhməd Cəfəroğlu (1899-1975) da Azərbaycan tarixi, folkloru, dilçiliyi və ədəbiyyatına dair tədqiqatlar aparmışdır. O, "Azərbaycan türklərinin ədəbiyyatı" əsərində milli ədəbi-bədii irsimizin "Kitabi-Dədə Qorqud"dan başlayan tarixi inkişaf yolunu aydınlaşdırmış, Qətran Təbrizi, Xaqani Şirvani, Məhsəti Gəncəvi, Xətib Təbrizi, Nizami Gəncəvi kimi qüdrətli şairlərin adlarını çəkmişdir. Alim Azərbaycan ədəbi və estetik fikir tarixini "XV-XVI əsrlər ədəbiyyatı", "XVII-XVII əsrlər ədəbiyyatı" (bu dövrün ədəbiyyatı iki hissəyə ayrılır: aşıq ədəbiyyatı, klassik ədəbiyyat), "XVIII əsr ədəbiyyatı" və "müasir Azərbaycan ədəbiyyatına keçid dövrü" mərhələlərinə ayırmış, hər əsrin ictimai-siyasi hadisələri və görkəmli sənətkarlarının ədəbi fəaliyyətini işıqlandırmışdır.

Azərbaycan hökumətinin dəvəti ilə Azərbaycana gələn, 1923-1927-ci illərdə müxtəlif ali təhsil ocaqlarında elmi-pedaqoji fəaliyyət göstərən İsmayıl Hikmət Ərtaylan (1889-1967) türk və Azərbaycan ədəbiyyatı tarixinə dair uzun illər elmi tədqiqatlar aparmış, nəticədə dörd cilddən ibarət "Türk ədəbiyyatı tarixi" (1925-1926) və iki cildlik "Azərbaycan ədəbiyyatı tarixi" (1928) monoqrafiyaları Bakıda nəşr olunmuşdur. "Azərbaycan ədəbiyyatı tarixi" zəngin elmi və bədii qaynaqlar əsasında yazılmış, "islamiyyətin zühurundan miladın on səkkizinci əsrinə qədər"ki bir dövrü çevrələmişdir. Orta əsrlər (XIII-XVII əsrlər) ədəbiyyatımızın öyrənilməsində ilk sistemli tədqiqat olan bu əsərdə də milli ədəbi fikrimizin mərhələ təsnifi ilə rastlaşırıq. Belə ki, orta yüzillər Azərbaycan ədəbiyyatını araşdırmağı qarşısına məqsəd qoyan İ.Hikmət tarixi dövrü üç mərhələyə ayırır. İslamiyyətdən miladi on üçüncü əsrə qədərki mərhələni "Qövmi cərəyan" adlandırır və burada şərqilər, hekayələr, oyunlar, rəqslər, şeytaniyyat (mifologiya) haqqında məlumat verir. Miladi on üç-on dördüncü əsrləri "Dini cərəyan" adlandırır, Həsənoğlu, Qazi Bürhanəddin və İmadəddin Nəsiminin həyat və yaradıcılığını səciyyələndirir. Kitabın "Üçüncü qisim"ində Hamidi, Xəlili, Həbibi, Kişvəri və başqa şairlərdən danışır və bu mərhələni "Elmi cərəyan" kimi xarakterizə edir. Xatırlatmaq lazımdır ki, İ.Hikmət 1920-ci illərin ortalarında-siyasi rejimin hökmranlıq etdiyi bir dövrdə Azərbaycanda elmi-pedaqoji fəaliyyətlə məşğul olduğuna rəğmən, kommunist ideologiyasından tamamilə uzaq olmuş, "Azərbaycan ədəbiyyatı tarixi" kitabını millilik və türkçülük düşüncəsində qələmə almışdır.

Müasirlik baxımından yanaşdıqda açıq-aydın görünür ki, sovet ədəbiyyatı tarixinin bədii ədəbiyyatın öz inkişaf qanunauyğunluqları əsasında deyil, sovet siyasi rejiminin tələbləri, sovet cəmiyyətinin inkişaf xüsusiyyətlətləri əsasında dövrləşdirilməsi prinsipi ideoloji faktora əsaslanıldığından özünü doğrultmur və tənqidlə qarşılanır. Çox təəssüf ki, sovet dövrü Azərbaycan ədəbiyyatı tarixinin dövrləşdirilməsi zamanı da

ideoloji sapıntılara yol verilmişdir. Dövrləşdirmədə ideoloji faktorun əsas götürülməsi ədəbiyyat tariximizin də ideoloji əsaslarla yazılmasına, beləliklə, elmi həqiqətlərin pərdələnməsinə, həyat həqiqətlərinin sənət həqiqətlərinə çevrilməməsinə və metodoloji yanlışlıqlara gətirib çıxarır. Bu da maraqlıdır ki, 1920-ci illərdə ədəbiyyat tariximizin öyrənilməsi və yazılması sahəsində çalışan tədqiqatçı alimlər müxtəlif dövrləşdirmə konsepsiyaları irəli sürmüşlər. Nümunə olaraq deyək ki, XX yüzil Azərbaycan ədəbiyyatşünaslığının inkişafında böyük xidmətləri olan folklorşünas, ədəbiyyat tarixçisi və tənqidçi Əmin Abid (1898-1938) 1922-1926-cı illərdə İstanbul Universitetində təhsil alarkən “Azəri ədəbiyyatı tarixi” adlı elmi-tədqiqat əsərini yazıb qurtarmış, 1890-1925-ci illər ədəbiyyatımızın inkişaf özəllikləri, ədəbi şəxsiyyətlərin bioqrafiyası və fəaliyyəti haqqında orijinal mülahizələr irəli sürmüşdür. XX əsrin ilk onilliklərinin iqtisadi, ictimai-siyasi və ədəbi durumunu səciyyələndirən alim xalq ədəbiyyatı və klassik ədəbiyyat haqqında da məlumat vermişdir. Əsərin xronoloji prinsip əsasında yazıldığı açıq-aydın görünür. Müəllif əsərini üç qismə ayırmışdır. “Azəri ədəbiyyatı tarixi”nin yeddi bölümdən ibarət olan birinci qisminin birinci bölümündə “Həyat”, “İqbal”, “Açıq söz” qəzetləri və onların naşirləri olan Əli bəy Hüseynzadə, Haşım bəy Vəzirov və Məhəmməd Əmin Rəsulzadənin milli mətbuatımızın inkişafındakı xidmətləri araşdırılır. Əsərin ikinci bölümündə “Vətənpərvər şeir məktəbi”nin nümayəndələri olan Məhəmməd Hadi və Əlabbas Müznib, üçüncü bölümündə “Mizah ədəbiyyatı”nın əsas ədəbi simaları kimi tanınan Cəlil Məmmədquluzadə, Əli Nəzmi, Haşım bəy Vəzirov və Mirzə Ələkbər Sabir, dördüncü bölümündə Nəriman Nərimanovun və Sultan Məcid Qənizadənin nəsr yaradıcılığı, beşinci bölümündə “Tamaşa ədəbiyyatı” – Əbdürrəhim bəy Haqverdiyev, Üzeyir Hacıbəyli, Hüseyn Cavidin dramaturgiyası, altıncı bölümündə Abbas Səhhət və Abdulla Şaiqin “Çocuq ədəbiyyatı” nümunələri, nəhayət, yeddinci bölümündə Əhməd Cavadın poetik irsi araşdırılır. Kitabın səkkizinci bölümündə “Kommunizm dövründə fikri hərəkat”, “Kommunizm ədəbiyyatında nəsr”, “Kommunizm dövründə ictimai inqilab”, doqquzuncu bölümündə isə “İstiqlal və mücadilə ədəbiyyatı” məsələləri tədqiqata çəkilir. Sonuncu iki bölümdə 1920-1925-ci illərdə Azərbaycan ədəbiyyatının inkişaf xüsusiyyətləri təhlil olunur.

Ə.Abidin ədəbi irsinin tanınmış tədqiqatçısı, professor Bədirxan Əhmədli və Əli Şamil “Azəri ədəbiyyatı tarixi” kitabına yazdıqları “Ön söz”də əsərin elmi mahiyyətini yüksək dəyərləndirirlər: “Əmin Abidin bu əsərində icmallar və təhlillər əsasında ümumiləşdirmələr və qənaətlər əsas xətti təşkil edir. Bu da ədəbiyyat tarixinə və tarixçiliyinə yeni elmi yanaşmanı əks etdirirdi. Bununla Əmin Abid Azərbaycan ədəbiyyat tarixini bioqrafik ədəbiyyat tarixindən qurtarıb elmi ədəbiyyat tarixinə yönəltməyə

çalışırdı və müəyyən mənada buna nail olurdu” (1 , s.16).
XX əsrin 20-30-cu illərində Azərbaycan ədəbi-nəzəri və estetik düşüncəsinin qarşılaşdığı önəmli problemlərdən biri də ədəbiyyat tarixinin dövrləşdirilməsi ilə bağlı idi. Azərbaycan ədəbiyyatı tarixi elminin yaradılmasının son dərəcə zəruri olduğunu çox yaxşı anlayan B.Çobanzadə, Ə.Abid, A.Musaxanlı, Ə.Nazim kimi tanınmış tədqiqatçılar çox doğru olaraq bu qənaətə gəlmişlər ki, milli ədəbiyyat tarixçiliyinin elmi əsaslarla yaradılması birbaşa dövrləşdirmə konsepsiyasının elmi əsaslarla müəyyənləşdirilməsindən asılıdır. 1920-1930-cu illərdə Azərbaycan ədəbiyyatşünaslığı sahəsində səmərəli fəaliyyət göstərən Əli Nazim (1906-1941) 1926-cı ildə yazdığı “Ədəbiyyatımız haqqında” məqaləsində ədəbiyyat tariximizin elmi əsaslarla yazılmamasını təəssüf hissi ilə bildirir, yeni dövrləşdirmə konsepsiyasını irəli sürürdü. Alim yazırdı: “Azəri ədəbiyyatı tarixi hələ elmi bir surətdə öyrənilməmişdir, fəqət bu yolda yazılan bəzi tədqiqlərdən faydalanaraq Azəri ədəbiyyatını üç dövrəyə bölmək mümkündür: 1)Təşəkkül dövrü; 2)Klassizm dövrü və 3) Yeni dövr. Hər şeydən əvvəl bunu söyləməliyiz ki, bu dövr bölmələri qəti olmuyub, içində bir çok kiçik dövrləri vardır” (12).

Əli Nazim Azəri ədəbiyyatının təşəkkül dövrünün on birinci yüzildən başladığına, ayrı-ayrı zamanlarda bu ədəbiyyatı İraq, Qərbi Anadolu, Azərbaycan (Kafkasya və İran) və Xorasan ərazilərində məskunlaşan türklərin yaratdığına diqqəti yönəldir. Azəri ədəbiyyatının “İran-İslam mədəniyyətinin təsirinə düşmək nəticəsində” bir sıra inkişaf mərhələlərindən keçməsini açıqlayır. On doqquzuncu əsrin ikinci yarısından etibarən Azərbaycan ədəbiyyatının “yeni dövrünün başlanmasını Rusiyada kapitalizmin inkişafı dinamikası və xalqçılıq cərəyanının təsiri ilə əlaqələndirir. Məqalədən açıq-aydın görünür ki, Azərbaycan ədəbiyyatının “təşəkkül”, “klassizm” və “yeni dövr”lərə bölünməsi müəllifi razı salmamışdır. O, bu dövrlərin bir çox mərhələlərdən ibarət olması qənaətinə gəlmiş, dövrləşdirmənin yeni təsnifatını aparmışdır. Professor Nizaməddin Şəmsizadə “Azərbaycan ədəbiyyatşünaslığı” (1997) monoqrafiyasında Ə.Nazimin 1920-ci illər tənqidinin dövrləşdirilməsinin təsnifatını aşağıdakı şəkildə ümumiləşdirmişdir:

I dövr - XV əsrin sonu, XVI əsrin əvvəlləri. Klassik Azərbaycan ədəbiyyatının çiçəklənmə dövrü, “Qızıl əsr”; nümayəndələri: İ.Nəsimi, Həbibi, M.Füzuli, Ş.Xətai.

II dövr - XVIII əsr. Feodal ədəbiyyatı dövrü; əsas nümayəndələri: M.P.Vaqif, M.V.Vidadi.

III dövr - XIX əsr. Rus iqtisadi və burjua ziyalılığı - maarifçilik dövrü; əsas nümayəndələri: A.Bakıxanov, Q.B.Zakir, M.F.Axundov, H.Zərdabi, N.B.Vəzirov, N.Nərimanov, S.Ə.Şirvani.

IV dövr - XX əsr ədəbiyyatı. Tənqidçi bu dövrü üç ədəbi qrupa

ayırır:

1.Demokratik xalqçı-maarifçi qrup. Başda C.Məmmədquluzadə olmaqla "Molla Nəsrəddin" ədəbi məktəbi: M.Ə.Sabir, Ə.Haqverdiyev, Əli Nəzmi, M.S.Ordubadi, Ə.Q.Qəmküsar.

2. "Füyuzat" ədəbi məktəbi: M.Hadi, Əli bəy Hüseynzadə, Əhməd bəy Ağayev, H.Cavid.

3. Aralıq qrupu: Ə.A.Müznib, A.Səhhət, A.Şaiq.

V dövr - Sovet (proletar) ədəbiyyatı (15, s.359).

Göründüyü kimi, Əli Nazim Azərbaycan ədəbiyyatı tarixinin mərhələ təsnifatını apararkən sosial-tarixi prinsipə əsaslanmış, klassiklərin yaradıcılığına sinfilik nöqteyi-nəzərindən yanaşmış, ona görə də müəyyən vulqar-sosioloji birtərəfliliyə yol vermişdir. Lakin XX əsr Azərbaycan ədəbiyyatı dövrünü "Molla Nəsrəddin" ədəbi məktəbi və "Füyuzat" ədəbi məktəbi mərhələlərinə, başqa sözlə desək, realist və romantik ədəbi cərəyanlar mərhələlərinə ayırmaqla düzgün mövqe nümayiş etdirmişdir. O, sovet (proletar) ədəbiyyatı mərhələsini marksist ideologiya əsasında araşdırmağı, ədəbiyyatımızın marksist tarixinin yaradılması konsepsiyasını dəstəkləyəndə də yanlışlığa yol verirdi.

Orta təhsil pilləsi və texnikumların son üç sinfi üçün Hənəfi Zeynallı, Abdulla Şaiq, Atababa Musaxanlı, Cabbar Əfəndizadə tərəfindən yazılmış "Ədəbiyyatdan iş kitabı" dərsliyinin birinci hissəsi 1928-ci ildə Bakıda nəşr olunmuşdur. Dərslikdəki "Türk ədəbiyyatının inkişafı xüsusiyyətləri" məqaləsinin müəllifi Atababa Musaxanlıdır. Məqalə müəllifi türk ədəbiyyatının mənşəyini, tarixi təkamül prosesini və inkişaf xüsusiyyətlərini araşdırmağı qarşısına məqsəd qoymuşdur. Bu qərara gəlmişdir ki, "Türk ədəbiyyatı inkişafında müxtəlif məkan, vəziyyət və zaman xüsusiyyətləri nəzərə alınacaq olursa, bir-birinə bağlı və bir-birinə dəvət və təyin edən üç amil göstərmək mümkündür. Mühiti-coğrafi amil, tarixi-zamani amil və ictimai-mədəni amil (16, s.37). Müəllif bu amillərin "vahid istehsal prosesləri və münasibətləri" nəticəsində yaranması qənaətinə gəlməklə milli ədəbiyyatımızın təkamülü və inkişafını cəmiyyətin iqtisadi-sosial prosesləri ilə bağlayır və bununla da yanlışlığa yol verirdi. A.Musaxanlı "mühiti-coğrafi amil" dedikdə, tarixi şərait üzündən köçəri həyat keçirən, müəyyən coğrafi ərazilərdə yaşayan, ədəbi-bədii yaradıcılıqla məşğul olan və məhəlli ədəbiyyatlarını yaradan türk əhalisini nəzərdə tuturdu. Türk ədəbiyyatının yarandığı zamandan 1920-ci illərin ortalarına – "Ədəbiyyatdan iş kitabı"nın yazıldığı dövrə qədərki tarixi inkişaf yolunun xronoloji ardıcıllıqla izlənilməsi prosesinin əsasında tarixi-zamani amilin dayanması qənaətinə gəlirdi. Müəllif bu amilin ədəbiyyat tariximizin dövrlər və mərhələlər üzrə inkişafını şərtləndirdiyini önə çəkirdi. "Hələ də elmi yollarla işlənmiş mühüm bir ədəbiyyat tariximiz"in ortada olmamasını təəssüf hissi ilə bildirən

A.Musaxanlı türk ədəbiyyatının bir küll halında, bütövlükdə tədqiq olunması və ortaq türk ədəbiyyatı kontekstində yazılması fikrini irəli sürməklə görkəmli türk alimi M.F.Körpülüzadə ilə birləşirdi. A.Musaxanlı onu da çox yaxşı bilirdi ki, ədəbiyyat tariximizin elmi əsaslarla yazılması ədəbi-nəzəri fikrin dövr və mərhələ təsnifinin düzgün aparılmasından asılıdır. Ona görə də alim ədəbiyyat tariximizin elmi və xronoloji əsaslarla dövrləşdirilməsi məsələsinə böyük önəm verir, yeni dövrləşdirmə konsepsiyası irəli sürürdü. Lakin ədəbi hadisələrin, ədəbiyyatımızın marksizm, dialektik və tarixi materializm metodları əsasında tədqiq olunması qənaətini dövriyyəyə buraxanda birtərəfliliyə və yanlışlığa yol verirdi. Açıq-aydın yazırdı ki, "Ədəbiyyatdakı devrləri (və ya devrələri ki, bunun sahəsi daha geniş təsəvvür olunur) təyin üçün ən çok müvafik və marksistcə olaraq, əsas cəmiyyətin təsərrüfat formaları, dəyişməsi alınmalıdır" (16, s.41).

A.Musaxanlı marksist metodologiyaya əsaslanaraq Azərbaycan ədəbiyyatı da daxil olmaqla dövrləşdirmə prosesini ümumtürk ədəbiyyatı kontekstində aşağıdakı formada müəyyənləşdirir:

1.Feodalizmdən əvvəlki dövr (ibtidai cəmiyyət dövrü, aşirət cəmiyyəti dövrü, qövmi cəmiyyət dövrü);

2.Feodalist dövrü (təşəkkül, inkişaf və kamal dövrləri);

3.Kapitalist dövrü (ticarət, sənaye və maliyyə kapitalizmi dövrləri);

4.İnqilabi-yeni dövr (bugünkü şuralar cəmiyyəti (16, s.41).

Ədəbi məktəb və cərəyanlar məsələsinə münasibət bildirən A.Musaxanlı feodalizmdən əvvəlki dövrlərin ədəbiyyatını iki cərəyana ayırırdı: Xalq ağız ədəbiyyatı və xaqan yazı ədəbiyyatı. Şifahi xalq ədəbiyyatının müəyyən ərazilərdə məskunlaşan əhali tərəfindən, yazılı ədəbiyyatın isə xaqanlar, hökmdarlar tərəfindən yaradılması qənaətinə gəlməsi, cəmiyyətin siniflərə bölünməsi və hər sinfin öz ədəbiyyatını yaratması konsepsiyasını irəli sürməsi müəllifin ziddiyətli bir dünyagörüşünə malik olmasını bir daha təsdiqləyir. Feodal cəmiyyət quruluşunun kamal dövrünü saray aristokratiyası (klassik şərq ədəbiyyatı və dini ədəbiyyat) və xalq təbəqəsi (aşıq tərzi, təkyə ədəbiyyatı) üslublarına bölməsi də ədəbiyyata sinfi mövqedən yanaşmasından qaynaqlanırdı. Professor N.Şəmsizadə çox doğru olaraq yazır: Fikrimizcə, B.Çobanzadə kimi A.Musaxanlının da ədəbiyyat tarixi konsepsiyası ziddiyətli xarakterə malik idi. Səbəb olaraq təkcə bunu demək kifayətdir ki, A.Musaxanlı hər bir milli ədəbiyyata konkret müraciət etmədiyindən onun inkişafındakı bədii özünəməxsusluğu nəzərə almamış, buna görə də ona ədəbiyyatların tarixini dərindən bilməsi kömək etmədiyi kimi, marksist metodologiyanı səmərəli tətbiq etmək arzusu da istənilən səviyyədə həyata keçməmişdir" (15, s.377).

Məlumdur ki, 1940-ci illərin əvvəllərində Azərbaycan ədəbiyyatının dövrlərə bölünməsi problemi qaldırılmış, mətbuatda müzakirə obyektinə

çevrilmişdi. "Sovet dövrü Azərbaycan ədəbiyyatının tarixini yaratmaq kimi ağır və məsuliyyətli bir vəzifənin öhdəsindən" (Təyyar Salamoğlu) ləyaqətlə gələn görkəmli ədəbiyyatşünas və tənqidçi Cəfər Xəndan (1910-1961) "Ədəbiyyatımızın dövrlərə bölünməsi məsələsinə dair" (9) məqaləsində Azərbaycan ədəbiyyatı tarixinin dövrləşdirilməsi konsepsiyasını işləyib hazırlamışdı. O, ədəbi fikrimizin inkişafı tarixini altı dövrə ayırmışdı. Həmin dövrləri aşağıdakı formada səciyyələndirir:

1.Qədim dövr Azərbaycan ədəbiyyatı; C.Xəndan bu dövrü Azərbaycan ədəbiyyatının "qızıl dövrü" adlandırır. Əblül-Üla, Xaqani, Məhsəti, Fələki, Nizami kimi sənətkarların bu dövrdə yaşadığını bildirir, ərəb və fars dilinin təsiri ilə yaranan ədəbiyyatımızın əsas nümayəndələrini xatırladır. Bu dövrün 13-cü əsrə qədər davam etdiyini göstərir.

2.Monqol istilasından sonrakı dövr. 13-16-cı əsrləri çevrələyən, bu dövr Azərbaycan ədəbi dilinin yaranması və inkişafından bəhs edən alim anadilli poeziyamızın dəyərli nümunələrini yaradan İ.Həsənoğlu, İ.Nəsimi, Həbibi, Ş.İ.Xətai və M.Füzuli kimi sənətkarların adını çəkir.

3.Xanlıqlar dövrü. C.Xəndanın fikrinə görə, bu dövr XVI əsrdən – Füzulidən sonrakı dövrü əhatə etməli, "ədəbiyyatımızda yeni məktəb yaradan" M.P.Vaqiflə tamamlanmalıdır. Göründüyü kimi, alim "Xanlıqlar dövrü" dedikdə, 16-18-ci əsrlərdə yaşayıb-yaradan Azərbaycan şairlərinin ədəbi fəaliyyətini nəzərdə tutur.

4.Çar istilasından sonrakı dövr. C.Xəndan 19-cu əsr Azərbaycan ədəbiyyatını bu dövrə aid edir və bu dövrdə bədii yaradıcılıqla məşğul olan A.Bakıxanov, İ.Qutqaşınlı, M.Ş.Vazeh, M.F.Axundov kimi yazıçıların ədəbi irsinin öyrənilməsini məsləhət görür. Bu zaman kəsiyində nəsr və dramaturgiya janrlarının yaranması və realizmin əsas yaradıcılıq metoduna çevrilməsini xatırladr.

5.XX əsr Azərbaycan ədəbiyyatı. 19-cu əsrin sonlarından 1920-ci ilə qədərki mərhələni əhatə edən bu dövrdə "burjua-mülkədar sinfinin yaratdığı" əksinqilabi ədəbiyyatla paralel demokratik ədəbiyyatın və bolşevik mətbuatının da yarandığını, proletar ədəbiyyatının inkişaf etdiyini açıqlayır. Dövrün ədəbi simaları sırasında M.Ə.Sabir və C.Məmmədquluzadənin həyat və yaradıcılığını əhatə etməyi məsləhət görür.

6.Sovet dövrü Azərbaycan ədəbiyyatı. 1920-ci ildən 1940-cı ilə kimi bir dövrü əhatə edəcək sovet dövrü Azərbaycan ədəbiyyatını əvvəlki dövr ədəbiyyatımızdan fərqli olaraq, hərbi kommunizm, bərpa, rekonstruksiya, sosializmə giriş mərhələlərinə ayırmağın mümkünlüyü qənaətinə gələn alim Azərbaycan ədəbiyyatı tarixinin altı cilddən ibarət olmasını nəzərə çatdırır. Bəzi ideoloji və metodoloji nöqsanlarına baxmayaraq, C.Xəndanın Azərbaycan ədəbiyyatını dövrləşdirmə konsepsiyası, əsasən, özünü doğruldur. C.Xəndan 1950-ci illərdə yenidən Azərbaycan ədəbiyyatı tarixinin dövrləş-

dirilməsi probleminin üzərinə qayıdır və "Azərbaycan sovet ədəbiyyatı" dərsliyində (1957) yeni dövrləşdirmə konsepsiyası irəli sürür. Azərbaycan sovet ədəbiyyatının dövrləşdirmə probleminə tamamilə fərqli mövqedən yanaşır. Sovet dövrü Azərbaycan ədəbiyyatının inkişafı tarixini aşağıdakı mərhələlərə ayırır:

1. Vətəndaş müharibəsi, xalq təsərrüfatının bərpa və yenidən qurulması dövründə Azərbaycan ədəbiyyatı (1920-1927);

2.Stalin beşillikləri dövründə Azərbaycan ədəbiyyatı (1928-1941) (8, s.23-71)

Ədəbi fikir tariximizin dövrləşdirilməsində, annotasiyada deyildiyi kimi, L.Timofeyevin rus məktəbləri üçün hazırladığı "Rus sovet ədəbiyyatı" kitabının tərtib prinsiplərini əsas götürməsi və dövrləşdirməni də həmin kitabdakı dövrləşdirmə əsasında aparması Cəfər Xəndanın ideoloji prosesə söykəndiyini təsdiqləyir.

"Ədəbiyyatımızın tarixini yaratmaq işində ilk təşəbbüs" hesab edilən və iki cilddən ibarət olan "Müxtəsər Azərbaycan ədəbiyyatı tarixi"nin birinci cildi (1943) ən qədim dövrlərdən başlayaraq 18-ci əsrə qədərki bir dövrü çevrələyir. Üç fəsildən ibarət olan birinci cildin 1-ci fəslində "Qədim dövr", 2-ci fəslində "Orta əsrlər ədəbiyyatı", 3-cü fəslində isə "XVII-XVIII əsrlərdə Azərbaycan ədəbiyyatı" və bu ədəbiyyatı yaradan Xaqanı Şirvani, Nizami Gəncəvi, Həsənoğlu, Marağalı Əhvədi, İmadəddin Nəsimi, Şah İsmayıl Xətai, Məhəmməd Füzuli, Molla Pənah Vaqif kimi sənətkarların həyat və yaradıcılığı haqqında məlumat verilir. "Müxtəsər Azərbaycan ədəbiyyatı tarixi"nin ikinci cildi isə (1944) 19-cu və 20-ci əsrlər Azərbaycan ədəbiyyatını əhatə edir. Bu kitabın 1-ci fəslində XIX əsr Azərbaycan ədəbiyyatı məsələləri araşdırılır, A.Bakıxanov, İ.Qutqaşınlı, M.Ş.Vazeh, Q.Zakir, S.Ə.Nəbati, M.F.Axundov, S.Ə.Şirvani, X.Natəvan və N.Vəzirovun həyatı və bədii yaradıcılığı təhlil olunur. Kitabın 2-ci fəsli "XX əsr ədəbiyyatı" adlanır. Burada "Molla Nəsrəddin" və "Füyuzat" dərgiləri, C,Məmmədquluzadə, M.Ə.Sabir, Ə.Haqverdiyev, S.S.Axundov, M.Hadi, A.Səhhət, Aşıq Ələsgər haqqında oçerklər verilir. "Müxtəsər Azərbaycan ədəbiyyatı tarixi"nin ikinci cildinin "Sovet ədəbiyyatı" adlanan üçüncü fəslində Sovet dövrü Azərbaycan ədəbiyyatının dövrləşdirmə konsepsiyası aşağıdakı qaydada aparılır:

İnqilab və ədəbiyyat

I.Sovet ədəbiyyatının təşəkkül dövrü (1920-1926)

§1.İnqilabi şeirin inkişafı

§2.İnqilabi dramaturgiya

II.Sovet ədəbiyyatının qələbəsi uğrunda (1926-1934)

§1.Cəfər Cabbarlı (1899-1934)

III.Sovet ədəbiyyatının yüksəliş dövrü (1935-1941)

§1.Dramaturgiya
§2.Nəsr
§3.Şeir
§4.Səməd Vurğun (11, s.249)

Göründüyü kimi, 1920-1940-cı illəri əhatə edən bir dövr xronoloji prinsip əsasında mərhələlərə bölünmüş, istər poeziya, nəsr və dramaturgiya, istərsə də ayrı-ayrı sənətkarlar (Cəfər Cabbarlı, Səməd Vurğun və s.) haqqında verilən məlumatlar, yazılan oçerklər inqilabi və sinfi meyarlara əsaslandığından yanlışlığa və birtərəfliliyə yol verilmişdir. Siyasi rejimin ədəbiyyat qarşısına qoyduğu ideoloji tələblər ədəbiyyat tarixmizin də ideoloji meyarlarla yazılmasını qaçılmaz etmişdir. Biz üç cilddən ibarət "Azərbaycan ədəbiyyatı tarixi"nin (1957-1960) Sovet dövrünü əhatə edən və 1957-ci ildə nəşr olunan 3-cü cildində də dövrləşdirmə konsepsiyası ilə tanış oluruq. Xalq şairi akademik Səməd Vurğun (1906-1956) dövrləşdirmə problemi ilə bağlı "Azərbaycan ədəbiyyatı tarixi"ni yazacaq alimlərin qarşısına bir sıra mühüm vəzifələr qoymuşdu:

"Sovet dövrü ədəbiyyatı tarixinin dövrləşdirilməsi, mənim fikrimcə, yaradıcılıq prosesinin ən xarakter mərhələlərini, yalnız tədqiq olunan dövrün tipik ictimai və ictimai-iqtisadi dəyişikliklərini deyil, həm də və başlıca olaraq bədii ədəbiyyatın özünün inkişafının daxili qanunauyğunluğu üçün tipik olan mərhələləri ifadə etməlidir" (2, s.397). Sitatdan da göründüyü kimi, Səməd Vurğun Sovet dövrü Azərbaycan ədəbiyyatı tarixinin elmi əsaslarla yazılması üçün dövrləşdirmə probleminin düzgün həllinə böyük önəm verir, bu zəmində xronoloji ardıcıllığı gözləməyi, ədəbiyyatın başlıca ideya-bədii mərhələlərinin nəzəri cəhətdən ümumiləşdirilməsini zəruri hesab edirdi. S.Vurğunun milli ədəbiyyatımızın dövrləşdirilməsi ilə bağlı irəli sürdüyü tələblər 1950-ci illər üçün xarakterik idi. XX yüzilin ikinci yarısında yazılan və sovet dövrünü çevrələyən "ədəbiyyat tarixlərimiz"də dövrləşdirmə konsepsiyası fərqli bucaq müstəvilərində aparılır. Üç cildlik "Azərbaycan ədəbiyyatı tarixi"nin üçüncü cildində (1957) sovet dövrü Azərbaycan ədəbiyyatının inkişaf dinamikası belə təsnif olunur:

1.Sosialist inqilabı ərəfəsində ədəbiyyat (1917-1920)
2.1920-1930-cu illərdə ədəbiyyat
3.1930-1940-cı illərdə ədəbiyyat
4.Böyük Vətən müharibəsi dövründə ədəbiyyat (1941-1945)
5.Böyük Vətən müharibəsindən sonrakı dövrdə ədəbiyyat (1945-1954) (2, s.561).

"Müxtəsər Azərbaycan ədəbiyyatı tarixi"nin sovet dövrünü çevrələyən ikinci cildində olduğu kimi, "Azərbaycan ədəbiyyatı tarixi"nin üçüncü cildində də ədəbiyyatımızın inkişaf dinamikası xronoloji ardıcıllıqla, ədəbi prosesə sinfi yanaşma meyarları ilə izlənilir, lakin mərhələ təsnifatında

əsaslı fərqlər meydana çıxır. Birinci kitabda mərhələ təsnifi 1920-1926, 1926-1934, 1935-1941-ci illər üzrə aparıldığı halda, ikinci kitabda 1917-1920, 1920-1930, 1930-1940, 1941-1945 və 1945-1954-cü illər üzrə aparılır. "Azərbaycan sovet ədəbiyyatı" (1966) monoqrafiyasında ədəbiyyat tariximizin dövrləşdirilməsinin tamamilə yeni variantı aşağıdakı şəkildə təsnif olunur:

1.Azərbaycan Sovet ədəbiyyatının təşəkkül dövrü (1917-1930);

2. Azərbaycan Sovet ədəbiyyatının yüksəliş dövrü (1930-1940);

3.Böyük Vətən müharibəsi illərində ədəbiyyat (1941-1945).

İki cildlik "Azərbaycan Sovet ədəbiyyatı tarixi"nin birinci cildində (1967) milli ədəbi və estetik fikrimizin mərhələ təsnifi yeni variantda aşağıdakı qaydada göstərilir:

1.1917-1920-ci illərdə ədəbiyyat;

2.İyirminci illərdə ədəbiyyat (1920-1932);

3.Otuzuncu illərdə ədəbiyyat (1932-1941);

4.Böyük Vətən müharibəsi dövründə ədəbiyyat (1941-1945) (3, s.638).

Ali məktəblər üçün yazılan və 1988-ci illərdə nəşr olunan "Azərbaycan sovet ədəbiyyatı" dərsliyində isə ədəbi prosesin dövrləşdirilməsi konsepsiyasının yeni variantı irəli sürülür:

1.Azərbaycan Sovet ədəbiyyatının təşəkkül dövrü (1917-1930);

2.Sosializmin qələbəsi uğrunda mübarizə dövründə ədəbiyyat (1930-1940);

3.Böyük Vətən müharibəsi dövründə ədəbiyyat (1941-1945);

4.Müharibədən sonrakı dinc quruculuq illərində ədəbiyyat (1946-1985) (4, s.540-541).

Bu kitabda da dövrləşdirmə tarixi və sosial-siyasi proseslər əsasında aparıldığından metodoloji yanlışlıqlara yol verilmişdir. Bunu da xatırlatmalıyıq ki, sovet dövründə yazılan bəzi "ədəbiyyat tarixlərimiz"də aparılan dövrləşdirmə təsnifatında həm müəyyən oxşarlıqlar, həm də metodoloji yanaşmadan irəli gələn əsaslı fərqlər vardır. Belə ki, Azərbaycan Sovet ədəbiyyatının təşəkkül dövrü "Azərbaycan ədəbiyyatı tarixi"nin üçüncü cildində (1957) 1917-1920-ci illər, "Azərbaycan sovet ədəbiyyatı" (1966) monoqrafiyasında 1917-1930-cu illər, "Azərbaycan sovet ədəbiyyatı tarixi"nin birinci cildində (1967) isə 1917-1920-ci illər şəklində göstərilir. Başqa sözlə desək, Azərbaycan sovet ədəbiyyatının təşəkkül dövrü 1917-ci ildən Böyük Oktyabr sosialist inqilabının Rusiyada qələbəsindən başlanır. Sovet dövrü Azərbaycan ədəbiyyatının tarixi təşəküllünün 1917-ci ildən götürülməsi bir tərəfdən sovet siyasi sisteminin ideoloji tələblərindən irəli gəlirdisə, digər tərəfdən rus sovet ədəbiyyatının təşəkkül dövrünün Azərbaycan ədəbi fikrinin dövrləşdirmə prosesinə qatılmasından qaynaqlanırdı ki, bu konsepsiya ilə razılaşmaq tamamilə qeyri-mümkündür. Sovet dövründə

yazılan ədəbiyyat tarixlərinin hamısı üçün ümumi səciyyəvi cəhət "Böyük Vətən müharibəsi illərində ədəbiyyat" mərhələsinin 1941-1945-ci illəri əhatə etməsidir. Sovet dövrü "ədəbiyyat tarixləri"mizdə 1918-1920-ci illəri çevrələyən Azərbaycan Xalq Cümhuriyyəti ədəbiyyatının xüsusi mərhələ olaraq götürülməməsi Sovet siyasi sisteminin ədəbiyyat üzərinə qoyduğu qadağalarla bağlı idi. Sovet dövrü Azərbaycan ədəbi fikrinin dövrləşdirilməsi konsepsiyası sovet siyasi sisteminin ideoloji tələbləri əsasında irəli sürüldüyündən yeni "ədəbiyyat tarix"lərimizin mərhələ təsnifatında məqbul sayıla bilməz. Ədəbiyyat tariximizin elmi əsaslarla yazılmasında həlledici meyar yeni dövrləşdirmə konsepsiyasının yaradılmasından asılıdır ki, bu da ancaq müstəqillik illərində həyata vəsiqə almışdır.

## ƏDƏBİYYAT

1. *Abid Ə.* Azəri ədəbiyyatı tarixi. Bakı: Elm və təhsil, 2020, 303 s.
2. Azərbaycan ədəbiyyatı tarixi: 3 cilddə, III c., Bakı: Azərbaycan EA nəşriyyatı, 1957, 562 s.
3. Azərbaycan sovet ədəbiyyatı. Bakı: Maarif, 1966, 716 s.
4. Azərbaycan sovet ədəbiyyatı. Bakı: Maarif, 1988, 540 s.
5. Azərbaycan sovet ədəbiyyatı tarixi: 2 cilddə, I c., Bakı: Azərbaycan EA nəşriyyatı, 1967, 640 s.
6. *Çobanzadə B.* Azəri ədəbiyyatının yeni dövrü. Nasionalizmdən internasionalizmə. Bakı: ADETİ-nin nəşriyyatı, 1930, 65 s.
7. *Çobanzadə B.* Seçilmiş əsərləri: 5 cilddə, III c., Bakı: Şərq-Qərb, 2007, 344 s.
8. *Hacıyev C.X.* Azərbaycan sovet ədəbiyyatı. Bakı, 1957, 197 s.
9. *Xəndan C.* Ədəbiyyatımızın dövrlərə bölünməsi məsələsinə dair / "Ədəbiyat" qəz., Bakı, 1940
10. Müxtəsər Azərbaycan ədəbiyyatı tarixi: 2 cilddə, I c., Bakı: EAAzT nəşriyyatı, 1943, 375 s.
11. Müxtəsər Azərbaycan ədəbiyyatı tarixi: 2 cilddə, II c., Bakı: EAAzT nəşriyyatı, 1944, 279 s.
12. *Nazim Ə.* Ədəbiyyatımız haqqında / "Yeni yol" qəz., 1926, 21 iyul
13. *Nəbiyev B.* Firidun bəy Köçərli. Bakı: Gənclik, 1984, 228 s.
14. *Salamoğlu T.* Ədəbi tənqid tarixinə dair portret-oçerklər. Bakı, 2013, 332 s.
15. *Şəmsizadə N.* Seçilmiş əsərləri: 3 cilddə, I c., Bakı: Elm, 2008, 332 s.
16. *Zeynalı H., Şaiq A. və b.* Ədəbiyyatdan iş kitabı. Bakı, 1928, 294 s.

Redaksiyaya daxil olub 04.07.2024

**UOT 82**

***C.V.Dəmirova***
*Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi*
*jamiladamirova@yahoo.com*

# MƏHƏMMƏD İBN ƏL-HƏSƏN ƏT-TUBİ YARADICILIĞININ İDEYA-MƏZMUN MÜXTƏLİFLİYİ

https://doi.org/10.30546/170899876.72.03.2024.09

***Açar sözlər:*** *Məhəmməd ət-Tubi, İbn Qatta, Siciliya ədəbiyyatı, Siciliya ərəb ağalığı altında*

İslam dininin bərqərar olmasından sonra genişlənən ərəb-müsəlman fütuhatı nəticəsində ərəb xilafəti Fransa sərhədlərindən Çinə qədər böyük bir ərazini əhatə edir. Ərəb xilafəti etnik cəhətdən yeknəsək deyil, rəngarəng olmuş, yaranan ədəbi nümunələr isə bir çox özünəməxsus xüsusiyyətləri ehtiva etmişdir. Ərəb ədəbiyyatının Qərbdə yaranan qollarından biri də İtaliyanın Siciliya adasına məxsusdur. Ada IX əsrdə ərəblər tərəfindən fəth edilir və burada təqribən iki əsr ərəb-müsəlman hakimiyyəti davam edir. XI əsrdə Siciliya yenidən normanlar tərəfindən geri alınır, ancaq ərəb ədəbiyyatının yaranıb inkişaf etməsi dayanmır, əksinə xristian ağalığında ərəb ədəbiyyatının çiçəklənməsi daha aydın nəzərə çarpır.

Ərəb-Siciliya ədəbiyyatının görkəmli nümayəndələri arasında Məhəmməd ibn Həsən ət-Tubinin xüsusi yeri var. O, yaradıcılığı müxtəlif mövzuları əhatə edən şair olmaqla yanaşı, həm də dövrünün ensiklopedik bilik sahiblərindən idi. Haqqında tarixi mənbələrdə geniş məlumat olmasa da, İbn Qattanın “əd-Durratu-l-Xatıra” antologiyasında şairin bir çox şeirlərinə rast gəlmək olar. Bu poetik nümunələr Siciliyada yaranan ədəbiyyat haqqında fikir əldə etmək baxımından tədqiq edilməyə layiqdır.

***Дж.В.Дамирова***

## ИДЕЙНО-СОДЕРЖАТЕЛЬНОЕ РАЗНООБРАЗИЕ ТВОРЧЕСТВА МУХАММЕДА ИБН АЛЬ-ХАСАН АТ-ТУБИ

***Ключевые слова:*** *Мухаммад ат-Туби, Ибн Гатта, Литература Сицилии, Сицилия под властью арабов*

После распространения ислама, в результате расширения арабо-мусульманского футухата арабский халифат занимает огромную территорию от границ Франции до Китая. Арабский халифат был этнически неоднородным, и красочным, и так же возникающие литературные образцы содержали много уникальных черт. Одна из ветвей арабской литературы, зародившаяся на Западе, принадлежит итальянскому острову Сицилия.

Остров был завоеван арабами в IX веке, и арабо-мусульманское правление продолжалось здесь около двух столетий. В XI веке Сицилия была отвоевана норманнами, но возникновение и развитие арабской литературы не остановилось, наоборот, расцвет арабской литературы под властью христиан стал более очевидным.

Мухаммад ибн Хасан ат-Туби занимает особое место среди видных представителей арабо-сицилийской литературы. Помимо того, что он был поэтом, творчество которого охватывало различные темы, он также был одним из обладателей энциклопедических знаний своего времени. Хотя обширных сведений о нем в исторических источниках нет, многие стихи поэта можно найти в антологии Ибн Гатты «ад-Дуррату-ль-Хатира». Эти поэтические примеры заслуживают изучения, чтобы получить представление о литературе, возникшей на Сицилии.

***J.V.Damirova***

## THE DIVERSITY OF IDEAS AND CONTENT OF MUHAMMAD IBN AL-HASSAN AT-TUBI'S WORK

***Keywords:*** *Mohamed at-Tubi, Ibn Qatta, Sicilian literature, Sicily under Arab rule*

As a result of the expanding Arab-Muslim conquest after the establishment of Islam, the Arab caliphate covers a large area from the borders of France to China. The Arab caliphate was not ethnically homogeneous, but diverse, and the resulting literary examples contained many unique features. One of the branches of Arabic literature that originated in the West belongs to the Italian island of Sicily. The island was conquered by the Arabs in the 9th century, and Arab-Muslim rule continued here for about two centuries. In the 11th century, Sicily was recaptured by the Normans, but the emergence and development of Arabic literature did not stop, on the contrary, the flourishing of Arabic literature under Christian rule became more evident.

Muhammad ibn Hasan at-Tubi has a special place among the prominent representatives of Arab-Sicilian literature. In addition to being a poet whose work covered various topics, he was also one of the owners of encyclopedic knowledge of his time. Although there is no extensive information about him in historical sources, many poems of the poet can be found in Ibn Qatta's anthology "ad-Durratu-l-Khatira". These poetic examples deserve to be studied in order to gain an insight into the literature that arose in Sicily.

Ərəb-islam mədəniyyəti və ədəbiyyatı yalnız bir deyil, bir çox xalqların əqli-mənəvi potensialının məhsulu olaraq, dünya ədəbiyyatının mühüm bir qolunu təşkil edir. Əlalxüsus, Abbasilər hakimiyyətə gəldikdən sonra burada əcəmilərin, yəni qeyri-ərəblərin rolu daha da artmış, fütuhat genişləndikcə yeni ərazilərin yerli əhalisi ümummüsəlman mədəniyyətinə

öz töhfələrini vermişlər. Siyasi səhnədə özünü göstərən mərkəzdənqaçma qüvvələrinin getdikcə artması fonunda artıq X əsrdə Həmdani, İxşidi, Fatimi, Qəznəvi, Sasani sülalələri müstəqil siyasət yürütməyə başlayır. Paralel olaraq, Afrikada möhkəmlənmiş Əğləbilər Siciliyanı fəth edib, burada müsəlmanların hakimiyyətini bərqərar edirlər. Buraya gəlmiş müsəlmanlar yerli əhali ilə qaynayıb-qarışır, nəticədə yeni, bir sıra özəllikləri ilə fərqlənən bir toplum yaranır.

Siciliyada yaranan ədəbiyyatın ilk nümayəndələri cəmiyyətin elit təbəqəsi, yüksək mənsəb sahibləri arasından çıxır. Təəssüf ki, Siciliyada yaranan ədəbi nümunələr haqqında əlimizdə olduqca az sayda mənbə var. Bu mənbələr arasında ən dəyərlisi isə İbn Qattanın الدرّة الخطيرة في شعر الجزيرة – جزيرة صقلية (əd-Durratu-l-Xatıra fi şiir-l-cəzira – cəzira Saqaliyya) – “*Siciliya adasının şairləri barədə layiqli inci*” - antologiyasıdır. Burada adıçəkilən şairlərdən biri də Məhəmməd ibn əl-Həsən ət-Tubidir (محمد بن الحسن ابن الطوبي). Şairin antologiyada yer alan şeirlərini təhlil edərkən görürük ki, ət-Tubi irihəcmli poetik nümunələr yaratmaqdan uzaq olmuş, bunun əvəzinə daha kiçik qitələr yazmaqla cəmiyyətdə gördüyü, gündəlik həyatda rastlaşdığı hadisələri, onun ürəyinə təsir edən məqamları xüsusi incəlik və nəcibliklə qələmə almışdır.

Şeirlərinin birində ət-Tubi insanların pis əxlaqını tənqid edərək yazır:

صبرتُ على سوء أخلاقه     زماناً أقدّر أن يصلحا
فلما تزوّج قاطعته     لأني تخوّفت أن ينطحا     [5, s.189]

*Onun pis əxlaqına uzun müddət dözdüm,*
*İslah olmasını gözlədim,*
*Amma evləndikdən sonra onunla əlaqəni kəsdim.*
*Mənə kəllə atacağından qorxdum.*

Şairin müəllifi olduğu bəzi şeirlər bizim üçün tam aydın deyil. Belə ki, niyə məhz evləndikdən sonra islah olunacağını gözlədiyi adamla əlaqəni kəsir? Yəqin ki, şair burada öz evliliyi ilə bağlı hadisəni nəzərdə tutub.

Əxlaqi mövzunun davamı olaraq, digər bir şeirində deyir:

إذا سبك إنسان     فدعه يكفك الرب
ولا تنبح على كلب     إذا ما نبح الكلب     [6]

*Bir insan səni söydükdə, onu Allaha tapşır.*
*İt hürəndə sən axı hürmürsən.*

Məhəmməd ət-Tubi yaradıcılığında şairin bəzi dini cərəyanlara olan münasibəti əks olunub. Baxmayaraq ki, şairin həyatı Siciliyanın normanlar tərəfindən işğalından sonrakı mərhələyə təsadüf edir, amma şeirlərində onun şiəliyə meyli duyulur. Burada kiçik bir haşiyəyə çıxaraq qeyd edək ki, Siciliya normanlar tərəfindən işğal edildikdən sonra da adada ərəb ədəbiyyatı çiçəklənməyə davam edirdi. Ət-Tubi iki qitəsində İmam Hüseynin qətlinə ağlayır, peyğəmbər övladının qətlindən doğan acısını bildirir:

أنا غروي شديد السواد     وقد كنت أبيض مثل اللجين
وما كنت أسود لكنني     صبغت سوادا لقتل الحسين     [5, s.179]

*Rəngim qaralmışdır*
*Bir zamanlar gümüş kimi ağ idim*
*Bəli, mənim rəngim qara deyildi*
*Hüseynin qətlinin (utancı) səbəbindən qaraya büründüm.*

Aşağıda bir parça misal gətirdiyimiz şeirində də şair İmam Hüseynin qətlini təsvir edərkən rəng simvolizminə müraciət edir:

حمرتى من دم قلبى     أين من يندب أينا
أنا من أحجار أرض     قتلوا فيها الحسينا     [5, s.179]

*Üzümdəki qırmızı qəlbimin qanındandır,*
*Halımıza ağlayan olacaqmı?*
*Biz Hüseynin qətlə yetirildiyi*
*Torpağın daşlarıyıq.*

Belə güman edə bilərik ki, şairin ata-babaları əslən İraqın Kərbəla şəhərindən olub. Buna görə də, ət-Tubi ürək qanını üzərinə İmam Hüseynin qanı tökülmüş Kərbəla daşlarına bənzədir. Şair bəzən zəmanədən və insanlardan şikayətlənir:

يا لائمي في انتزاعي     عن الورى وانقطاعي
لا أستطيع على أن     أكون بين الأفاعي     [5, s.179]

*Ey insanlardan uzaqlaşdığım üçün məni məzəmmət edən,*
*Mən əfi ilanlar içərisində yaşamaq istəmirəm.*
*Onun fikrincə, insanlar öz imanlarında zəif olub iblisin fitnəsinə uyurlar:*

يحبّ بنو آدم ربّهم ولكنهم بعدُ يعصونه
وإبليسُ قد شربوا بغضه وهم بعد ذاك يطيعونه
فهذا التنافي فما بالهم يرون الضلالَ ويأتونه [5, s.183]

*Bənu Adəm öz Allahını sevir*
*Amma onlar Allaha asi olurlar.*
*İblisə onlar nifrətlərin bildirirlər*
*Amma sonra İblisin (fitnəsinə) uyub ona itaət edirlər.*
*Beləliklə, ziddiyyətli olsa da,*
*Onlar yollarından bilərəkdən azırlar.*

Şairi maraqlandıran mövzulardan biri də – "şeyb" (qocalıq) – yaşlı adamların saç-saqqalını qaraldıb cavan görünmək istəyidir:

خضبت شعرك زورا والشيب قد فاض فيضا
كذبت في كل شيء حتى على الشعر أيضاً [5, s.181]

*Sən saxtakarcasına saçını rənglədin,*
*Halbuki qocalıq başında gümüş kimi parlayırdı.*
*Sən hər işdə saxtakarsan,*
*Sənin saçın da saxtadır.*

Saçın gümüş kimi parlaması Zəkəriyyə ilə bağlı Quran motivi ilə səsləşir. Zəkəriyyə dua edərkən واشتعل الرأس شيباً (Qocalıq başıma şölə saçdı – Məryəm surəsi, 4) deyir.

Ümumiyyətlə Şərq ədəbiyyatında saçın qaralığı və ağlığı ilə bağlı mənalar geniş yayılıb. Saçın rənglənməsi ilə bağlı hədis də var. Peyğəmbər deyir ki, saqqalınızı rəngləyin ki, döyüş zamanı zəhmli görsənir. Bununla bağlı ədəbi nümunələrə ərəbdilli Azərbaycan ədəbiyyatında da rast gəlmək olar. Məsələn, XII əsr Azərbaycan mütəfəkkiri Xaqani Şirvani özünün qocalıqla bağlı *Qocalıq və ağ saçlar haqqında dediyi qitə* قطعة قالها في الشيب والهرم- – Məhəmməd peyğəmbərdən (s.a.s.) söylənən hədislər üzərində qurulub. Saqqalını boyadığını şairə irad tutanların sözləri ilə başlayan qitənin birinci beyti aşağıdakı hədisin məzmununa uyğun gəlir:

أحمد بن محمد، عن سعيد بن جناح، عن أبي خالد الزيدي، عن جابر، عن أبي جعفر عليه السلام قال: دخل قوم على الحسين بن علي صلوات الله عليهما فرأوه مختضبا بالسواد فسألوه عن ذلك فمد يده إلى لحيته ثم قال: أمر رسول الله صلى الله عليه وآله في غزاة غزاها أن يختضبوا بالسواد ليقووا به على المشركين.

*“Əhməd bin Muhamməd, Səid bin Cənəhdən, Əbi Xalid əz-Zeydidən, Cabirdən, Əbi Cəfərdən (ə) belə deyir: Bir dəstə adam Huseyn bin Alinin (s.ə.s.) yanına gələndə onu (saqqalına) qara rəng qoymuş görürlər. Ondan bu haqda soruşduqda o, əlini saqqalına çəkib deyir: Allahın rəsulu (s.ə.s.) müharibələrin birində müşriklər üzərində güclü görünmək üçün qara rəng qoymağı buyurmuşdu”.*

Qitənin ilk beytlərində deyilir:

قالوا خضبت فما هذا السواد له    بريق خط كدور النون بالقلم
نعم خضبت فخير الناس قد خضبوا    الى النبي أولى القربى وذوي النعم

*Dedilər: (saqqalını) rəngləmisən, amma bu qaralıq mürəkkəb və qələmin (yaratdığı)*
*dövrə kimi parlaq xətt deyil.*
*Bəli, rəngləmişəm, bunu öz yaxınlarına, alicənab insanlara buyuran peyğəmbərə qədər bütün yaxşı insanlar (saqqallarını) rəngləyiblər* [1, s.111]

Yuxarıda Xaqani Şirvaninin misal çəkdiyimiz poetik parçası ilə ət-Tubi yaradıcılığında qocalıq və saçların rənglənməsi ilə bağlı qitələrini müqayisə etsək, görərik ki, Xaqani Şirvani bu halı müsbət dəyərləndirib peyğəmbər hədisilə dediklərini daha da gücləndirirsə, Siciliya şairi ət-Tubi saç-saqqalın boyanmasını tənqid edir. Məsələn, ət-Tubinin başqa bir şeirində şair yenə də saç-saqqalını rəngləyənləri məzəmmət edib deyir:

يا خاضب الشيب دعه    فليس يخفى المشيب
حصلت منه على أن    يقال شيخ خضيب    [5, s.180]

*Ey qocalığını saçını rəngləməklə gizlədib*
*Özündən razı qalan!*
*Sən tək saçını deyil, həm də üzünü,*
*Ağlını və ismətini qaraltdın.*

Əslində şair özü də qara saçların ağarmasını bəyənmir və qara rəngi gəncliyin simvolu kimi qocalığın gəlişindən xəbər verən ağ rəngdən üstün tutur:

شبيهات المشيب تعاف نفسي    وأشباه الشبيبة هن حور
سواد العين نور العين فيه    وما لبياضها في العين نور    [5, s.188]

*Qocalığın əlaməti olan rəngdən zəhləm gedir,*
*Gəncliyin əlaməti qara gözlü hurilərdir.*

*Gözün qarası ona nur verir,*
*Gözün ağında heç bir nur yoxdur.*

Digər bir qitəsində şair qocalığı tərif edir. Çünki qocalıq vəfalı, gənclik isə vəfasızdır. Qocalıq insanı qəbir evinədək müşayiət edir. Bununla belə, şair qocalığını düşmənlərin gözündən gizlədir. Çünki düşmənlər onun qocalığını görəndə sevinirlər. Bu səbəbdən o, bəzən saçın rənglənməsinə haqq qazandırır:

ما خضبت المشيب للغانيات     لا ولكن سترته عن عداتي
حذراً أن يروا مشيبي فيبدو     لي منهم سرورهم بوفاتي     [5, s.188]

*Mən saçımı gözəl qızları (yoldan çıxarmaq üçün) rəngləmədim,*
*Mən ağ saçlarımı düşmənlərimdən gizlədirəm.*
*Qoy mənim saçımın ağardığını görüb*
*Öləcəyimi düşünüb sevinməsinlər.*

**Məhəmməd ət-Tubi yaradıcılığında obrazlar müxtəlifliyi.** Məhəmməd ət-Tubi yaradıcılığının obrazları olduqca rəngarəngdir. Onlar arasında müğənni və rəqqasələri görmək olar. Nə qədər qəribə səslənsə də, şairin müğənnilərə həsr etdiyi kiçik şeir parçaları satirik xarakterdədir:

ومغن لو تغنى     لك صوتين لمتا
سمج الخلقة غث     ينحت الآذان نحتا
ويغني ما اشتهاه     لا يغني ما اردتا
كلما قال اقترح قلـ     ـت اقتراحي لو سكتا     [5, s.186]

*Bu müğənni sənə iki mahnı oxusa, ölərsən,*
*Mənfur xarakterli və kobuddur.*
*Səsi insanın qulaqlarını deşir.*
*Öz ürəyindən keçəni oxuyar, sənin istəyin onu maraqlandırmaz.*
*Hər dəfə deyəndə ki, ürəyindən hansı mahnı keçir, cavabım bu olur ki,*
*Sənin susmağın.*

Sonrakı şeirlərdə bildirilir ki, müğənnini bir dəfə eşidən onu təkrar dinləmək istəməz. O, tez-tez udunu döyəcləyir, amma onun özünü döyəcləmək lazımdır. Şair davam edib deyir:

ومغن قد لقينا     منه كرباً وبلاء
هو من برد غناء     يجعل الصيف شتاء
دعاه رجال الى عرسهم     فصير عرسهم مأتما

لنا مغن غناء يعود شراً عليه
لم يأت منزل قوم فعاد قط عليه [5, s.186-187]

*Bu müğənni bizə yalnız kədər və bəla gətirdi,*
*Səsi canımıza üşütmə salır, yayımızı qış edir.*
*Belə müğənnini insanlar toylarına dəvət etsələr,*
*Toyda adamları elə kədərləndirər ki, sanki insanlar matəmdə olarlar.*
*Onu bir dəfə evinə dəvət edən təkrar çağırmaz.*

Burada bizim üçün anlaşılmaz olan isə şairin bu şeirləri bir müğənni barədə, yoxsa bir neçə müğənni barədə deməsidir. Çox güman ki, onun musiqi sənəti qarşısında tələbləri böyük olub. Amma bir şeirində o, həvəslə rəqqasə qadını tərifləyir:

راقصة كالغصن من فوقه بدر منير تحت ظلماء
تلهب مثل النار في رقصها وهي من النعمة كالماء
كأنما في رجلها عودها وزامر يتبع بالناء
ساحرة الرقص غلامية منها دوائي وبها دائي
إذا بدت ترقص ما بيننا يرقص قلبي بين أحشائي [5, s.184]

*Rəqqasə qadın sanki sərv budağıdır,*
*Zülmətə işıq saçan bədrlənmiş aydır.*
*Özü su kimi lətif olsa da,*
*Rəqsi ilə (ürəklərə) od salır.*
*Oynadıqca onun ayağından çıxan səslər*
*Ney və tütək səsini xatırladır.*
*Oğlan kimi geyinib rəqsi ilə insanları sehrləyir.*
*O, həm dərdimiz, həm də dəvamızdır.*
*O, məclisimizdə görsənib rəqs edərkən*
*Sinəmdə qəlbim də yerindən oynayır.*

Sonda qeyd etməliyik ki, Məhəmməd ibn əl-Həsən ət-Tubi təkcə şair olmayıb, eyni zamanda dövrünün ensiklopedik bilik sahiblərindən idi. Onun elmi istedadı tərəssül, dilçilik, təbabət, şeir tənqidi, xəttatlıq kimi sahələri əhatə edirdi. İbn Qattanın الدرة الخطيرة (əd-Durratu-l-Xatıra) antologiyasında şairin çox deyil, cəmi 224 beyt şeiri əks olunub, lakin onun nəcib ruha sahib bir şair olduğu tam hiss olunandı. Başqa bir tərəfdən, o, cəmiyyətdə qarşılaşdığı eybəcərliklərə biganə olmayan bir şair idi. O, ərəb ənənəvi ruhunda qəsidələr yazmayıb və yaxud yazsa da, bu qəsidələr zəmanəmizədək gəlib çatmayıb. Günümüzə qədər gəlib çatan nümunələrdə dərin mənalar qısa şəkildə və yüksək bədii ifadələrlə bildirilib.

## ƏDƏBİYYAT


1. *Zeynalova E.A.* Xaqani Şirvaninin ərəbdilli yaradıcılığı: Filol. üzrə fəls. dokt. ... diss., 2021, 172 s.

2. ابن حوقل، كتاب صورة الارض، منشورات بيروت، دار مكتبة الحياة، 1992، 439 ص

3. علي بن يوسف بن إبراهيم الشيباني القفطي، أبو الحسن، جمال الدين، إنباه الرواة على أنباه النحاة، تحقيق محمد أبو الفضل إبراهيم، الجزء الثاني، دار الفكر العربي، القاهرة، 1986، 416 ص

4. ابن خلكان، وفيات اَلعيان وانباء ابناء الزمان، تحقيق احسان عباس، المجلد الثاني، بيروت، دار صادر، 775، 3753 ص

5. الدرة الخطيرة في شعراء الجزيرة، علي بن جعفر بن علي السعدي، أبو القاسم، المعروف بابن القطاع الصقلي، دار الغرب الاسلامي، 1995، 305 ص (addorra-alkhatira : Free Download, Borrow, and Streaming : Internet Archive)

6. ص29 - كتاب الدرة الخطيرة في شعراء الجزيرة - أبو عبد الله محمد بن الحسن ابن الطوبي الكاتب صاحب ديوان الإنشاء - المكتبة الشاملة (shamela.ws)


Redaksiyaya daxil olub 11.10.2024

***UOT 821.133.1***

***G.H.Hacıyeva***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*g.h.hajiyeva@gmail.com*

# Gİ DE MOPASSANIN QADIN OBRAZLARI

https://doi.org/10.30546/170899876.72.03.2024.12

***Açar sözlər:*** *Gi de Mopassan, qadın obrazları, ana obrazları, roman, novella, mənəvi aləm*

Məqalədə on doqquzuncu yüzilliyin fransız realizminin görkəmli nümayəndələrindən olan Gi de Mopassanın romanlarının və novellalarının qadın obrazları təhlil olunur və qeyd edilir ki, Gi de Mopassanın qəhrəmanlarının içərisində qadın personajlarının xüsusi çəkisi, özünəməxsus yeri var. Bu obrazların araşdırılması onu deməyə əsas verir ki, yazar cəmiyyətin bütün təbəqələrdən olan qadınların psixologiyasına və mənəvi aləminə yaxından bələd olub. Gi de Mopassanın qadın obrazlarını bir neçə kateqoriyaya bölən müəllif bunların hər birinə aid nümunələr göstərir. Bunların içərisində hər qəbildən olan, müxtəlif xarakterə və talelərə mailk qadın surətlərini görmək mümkündür. Sözügedən qadın obrazları məqalə müəllifi tərəfindən ümumiləşdirilərək Janna de Lamarın, "Sovaj ana" novellasının baş qəhrəmanının, "Eybəcərlər anası" hekayəsindəki "iblis" ləqəbli personajın, Madmuazel Perlin ("Madmuazel Perl") və başqa obrazların timsalında təqdim olunub. Aparılan təhlil onu göstərir ki, yazarın digər obrazları kimi, qadın obrazları da təkcə bioloji varlıq deyil, daha çox psixoloji varlıqlardır. Ailədə xəyanət, xüsusilə qadın xəyanəti mövzusu Mopassanın əsərlərində mühüm yer tutur. Yazıçı bu məsələdə də sırf qadını günahkar bilmirdi, onu bu addımı atmağa təhrik edən səbəbləri arayıb üzə çıxarırdı və vurğulayırdı ki, xüsusilə kübar ailələrdə izdivac zamanı qarşılıqlı məhəbbət deyil, maddi mənfəət, cəmiyyətdəki mövqe əsas götürülür.

***Г.Г.Гаджиева***

# ЖЕНСКИЕ ОБРАЗЫ ГИ ДЕ МОПАССАНА

***Ключевые слова***: *Ги де Мопассан, женские персонажи, материнские персонажи, роман, новелла, духовный мир*

В статье анализируются женские персонажи в романах и рассказах Ги де Мопассана, одного из ярких представителей французского реализма XIX века, и отмечается, что женские персонажи имеют особый вес и особое место среди героев Ги де Мопассана. Изучение этих персонажов позволяет предположить, что автор был близко знаком с психологией и духовным миром женщин всех слоев общества. Разделив женские образы Ги де

Мопассана на несколько категорий, автор показывает примеры каждой из них. Среди них можно увидеть образы женщин самых разных мастей с разными характерами и судьбами. Женские характеры, о которых идет речь, были обобщены автором статьи и представлены на примере Жанны де Ламар, главной героини повести «Дикая мать», персонажа по прозвищу «дьявол» в рассказе «Мать дегенератов», Мадемуазель Перл («Мадемуазель Перл») и других персонажей. Анализ показывает, что, как и другие персонажи автора, женские персонажи являются существами не только биологическими, но и в большей степени психологическими. Тема семейной измены, особенно женской, занимает важное место в творчестве Мопассана. Писатель не винил в этом только женщину, он искал причины, побудившие ее пойти на этот шаг, и подчеркивал, что, особенно в знатных семьях, в основе лежит не взаимная любовь, а финансовая выгода и положение в обществе для брака.

***G.H.Hajiyeva***

**FEMALE IMAGES OF GUY DE MAUPASSANT**

***Keywords:*** *Guy de Maupassant, female characters, mother characters, novel, story, spiritual world*

The article analyzes female characters in the novels and stories of Guy de Maupassant, one of the brightest representatives of French realism of the 19th century, and notes that female characters have a special weight and a special place among the heroes of Guy de Maupassant. The study of these images suggests that the author was closely acquainted with the psychology and spiritual world of women of all social strata. Dividing the female characters of Guy de Maupassant into several categories, the author shows examples of each of them. Among them, it is possible to see images of women of all kinds, with different characters and destinies. The female characters in question were summarized by the author of the article and presented in the example of Jeanne de Lamar, the main character of the short story "Mère sauvage", a character nicknamed "devil" in the story "Mère des dégénérés", Mademoiselle Perl ("Mademoiselle Perl") and other characters. The analysis shows that, like other characters of the author, female characters are not only biological beings but also to a greater extent psychological. The theme of family betrayal, especially female betrayal, has an important place in Maupassant's work. The writer did not just blame the women in this matter, he looked for the reasons that pushed them to take this step and emphasized that, especially in high-class families, the basis for a marriage is not mutual love, but financial gain and societal position.

Gi de Mopassan qəhrəmanlarının içərisində qadın obrazlarının xüsusi çəkisi var. Bu obrazların təhlili yazarın kübar qadınlar, qulluqçular və əxlaqsız qadınlar da daxil olmaqla zəif cinsin hər cür nümayəndəsinin psixologiyasına və mənəvi aləminə, o cümlədən sosial durumuna yaxından

bələd olmasını deməyə əsas verir. Lakin zərif cinsin nümayəndələri ilə dil tapmaqda, xoş münasibət qurmaqda mahir olan Mopassanın qadınlara münasibətində müəyyən təzadlar da özünü göstərirdi. Qadınları sevməkdən ehtiyat etdiyini etiraf edən yazar eyni zamanda onlara xüsusi həssaslıqla, məhəbbətlə yanaşır, bir sıra əsərlərində qadını bir vətəndaş kimi, bir fədakar ana kimi tərənnüm edirdi. İki oğul övladını təkbaşına tərbiyə etmiş anasına çox bağlı olan yazar elə Lora de Mopassanın həyat təcrübəsindən bilirdi ki, ləyaqətlə yaşamaq üçün qadın hansı əzablardan keçir. Bir övlad olaraq Mopassanın ailə həyatı uğurlu alınmayan anasına münasibəti atasına qarşı olan münasibətindən kəskin fərqlənirdi. O, hər zaman ağlına və dəyanətinə güvəndiyi anası ilə hesablaşar, məsləhətlərindən faydalanardı.

Gi de Mopassanın qadın obrazlarının bir qismi məişətdəki və cəmiyyətdəki ədalətsizliklərin qurbanı kimi təqdim olunur ("Gonbul", "Rozali Prüdan", "Axsaq xala", "Kiçik bir dram", "Limanda", "Cehiz"). Bu da ondan qaynaqlanır ki, Mopassanın müasiri olan fransız qadınının kifayət qədər hüquqları və azadlığı yox idi. "Qadın ərinin, hətta atasının ixtiyarına verilmiş yetkinlik yaşına çatmayandır. Qadın, hər şeydən əvvəl, həyat yoldaşı və anadır. ...qadının övladları üzərində heç bir hüququ yoxdur, bütün hüquqlar ataya məxsusdur" [4]. İndi adi görünən hüquqlar iki əsr öncə fransız qadınları üçün əlçatmaz idi. Onlar bir çox hüquqlardan, o cümlədən boşanmaq hüququndan da məhrum idilər. Qadın ərinə itaət etməyə borclu idi. Onun nə siyasi hüquqları, nə də vətəndaş olaraq hüquqları yox idi. Fransız qadınının icbari ibtidai təhsil almaq hüququ, hətta öz cehizini idarə etmək və boşanmaq kimi bir sıra hüquqları əldə etməsi on doqquzuncu yüzilliyin sonuncu qərinəsinə, məhz Mopassanın yaradıcılığının parlaq dövrünə təsadüf edir. "1870-ci illərdə inkişaf edən feminist hərəkat ...təhsilə böyük əhəmiyyət verirdi. 1878-ci ildə toplanan ilk beynəlxalq feminist konqresi qadınlara iş azadlığı, bərabər maaş, səkkiz saatlıq iş günü, həftəlik istirahət, analıq məzuniyyəti və müavinətlər, həmçinin qadınların həmkarlar ittifaqlarına qəbul olunmasını, analıq və ev işlərinin sosial əmək kimi tanınmasını tələb etdi" [5].

Mopassanın qadın qəhrəmanlarını bir neçə kateqoriyaya ayırmaq olar:

- fədakar, hətta bəzi hallarda fanatik qadın və ana obrazları,
- bioloji ana olub, analıq hissindən məhrum olan ana obrazları;
- əsl sevgini kənarda axtaran qadın surətləri;
- sevgisini qəlbində gömməyə məhkum olan, nakam, tənha qadın surətləri;
- sevib-sevilən, sevdiyi adamla ailə quraraq xoşbəxt olan qadın surətləri – bunların sayı olduqca azdır.

Mopassan ana obrazlarını bioloji varlıqdan çox psixoloji varlıq kimi təqdim edir. Bu anaların içərisində övlad yolunda hər cür fədakarlığa hazır olanları da var, analıq hissindən məhrum olanları da. Bala sevgisi, bala acısı bəzən anaları ən ağlasığmaz addımlar atmağa təhrik edir. Bunun bariz nümunəsini Gi de Mopassanın "Sovaj ana" novellasında görmək olar. Düşmən əsgərlərini amansızlıqla qətlə yetirən dul Sovaj qarı bu addımı güclü emosional vəziyyətdə və qisas hissinin təsiri altında atmışdı. Sovaj ana oğlu haqqında acı xəbəri alanadək torpaqları işğal ediləndən bəri evində yerləşdirilmiş işğalçı ordunun əsgərləri ilə dinc yola gedirdi. Amma günlərin birində qarıya oğlunun cəbhə yoldaşından gələn və onun qumbara zərbəsindən parça-parça olaraq həlak olması xəbərini verən məktub hər şeyi dəyişir. Övladının ölüm səhnəsi təkrar-təkrar gözləri önündə canlanan ana dərindən sarsılır və qəddarlaşır. Gözünü qan örtmüş ana oğlunun intiqamını evində yerləşdirilmiş əsgərlərdən almağa qərar verir: daxilində baş qaldıran alovlu intiqam hissi onu xüsusi qəddarlıq və soyuqqanlılıqla öz evinə od vuraraq düşmən əsgərlərini yatdıqları yerdə diri-diri yandırmağa təhrik edir. Həyatda itirəcəyi bir şeyi qalmayan qadın Prussiyalı zabitlərə hadisəni özünün törətməsini etiraf etməkdən də qorxmur. Müəllif dünyada heç bir dərdin övladın faciəli itkisi qədər insanın qəlbini ağrıtmadığını, intiqam hissinin anaya necə qarşısıalınmaz güc verdiyini vurğulayır. Deməli, "zərif" cinsdən olan bu varlıqların heç də hamısı zənn edildiyi kimi "zəif" deyil, üzləşdikləri faciənin və güclü emosiyaların təsiri altında onlar şiddətli alova çevrilə bilirlər. Novellaya verilmiş başlıq da qəhrəmanın əməlinə uyğun seçilib. "Viktuar Simonun oğlunun ölümünə görə aldığı qisas onun Sovaj (vəhşi) ləqəbinə tam uyğun gəlir" [3, s.33]. Yeganə oğlu xaincəsinə qətlə yetirilmiş dul qadın Saverininin də ("Vendetta") qəlblini sərtləşdirən qisas hissi idi. Bu sayaq qətllərin hansı səbəbdən törədildiyi bəlli olduqda müqəssirin cəzayamı, bəraətəmi layiq olması məsələsi mübahisələr doğurur. Belə hallarda ananın obyektiv şəraitdən doğan davranışını və ifrat addımlarını anlamaq çətin deyil. Anaların övlad qatilini öz əlləri ilə, özləri bildiyi kimi cəzalandırmaq yolunu seçmələri hədsiz qəddarlıq kimi görünsə də, həyatda yeganə və ən dəyərli varlıqlarını itirən, dərdin ağırlığından ürəyi qan ağlayan, ədalət hökmünü özləri verməklə təsəlli tapan bu insanlara qatil obrazını şamil etmək mümkün deyil.

"Həyat" romanı Janna de Vonun (ailə qurduqdan sonra Janna de Lamar ) – on yeddi yaşlı gənc kübar xanımın həyata atıldığı ilk günlərdən başlayaraq iyirmi yeddi il ərzində yaşadığı və zaman keçdikcə dərinləşən ağrılı-acılı həyat dramı, əri, süd bacısı və övladı tərəfindən aldadılan saf bir insanın həyat yoludur. Bütün hadisələr əvvəldən axıradək baş qəhrəman Jannanın ətrafında baş verir, digər personajların həyatı isə Janna ilə təmasda göstərilir: zərif, füsunkar, əsil-nəcabətli ailənin qızı Janna subay qız və

övlad, həyat yoldaşı və ana, sonda isə epizodik də olsa, nənə obrazında təqdim olunur. Dövrün sosial münasibətləri öz əksini Jannanın və ailəsinin – Le Pertüi de Vo ailəsinin, eləcə də onların çevrəsinin simasında tapır. Janna obrazı nəinki sözügedən romanda, ümumən Mopassanın qadın surətləri arasında xüsusi yer tutur. Jannanın timsalında müəllif ömür yolu fırtınalardan keçən əzabkeş qadınların, xüsusilə də fədakar, fanatik anaların obrazını ümumiləşdirib. Jannanın prototipinin yazıçının anası olduğu ehtimal edilsə də, Lora de Mopassanın müstəqil, mübariz bir qadın olduğunu, ötkəm xarakteri və bəzi insani keyfiyyətləri ilə Jannadan fərqləndiyini nəzərə alsaq, bu fərziyyələri qismən doğru hesab etmək olar. Həqiqətən yazarın ailə üzvləri və ailəsinin taleyi ilə romanda baş vermiş hadisələr arasında oxşarlıqlar var. Amma sakit təbiətli və itaətkar Jannanın əksinə olaraq, Lora de Mopassanın hökmlü, tədbirli və qətiyyətli bir qadın olduğu deyilir.

Dövrün zadəgan adətlərinə uyğun olaraq on iki yaşında ikən anasının qəti narazılığına, yalvarış və göz yaşlarına baxmayaraq Sacre-Kör monastırına göndərilmiş Janna monastırda ikən dünyanın zövqi-səfasından uzaq düşdüyündən, həyatın irili-xırdalı problemlərindən bixəbər olduğundan gerçək həyatı deyil, xəyali bir dünya qurmağı öyrənir. O, xoş arzularla yaşayır, xəyallarında xoşbəxt ailə həyatı və onu bütün varlığı ilə sevəcək bir ömür yoldaşı canlandırırdı. Əslində onun sevmək-sevilmək, ana olmaq istəyi təbii insani bir instinkt idi. Həyatı ən gözəl rənglərdə təsəvvür edən Jannanın xoşbəxt ailə ilə, sevib-sevilməklə bağlı illüziyaları ailə qurduqdan dərhal sonra yoxa çıxır. Çünki bu saf məxluqun xoş duyğuları, insanlara münasibəti ilə yaşadığı cəmiyyətin saxta, riyakar əməlləri arasında dərin ziddiyyətlər var. Ailə qurduğu ilk günlərdən etibarən bu ziddiyyətlər daha da dərinləşir. Ərinin ilk xəyanətinin üstü açılanda Janna evdən qaçır və mənfi emosiyaların təsiri altında özünü qayadan atmaq fikrinə düşür, amma son anda əgər canına qıyarsa, ata-anasının bu ağır zərbəyə tab gətirə bilməyəcəyini düşünərək fikrindən daşınır. İlk zamanlar keçirdiyi dərin mənəvi-psixoloji böhranı nəzərə almasaq, gənc qadın ərinin xəyanətlər silsiləsini bir seyrçi olaraq izləməklə kifayətlənir. Ərinin pis xasiyyəti və əməlləri ucbatından ailəsində yaranan soyuqluğu Janna oğluna bəslədiyi qızğın məhəbbət və qayğı ilə əvəz edir; dəlicəsinə sevdiyi, süd anasına belə qısqandığı oğlunu elə fanatik, kortəbii məhəbbət ilə əhatə edir ki, nəticə etibarı ilə onun müftəxor böyüməsinə, eqoist, ərköyün bir övlad kimi yetişməsinə səbəb olur. Həyatda qarşılaşdığı ədalətsizliklərə rəğmən Jannanın qəlbindəki incə, kövrək duyğular, insanpərvərlik öz yerini bədxahlığa, qisas hissinə təslim etmir. Zəngin kübar bir ailənin yeganə övladı olmasına və naz-nemət içərisində böyüməsinə rəğmən Janna xudbinlik hissindən uzaq idi. Gənc xanım izdivacının uğursuzluğunun və dəfələrlə xəyanətə uğramasının qarşılığında kənarda sevgi axtarmır, ailəsinə sədaqətini qoruyub saxla-

yır. Lakin, o, çətinliklərə, pisliklərə sinə gərmək iqtidarında da deyil, gəncliyində olduğu kimi, ömrünün yetkin çağlarında da müstəqil qərar verməkdə qətiyyətsizlik göstərir, heç vaxt taleyə müqavimət göstərməyə çalışmır. Acizliyi, taleyinə boyun əyməsi onun həyatında acı hadisələrin davamlı olaraq baş verməsinə yol açır. Onun fəaliyyətsizliyini monastır tərbiyəsi ilə yanaşı, yüksək cəmiyyətdə müəyyən "çərçivəyə salınmış" əxlaq normalarının təsiri kimi də qiymətləndirmək olar. "Kübarlara xas məqsədsiz və hərəkətsiz həyat, nəticəsiz xəyalpərəstlik və passivlik Jannaya həyatla mübarizə aparmağı öyrədə bilməzdi" [2, s.86].

Jannadan fərqli olaraq qulluqçusu Rozali həyata nikbin nəzərlərlə baxır. O, ağıllı, güclü, iradəli və tədbirlidir. Hər cür illüziya və xəyaldan uzaq, zəngin həyat təcrübəsinə malik bu qadın gerçəkliyi qiymətləndirmək və vəziyyətdən çıxış yolu tapmaq iqtidarındadır. Mübariz xarakteri sayəsində qarşısına çıxan çətinlikləri dəf etməyə qadir olan Rozali obrazı Mopassanın ən maraqlı və dəyanətli qadın obrazlarındandır. Həyatda çox çətinliklərdən keçmiş, dünyanın hər üzünü görmüş Rozali yorulmadan çalışır və lazımi məqamlarda müstəqil addım atmağı bacarır. Ailə qurduğu kəndli oğlanla birlikdə o, baron tərəfindən verilən puldan ağılla istifadə edərək özləri üçün yurd-yuva, təsərrüfat qura bilmişdi. Gənc yaşlarında müəyyən yanlış hərəkətlərə yol verməsinə baxmayaraq, qadın övladına da düzgün tərbiyə vermiş və onu zəhmətkeş, bacarıqlı və ləyaqətli bir insan kimi yetişdirmişdi. Tamamilə təsadüfi, tanımadığı bir adamla ailə qurmalı olmuş Rozalinin ailə həyatı bəlkə də hamar olmamışdı. Jannanın ən çətin günlərində, doğma oğlu tərəfindən müflis edilərək məhrumiyyətlərə düçar edildiyi zamanlarda Rozali heç bir təmənna güdmədən öz oğlu, Polun ögey qardaşı ilə birlikdə keçmiş sahibəsinə bacardığı köməyi göstərir, onun tamamilə müflisləşməsinin qarşısını almaq üçün düşünülmüş, ağıllı tədbirlər görür. Sahibəsinin dünyaya gəldiyi anda anasız qalmış körpə nəvəsini məhz Rozali paytaxtdan kəndə gətirib nənəsinin himayəsinə verir. "Görürsünüzmü, həyat biz düşünən qədər də nə çox yaxşı, nə də çox pisdir" (1, s.204) mühakiməsini də müəllif romanın yekun səhnəsində ömür yolunda acılı-şirinli günlər görmüş Rozalinin dilindən səsləndirir.

Ailədə xəyanət mövzusu Mopassanın əsərlərində geniş yer tutur. Mopassanın çoxlu sayda novellasında və demək olar ki, bütün romanlarında qadın xəyanəti xüsusilə diqqəti cəlb edir. "O?" hekayəsinin müəllifinin öz qəhrəmanının dilindən ailə həyatı və qadınlarla bağlı söylədiyi fikirləri onun şəxsi fikirləri kimi də qəbul etmək olar. Hekayənin qəhrəmanı əminliklə təsdiqləməyə çalışır ki, on kişidən səkkizi xanımı tərəfindən aldadılır və buna görə də, kişilər "öz həyatlarını zəncirləmək kimi bir axmaqlığı etməyə" layiq deyillər. "Həyat" romanında isə diqqəti çəkən bir məqam hətta kənardan xoşbəxt görünən ailələrdə belə qarşılıqlı sevginin olmaması və

xəyanətin baş alıb getməsidir. “Mopassan üçün hər şeydən əvvəl sevgi və evlilik bir araya sığmır” [4]. Yazarın təsvir etdiyi dünyada hər şey alınıb satılır. O, görürdü ki, məhəbbətə, nikaha və ailəyə nüfuz edən burjua ictimai münasibətləri insanın təbii istək və hərəkətlərini eybəcərləşdirir, məhəbbəti hesaba və ya tələyə, nikahı alış-satışa və ya zinaya çevirir. Təmənna üzərində qurulmuş evliliyi qəbul edən qadınlar əksər hallarda xoşbəxt ola bilmirlər. Madam de Vo da dövrünün bir çox qadınları kimi səadəti nikahla bağlandığı insanın yanında deyil, kənarda axtarıb. Ahıl yaşlarında da keçmişin xatirələri ilə yaşaması, keçmiş sevgilisinin məktublarını əziz bir xatirə kimi qoruyub-saxlayaraq təkrar-təkrar oxuyub göz yaşları tökməsi onun ailə həyatından kifayət qədər razı qalmaması anlamına gəlir. Qraf de Furvilin xanımı da xoşbəxtliyini ailə ocağında tapmayıb. Madam de Vo kimi Madam de Furvil də kənardan xoşbəxt görünsə də, ruhən yalqızdır. Ərinin ova qarşı aşırı aludəçilyi ucbatından öz xanımını diqqətdən kənarda qoyması gənc, gözəl qadının ailə dostları Jülyən dö Lamarla gizli eşq macərası yaşamasına gətirib çıxarır. Xəlvəti görüşlər isə onların məhvi ilə nəticələnir; cənab de Furvili sevimli xanımının və “dostunun” qatilinə çevirir. Kübar aləmdə, burjua cəmiyyətində mənfəətə hesablanmış və sevgi üzərində, qarşılıqlı məhəbbət üzərində qurulmayan ailələrdə zinakarlığın geniş yayılmasının səbəbi sevgisiz nikahla bərabər, həm də həmin cəmiyyətdə mənəviyyatsızlığın əxlaq normalarını üstələməsidir. Kübar qadınların büründükləri nazik ismət və həya örtüyü ancaq zahiri görkəm və gözdən pərdə asmaq üçündür.

Mopassanın əsərlərində bioloji ana olub, analıq hissindən məhrum olan ana obrazları da az deyil (“Eybəcərlər anası”, “Atılmış uşaq”). “Eybəcərlər anası”nda müəllif elə ana obrazını ədəbiyyata gətirmişdi ki, anadan çox bir acımasız, acgöz şeytan təəssüratı yaradır. Camaat arasında ona əbəs yerə “iblis” ləqəbi verilməmişdir. Vaxtilə xəlvəti görüşlərinin nəticəsi olan hamiləliyini gizlətmək üçün utandığından taxta bağlayaraq qarnını sıxan qadın özü istəmədən bətnindəki körpəni şikəst eləmişdi. Əcaib uşağın varlığından xəbər tutan panoptikumlar – oyunbazlar onu qadından satın alaraq fayda götürmək məqsədi ilə istifadə etmişdilər. Əldə etdiyi gözlənilməz qazanc arvadı elə şirnikləndirmişdi ki, o, varlı burjualar kimi rentaya sahib olmaq həvəsinə düşmüş və varlanmaq niyyəti ilə hər il bu cür eybəcər uşaqlar dünyaya gətirmişdi.

Digər bir ana – əri uzaq Hindistanda qulluqda olan qadın zina nəticəsində dünyaya gətirdiyi övladını uşağın atası ilə birlikdə yad bir adama saxlamağa verir (“Atılmış uşaq”). Tərk etdiyi uşağına maddi baxımdan şərait yaratsa da, ana yaşlanana qədər bir dəfə də olsun onun üzünü görmür. Ahıl yaşında ikən illərdən bəri qovuşmaq istəyində olduğu övladını axtarıb-taparkən anidən qadının qəlbinə tamamilə başqa hisslər hakim kəsilir: cəmi bircə gün qucağına alıb oxşada bildiyi sevimli körpəsinin əvəzində mal-qara

ilə əlləşən beli bükülmüş kəndli kişini görəndə qadın bir anın içərisində ondan uzaqlaşmağa qərar verir.

Harada olmasından – yüksək cəmiyyətdə və ya yoxsul bir daxmada yaşanmasından asılı olmayaraq məhəbbət mövzusu Mopassan üçün hər şeydən əvvəl sosial problem idi. Məhəbbət heç də həmişə xoşbəxtlik gətirmir, o, əzab və iztirablarla da doludur. Yazıçının bu nöqteyi-nəzəri cavabsız qalmış sevgidən bəhs edən əsərlərində öz əksini tapıb. Yüksək cəmiyyət adlandırılan bir cəmiyyətdə tapdalanan insan hissləri, sevgisini illərlə gizli saxlayıb, dilinə gətirməyə gücü yetmədiyindən qəlbindəcə gömən insanların nakam taleyi yazıçını çox narahat edirdi. Mopassan kübar cəmiyyətdə ləyaqət örtüyü altında gizlənən saxta, qeyri-səmimi insani münasibətlərə qarşı üsyan edirdi. "Madmuazel Perl"də şəxsi hisslərin ictimai qınağa qurban verildiyi məhəbbət əslində uzun illər boyu ürəklərdə gizlicə yaşayıb ("Madmuazel "Perl"). Cənab Şantal və madmuazel Perl bir-birilərinə bəslədikləri dərin sevgini büruzə verməyə özlərində güc tapmayaraq qəlblərinin dərinliklərindəcə gizlətmişdilər; cənab Şantal ailəsinin baxıb böyütdüyü atılmış uşağa – Perl (inci) adı verdikləri o zərif məxluqa olan hisslərini açıqlamağa cürət etməyib itaətkarlıqla ailəsinin seçiminə razılıq vermişdi. Şantalın cəsarətsiz addımı onların hər ikisinə olmazın iztirablar bahasına başa gəlmişdi.

Qarşılıqlı səmimi sevgi, uğurlu nikah, xoşbəxt və möhkəm ailə haqqında fikirləri az qala mif hesab edən Mopassan nadir hallarda da olsa, sarsılmaz və təmənnasız sevgidən qurulan xoşbəxt ailənin olmasını istisna etmirdi. Suzan de Sirmon obrazı yazarın sevdiyi adamla ailə quraraq xoşbəxt olmağı bacaran azsaylı qadın surətlərindəndir ("Xoşbəxtlik"). Gənc, gözəl Suzan qətiyyətli addım ataraq sevdiyi insana qovuşmaq yolunda bütün maneələri dəf etmişdi: o, atasının başçılıq etdiyi qusar alayının serjantına qoşulub qaçaraq ömrünün sonuna qədər tənha bir guşədə sevib-seçdiyi insanla baş-başa yaşamışdı. Adlı-sanlı və zəngin ailədən olan bu qadın dəbdəbəli ata ocağını tərk etdikdən əlli il sonra sivil cəmiyyətdən təcrid olunaraq Korsikanın vəhşi təbiətinin qoynunda yaşamağına heç də peşmançılıq çəkmədiyini söyləyir.

Yazarın "Madmuazel Perl", "Bir yaz axşamında", "Xoşbəxtlik", "Həsirçi qadın", "Axsaq xala" novellalarında səmimi məhəbbət tərənnüm edilir. Qadın sevdiyi insanın yolunda inanılmaz fədakarlıqlar edir ("Axsaq xala"). Sevgilisi olan məktəb müəlliminin işini itirməməsi, direktorun qarşısında xəlvəti əməllərinin açılmaması üçün Hortenziya adlı gənc dərzi qız məktəb binasının üçüncü mərtəbəsindən, çardaqdan atılaraq ağır sınıq xəsarətləri alır. Ömürlük şikəst qalan Hortenziya taleyi ilə barışır. O, itirdiyi sağlamlığının qarşılığında heç nə ummayaraq, etibarsız və etinasız bir oğla-

nın karyerasına xələl gəlməsinə yol vermir, yıxılmağının əsl səbəbini ömrünün axırınadək hamıdan gizlədir.

Son olaraq qeyd etmək yerinə düşər ki, qadın qəlbinin mahir bilicisi olan Gi de Mopassanın qadınlara qarşı münasibətində açıq-aşkar bir təzadlılıq var idi. Saysız-hesabsız fədakar ana və sədaqətli qadın obrazı yaradan, onlara qarşı yol verilən ədalətsizliklərdən ürək ağrısı ilə bəhs edən Mopassan, eyni zamanda, qadını cazibədar və əhəmiyyətsiz bir varlıq hesab edirdi. Əsərlərində qadınlara qarşı mərhəmət duyğusu sezilən yazar zərif cinsin nümayəndələrinə inamsızlıqla yanaşardı və bunu etiraf etməkdən çəkinməzdi. Yazıçının bu mövqeyinin formalaşmasında yaşadığı dövrün təsiri danılmazdır.

## ƏDƏBİYYAT


1. Gi de Mopassan. Roman və novellalar. Bakı: Yazıçı, 1989, 341 s.
2. *Данилин Ю.* Мопассан. Москва, 1951, 234 s.
3. *Флоровская О.В.* Мопассан-новеллист. Кишинёв, 1979, 91 s.
4. Andree KAUTHEN https://www.enssib.fr/bibliotheque-numerique/documents/63690-la-femme-dans-les-romans-realistes.pdf
5. https://www.napoleon.org/histoire-des-2-empires/articles/petit-point-sur-le-statut-de-la-femme-en-france-au-xixe-siecle/
6. https://perso.helmo.be/jamin/euxaussi/femme/femtrav19.htmlL
7. Julie Simard. L'esthetique de la violence dans les contes et nouvelles de Maupassant. https://www.google.com/url?sa=i&url=https%3A%2F%2Fcorpus.ulaval.ca%2Fbitstreams%2F2d92d9ba-169b-43bb-9206-0d29d635c237%2Fdownload&psig=AOvVaw0wqhanZh3gxqSNTc3v356-&ust=1719731203440000&source=images&cd=vfe&opi=89978449&ved=0CAQQn5wMahcKEwjw5-yNoICHAxUAAAAAHQAAAAAQBA


Redaksiyaya daxil olub 20.09.2024

***UOT 82-3.512.162***

***S.Hüseynoğlu***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*soltanhuseynoglu@mail.ru*

# MÖVZU RƏNGARƏNGLİYİ, DİL ZƏRİFLİYİ...

https://doi.org/10.30546/170899876.72.03.2024.14

***Açar sözlər:*** *poeziya, mövzu, ideya, ənənə, dil sənətkarlığı, bədiilik, obrazlılıq*

Məqalədə ədəbiyyatımıza keçən əsrin sonlarında gələn Mahirə Nağıqızının bədii yaradıcılığı təhlil edilmişdir. Onun lirikasında geniş əksini tapan milli-mənəvi dəyərlərin mahiyyəti açıqlanmış, ənənə ilə bağlılığı nümunələr əsasında şərh edilmişdir.

Şairin yaradıcılığı mövzu rəngarəngliyi ilə seçilir. Ölkə həyatında elə bir mühüm hadisə olmamışdır ki, əsərlərində ona münasibət bildirməsin. Yurdlarından didərgin salınan qərb bölgəsi insanlarının acı taleyi, işğal altında olan Qarabağ dərdi, 2016-cı il aprel döyüşlərində ordumuzun üstünlüyü, Xocalı faciəsi, 44 günlük müharibədə qazanılmış böyük qələbə, şəhidlərimizin qazandığı əbədi ömür, doğma təbiətimizin gözəllikləri onun ardıcıl müraciət etdiyi mövzulardandır.

Sənətkarlıq baxımından şeirlərini fərqləndirən özəlliklər də çoxdur: mövzunun mükəmməl qavranılması, oxucularla dərhal ünsiyyət qurmaq bacarığı, onları özünün hiss və düşüncələrinə ortaq etmək qabiliyyəti, dil vasitələrindən məharətlə yararlanma bunların bir qismidir.

***С.Гусейноглу***

## РАЗНООБРАЗИЕ ТЕМ, ИЗЯЩЕСТВО ЯЗЫКА...

***Ключевые слова:*** *поэзия, тема, идея, традиция, языковое ремесло, художественность, образность*

В статье анализируется художественное творчество Махиры Нагигызы, пришедшей в нашу литературу в конце прошлого века. Объясняется сущность национальных и нравственных ценностей, которые широко отражены в ее лирике, на примерах поясняется связь с традицией.

Творчество поэтессы отличается многообразием тем. Не было такого важного события в жизни страны, о котором она не высказала бы своего мнения в своих произведениях. Горькая судьба жителей западного региона, вынужденных покинуть свои дома, страдания оккупированного Карабаха, превосходство нашей армии в боях апреля 2016 года, трагедия Ходжалы, великая победа, одержанная в 44-дневной войне, вечная жизнь, завоеванная

нашими мучениками, красота нашей родной природы – вот некоторые из тем, которые она последовательно затрагивала.

Есть много особенностей, отличающих ее стихи с точки зрения художественности: прекрасное понимание предмета, умение непосредственно общаться с читателями, умение заставить их разделить свои чувства и мысли, умелое использование языковых средств – вот лишь некоторые из них.

***S.Huseynoghlu***

**THE VARIETY OF THE SUBJECT, THE ELEGANCE OF THE LANGUAGE...**

***Keywords:*** *poetry, theme, idea, tradition, language craft, artistry, imagery*

The article analyzes the artistic creation of Mahira Nagygyzi, who came to our literature at the end of the last century. The essence of the national and moral values, which are widely reflected in his lyrics, is explained, and the connection with the tradition is explained on the basis of examples.

The poet's creativity is distinguished by the variety of themes. There has never been such an important event in the life of the country that he did not express his opinion about in his works. The bitter fate of the people of the western region who were displaced from their homes, the suffering of occupied Karabakh, the superiority of our army in the battles of April 2016, the tragedy of Khojaly, the great victory won in the 44-day war, the eternal life won by our martyrs, the beauty of our native nature are some of the topics he consistently addressed.

There are many features that distinguish his poems from the point of view of artistry: a perfect understanding of the subject, the ability to immediately communicate with readers, the ability to make them share his feelings and thoughts, skillful use of language tools are some of them.

Ədəbiyyatımıza keçən əsrin sonlarında gələn Mahirə xanım Nağıqızının yaradıcılığı ilə tanış olarkən diqqəti ilk cəlb edən milli ruh, milli-mənəvi dəyərlərin uğurlu ifadəsi olur. Bu, səbəbsiz deyil; birinci səbəb ailədə, nəsildə milli dəyərlərin üstün tutulması və yaşadılmasıdır. Babası İbrahim Mirzəlioğlu təkcə yaşadığı mahalda yox, Qərbi Azərbaycan bölgəsində, onun bütün mahallarında el ağsaqqalı olmuş, söz sərrafı kimi tanınmış və bəyənilmişdir. Dayısı, tanınmış dilçi alim Həsən Mirzəyev el şairi, söz-sənət bilicisi kimi məşhurlaşmışdır…

Digər səbəb isə ənənə ilə bağlıdır. Bunu şairin yaradıcılığını tədqiq edən görkəmli alimlər maraqlı fakt kimi qeyd edirlər: “Mahirə Nağıqızının yaradıcılığına xarakterik cəhətlərdən biri, bəlkə də ən birincisi, onun şeir yaradıcılığının poeziyamızın yaşarı ənənələrinə sıx bağlılığıdır” (3, s.9). Mahirə xanım əslən Qərbi Azərbaycanın Dərələyəz mahalındandır. Bu bölgəmiz təkcə gözəl təbiəti ilə deyil, həm də insanlarının istedadı, sözə,

sənətə ürəkdən bağlılığı ilə seçilmişdir. Burada istər şifahi xalq yaradıcılığının, istərsə də yazılı ədəbiyyatın öz dəyərini əsrlər boyu itirməyən nümunələri yaranmışdır. Şifahi xalq ədəbiyyatının elə bir janrı yoxdur ki, bu bölgədə yüzlərlə nümunəsi olmasın. Bədii söz bu yerin insanlarının qəlbindən saf bulaq suyu kimi süzülüb gəlir, eşidənlərə, oxuyanlara yüksək zövq aşılayır, onların hisslərini zərifləşdirir, düşüncələrini zənginləşdirir. Maraqlıdır ki, bu bölgənin yetirdiyi yaradıcı insanların – aşıq və şairlərinin dili son dərəcə aydın olub, müxtəlif səviyyəli oxucular üçün anlaşıqlıdır. Dil-üslub aydınlığı, səmimi hisslərin uğurlu ifadəsi bu əsərlərin bu gün də sevilə-sevilə oxunmasına səbəb olmuşdur. Mahirə xanımın bir sənətkar kimi belə bir ənənənin təsiri ilə formalaşdığını deməyə əsas vardır. Doğma yurdundan tez ayrılsa da, həmin yerin ədəbi-bədii irsini mütaliə və müşahidə əsasında dərindən mənimsəmişdir. Sənətə ilk gəlişindən yaratdığı bədii nümunələr diqqəti cəlb etmişdir. Bir şair kimi oxucuların qəlbinə yol tapması isə çox çəkməmişdir; səmimi, kövrək hisslərin ifadə olunduğu ilk lirik şeirləri ilə mütaliə həvəskarlarının rəğbətini qazanmışdır. Onun lirik qəhrəmanını sevdirən cəhətlər çoxdur, o, xeyirxah, həssas, humanist və ədalətlidir, ağıl və zəkanı hər şeydən üstün tutur, dünyada nizamın zədələnməsindən kədərlənir:

Daşlaşdı dünyanın qanun-qaydası,
O qanun dikəlib mənəm baş dedi,
Başladı nadanın mənəm davası,
Zəka daldalandı, sözü daş dedi.

M.Nağıqızının yaradıcılığı mövzu rəngarəngliyi ilə seçilir. Ölkə həyatında elə bir mühüm hadisə olmamışdır ki, əsərlərində ona münasibət bildirməsin. Yurdlarından didərgin salınan qərb bölgəsi insanlarının acı taleyi, işğal altında olan Qarabağ dərdi, 2016-cı il aprel döyüşlərində ordumuzun üstünlüyü, şəhidlərimizin qazandığı əbədi ömür, Xocalı faciəsi, doğma təbiətimizin gözəllikləri, Azərbaycanın siyasi aləmdə, iqtisadi həyatda uğurları, milli-mənəvi dəyərlərin təbliği onun ardıcıl müraciət etdiyi mövzulardandır.

Sənətkarlıq baxımından şeirlərini fərqləndirən özəlliklər isə çoxdur: mövzunun mükəmməl qavranılması, oxucularla dərhal ünsiyyət qurmaq bacarığı, onları özünün hiss və düşüncələrinə ortaq etmək qabiliyyəti, dil vasitələrindən məharətlə yararlanma bunların bir qismidir. Açıq hiss olunur ki, mövzunun özü qələmə əl atmağa onu sövq edir, zorən, istəmədən şeir yazmaq bir sənətkar kimi ona yaddır. Elə buna görə də ürəkdən qopub gələn, hər birinin ayrıca məna və emosional yükü olan misralarını həyəcansız oxumaq mümkün olmur:

Bu dünyanın hikmətini bilən az,
Bu dünyada ağlayan çox, gülən az.

Deyirlər ki, axar, axar, qurumaz,
Başdan-başa göz yaşıdı "Kərəmi".

Vətənimiz haqqında, daha dəqiq deyilsə, "Azərbaycan" mövzusunda yazmayan sənətkarımız, demək olar, yoxdur. M. Nağıqızının bu mövzuda çap etdirdiyi şeirlərinin hər biri orijinal məzmunu, söz seçimi baxımından ən tələbkar oxucunu belə razı salır:

Azərbaycan –
Qayalarından uca,
Yaşından da cavan,
Dünyadan qoca...

Azərbaycan –
Nəsil-nəsil doğuluşun,
Külündən yaranan,
Mənim səməndər quşum.

Ümumiyyətlə, şairin "vətən" anlayışının qavrayışında bir özünəməxsusluq var. Vətən onun üçün hər qarışı, hər isti münasibəti, ən kiçik incəlikləri də daxil – hər şeydir. Doğma torpağında təmasda olduğun, tapındığın hər şey vətənin əlaməti, işarəsi, canı və özəyidir. Bu fikirləri şair uğurla ümumiləşdirib və maraqlı deyim tərzində oxucusuna təqdim edib:

Bu vətən deyilən torpaq deyil ki,
Ananın dizinin yanı – vətəndir.
Başını qoymağa bir sinə varsa,
Ruhuna beşiksə, tanı, vətəndir.

Təbiət şeirlərinin Mahirə Nağıqızının yaradıcılığında ayrıca yeri və çəkisi var. Bu nümunələri mütaliə etdikcə təsvir olunanlar oxucunun gözlərinin qarşısında bir-bir canlanır, təsəvvürü konkretləşir. Səbəb aydındır: təsvir obyekti birbaşa müşahidənin, yaşantının nəticəsində kağıza yol tapıb, təsirli, səmimi şeirə çevrilib. Təsvir obyekti isə zümrüd meşə və geniş vadilər, yaşıl düzlər, zirvəsi qarlı dağlar, gül bitirən qayalar, insanları heyran edən çay və göllərdir. Şairin iti gözlərindən heç nə yayınmır, təbiətə məxsus nə varsa, ən kiçik incəliklərinə qədər onun diqqətini cəlb edir, özünəməxsus həssaslıqla onlara münasibət bildirir. Budur, çoxlarının nəzərinə çarpmayan, dağa söykənmiş qayada bitən, ən zəif mehdən belə titrəyən, belədən-belə yellənən zərif çiçək... Onun tükdən asılı olan, hər an qırıla bilən ömrü həssas şair qəlbində narahatlıq və həyəcan doğurur. Bu fikri özündən qovub uzaqlaşdırmaq istəyir:

Ah, zərif çiçəyi dağ qayasınınn,
Necə düşdün ora torpaqdan qıraq.
Əsən dağ yelləri insafmı bilir,
Əhdini kəsəcək, min iraq-iraq...

Hələ məsələnin başqa tərəfi də var: bu çiçək tənha, köməyə və müdafiəyə ehtiyacı olan insan timsalında başa düşülməsinmi? Fikrin ifadə tərzi də orijinallığı ilə seçilir. Fikir elə ustalıqla və gözləniməz söz tapıntısı ilə tamamlanır ki, oxucu müəllifin buna necə nail olduğunu aydınlaşdırmağa, araşdırmağa məcbur olur; zəif, zərif çiçəyin dəli dağ yelinə müqavimət göstərməyə gücü yetməz. Bu yelin qüdrəti maraqlı deyimlə – "dağ yelləri insafmı bilir" ifadə edilmiş, bunun müqabilində çiçəyin tavansızlığı da – "əhdini kəsəcək" diqqətə çatdırılmışdır. Sözçülüyə varmadan bu taleyin yaşanmaması arzusu da – "min iraq-iraq" ifadə edilmişdir. Beləliklə, bir neçə bənddə ifadə edilməsi gözlənilən fikir ikicə misrada ümumiləşdirilmişdir.

Təbiətimizin nadir incisinin – Göygölün şairin hiss və düşüncəsində yaratdığı assosiasiyalar təbiiliyi ilə, necə varsa, eləcə də sənətin ecazkar dili ilə ifadə edilib:

Bir sevda duyulur, neçə halı var,
Baxırsan, bilməzsən nə əhvalı var.
Tanrı peşkəşidi, cəh-cəlalı var,
Gəldim cəlalında üzüm Göygölün.

Heyran olacaq bura kim gələ,
Allahın evidir, diləyin dilə.
Dünyanı gəzsəm də mən innən belə,
Ruhum dalğalandı, izim Göygölün.

Obyekt – Göygöl rəngarəngliyi, gözəllik çalarları ilə duyulmuş, ürəyində istəyi, diləyi olanların ümid, pənah yeri kimi dəyərləndirilmişdir. Doğma təbiətin vurğunu olan şair bu gözəllikdən təsirlənir və oxucunu öz hisslərinə şərik etməyi bacarır. Bu, əlbəttə, asan deyil. Bu, hisslərin səmimiliyi, müşahidənin dəqiqliyi və bədii sözdən məharətlə istifadənin sayəsində mümkün ola bilər. Bunun üçün yüksək həssaslığın, dərindən duyan qəlbin olması vacibdir, əsasdır. Gördüyü mənzərəyə valeh olan sənətkar özündə yaranan ovqatı, təlatümlü hisslərini sanki həmin andaca kağıza köçürmüşdür:

Qartallar qıy vurur, qanadlarını
Açıb da dolanır elədən belə,
Sehrmi, ovsunmu... çaşıb qalmışam,
Gözəllik olurmu, tanrım, bir belə...

Maraqlı olan bir də budur ki, onun şeirlərində daha çox təbiətin fərqli fəsillərdə aldığı mənzərələr təsvir obyektinə çevrilmişdir. Budur, payızın sonlarıdır, təbiət qışa hazırlaşır. Baş verənlər və gözlənilənlər oxucunun təsəvvüründə dəqiqliklə canlandırılır:

Səhərdən başına dolanır duman,
Gizlədir, sanki var görkü dağların,
Bilməz ki, qar keçib yaxınlığından,
Olacaq əyninin kürkü dağların.

Məğrur görkəmiylə durub buludlar,
Bilməyə nə var ki, yükü qarıdır,
Bir azdan ələyib səpəcəyi qar
Dağların, düzlərin qış nübarıdır.

Poeziyamızda ana mövzusunda yazılan şeirlər az deyildir. Mahirə xanımın bu mövzuda qələmə aldığı silsilə şeirlər ilk növbədə gerçəkliyə söykənməsi və səmimi hissləri ifadə etməsi ilə seçilir. Həmin şeirlərin qəhrəmanı şairin anası olsa da, ümumiləşdirmə çox güclüdür. Mahalda adla deyilən, tanınan və hörmət edilən ana həm də analara məxsus keyfiyyətlərin daşıyıcısıdır. Evin bütün qayğıları çiynində olan bu ana istirahətin nə olduğunu bilmir. Yuxusuna haram qatan, həyat yoldaşına arxa, dayaq olan ana hər işin və hər kəsin yerini bilir. Evin, kənd həyatının bitib-tükənməyən qayğıları övladlarının təhsili ilə maraqlanmasına, gündəliklərini yoxlayıb dəyərləndirməsinə mane olmur, qədirbilən övlad yalnız illər ötəndən sonra ana əməyini, ana əzəmətini duyur, qiymətləndirir və dilə gətirir. Xüsusi olaraq vurğulanır ki, "ana bütün başqa cəhətləri ilə yanaşı, həm də doğma dil daşıyıcısı və söz-sənət rəmzi olmaq baxımından əziz və müqəddəsdir" (5, s.6).

Bu şeirlərin içərisində "Onun daş nağılı"nın ayrıca yeri var. Təkcə ona görə yox ki, əsərdə zəhmətkeş, (əzabkeş demək daha yerinə düşər), zəngin mənəviyyatı ilə seçilən ana obrazı yaradılıb, həm də ona görə ki, onun qədir-qiymətini bütün incəlikləri ilə dərk edən və layiqincə dəyərləndirən övlad obrazı canlandırılıb. Övlad atasına etibarlı dayaq, əmək və zəhmət yoldaşı olan, ağır işlərdən usanmayan anasının portretinin ilk cizgilərini cızır:

Atamla yanaşı daş qaldırardı,
Deyərdi, bu daşlar ocaq daşıdı.
Bezmədi, qəlbində nə gücü vardı,
Anam sinəsində ocaq qaladı.

Ananın həyatında heç bir iş hamar deyildir. Ehtiyac da olur, yoxluq da bəzən kandarda uzun müddət ilişib qalır. Ailəyə, onun varlığına sonsuz istək, bağlılıq, məhəbbət bütün bunların üstündən qələm çəkir, ananın mərdanəliyinə xələl gəlmir. Doğma ocaqdan, övladlarından güc-qüdrət alan ana darılmır, sınmır, geri çəkilməyi ağlına gətirmir:

Bir dəfə taledən gileylənmədi,
Tapdı ocağında, bizdə varlığı.

Yoxluğa sınmadı, yoxa enmədi,
Onu qorxutmadı daş ağırlığı.

Yaşa dolan övlad ananının keçdiyi həyat yolunun çətinliyini, bitib-tükənməyən əziyyətlərini tədricən anlayır. Aydınlaşdırdıqları, anladıqları onu dərindən heyrətləndirir, yaddaşına hopanları, kiçik qəlbində yuva salan xatirələri məhz indi, bəyan etməyə qadir olduğu məqamda dilə gətirir:

Xəbərim olmayıb süd əmməyimdən,
Bəlkə döşləri də daşıymış onun.
Əlini başıma çəkdiyi gündən,
Duydum əllərinin daş olduğunu.

Ağır əməkdə, gərgin zəhmətdə daşlaşmış ana əlləri dinclik bilmir, evin içində və çölündə eyni həvəs və mətanətlə iş görür. Bəlkə də elə bütün bunlar ona həmin daş əlləri ilə özünə sığal çəkməyi unutdurur. Dərindən mütəəssir olan övlad güman etdiyini oxucu ilə bölüşür:

O, daş əllərinnən durub o başdan,
Çöllərdə yavanlıq nə tapsa dərdi.
Bəlkə əllərinin daş olmağından
Utandı, özünə sığal vermədi.

Əməkdə bişən, bərkiyən ananın gördüyü işlər həm çox, həm də fərqlidir. Amma bütün bunları xüsusi səliqə, yüksək səriştə ilə icra edir. Səbəbi də aydındır: gəlinlik günlərindən bu işlərin içindədir:

Çörək bişirərdi, paltar yuyardı,
Corab toxuyardı o daş əlinnən.
Elə bil nə yatır, nə uyuyardı,
Beləcə yol gəldi gəlinniyinnən.

Artıq böyüyən, yaxşı-yamanı ayırd edən övlad üçün ana indi ən munis tərəfdaş, dərk edilmiş müqəddəs varlıq, sarsılmaz qaya timsalındadır:

Dərdini deyəndə qımqımasıynan
Gözündən bir dəfə yaş asılmadı.
Daşıdı daşları ağırlığıynan,
Amma ürəyində daş asılmadı.

Ana obrazı sənətkarın şifahi xalq ədəbiyyatının təsiri qələmə aldığı əsərlərində mənəvi gözəlliyi, kamilliyi ilə diqqəti cəlb edir. Ana öz dərdləri baş-başa qalanda da gözəl insani keyfiyyətlərindən, xeyirxahlığından uzaqlaşmır. Ana vaxtsız oğul, qardaş itirib. "Bu dərdin bədii ifadəsində də müəllif ənənəni yaddan çıxarmır, qardaş mövzulu bayatılarımız üstündə köklənib öz sözünü deyə, nisgilini təsirli şəkildə oxucuya çatdıra bilir (5, s.7).

Mahirə Nağıqızının şeir dili o səviyyədə aydın və axıcıdır ki, canlı danışıq dilinə maksimum yaxınlığı ilə diqqəti cəlb edir. Bu, bir tərəfdən əsərlərinin bədii-estetik səviyyəsini yüksəldir, digər tərəfdən oxucunun

emosional-obrazlı qavrayışına əhəmiyyətli təsir edir. Əlbəttə, bütün bunlarda, az əvvəl qeyd edildiyi kimi, bilavasitə gerçəkliyin müşahidə və təsvir edilməsinin də mühüm rolu vardır.

Mahirə xanımın yaradıcılığında müşahidə edilən mühüm bir cəhət, artıq qeyd edildiyi kimi, Qərbi Azərbaycanda ərsəyə gələn ədəbiyyatla yaxından səsləşmələrin çoxluğudur. Bu, ənənə və gerçəkliyin, baş verən tarixi-siyasi hadisələrin dərindən öyrənilməsi, bilavasitə müşahidə edilməsinin nəticəsi kimi dəyərləndirilməlidir.

Qərbi Azərbaycan bölgəsində yaranan ədəbiyyat nümunələrinin, demək olar, hamısında milli-mənəvi dəyərlərin yüksək səviyyədə əks olunduğunu görmək mümkündür. Vətənə, xalqa, elə, obaya bağlılıq, ədəb-ərkan, ata-anaya, böyüyə hörmət, insanpərvərlik, xeyirxahlıq, adət-ənənəyə ehtiram bölgədə yaranmış ədəbi-bədii nümunələrin əsasında dayanır. Bütün bunlar yaradıcılığı mövzu rəngarəngliyi ilə seçilən Mahirə Nağıqızının əsərlərində öz parlaq ifadəsini tapmışdır. Onun Vətən mövzusunda yazdığı silsilə şeirlər diqqəti xüsusilə çəkir. Vətənimizin keşməkeşli tarixi, bədnam qonşuların vandallıq nümunəsi olan əməlləri, yerindən, yurdundan qaçqın, köçkün düşən insanlarımızın mənhus taleyi və nəhayət, həqiqətin, haqqın öz yerini tapacağına dərin inam bu qəbildən əsərlərin ideya məzmununu təşkil edir. Bu əsərləri yazılma ardıcıllığı ilə mütaliə edən oxucunun gözləri qarşısında xalqımızın keçdiyi yaxın tarixi yol canlanır. Qərbi Azərbaycanda baş verən faciəli hadisələr bu yolun başlanğıcıdır:

Yolun cığır, özüm açdım,
Xain müxənnətdən qaçdım.
Diləyim şahin tək uçdu,
Ki sinənə qona sənin.

Gözüm qarında qalmadı.
Dövlət, varında qalmadı.
Heç kim yadında qalmadı,
Deyəm, qəlbin yana sənin

Nankor qonşular növbəti addımda nifaqı ölkəmizin daxilində törədirlər:

Elə bil dünəndir, qaynayır Bakı,
Vətəni çulğayan Şərə dur – deyir.
Topxana qırılır, əsirdi Kərki,
Kremlə qanları dayandır – deyir.

Daha sonra isə əsrin faciəsi – Xocalı qətliamı törədilir:

26 fevralda
Zamanı mat qoydular,
İblis xislətli kəslər

İnsan donundaydılar.
Dünyaya göstərdilər,
Vəhşi nə təhər olur,
İnsan vəhşi olanda.
Vəhşidən betər olur.
O gecə Xocalıda
Daş-divar güllələndi,
adamlar güllələndi,
ağaclar güllələndi.

Uzun illər düşmən tapdağı altında qalan yaralı Vətən torpaqları şairin dilindən düşmür:

Qan axan yarana gözüm yaşını,
Dərman əvəziydi, səpələdim mən.
Bu da bir sınaqdı, əymə başını,
Sınıq əhvalına dözə bilmərəm.

Vətənin düşmən əsarətində qalmayacağına dərin inamı olan şair nə vaxtsa doğma yurdun xilası üçün əmrin veriləcəyinə inanır:

Düşmən tapdağında qalmaz bir qarış,
Onlarsız yaşamaq olar dan bizə.
Danış olanlardan, bizə sən danış,
Əmrini verəcək Komandan bizə!

Bu, baş verir. İkinci Qarabağ müharibəsinin ilk günlərindən qələbəyə sonsuz inam bəsləyən Mahirə xanım Nağıqızı qələmə sarılır, əsgərlərimizi ruhlandıran və bir-birindən maraqlı, təsirli şeirlər yazır:

Cəbrayılda qaldırdığın bayrağın,
Əsgər, sənin, dörd bir yandan görünür.
Uzaq deyil can atdığın oylağın,
Beş addımda, Zəngilandan görünür.

Ali Baş Komandanın sərkərdəliyi ilə müharibədən qalib çıxmış ordumuza çoxsaylı oxucularının salamını ilk çatdıran sənətkarlardan biri də Mahirə xanım Nağıqızı oldu:

Ələm idi, qüssə idi hər çağımız,
Otuz ildən sonra güldü növrağımız,
Dalğalandı Şuşada al bayrağımız,
Qurban olum, hamınıza salam olsun!

Tarix üçün çox qısa, bizim üçünsə möhtəşəm və uzun yolun sonunda unudulmazlar – şəhidlərimizin xatirəsi Mahirə Nağıqızın yaradıcılığında – səmimi, yanğılı bir dillə əbədiləşdirilir:

Burdan yavaş gedin, asta keçin,
Qəbirlər titrəyər, daş dinə bilər.

Bir güllə gücünə sükut olanlar,
Bir addım səsinə diksinə bilər.

Boy vermiş məzarın qəbir daşları,
Bir ömrün daşlaşan arzu-kamıdır.
Onların sağlığı döyüşən əsgər,
Məzarı – vətənin istehkamıdır.

Son illərdə Mahirə Nağızının yaradıcıığında irihəcmli əsərlərə meyil güclənib. Həmin nümunələrdə süjet-kompozisiya bitkinliyinə nail olunması bu istiqamətdə fəaliyyətin davamlı və faydalı olacağından xəbər verir.

## ƏDƏBİYYAT


1. *Mirzəyev H.* Dərələyəz folkloru. Bakı: Elm, 2006, 768 s.
2. *Nağıqızı M.* Salam olsun. Bakı: ADPU, 2020, 142 s.
3. *Nağıqızı M.* Onun daş nağılı. Bakı: ADPU, 2020, 419 s.
4. *Nağıqızı M.* Lövbər adam. Bakı: ADPU, 2022, 255 s.
5. *Nağıqızı M.* Yanından keçmə dağların. Bakı: ADPU, 2021, 312 s.


Redaksiyaya daxil olub 15.10.2024

Pedaqoji Universitetin Xəbərləri. Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası –2024, C.72, №3,s. 67-73
Transactions of Pedagogical University. Series of humanitarian, social, pedagogical and psychological sciences – 2024, V.72, №3, pp. 67-73

*UOT 82.(091)*

***Ş.N.Məmmədova***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*sohret.nesirova24@gmail.com*

# İSMAYIL ŞIXLININ ƏFSANƏ VƏ RƏVAYƏTLƏRİNİN ETNOKULTUROLOJİ SEMANTİKASI

https://doi.org/10.30546/170899876.72.03.2024.16

***Açar sözlər:*** *İsmayıl Şıxlı, əfsanə, rəvayət, nağıl, məsəl, hekayə, uşaq ədəbiyyatı*

İyirminci yüzillik Azərbaycan bədii nəsrinin görkəmli şəxsiyyətlərindən olan İsmayıl Şıxlının yaradıcılığında mühüm bir hissəni əfsanə və rəvayətləri təşkil edir. Milli özünüifadənin ən möhtəşəm düşüncə kodu olaraq diqqət önünə gələn xalq yaradıcılığı bütün parametrlərdə ədəbiyyatın yazılı qolu üçün qaynaq funksiyasını yerinə yetirmişdir. Dünya ədəbiyyatının qüdrətli sənətkarları folklorun zənginliklərindən istifadə etməklə bir-birindən maraqlı örnəklər yaratmışlar. Azərbaycan ədəbiyyatı tarixində də klassiklər əfsanə, rəvayət, mif, nağıl, bayatı, layla, oxşama, xalq mərasimi, uşaq oyunları, epos, dastan və s. nümunələrdən bəhrələnməklə özlərinin dünya şöhrətli əsərlərini geniş oxucu kütləsinə təqdim etmişlər. Həmin şedevrlər zamansızlıq sərgiləyərək əbədiyaşarlıq qazanmışlar. “Məni itirməyin”, “Sənə “aslanım” deyən”, “Dəvəçi”, “Şahın oğlu”, “İlğım”, “Ruzi”, “Keçəçi”, “Bəs zınqırovu kim asacaq”, “Xasiyyətimdir”, “Belə məmləkətdə”, “Qara at” ,”Qonaq”, “Çiskin”, “Qızıl ilan”, “Mənim rəqibim” və s. bütün formulu və məzmun xətti etibarilə etnik kimliyin mükəmməl ifadə modeli olaraq orijinallıq sərgiləyir.

***Ш.Н.Мамедова***

## ЭТНОКУЛЬТУРОЛОГИЧЕСКАЯ СЕМАНТИКА ЛЕГЕНД И ПРЕДАНИЙ ИСМАИЛА ШИХЛИ

***Ключевые слова:*** *Исмаил Шихлы, легенда, повествование, сказка, притча, рассказ, детская литература*

Легенды и предания составляют важную часть в творчестве Исмаила Шихлы, одного из выдающихся деятелей азербайджанской литературной прозы XX века. Народное творчество, вышедшее на передний план как величайший мыслительный код национального самовыражения, во всех отношениях выполняло функцию источника письменной отрасли литературы. Могучие деятели мировой литературы, используя богатства фольклора, создали один за другим интересные образцы. В истории азербайджанской литературы классики обогащаясь легендами, преданиями, мифами, сказками, колыбельными, народными обрядами, детскими играми, эпосами,

повествованиями и другими образцами, они представили широкой публике свои всемирно известные произведения. Эти шедевры обрели вечную жизнь, продемонстрировав вневременность. «Не теряй меня», «Тот, кто называет тебя «мой лев», «Девачи», «Сын короля», «Ильгим», «Рузу», «Кечачи»,» Кто повесит колокольчик», «Это мой персонаж», «Бела мамлакета», «Черный конь», «Гость», «Чискин», «Золотая змея», «Мой противник» и др. демонстрируют оригинальность как идеальная модель выражения этнической идентичности во всей своей формуле и содержательной линии.

***Sh.N.Mammadova***

**ETHNO-CULTURAL SEMANTICS OF LEGEND AND NARRATIVES ISMAIL SHIKHLI**

***Keywords:*** *Ismayil Shikhli, legend, narrative, fairy tale, parable, story, children's literature*

Legends and legends form an important part in the work of Ismayil Shikhli, one of the prominent personalities of the twentieth-century Azerbaijani literary prose. The national creativity, which has come to the fore as the most magnificent thought code of national self-expression, has fulfilled the function of source for the written branch of literature in all parameters. Powerful artists of world literature have created interesting examples of each other by using the riches of folklore. In the history of Azerbaijani literature, classics are legends, narratives, myths, fairy tales, stale, lullabies, folk ceremonies, children's games, epics, epics, etc. benefiting from examples, they presented their world-famous works to a wide audience. Those masterpieces have gained eternal life by exhibiting timelessness. "Don't lose me", "He who calls you "my lion", "Devachi", "Son of the king", "Ilgim", "Ruzu", "Kechachi", "Who will hang the bell", "It is my character", "Bela mamlaketa", "Black horse", "Guest", "Chiskin", "Golden snake", "My opponent" etc. exhibits originality as a perfect expression model of ethnic identity in its entire formula and content line.

## Giriş

Folklor və yazılı ədəbiyyat bütün səviyyələrdə öz paradiqmatik xarakteri ilə qarşılıqlı bağlantılara, ciddi mədəniyyət və mənəviyyat təsəvvürlərinə dayanır. Müxtəlif zaman kəsiklərində yaşamış sənətkarlar öz imkanları daxilində xalq yaradıcılığından süjet, motiv, hadisə, üslub səviyyəsində bəhrələnməklə nümunəyə çevrilmişlər. Etnosun gerçəklik haqqında təsəvvürlərini sərgiləyən bədii örnəklər tərbiyəvi mahiyyəti ilə gənc nəslin formalaşmasına funksional təsir göstərə bilmək xarakteri ilə spesifikləşir. Yaradıcı şəxsiyyəti və onun idealları, toplum səviyyəsində təqdim elədiyi əhvalat və hadisə axarı metamodel kontekstində sakral və profan dünyanın etnokulturoloji sistemə dayanan semantik qatını əhatələmək gücü və istəyi ilə

özünü göstərir. İ.Şıxlının əfsanə və rəvayətləri bu baxımdan sinxron və diaxron yanaşmalarda əsaslı müəyyənliklə diqqət önünə gəlir.

**Arxaik qat, ritual-mifoloji səciyyə**. Ümumiyyətlə, arxaik qat, ritual-mifoloji səciyyə bütün formulu ilə etnik kimliyin ana axarını ehtiva etmək baxımından əsaslı bir müəyyənliklə özünü nümayiş etdirir. Bunlar isə kanonik formulu və struktural məzmunu ilə bütün parametrlərdə etnopotensiya olaraq təkrarlanmalarla spesifikləşir. Əhvalat, hadisə, işarəvi mədəniyyət kodu səviyyəsində bir bazis funksiyasında çıxış edir. Qavramın psixoanalitik proyeksiyası təhtəlşüur səviyyəsində etnokulturoloji sistemin semantik çalarlarını özündə ehtiva etmək gücü ilə spesifikləşir. Folklor və yazılı ədəbiyyat kontekstində bir müəyyənlik etalonu olaraq özünü nümayiş etdirir. İ.Şıxlının əfsanə və rəvayət adı ilə təqdim etdiyi hekayələr bunun tipik örnəyidir. Məlum olduğu kimi, "folklor yazılı ədəbiyyatın yaranması və inkişafı üçün ən əsas mənbələrdən biridir. Bütün dünya ölkələri şairlərinin ən yaxşı əsərləri xalqın kollektiv yaradıcılıq xəzinəsindən götürülmüşdür. Azərbaycan ədəbiyyatı çox qədim zamanlardan başlayaraq şifahi xalq ədəbiyyatı ilə bağlı inkişaf etmişdir. Xaqani, Nizami, Nəsimi, Xətai, Füzuli, Məhsəti, Vaqif və başqalarının yaradıcılığında bunu aydın görürük.

Azərbaycan ədəbiyyatı tarixində folklor və yazılı ədəbiyyatın bir-birindən istifadəsi, qidalanması qarşılıqlı olmuşdur" (1, s.465-466). İ.Şıxlı bütün ruhu, təfəkkür intellekti və düşüncə tərzi etibarilə xalqın zəngin etnokulturoloji mükəmməlliyinin nümunəsinə çevrilir. Onun şəxsiyyət kimi formalaşdırdığı təsəvvür, eləcə də bir-birindən maraqlı ədəbiyyat abidələri bütün aspektlərdə bədii-estetik, tarixi-fəlsəfi, siyasi-ideoloji müəyyənliyin hadisəsi timsalında bir əlçatmazlığı nümayiş etdirir. "Dəvəçi", "Sapı özümüzdəndir", "Xasiyyətimdir", "Məni itirməyin" və s. kimi əfsanə və rəvayətlər öz qaynağını məhz xalq yaddaşında olan zənginlikdən götürməklə bir məsəl səviyyəsində nümunəyə çevrilmişdir. "İsmayıl Şıxlı yaradıcılığının əsas istiqamətlərindən biri əfsanə və rəvayətlər əsasında yazdıqlarıdır. O, xalq arasında yayılmış əfsanə və rəvayətləri mövzu kimi seçmiş, bu mövzulara yeni nəfəs vermiş, poetik, oxunaqlı bir formaya salmış, Azərbaycan dilinin, eləcə də söz sənətinin imkanları baxımından işləmişdir. İsmayıl Şıxlı burada xalqdan öyrəndiklərini xalqın özünə qaytarmaqla həm xalqın yazdıqlarını yaşatmış, həm də özünün bədii təxəyyülünü əsl yazıçı səviyyəsində təqdim etməyi bacarmışdır. Bu əfsanə və rəvayətlərin hər birinin adı arxasında dərin fəlsəfə durur. Elə bir həyat fəlsəfəsi ki, hər bir kəsin taleyinin içindən keçir.

Xalqın müdrikliyindən qidalanan, elin köksündəki söz zirvələrindən qanadlanan ayrı-ayrı əhvalatlar İsmayıl Şıxlının sənətkar qələmində müasir məzmun kəsb edir, böyük fəlsəfi məna qazanır" (6, s.9). Bir istiqamətdə uşaq ədəbiyyatının zənginliyinə bağlanan bu nümunələr həyatı dərk və

qavram baxımından ciddi bir təsirediciliyi sərgiləyir. Müxtəlif zaman kəsiklərində dərsliklərə salınan bu tip örnəklər tərbiyəvi mahiyyəti, fundamental təsiredicilik funksiyası ilə əsaslı təsəvvürə yüklənir. “Dağların zirvəsində dolaşan qara buludlar qəflətən sıxlaşıb ətəyini salladı. Dərələrin, meşələrin üstü ilə səhralara yeridi. Əvvəlcə dağların sinəsinə, sonra isə düzənliklərə qaranlıq çökdü. Şiddətli külək xəzəli, toz-torpağı göyə sovurub uğultu ilə çölə yaydı. Göy şaqqıldadı, şimşək çaxdı, sellər-sular oyandı. Dəliqanlı dağ çayları köpüklənib yatağından çıxdı, qayalara çırpılıb buruldu, şişib gölləndi və birdən özünə yol açıb səhralara üz tutdu. Aşağılarda, təkəmseyrək gözə dəyən insan məskənlərində haray qopdu, arvad-uşaq daxmalardan bayıra töküldü, mal-qara xalxallarda çaxnaşıb-böyürüşürdü, atlar yallarını pırpızlandırıb qulaqlarını şəklədilər, itlər üzlərini göyə tutub zingiltili səslə uzun-uzun ulaşdı. Hamı dedi ki, fəlakət var, göylərdən bəla gəlir.

Müdrik qocalar uğultunun yaxınlaşdığını hiss edib əl-ayağa düşdülər:

-Atların çidarını açın!

-Mal-qaranı təpələrə haylayın!

-İtləri zəncirdən buraxın!

-Özünüz də təpələrə qaçın!

Analar körpələrini dallarına şələlədilər, uşaqlar əl-ələ yapışdılar, təpələrə, dikdirlərə üz tutdular” (7, s.13-14**).** Göründüyü kimi, təhkiyə elementlərinin mətn//mətn səviyyəsində sərgilədiyi təsəvvür stixial xarakteri ilə bilgi verməyə, yüksək yaradıcı intelleksiyası ilə etnoqrafik düşüncədə olan təsəvvürləri təqdimə yüklənir. İ.Şıxlı xalq yaddaşında olanlardan çıxış edərək təbii fəlakətdən qorunuş təsəvvürünü sel timsalında təqdim etməklə kifayətlənmir, onun digər tərəfində odun törətdiyi acılar timsalında yaşananlar dayanır. “Göy yenidən şaqqıldadı. Elə bil səma ortadan buz kimi çatlayıb qırıldı və əyri-üyrü yarıqların arasından göz qamaşdıran od püskürdü. Bu odlu zolağın bir ucu yerə sancılıb xeyli titrədi. Ətrafdakı hənirtidən qarsalandılar. Nə isə çatırdadı, alov qarışıq tüstü göyə ucaldı.

Təpəyə pənah gətirənlər alışan üfüqlərə baxdılar. Meşələr od tutmuşdu, çatırtıdan qulaq batırdı, alov ərşə dirənmişdi.

-Allah, sən saxla, başımıza göydən od yağdırma” (7, s.13-14). Selin və odun törətdiyi fəlakət və onun xalq təsəvvüründə işarələdiyi mifoloji lay, semantik qatın ortaya qoyduğu təsəvvür “amiranə bir səs”in ehtişamında bir başqa mənzərəni “mən vicdanam”ı və onun polifonik qatındakı məzmunu açıqlayır. “Ayrılmaq vaxtı idi. Vicdan əlini dostlarının çiyninə qoyub soruşdu:

-İşdir, birdən bir-birimizi itirsək, necə tapışacağıq?

Su gülə-gülə dilləndi:

-Harda çəmənlik, yaşıllıq görsəniz, məni orda axtarın.

Od dedi:

-Harda ocaq, bacalardan burulub çıxan tüstü görsəniz, bilin ki, ordayam. Bəs səni itirsək, necə tapaq, ay vicdan?

Vicdan köksünü ötürüb üfüqlərə baxdı və titrək səslə dilləndi:

-Amanın günüdür, məni itirməyin, itirsəniz, bir də tapa bilməzsiniz" (7, s.18-19). Son dərəcə əsaslı müəyyənliyə, xalq təsəvvüründə dünyanın o başından bu başına qədər olanların zamansız faktlarına bağlanan bu düşüncə mətn informasiyasında əsaslı bir əxlaqa, mənəviyyat koduna yüklənir. Yaradıcı şəxsiyyəti və xalq müdrikliyi etnik işarələnmənin mükəmməl formulu olaraq "məni itirməyin" timsalında bir fəlsəfi modeli, ilkinlikdən bu yana gələn təsəvvürü öz içinə alır.

**Yaradıcı özünəməxsusluğu və yazıçı şəxsiyyəti**. "Sapı özümüzdəndir", "Dəvəçi", "Keçəçi", "Xasiyyətimdir" və s. əfsanə və rəvayətlərin sərgilədiyi mənzərə uşaqların, yeniyetmələrin, gənclərin və bütün yaş dövrlərinin örnəyi olaraq tərbiyəvi məzmunu ilə spesifikləşir. "Bu gün quşlar lap tezdən oyanmışdılar. Dan yerinə çəhrayı rəngli gümüş işıq çilənib üfüq qızaranda artıq onların səsi meşə yarpaqlarının həzin xışıltısına qarışmışdı. Dünənki yağışda çimib tərtəmiz yuyunmuş çiçəklərin ləçəkləri arasında elə bil səhər-səhər mirvari səpələnmişdi. Meşə xoruzlarının, qırqovulların sinəsi, saçaqlı quyruqları alışıb yanırdı. Günəşin qızılı şüalarını, göy qurşağının əlvan zolaqlarını, deyəsən, xaliq özü onların boynuna dolamışdı.

Ağacların sultanı, dünyanı yorub yola salmış qoca palıd da tezdən oyanmışdı. O, səhər küləyinin dağlardan qovub gətirdiyi, sərin bulaq suyu kimi diş göynədən təmiz havasını ciyərlərinə çəkib qulaq asırdı. Qumru quşları qoşalaşıb naz-qəmzə ilə çəmənlikdə dolaşırdılar" (7, s.19). Epik təhkiyə xalq düşüncəsində qəlibləşmiş normativlərdən çıxış etməklə təqdim üsullarının özünəməxsusluğu səviyyəsində yazıçı dünyagörüşünü, yaradıcı imkanlarını diqqət önünə gətirir. Xalqın zəngin folklor mədəniyyəti min illərin təcrübəsinə əsaslanaraq atalar sözü, məsəl səviyyəsində ciddi bir müəyyənliyə bağlanır. "Sapı özümüzdəndir" ifadəsi də baş verənlər kontekstində əsaslı bir təsəvvürü özündə ehtiva edir. Bir növ yazıçı bu qənaəti "sapı özümüzdəndir" timsalında mükəmməl bir yaddaş səviyyəsində canlandırır. Xəyanətin, baş verənlərin haram əl qatılması səviyyəsində uğursuzluğunun mahiyyətini açıqlayır. Bütün bunlar baxımından yazıçı yüksək yaradıcı intelleksiyası ilə məsəl, atalar sözü kontekstində işləklik qazanmış bir ifadənin açımını bütün zamanlar səviyyəsində açıqlamaqla örnəyə çevirir. "Çaparlar yola düşdülər. Gecəli-gündüzlü üç gün yol getdilər və həftənin axırında geri döndülər. Qoca palıd onların sir-sifətindən başa düşdü ki, pis xəbərlə gəliblər, yoxsa belə məlul-məhzun olmazdılar. Çaparlardan biri cəsarətlə dedi:

-Baba palıd, meşəni qırırlar.

-Kim?

-Balta.

-Balta nədir?

-Əl boyda dəmir parçasıdır. Par-par parıldayan almaz kimi iti ağzı var.

Qoca palıd fikrə getdi. Qayğılı-qayğılı saqqalını qaşıdı:

-Bu əl boyda dəmir parçası ağacı necə kəsir, axı?

Çaparlardan o biri sözə qarışdı:

-Düz deyirsiniz, baba palıd, sap olmasa, bizə heç nə edə bilməzlər.

Qoca palıdın səsi titrədi və təşvişlə soruşdu:

-Baltanın sapı nədəndir?

-Ağacdan.

-Onda bizi qıracaqlar.

-Niyə?

-Çünki sapı özümüzdəndir" (7, s.22). Əfsanənin etnokulturoloji semantikası şüuraltı hadisə səviyyəsində yüksək təsiredici xüsusiyyəti ilə əsaslı bir yaddaş bilgisini ehtiva edir. Ümumiyyətlə, "əsatiri izlər folklorumuzun epik janrlarında az və ya çox şəkildə yaşamaqdadır. Əfsanələrimizdə xalq təfəkkürünün mifoloji izləri aydın görünməkdədir" (11, s.272). Atalar sözü, məsəl, nağıl, dastan, təmsil, bayatı, şərqi, xalq mərasimləri və s. müxtəlif kontekstlərdə toplum təsəvvürünə, əldə etdiyi təcrübənin sərgilədiyi fakta, baş verənlər timsalında gəlinən qənaətlərin normativ olaraq qəlibləşmələrinə bağlanır. Yuxarıdakı əfsanə də "sapı özümüzdəndir" timsalında əsaslı bir müəyyənliyə, insanların qarşılaşdığı reallığa yüklənir. "Hər bir gənc nəslin qarşısında iki çox mühüm vəzifə durur:

a) yaşlı nəslin ictimai və sosial inkişaf tarixinin topladığı bilikləri və təcrübələri mənimsəmək:

b) özünü gələcək həyata hazırlamaq və həyata özünün biliklərini, ixtira və kəşflərini əlavə etmək" (8, s.7). Xalqın zəngin yaradıcılığı və formalaşdırdığı təsəvvür atalar sözü, məsəl, yanıltmac, tapmaca, əfsanə, rəvayət, nağıl və s. səviyyəsində ortaya qoyduğu bilgilərlə həyatı dərkə, etnik müəyyənliyin işarələdiyi məzmuna bağlamaqla həm də şəxsiyyət kimi formalaşma baxımından əsas olur. "Xasiyyətimdir" əfsanə, rəvayət olma aspektində əqrəbin xarakterini lazımı qədər ustalıqla diqqət önünə gətirir. "Əqrəb və əqrəblik" kontekstində yaşananların nümunəsi olaraq ümumiləşdirilir. Etdiyi xeyirxahlıqlar müqabilində əqrəbdən ölümcül zərbə alan tısbağa son dəfə gücünü toplayıb suyun üzünə qalxaraq deyir:

"-Məni niyə çaldın, ay namərd?

Əqrəb üzünü artıq gözləri tutulan və asta-asta suyun dubunə enən tısbağaya çevirdi.

-Məndən incimə, qardaş, xasiyyətim belədir, çalmasam, dura bilmərəm" (7, s.88). İ.Şıxlının əfsanə və rəvayətləri bütün parametrlərdə xalq müdrikliyindən gələnlərə hesablanır və məsəl səviyyəsində orijinal düşüncə ilə bilgi verməyə, gənc nəslin etnokulturoloji dəyərlər səviyyəsində formalaşmasına köklənir.

**Nəticə**

Folklorun bir yaddaş hadisəsi olaraq sərgilədiyi təsəvvür üfüqi və şaquli səviyyədə etnik özünüifadənin örnəyi olaraq həm məzmun qatı, həm də bədii-estetik formulu ilə əlçatmazlığı özündə ehtiva edir. İ.Şıxlı da yaradıcılığında bunlardan bəhrələnməklə ədəbiyyatımıza özünün əvəzsiz töhfələrini vermişdir. Əfsanə, rəvayət səviyyəsində təqdim olunan bu epizodlar mətn və mühit kontekstində yüksək yaradıcı intelleksiyası ilə orijinallıq sərgiləyir. Yaradıcı imkanlarını, epik təhkiyənin folklordan gələn çeşidli mexanizmlərini və təsiredicilik funksiyasını bir bütöv olaraq əks etdirməklə yeni məzmun və çalarda yaşarlılıq qazanır. Bütün bunlar sənətkar istedadının nümunəsi olaraq tərbiyəvi mahiyyəti ilə əvəzsizlik qazanır.

**ƏDƏBİYYAT**


1. *Əfəndiyev P.* Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı: Maarif, 1992, 477 s.
2. *Xəlil* Z., Əsgərli F. Uşaq ədəbiyyatı. Bakı: ADPU, 2011, 498 s.
3. *İsmayılova M.* XIX əsrin sonu və XX əsrin əvvəllərində Şamaxıda təhsil və pedaqoji fikrin inkişafı. Bakı: Elm və təhsil, 2012, 184 s.
4. *Məmmədov M., Babayev Y., Salamoğlu T.* Pedaqoji mühit və ədəbiyyatı. Bakı: Maarif, 1992, 288 s.
5. *Namazov Q.* Azərbaycan uşaq ədəbiyyatı. Bakı: Bakı Universiteti, 2007, 444 s.
6. *Şıxlı E.* Ön söz. Şıxlı İ. Məni itirməyin. Bakı: TEAS Press, 2018, s. 7-10.
7. *Şıxlı İ.* Məni itirməyin. Bakı: TEAS Press, 2018, 412 s.
8. *Talıbov Y.R., Ağayev Ə.A. və b.* Pedaqogika. Bakı: Maarif, 1993, 292 s.
9. *Tahirli Z.* Böyük Vətən müharibəsi illərində Azərbaycan uşaq şeiri. Bakı: Azərnəşr, 1991, 182 s.
10. *Tofiq M.* Mirvarid Dilbazi // Göyərçin, Bakı, 1972, №1, s.7-12
11. *Vəliyev V.* Azərbaycan folkloru. Bakı: Maarif, 1985, 414 s.
12. *Yusifoğlu R.* Uşaq ədəbiyyatı, Bakı: Şirvan, 2006, 268 s.
13. Uşaq ədəbiyyatı məsələlərinə dair Ümumittifaq müşavirəsi / "Ədəbiyyat" qəz., Bakı, 1952, 25 aprel
14. Uşaq ədəbiyyatını günün tələbləri səviyyəsinə /Azərbaycan kommunisti, Bakı, 1979, № 1
15. *Uşinski* K.D. Seçilmiş pedaqoji əsərləri. Bakı: Azərnəşr, 1953, 314 s.


Redaksiyaya daxil olub 18.07.2024

Pedaqoji Universitetin Xəbərləri. Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası –2024, C.72, №3, s. 74-82
Transactions of Pedagogical University. Series of humanitarian, social, pedagogical and psychological sciences – 2024, V.72, №3, pp. 74-82

# İctimai elmlər

*UOT 316.3*

***N.Ə.Hüseynova***
*Azərbaycan Dillər Universiteti*
*nigar.huseynova@gmail.com*

## MÜASİR AZƏRBAYCAN MƏDƏNİYYƏTİNİN İNKİŞAFINDA TOLERANTLIQ PRİNSİPLƏRİNİN ROLU

https://doi.org/10.30546/170899876.72.03.2024.19

***Açar sözlər:*** *milli mədəniyyət, inkişaf, tolerantlıq prinsipləri, ənənəvi və müasir mədəniyyət, geosiyasi mərkəz, güclü dövlət, milli özünüdərk*

Məqalədə Azərbaycanın milli mədəniyyətində tolerantlıq ideyalarının Azərbaycan cəmiyyətinə nüfuz edərək, milli özünəməxsusluq, identiklik, mədəni müxtəliflik və plüralizm kimi dəyərlərin gerçəkləşməsinə səbəb olması problemləri sosial-fəlsəfi aspektdən araşdırılır. Tədqiqatda ölkəmizin mövcud mədəni müxtəlifliyin vəhdətinə, tolerantlığına, humanizminə görə dünyanın ən nadir məkanlarından birinə çevrilməsi prosesi, burada yaşayan müxtəlif xalqların ortaq mədəniyyətinin milliliklə ümumbəşəriliyin, unikallıqla universallığın sintezinə əsaslanması prinsipləri, tarixən formalaşmış müxtəlif mədəniyyətlərin müasir dövrdə daha yüksək inkişaf mərhələsinə qədəm qoyması və bu qəbildən olan digər problemlər sosial-fəlsəfi kontekstdə təhlil edilir.

Tədqiqatın məqsədi müasir Azərbaycan mədəniyyətinin inkişafında tolerantlıq prinsiplərinin rolunu sosial-fəlsəfi aspektdən araşdırmaqdır.

Məqalədə sistemli, dialektik metodlardan, qarşılıqlı əlaqədə olan nəzəri, mədəni, siyasi yanaşmalardan istifadə edilmişdir.

***Н.А.Гусейнова***

## РОЛЬ ПРИНЦИПОВ ТОЛЕРАНТНОСТИ В РАЗВИТИИ СОВРЕМЕННОЙ АЗЕРБАЙДЖАНСКОЙ КУЛЬТУРЫ

***Ключевые слова:*** *национальная культура, развитие, принципы толерантности, традиционная и современная культура, геополитический центр, сильное государство, национальная идентичность*

В статье рассматриваются социально-философские аспекты идеи толерантности в национальной культуре Азербайджана, проникновения в азербайджанскую общину и реализации таких ценностей, как национальная идентичность, самобытность, культурное разнообразие и плюрализм. Процесс превращения нашей страны в одно из редких мест в мире благодаря единству,

терпимости и гуманизму существующего культурного разнообразия основан на принципах общей культуры разных народов, живущих на основе синтеза национальностей и анализа других проблем в социально-философском контексте.

Цель исследования – изучить роль принципов толерантности в развитии современной азербайджанской культуры с социально-философского аспекта.

В статье использованы системные, диалектические методы, взаимосвязанные теоретические, культурологические, политические подходы.

***N.A.Huseynova***

## THE ROLE OF THE PRINCIPLES OF TOLERANCE IN THE DEVELOPMENT OF MODERN AZERBAIJANI CULTURE

***Keywords:*** *national culture, development, principles of tolerance, traditional and modern culture, geopolitical center, strong state, national identity*

The article examines the socio-philosophical aspects of the idea of tolerance in the national culture of Azerbaijan, penetration into the Azerbaijani community and the implementation of such values as national identity, identity, cultural diversity and pluralism. The process of turning our country into one of the rare places in the world due to the unity, tolerance and humanism of the existing cultural diversity is based on the principles and principles of the common culture of different peoples living on the basis of nationality and synthesis. Other problems are analyzed in a socio-philosophical context.

The purpose of the study is to investigate the role of the principles of tolerance in the development of modern Azerbaijani culture from a socio-philosophical aspect.

Systematic, dialectical methods, interrelated theoretical, cultural, political approaches were used in the article.

**Giriş.** Qərblə Şərqin, müxtəlif sivilizasiyaların qovşağında yerləşən müasir Azərbaycanda əsrlər boyu mədəni müxtəliflik mühiti, zəngin milli mədəniyyət formalaşmışdır. Dünyaya nümunə olan bu ölkədə müxtəlif mədəniyyətlərin nümayəndələri qarşılıqlı anlaşma, dinclik və dialoq şəraitində yaşayırlar. Təsadüfi deyildir ki, azərbaycanlılara tarixən xas olan tolerantlıq milli mədəniyyətindən, dilindən və dinindən asılı olmayaraq Azərbaycan Respublikasının hər bir vətəndaşının həyat tərzinin və fəaliyyətinin ayrılmaz tərkib hissəsinə çevrilmişdir. Bu gün Azərbaycan xalqının bir çox ölkələrə nümunə ola biləcək tolerantlıq modelini mövcud ədəbi-bədii, elmi-fəlsəfi, siyasi-hüquqi mənbələr və sənədlər də təsdiq edir.

Azərbaycanda tolerantlıq dövlət siyasəti səviyyəsində həyata keçi-rilir. XXI əsrin mədəniyyət həyatının əsas paradiqmalarından sayılan

tolerantlıq humanizm, sərbəst mədəni özünüifadə vasitəsi olub Azərbaycanın bütün vətəndaşlarının mədəni özünəməxsusluğunun qorunması hüququ kimi real gerçəklikdə öz təcəssümünü tapmışdır. Azərbaycanın mədəni müxtəlifliyə malik milli mədəniyyəti Şərq və Qərb dəyərlərinin, unikallığın və universallığın vəhdət şəklində inkişaf edərək bütün dünyada multikulturalizm və tolerantlıq nümunəsi hesab olunur.

**Milli özünüdərk və tolerantlıq problemi.** Bu gün Azərbaycan xalqının mədəniyyətində milli özünüdərk problemi dərin sosial-fəlsəfi əhəmiyyət kəsb edir. Etnomədəni proseslərin hərtərəfli öyrənilməsi mədəni paradiqma kompleksini özündə əks etdirən ənənəvi mədəniyyəti və milli ideyanın araşdırılmasını zərurətə çevirir.

Bu mənada milli ideya etnosun özünüdərkinin ideologiyalaşmış sahəsi kimi çıxış edir. O, millətin ideya-mənəvi həyatının spesifik fenomenidir, milli özünüdərkinin struktur komponentidir. "Milli ideya azərbaycanlıların özlərini identikləşdirməsinə, xalqın zəngin mədəniyyətini və onun tarixi irsini əks etdirən dünyagörüşünə əsaslanır" [3, s.32].

Bu gün Azərbaycanın ictimai-fəlsəfi şüurunda, özünüdərkində, mənəvi və mədəni özünəməxsusluğunda tolerantlıq mühüm yer tutur. Məlum olduğu kimi, çoxmədəniyyətlilik şəraitində tolerantlığın formalaşdırılmasında aşağıdakı məqamlar əsas götürülür:

- "öz xalqının mədəniyyətinin başqa mədəniyyətə inteqrasiyasının əsas şərti kimi hərtərəfli, dərindən mənimsənilməsi;
- dünyada çoxmədəniyyətlilik haqqında təsəvvürlərin formalaşması;
- mədəni fərqlərə müsbət münasibətin tərbiyə edilməsi;
- başqa xalqların mədəniyyətinə inteqrasiya üçün şəraitin yaradılması;
- müxtəlif mədəniyyətlərin nümayəndələrilə səmərəli qarşılıqlı əlaqə vərdişləri və bacarıqlarının təşəkkülü və inkişaf etdirilməsi;
- gənclərin əmin-amanlıq, dözümlülük, humanist millətlərarası ünsiyyət ruhunda tərbiyələndirməsi" [6, s.18]. Göründüyü kimi, tolerantlığın yaradılmasında əsas məqsəd başqa mədəniyyətlərə, mədəni fərqlərə, mədəniyyətlərarası münasibətlərə dözümlülüyün formalaşdırılmasıdır.

Azərbaycanlıların özünüdərkində milli mədəniyyətin mənəvi dəyərləri vasitəsilə tolerant şüur və davranış formalaşır, çoxmədəniyyətliliyə adaptasiya, öz mədəniyyətlərinə olduğu kimi başqa mədəniyyətlərə də hörmət və məhəbbət yaranır. Deməli, tolerantlıq Azərbaycan ənənəvi və müasir milli mədəniyyətinin tərkib hissəsidir. Azərbaycanlılar arasında tolerantlığın səviyyəsinin yüksək olmasının səbəbi isə xalqımızın zəngin ünsiyyət və davranış mədəniyyətinə, mənəviyyata malik olmasıdır. Ona görə də bizim xalqın nə özünüdərkində, nə də mədəniyyətində millətçilik, irqçilik, ayrı-seçkilik və s. mənfi cəhətlər təzahür etmir. Ümumiyyətlə, Azərbaycanın mil-

li mədəniyyətinin mövcudluğunda və inkişafında, millətlərarası ünsiyyət və onun tərkib hissəsi olan tolerantlıq mühüm rol oynayır. Azərbaycanlılar tolerantdırlar, deməli, onlar öz ləyaqət hisslərini, adət-ənənələrini, milli-mənəvi dəyərlərini, bir sözlə, milli mədəniyyətlərini qoruyub saxlaya bilirlər, həmçinin digər xalqların – həm Azərbaycanda yaşayan milli azlıqların, eyni zamanda dünya xalqlarının mədəniyyətləri və ənənələrinə hörmət etməyi bacarırlar. Bu unikal ümumbəşəri dəyər azərbaycanlıların milli mədəniyyətində mühüm yer tutur.

Azərbaycan xalqının tarixən formalaşmış özünüdərkini, müdrikliyini əks etdirən milli xarakterinə uyğun idealları vardır. Onun milli xarakterinin təşəkkülü xalqın mədəni unikallığını, ənənələrini, adətlərini və qanunlarını əks etdirir. Həyat və təcrübə göstərir ki, azərbaycanlılar ilk növbədə öz mədəniyyətlərini, adətlərini, ənənələrini, dillərini bildikləri, sevdikləri və hörmət etdikləri üçün başqalarının da mədəniyyətlərinə, dillərinə və ənənələrinə tolerant münasibət bəsləyirlər. Azərbaycanın təkrarsız milli fikir və mədəniyyətində unikal və universal dəyərlər vəhdət təşkil edərək başqa mənəvi dəyərlərə dözümlü münasibəti, qeyri-zorakılığa əsaslanan ictimai həyatı ilə fərqlənir. Bu mənada ölkədə milli mədəniyyət, adət-ənənələr vasitəsilə tolerantlığın formalaşdırılması prosesi təbii və labüd hal olaraq baş verir. Əksər mədəniyyətşünas alimlərimizin fikrincə, Azərbaycan mədəniyyəti üçün xas olan əsas cəhətlər aşağıdakılardır:

- “tolerantlıq;
- multikulturalizm;
- dialoq və əməkdaşlıq;
- milli olanla qlobal olanın uyğunlaşdırılması;
- şovinizm və irqçiliyin bütün təzahürlərinə qarşı barışmazlıq” [4, s.7].

Həmçinin, bütün xalqımızda, o cümlədən gənc nəsildə mərhəmət, qarşılıqlı hörmət, xeyirxahlıq və nəciblik hisslərinin, etnik və mədəni tolerantlıq keyfiyyətlərinin aşılanması nəticəsində yeni humanist davranış qaydaları və yeni dəyər sisteminin yaranması xüsusi əhəmiyyət kəsb edir. “Eyni zamanda, milli mədəniyyətlərdən biri də tolerant şəxsiyyətin formalaşmasının zəruri əsasıdır. Onun başlıca vəzifələrindən biri də yetişməkdə olan gənc nəslə öz doğma mədəniyyətini hifz edərək, bu mədəni dəyərlərin dünya mədəniyyətləri sırasında layiqli yer tutmasının zəruriliyini və vacibliyini aşılamaqdır. Hər şeydən əvvəl, bəşəriyyətin klassik mənəvi mədəniyyətinin, eləcə də ən yüksək mənəvi dəyər prioritetlərindən olan tolerantlıq da daxil olmaqla milli ənənələrin spesifikliyinin qorunub saxlanması vacib məsələdir” [6, s.19]. Göründüyü kimi, böyüməkdə olan gənc nəslin mənəvi tərbiyəsində tolerantlıq ideyaları milli-mədəni dəyərlərlə ahəngdarlıq təşkil edir. Bu mənada mədəni fərqlərdə dözümlülük və

qarşılıqlı hörmət hissinin aşılanması tolerantlığın təbliği baxımından böyük əhəmiyyət kəsb edir.

Milli-mədəni dəyərlər sistemində müxtəlif millətlərin nümayəndələri arasında qarşılıqlı münasibətlərin oxşar və fərqli xüsusiyyətlərinin təhlili zamanı nəzərə almaq lazımdır ki, mədəni tolerantlıq bir çox komponentlər əsasında təşəkkül tapmışdır. Həmin komponentlər sırasında öz xalqının mədəniyyət tarixini, ünsiyyətdə olan etnosların milli mədəniyyətlərini, öz doğma dilini və millətlərarası ünsiyyət dilini bilməyi göstərmək olar. "Tolerantlıq insanlar arasında ideal münasibətlər kimi səciyyələndirilir, bu və ya digər xalqın mədəniyyət xəzinəsinə mədəni norma və mənəvi dəyər kimi daxil olur" [8, s.273]. Ümumiyyətlə, müxtəlif xalqlar üçün ümumi həyati məkan ideyası sosiomədəni sahədə inteqrasiyanı, ideyaların və dəyərlərin formalaşmasını tələb edir. Şübhəsiz ki, bu proseslərdə tolerantlıq mü.-hüm rol oynayır.

**Mədəniyyət, milli identiklik və tolerantlıq.** Müasir qlobal transfermasiya və ictimai həyatın bütün sahələrində ciddi radikal dəyişikliklərin baş verdiyi indiki dövrdə milli mədəniyyətlərdə identiklik problemi də xüsusi aktuallıq kəsb edir. Xalqın dəyər yönümündə və idealındakı dəyişikliklərə tolerantlıq da təsir edir. Əsrlər boyu Azərbaycan çoxmillətli, çoxmədəniyyətli dövlət kimi təşəkkül tapmış və inkişaf etmişdir. Azərbaycan xalqının milli vəhdətinin möhkəmlənməsində xalqların, milli azlıqların etnomədəniyyətinin inkişafının təmin edilməsi əsas vasitələrdən biri kimi çıxış edir. Milli siyasətin inkişaf meyillərində etnik identiklik, milli, mili-mədəni identiklik, milli özünüdərk və milli mədəniyyətin əsaslandırılması əsas yer tutur. Bu məsələ ilə bağlı Akademik R.Mehdiyev Azərbaycanda "güclü dövlətin" əlamətlərini belə səciyyələndirir:

– Azərbaycan bütün etnoslarının dövlət ideologiyası olan, tolerantlıq və multikulturalizm kimi dövlət səviyyəsində möhkəmləndirilən elementlərə sahib olan güclü milli azərbaycançılıq ideologiyasına malikdir;
– milli mədəniyyəti, elm və təhsili inkişaf etdirir;
– öz müstəqil fəaliyyətində milli maraqlara və dövlət maraqlarına əsaslanan qeyri-hökumət (vətəndaş) strukturlarını hər vasitə ilə dəstəkləyir;
– radikal qrupların, xüsusən başqa dövlətlər, yaxud beynəlxalq təşkilatlar və s. tərəfindən maliyyələşdirilən qrupların fəaliyyətinin qarşısını qanuna müvafiq olaraq bacarıqla alır" [2].

Azərbaycanda ideyaların plüralizminə onun Şərq və Qərb arasındakı geosiyasi mövqeyi və ölkədə müxtəlif xalqların və mədəniyyətlərin min illərlə birgə yaşaması təsir edir. ABŞ-nin görkəmli dövlət xadimi və siyasətçisi Zbiqnev Bjezinskinin fikrincə, "geosiyasi mərkəzlər öz coğrafi mövqeyindən asılıdır. Coğrafi mövqe bir sıra hallarda onlara ya mühüm rayonlara çıxışa nəzarət, ya da fəaliyyətdə olan mühüm geosiyasi şəxslərə

resursların əldə olunmasında rədd cavabı verməyin mümkünlüyü baxımından xüsusi rol ayırır. Başqa hallarda geosiyasi mərkəz dövlətin, yaxud hətta geosiyasi məkanda həyati əhəmiyyət daşıyan regionun sipəri ola bilər. Bəzən geosiyasi mərkəzin mövcudluğunun özü qonşuluqda geostrateji fəaliyyət göstərən daha fəal şəxslər üçün, demək olar, çox ciddi siyasi və mədəni nəticələr verir" [5, s.55]. Azərbaycan da geosiyasi mərkəz kimi çıxış edərək təkcə milli təhlükəsizliyini, suverenliyini deyil, dilini və milli mədəniyyətini müdafiə edir. Başqa sözlə, qlobal transformasiya şəraitində dövlətin gücü daha da artaraq xalqın mədəniyyətinin milli özünəməxsusluğunu qoruyub saxlayaraq gələcək nəsillərə ötürəcəkdir.

Azərbaycanın mədəniyyət, eləcə də milli özünüdərk tarixi həm də ümummilli mənəvi-mədəni dəyərlərin tarixidir. Əslində Azərbaycanın çoxmədəniyyətliliyi onun milli təhlükəsizliyinin əsas amilidir. Xalqımızın tarixi və mədəniyyəti Avropa və dünya mədəni xəzinəsinin tərkib hissəsidir. Yeni Azərbaycanın vətəndaşının normal özünüdərki üç komponentin vəhdətindən ibarətdir. Birincisi, bu, öz etnosuna, öz xalqına mənsubluq hissi, öz milli ənənələrinə, öz xalqının tarixinə məhəbbət və hörmətdir, öz milli mədəniyyətini və doğma dilini mənimsəmək cəhdidir. İkincisi, bu, çoxmədəniyyətli Azərbaycan cəmiyyətinə mənsubluq hissi, Azərbaycan vətənpərvərliyi, milli (etnik) şöhrətpərəstlikdən, etnik müstəsnalıqdan imtina etməkdir. Üçüncüsü, bu, Avropa və dünya birliyinə mənsubluq, yalnız öz xalqının, çoxmillətli ölkəsinin deyil, bütün dünyanın taleyinə görə məsuliyyət hissidir.

Bu gün sosial fəlsəfədə "ümumbəşəri dəyərlər" ətrafında ciddi diskussiyalar davam etməkdədir. Bəzi tədqiqatçılar ümumbəşəri dəyərlərin milli-mənəvi sərvətlərdə əks olduğunu göstərirlər. Əslində "ümumbəşəri" və ya universal dəyərlər dünyada dincliyə, əmin-amanlığa, əməkdaşlığa, tolerantlığa, mədəniyyətlərin qarşılıqlı təsirinə kömək edir. Onlar milli dəyərlərə qarşı deyildir, onun sisteminə daxildir, onlar xalqın bütün mədəni tarixi ərzində təbii olaraq təşəkkül tapmışlar. Mədəniyyətlərin qarşılıqlı münasibətlərində ümumbəşəri humanist dəyərlər, tolerantlıq prinsipləri müxtəlif yaradıcı cərəyanların, istiqamətlərin, məktəblərin, hətta ayrı-ayrı sənətkarların yanaşı mövcudluğuna imkan verən amil kimi çıxış edir. Tolerantlıq ideyaları təkcə mədəniyyətlər arasında deyil, bütövlükdə sosial həyatda münaqişələrin aradan qaldırılmasına kömək edir. Lakin kosmopolitizm və ya beynəlmiləlçilik ümumbəşərilikdən tamamilə fərqlənir. Bütün xalqlar kimi azərbaycanlıların da vətənə məhəbbəti – vətənpərvərlik ictimai-fəlsəfi şüurun kateqoriyası kimi milli hisslərə yad olan kosmopolitizmə qarşı durur.

Azərbaycanın bədii milli mədəniyyəti elə bir sağlam yaradıcı fenomendir ki, o, sivilizasiyanı sağlamlaşdırır və sosial ziddiyyətlərin həllinə tolerant yanaşır. Bununla da milli mədəniyyətimiz dünyanın ahəngdarlığına öz töhfəsini vermiş olur. Deyilənlərin bir növ təsdiqi olaraq milli bədii

mədəniyyətimiz həm də özünün təzahür formasına görə ictimai şüurun digər formaları ilə əlaqədar olan ümumi komponentdir. Digər ictimai şüur formaları ilə müqayisədə dünyanın hissi qavrayışına əsaslanan bədii yaradıcılıq daha az rasionaldır. Azərbaycan milli mədəniyyətinin tərkib hissəsi olan bədii yaradıcılıq xalqın milli xarakterini və mentalitetini ifadə edir. Deyilənlərin bir növ təsdiqi olaraq milli bədii mədəniyyətimiz aşağıdakı ictimai qarşılıqlı münasibətləri əks etdirir:

– onun yüksək mənəvi prinsipləri, nəcibliyin, tolerant münasibətin də daxil olduğu humanist istiqamətləri vardır;
– bu mədəniyyətdə xalqımızın milli xarakterinin ən ali xüsusiyyətləri – xeyirxahlıq, etibarlılıq, dözümlülük təcəssüm olunmuşdur;
– xalqımızın milli bədii mədəniyyətinin məzmunu əsasən azərbaycanlı mənəvi nüvəsindən daha genişdir, çünki bu mədəni xəzinəyə Azərbaycan məkanındakı bütün xalqların və milli azlıqların mənəvi sərvətləri, eləcə də milli bədii mədəniyyətimizin zənginlikləri daxildir;
– milli bədii yaradıcılıq dəyərləri ənənəvi olaraq islamla sıx əlaqədardır.

Qeyd etmək lazımdır ki, Azərbaycanın da daxil olduğu Şərq müsəlman mədəniyyəti məhz islam əxlaqı əsasında inteqrasiya olunmuşdur. Təsadüfi deyildir ki, Qərb ölkələrinin mədəniyyətlərinin inteqrasiyasının əsasında da xristianlıq məfkurəsi durur.

**Tolerant çoxmədəniyyətlilik paradiqması.** XX əsrin ikinci yarısında və sonlarından başlayaraq dünyada, o cümlədən Azərbaycanda yeni proses – tolerant çoxmədəniyyətlilik paradiqması yaranmaqdadır. Bu paradiqma təkcə öz mədəni-etnik mühitini deyil, milli mədəniyyətlərin bütün imkanlarının dinc birliyinə əsaslanan qlobal sosiumun dəyər yönümləri sistemini əks etdirir. Çoxmədənilik tolerantlığı xalqın dünya mədəniyyətinə məqsədyönlü qovuşması, müxtəlif xalqların mədəniyyətlərinin mədəni-tarixi və müasir təcrübəsinin mənimsənilməsi prosesidir. Çoxmədənilik tolerantlığı qlobal transformasiyanın, inteqrasiyanın, açıq cəmiyyətlərin təsiri altında meydana gəlmişdir. Bu baxımdan Azərbaycanın çoxmədəniyyətli tolerantlıq mühitində dillərin, dinlərin, mədəni dəyərlərin, sosiomədəni amillərin vəhdəti özünü göstərir. “Azərbaycanda yaşayan xalqlar müxtəlif dil ailəsinə mənsub olan dillərdə danışırlar. Azərbaycan Respublikasının Konstitusiyasında Azərbaycan dilinin rəsmi dövlət dili elan olunmasına baxmayaraq, ölkə əhalisinin danışdığı digər dillərdən də azad şəkildə istifadə olunması və onların inkişaf etdirilməsi üçün şəraitin yaradılması təsbit olunmuşdur” [9]. Azərbaycanda əhalinin 150-200 min nəfəri rus dilini öz doğma dili hesab edir. Buraya etnik ruslarla yanaşı, ləzgilər, avarlar, ukraynalılar, yəhudilər və s. aiddir.

Azərbaycanın tolerantlıq modeli milli mədəniyyətlərin dəyərləri, ideyaları və ideallarının əsasları üzərində qurulur. Tolerantlıq prinsipləri

mədəniyyətlərdə ayrı-seçkiliyə qarşı durur. "Bu konsepsiya etibarlılıq və qarşılıqlı inam mühiti yaratmaq kimi funksiya yerinə yetirir. Məhz bu vəzifə müasir dünyanın inkişafında, müxtəlif xalqların, mədəniyyətlərin birgə mövcudluğu üçün əsas prioritet şərtdir" [1, s.345]. Tolerantlığın əsas məzmunu həm də millətlər və mədəniyyətlər arasında dialoqdan ibarətdir. Ölkəmizdə birgə, dinc, yanaşı yaşamanın əsasını açıq və ya gizli qarşıdurmalar deyil, mədəniyyətlərin müxtəlifliyinin, çoxmədəni tolerantlığın inkişafı təşkil edir. Etnoeqoizmdən, ksenofobiyadan uzaq olan çoxmillətli Azərbaycanda yaşayan bütün xalqlar tam bərabər hüquqlara malik olduğu halda, monoetnik Ermənistanda açıq-aşkar, qərəzli şəkildə milli azlıqların etnik təmizləmə, terror və zorakılığa məruz qalma siyasəti həyata keçirilir.

"Azərbaycan üçün fərqli baxışlara, adətlərə, vərdişlərə dözümlülük mövqeyi bəsləmək, əlbəttə, təbiidir. Burada xalqların, millətlərin, dinlərin xüsusiyyətlərinə tolerant münasibət xasdır" [10]. Azərbaycan xalqı aborigen azərbaycanlılardan, Azərbaycandan başqa vətəni olmayan avtoxton, eləcə də öz tarixi vətənləri olan alloxton milli azlıqlardan ibarətdir.

Müasir dövr tolerantlıq şəraitində ölkəmizdə milli azlıqlar öz maddi və mənəvi mədəniyyətlərini, dillərini, mentalitetlərini, milli xarakterlərini, tarixi yaddaşlarını, etnik özünüdərketmələrini, etnopsixologiyalarını, etnik identiklərini və mədəni özünəməxsusluqlarını sərbəst qoruyub saxlayırlar. Azərbaycan mədəni müxtəlifliyinin vəhdətinə, tolerantlığına, humanizminə, milli-etnik tərkibinin müxtəlifliyinə görə dünyanın ən nadir ölkələrindən sayılır. Azərbaycanda müxtəlif xalqların ortaq mədəniyyəti milliliklə ümumbəşəriliyin vəhdətinə əsaslandığından tarixən formalaşmış müxtəlif mədəniyyətlər müasir dövrdə də öz yüksək inkişaf mərhələsini yaşayır.

Müasir dövrdə qədim tarixi köklərə malik, müxtəlif mədəniyyət və sivilizasiyaları qarşılıqlı hörmət və etimad əsasında birləşdirən, özünəməxsus cəhətləri ilə fərqlənən, ölkənin milli-mədəni müxtəlifliyini təmin edən Azərbaycan özünün tolerantlıq modeli və dəyərləri ilə bütün dünyaya nümunə olmuşdur.

**Nəticə.** Azərbaycan milli mədəniyyəti ənənəviliyin və müasirliyin, millilik və ümumbəşəriliyin birliyinə əsaslanan mədəniyyətdir. Bu baxımdan Azərbaycanın milli mədəniyyətini onun dili, dini, mənəviyyatı, mədəni-mənəvi, maddi mədəniyyət nümunələri, ədəbiyyatı, incəsənəti, folkloru təşkil edir.

Şərqlə Qərbin sintezindən ibarət Azərbaycanın mili mədəniyyəti dünyanın mədəniyyət xəzinəsinə tolerant prinsiplərilə daxil olmuşdur. Zəngin, unikal milli-mənəvi dəyərləri ilə fərqlənən Azərbaycan mədəniyyətində zərdüştilik, xristianlıq, islam mədəniyyətləri, Şərq, Qərb, Qafqaz, İran, slavyan, ümumtürk mədəniyyətləri ehtiva olunduğundan Azərbaycan mədəniyyəti öz harmonik inkişafını tolerantlıq prinsipləri əsasında bu gün də

davam etdirməkdədir. Xalqımızın qlobal transformasiya şəraitinə, yeni sosiomədəni reallığa uyğun olaraq milli şüurunda tolerantlıq prinsipləri əsasında yaranan mədəni müxtəlifliyin ahəngdar inkişaf modeli dünya mədəni məkanına nümunə ola biləcək ən optimal inteqrasiya vasitəsidir.

## ƏDƏBİYYAT


1. *Hacıyev A.N., Məmmədov İ.M.* Multikulturalizmə giriş. Bakı: Mütərcim, 2018, 372 s.
2. *Mehdiyev R.* Güclü Azərbaycan dövləti qloballaşma şəraitində milli ideyanın təcəssümü kimi / "Xalq" qəz., Bakı, 2016, 4 iyun
3. *Mehdiyev R.* Müasir Azərbaycan milli ideyanın təcəssümü kimi // AMEA-nın Fəlsəfə İnstitutunun "Elmi əsərləri", Bakı, 2011, N1(16), s.17-34
4. *Tağıyev Ə.* Milli kimlik və multikultural proseslər. Bakı: Gənclik, 2017, 204 c.
5. *Бжезинский З.* Великая шахматная доска. Москва: Международное отношение, 2009, 280 с.
6. *Каракотова С.М., Кейчуева Д.М.* Формирование этнической и межконфессиональной толерантности личности средствами духовной культуры // Международный журнал прикладных фундаментальных исследований, 2014, №4, с.17-26
7. *Леонтев А.А.* Россия: многокультурность и толерантность // Век толерантности: Научно-публицистический вестник. М.: МГУ, 2001, Вып. 1, с.46-53
8. Толерантность и культура межнационального общения: Учебно-методическое пособие. Краснодар: Просвещение-Юг, 2009, 307 с.
9. Heydər Əliyev Fondunun rəsmi səhifəsi / heydar-aliev-fundation org.
10. Kunina İ. Qafqazda multikulturalizm: Azərbaycan modeli / Multikulturalizm: nailiyyətlər və problemlər // http://bakuforum.az/az/multikulturalizm-nailiyyetler-ve problemler/?fid=2258/10.02/2016


Redaksiyaya daxil olub 05.07.2024

*UOT 371*

***T.M.İsayeva***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*taranaisayevaaz@gmail.com*

# XX-XXI ƏSRİN ƏVƏLLƏRİNDƏ AZƏRBAYCANLILARIN RUSİYADA İCTİMAİ, MƏDƏNİ VƏ MAARİFÇİLİK FƏALİYYƏTİ

https://doi.org/10.30546/170899876.72.03.2024.21

**Açar sözlər:** *azərbaycanlılar, mətbuat, maarifçilik, diaspora*

Azərbaycanın tarixi keçmişinin bütün dövrləri və onun tədqiqi olduqca maraq doğurur. XX əsrdən başlayaraq XXI əsrin əvvəllərinə qədər dövrlərdə azərbaycanlıların ölkədən kənarda ictimai, mədəni, maarifçilik və diaspora fəaliyyəti Azərbaycanın bir daha dünya səviyyəsində tanınmasında mühüm rol oynamışdır. Bu problemin tədqiq olunması daim aktualdır. Müasir dövrdə dövlətlərarası münasibətlərin formalaşması və inkişafı, yeni əməkdaşlıq formalarının meydana gəlməsi baxımından əsaslı dəyişiklərin yaranması və inkişafı ilə səciyyəvidir.

***Т.М.Исаева***

## СОЦИАЛЬНО-КУЛЬТУРНАЯ И ПРОСВЕТИТЕЛЬСКАЯ ДЕЯТЕЛЬНОСТЬ АЗЕРБАЙДЖАНЦЕВ В РОССИИ В НАЧАЛЕ XX – XXI ВЕКОВ

**Ключевые слова:** *азербайджанцы, пресса, просвещение, диаспора*

Все периоды исторического прошлого Азербайджана и его исследование очень интересны. С начала XX века до начала XXI века общественная, культурная, образовательная и диаспорская деятельность азербайджанцев за пределами страны сыграла важную роль в признании Азербайджана на мировом уровне. Исследование этой проблемы всегда актуально. В современное время становление и развитие межгосударственных отношений характеризуется возникновением и развитием принципиальных изменений в плане появления новых форм сотрудничества.

**T.M.Isaeva**

# SOCIAL, CULTURAL AND EDUCATIONAL ACTIVITIES OF AZERBAIJANIS IN RUSSIA AT THE BEGINNING OF THE XX-XXI CENTURIES

***Keywords:*** *azerbaijanis, press, education, diaspora*

All periods of the historical past of Azerbaijan and its study are very interesting. From the beginning of the 20th to the beginning of the 21st century, the social, cultural, educational and diaspora activities of Azerbaijanis outside the country played an important role in the recognition of Azerbaijan at the global level. The study of this problem is always relevant. In modern times, the formation and development of interstate relations is characterized by the emergence and development of fundamental changes in terms of the emergence of new forms of cooperation.

Məlumdur ki hər bir dövrün inkişaf mərhələsi vardır. Cəmiyyətin bütün sahələrinin inkişafı sonradan onun mədəni həyatına təsir edir. Tarixən məlumdur ki, xalqların böyük köçü iqtisadi, siyasi və sosial mədəni sahədə baş vermişdir. Bir ölkədən digər ölkəyə miqrasiya zamanı xalqların mədəniyyətinin inteqrasiyası baş verir. Azərbaycanın tarixi keçmişinin bütün dövrləri və onun tədqiqi olduqca maraq doğurur. XX əsrdən başlayaraq XXI əsrin əvvəllərinə qədər tariximizi yenidən araşdırmaq bu dövrlərdə azərbaycanlıların ölkədən kənarda ictimai, mədəni, maarifçilik və diaspora fəaliyyəti Azərbaycanın bir daha dünya səviyyəsində tanınmasında mühüm rol oynamışdır. Bu problemin tədqiq olunması daim aktualdır. Müasir dövrdə dövlətlərarası münasibətlərin formalaşması və inkişafı, yeni əməkdaşlıq formalarının meydana gəlməsi baxımından əsaslı dəyişiklərin yaranması və inkişafı ilə səciyyəvidir. Azərbaycan və Rusiya arasında əlaqələrin qədim tarixi vardır. X əsrdən başlanan ticarət əlaqələri daha sonra ictimai-iqtisadi, siyasi və mədəni həyatda da genişlənərək inkişaf etmişdir. Hazırda Azərbaycan diasporunun ən geniş və intensiv fəaliyyət göstərdiyi ölkələr içərisində Rusiya Federasiyası xüsusilə diqqəti cəlb edir. Hal-hazırda qeyri-rəsmi statistikaya görə, Rusiyada 3 milyona yaxın soydaşımız yaşayır ki, onlar Federasiyanın 89 subyektinin hamısında məskunlaşmışlar. Rusiya ilə Azərbaycan tarixi əlaqələri X əsrdən etibarən quru və dəniz yolu ilə ticari əlaqələri geniş inkişaf etmişdir. Zamanla Rusiyanın güclənməsi səbəbindən imperiya maraqlarına Qafqaz, eləcə də Azərbaycan daxil edildi. Xüsusilə, Azərbaycan uğrunda Rusiya-İran müharibələri (1804-18013), (1826-1828 ) nəticəsində yerli əhali əziyyət çəkirdi. Bu səbəbdən də XIX əsrin əvvəllərindən başlayaraq, Azərbaycanın şimal hissəsində yaşayan soydaşlarımız Rusiya ərazilərinə köçməyə başladılar. Dərbənd, Quba, Bakı sakinləri

Rusiyaya köç edən mühacirlər içərisində əksəriyyət təşkil edirlər. Rusiya dövlətinin qüdrətli inkişaf dövrü keçdiyi zaman başqa yerlərdə olduğu kimi, Azərbaycanda da bu dövlətə köçənlər arasında tacirlərlə yanaşı, həm də elm xadimləri var idi. Tədqiqatçı Nazim Rizvanın araşdırmasına görə, 1505-1533-cü illər – Böyük Moskva knyazı III Vasili, 1530-1584-cü illər – İvan Qroznı və 1672-1725-ci illər I Pyotrın çarlığı illərində Rusiyaya köçən azərbaycanlı sənətkarlar, tacirlər, elm xadimləri Moskva, Sankt-Peterburq, Moskva ətrafi ərazilərdə məskunlaşırdılar. Azərbaycanlılar içərisində Rusiya dövlət idarələrində çalışanlar barəsində dəqiq məlumat olmasa da, bəziləri barədə arxivlərdə məlumata rast gəlmək olar. Yazıçı-publisist Ramin Məmmədovun "Rusiyada Azərbaycan mühacirət mətbuatı" adlı monoqrafiyasında bu sahədə ilk addımlardan biri kimi diqqəti çəkir. Müəllif qeyd edir ki, sovet dövründə məskunlaşan azərbaycanlıların hazırkı dövrlə müqayisədə əlaqələrinin daha geniş olduğunu göstərmək olar. Bu mühacirətin ədəbi kulturoloji potensialına çevrilmişdir. Sovet imperiyasının süqutundan sonra da Rusiyada və bir çox MDB ölkələrində çoxlu sayda mətbuat orqanları fəaliyyətə başlamışdır. «Панорама Азербайджана», «Ziya», «Восточный экспресс», «Азербайджан – XXI век», «АзерРос», «Азербайджанский Конгресс» «Millətin qəzeti», «Голос Азербайджана », «Азербайджан медиа», «Birlik», «Ozan», «Азербайджан» (Rusiya), «Savalan », «Bizim qəzet», «Türk dünyası», «Yurd», «İnam», «Эхо Азербайджана» (Киев, Украина), «Savalan» (Днепропетровск, Украина) "Araz" (Кишинев, Молдова), "Газета Очаг" (Самара) və s. adıçəkilən qəzet və dərgilərdə Azərbaycanın ictimai-siyasi həyatı və onun elmi, mədəniyyəti maarifçiliyi haqqında dəyərli yazılar yer almışdır (3, s.4).

Azərbaycanın dünya miqyaslı ədibi, publisist, Rusiyada yaşayıb-yaratmış soydaşımız Çingiz Hüseynov milli tarixi və mədəniyyəti dünyaya çatdıra bilmişdir. Çingiz Hüseynovun Moskvada V.Mayakovskiy adına Dram Teatrında Sumqayıt Dövlət Dram Teatrının şair Nəriman Həsənzadənin Nəriman Nərimanovun həyatına həsr etdiyi "Nəriman" poeması əsasında hazırladığı "Qoy bütün Şərq bilsin" tamaşası nümayiş olunmuşdur. Azərbaycanlı şair, ədəbiyyatşünas, mətnşünas, biblioqraf, 1934-cü ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü Salman Mümtaz 1934-cü ildə Moskvada SSRİ yazıçılarının birinci qurultayında iştirak etmişdir. Qurultayda iştirak edən Məmməd Kazım Ələkbərli çıxış edərək məruzəsində şair Mirzə Şəfi Vazehin mirasının və onun Azərbaycan ədəbiyyatında misilsiz xidmətlərinin öyrənilməsində Salman Mümtazın böyük rolu olduğunu qeyd etmişdir. Salman Mümtaz Maksim Qorki ilə də yaxın dost olmuşdur. SSRİ Yazıçılarının Birinci qurultayında o, böyük yazıçı ilə görüşmüşdür. Maksim Qorkiy Azərbaycan yazıçıları ilə bir neçə fotoşəkil də çəkdirmişdir. Alınan məlumatlara görə, Qorki Salman Mümtaz üçün

Moskvada ev almışdır. Həmin ildə Firdovsinin 1000 illiyində iştirak etmək üçün Azərbaycandan Moskvaya göndərilən heyətin daxilində Salman Mümtazın əvəzsiz xidmətləri olmuşdur. Salman Mümtazın mədəni maarif sahəsində çalışmasına baxmayaraq, repressiyanın qurbanı olmuşdur (13, s.116).

XX-XXI əsrlərdə Azərbaycan-Rusiya münasibətləri, çarizm siyasətini Azərbaycanda həyata keçirənlər, rus kəndlilərinin Zaqafqaziyaya, o cümlədən Azərbaycana köçürülməsi, Azərbaycan ziyalıları, Azərbaycanda təhsil, Rusiya ali məktəblərində təhsil alan azərbaycanlılar, Azərbaycanda siyasi təhsil məsələləri, Azərbaycan məktəbləri, maarif məsələləri, Azərbaycan burjuaziyasının maarifçilik fəaliyyəti və s. məsələlərin tədqiqinə dair D.Hüseynova, D.Seyidzadə, E.Əliyev, İ.Bağırova, A.Balayev, S.Mustafayeva, D.İsmayılzadə, N.Tahirzadə, S.Talıbova və b.tarixçilər və digər ixtisas sahibləri (müəlliflər: Ataxan Paşayev, Nazim Axundov, K.Zeynalova, İ.Kərimov, Q.Məmmədli, S.Mövlayeva, K.Talıbzadə) Azərbaycan mədəniyyətinin bir çox sahələri, dövri mətbuat, görkəmli siyasət və mədəniyyət xadimləri barəsində xeyli əsərlər yazmışlar.

Azərbaycanın dövri mətbuatı, M.Şahtaxtinskinin rus dövri mətbuatında fəaliyyəti, Azərbaycan teatrı, onun inkişaf mərhələləri, H.Cavid, Ü.Hacıbəyov, mədəniyyət məsələləri, mətbuatda ədəbi tənqid məsələləri və s. haqqında olan tədqiqatları misal göstərmək olar. XX əsrin əvvəllərində elmi mədəniyyətin inkişafı ilə yanaşı, siyasi mədəniyyət də formalaşırdı. Bu vəzifəni bir neçə nəsil həyata keçirməyə çalışmışdır. Bunlardan H.Zərdabi, M.Şaxtaxtlı, Ə.Ağayev, Ə.Hüseynzadə, M.Ə.Rəsulzadə, Ü.Hacıbəyov, Ə.Topçubaşov, F.Xoyski, və b. bu sahədə ölkəmizdə və kənarda azərbaycanlıların ictimai və mədəni fəaliyyətlərini işıqlandırımışlar. Topçubaşov yazırdı: "Allah biz türklərə anadangəlmə təbii işləmək istedadı verib, ruslar çalışır ki, bizim xalqda bu istedadı öldürsün. Bizi təhkimçi halına salsınlar ki, biz kölə vəziyyətinə düşək və zəli xalq olaq". Məhz bu səbəbdən Azərbaycan xalqı harada olursa-olsun, milli azadlıq uğrunda mübarizəyə hazır olduğunu hər sahədə göstərdi. Tarix üzrə elmlər doktoru Mais Əmrahov "XX əsrdə Azərbaycanda milli azadlıq hərəkatı" dərsliyində qeyd edir ki, sovet dövrü kitablarını təhlil edərək, belə nəticəyə gəlmək olar ki, çar Rusiyasının ucqarlarında, o cümlədən Azərbaycanda milli oyanışa, milli-demokratik fikrin yaranması və formalaşmasına, siyasi partiyaların, təşkilatların və cəmiyyətlərin işinə birtərəfli yanaşılmış, bolşevik ideyasının yeganə düzgün və xalq tərəfindən dəstəklənən ideya olduğu sübut olunmağa cəhd edilmişdir. Bütün çətinliklərə baxmayaraq, soydaşlarımız ictimai, siyasi və mədəni fəaliyyətlərini davam etdirmişlər (2, s.86.) Tarix üzrə elmlər doktoru Sevinc Əliyevanın "Наш дом Кавказ" adlı monoqrafiyasında azərbaycanlıların Rusiyanın bütün şəhərlərində yaşayan soydaşlarımızın ictimai,

mədəni və maarifçilik fəaliyyəti haqqında məlumatlar geniş verilmişdir. O, monoqrafiyada Azərbaycan neftinin Rusiyada xüsusi əhəmiyyətə malik olduğunu göstərmişdir. XX əsrin əvvəllərində Azərbaycanda və Şimali Qafqazda infrastruktur sürətlə inkişaf etdiyi bir zamanda əsas diqqət neft sənayesinə yönəlmişdi. H.Z.Tağıyeva məxsus olan Bakı neft sənayesinin dağıstanlıların sosial problemlərinin həllində çox böyük rolu olmuşdur (10, s.16). H.Z.Tağıyev Xəzərin Azərbaycan sahillərindən tutmuş Dağıstanın sahillərinə, Dərbənd, Port-Petrovsk daxil olmaqla uzunluğu 300 kilometr olan torpaq sahəsi alıb vətəgə salmışdır (7, s.68-69). M.Muxtarov da təkcə Bakıda yox, Maykop və Qroznı neft mədən sahibləri ilə də müqavilə bağlayıb quyu qazırdı; zavod və mədənlər, konstruktor büroları ilə texniki və işgüzar əlaqələri vardı, tez-tez Şimali Qafqaza gedirdi. Burada o, Əmircan qəsəbəsində tikdirdiyi məscidin eyni oxşarını Vladiqafqazda tikdirir.

Azərbaycancan ziyalıları içərisində dahi bəstəkar Üzeyir Hacıbəyovu göstərmək olar. O, 1911-ci ildə sistematik musiqi təhsili almaq məqsədi ilə Moskvaya yola düşdü. Bir il ərzində Moskva Filarmoniya Cəmiyyəti yanında musiqi kurslarında Aleksey İlyinskidən dərs almış (solfecionu Nikolay Laduxin, harmoniyanı Nikolay Sokolovski keçirdi), ondan sonra Sankt-Peterburqa köçmüş və orada Konservatoriyada bir il oxumuşdur (müəllimi Vasili Kalafati olmuşdur). Dostu Müslüm Maqomayev (dünya şöhrətli müğənni Müslüm Maqomayevin babası) Üzeyir Hacıbəyovun maddi dəstəyini tamamilə öz üzərinə götürmüşdür. Onun "Arşın mal alan" operettası 4 dəfə ekranlaşdırılmışdır. İlk ekranlaşdırılma 1916-cı ildə Rusiyada həyata keçirilmişdir. Rejissor Boris Svetlov bu ekranlaşdırılmanı Hüseynqulu Sarabski, Əhməd Ağdamski və Mirzəağa Əliyevin iştirakı ilə Piron qardaşlarının "Film" studiyasında təşkil etmişdir. Növbəti filmin ekranlaşdırılması 1917-ci ildə Sankt-Peterburqda edildi, lakin müəllifin təkidi ilə film prokatdan çıxarıldı. İlk əvvəl film sovet senzurası tərəfindən bəyənilmədi və onun prokatı qadağan edildi, lakin “xudsovet”in fikri ilə razılaşmayan və filmin "dünyanı fəth edəcəyinə" inanan Sergey Eyzenşteyn Stalinin filmi izləməsinə nail oldu və o, onun xoşuna gəldi. Stalinin bəyənməsindən sonra "Arşın mal alan" filmi SSRİ-də prokata çıxdı və "Stalin" mükafatını qazandı. Rusiyada (Moskvada) azərbaycanlıların yaratdıqları digər "Ocaq" Mədəniyyət cəmiyyəti çətin bir zamanda yaranmışdır. Cəmiyyət SSRİ-nin süqutu dövründə yaranmışdır. Bu cəmiyyəti Moskvada Azərbaycan Yazıçılar Birliyinin Moskva bölməsinin sədri Tofiq Məlikli yaratmışdır. Azərbaycanda ilk mətbuat vasitələrindən biri sayılan "Dərbənd" qəzeti 1920-ci ildə Dərbənd şəhərində çapdan çıxır. Bu qəzet 1960-1963-cü illər "Leninçi" adlandırılsa da, sonradan, yəni 1990-cı ildən yenidən öz adı ilə "Dərbənd" adlanır. Azərbaycan-Rusiya əlaqələrinin tarixinə kiçik bir ekskursiya edilsə, sezilər ki, müstəqilliyin bərpasından sonrakı ilk illərdə iki

ölkə arasında münasibətlər o qədər də asan olmayıb. Lakin Azərbaycanın ümummilli lideri Heydər Əliyev hakimiyyətə gəldikdən sonra vəziyyət yaxşılığa doğru dəyişməyə başlayıb. Məhz 1993-cü ilin yayından müstəqil Azərbaycana rəhbərlik etməyə başlayan Heydər Əliyev Rusiya ilə dostluq münasibətlərinin qurulmasında mühüm rol oynadı (9, s.5). İki ölkə arasında strateji tərəfdaşlığın əsaslarını qoydu. Azərbaycan və Rusiya arasında münasibətlərin inkişafında hər zaman bütün sahələrdə olduğu kimi, diasporun da xüsusi rolu vardır. Diaspor təşkilatının fəaliyyətində əməkdaşlıq, ikitərəfli münasibətlərin inkişafında insan amili həmişə birinci dərəcəli rola malikdir.

## ƏDƏBİYYAT


1. *Əliyev Z.* Dünya diasporları. Bak: Qismət, 2005, 351 s.
2. *Əmrahov M.* XX əsrdə Azərbaycanda milli azadlıq hərəkatı. Bakı: ADPU, 2009, 371 s.
3. *Məmmədov R.* Rusiyada Azərbaycan mühacirət mətbuatı. Bakı, "Ziya" NPM, 2018, 438 s.
4. *Məmmədov R.* Rusiya: ziyalılarımız, mətbuatımız, münasibətlərimiz. Bakı: Şirvannəşr, 2003, 110 s.
5. *Həziyeva S.* Dünya azərbaycanlılarının həmrəyliyi tarixi. Bakı, 2010, 168 s.
6. *Seyidbəyli M.* Azərbaycan diasporu: tarix və nəzəriyyə. Bakı: Aspoliqraf LTD, 2005, 92 s.
7. *Seyidov Y.* Azərbaycan dili. Böyük mesenat və xeyriyyəçi H.Z.Tağıyevin həyatı haqqında. Bakı: Bakı Universiteti nəşriyyatı, 2014, 370 s.
8. *Turan A.* Qasparlı möcüzəsi, yaxud oyanmağın zamanı // Diaspora, 2003, №2, s 2-3
9. Алиев И. и Путин В. открыли Год .Азербайджана в России // АзерРос. 2005, №4, с. 5-6
10. *Алиева С.* Наш дом Кавказ: монография, Армавир, 2011, 264 с.
11. *Алескеров М.* Этому нет оправданий // АзерРос, 2001, №10, с.14
12. *Мехдиева У.* Роль азербайджанской диаспоры в развитии социокультурных связей между Россией и Азербайджаном (2003 – 2010 гг.): дисс. ... канд. истор. Наук. Москва, 2015, 128 с.
13. Первый всесоюзный съезд советских писателей: стенографический отчет. Москва: Художественная литература, 1934, 718с.
14. Событие // АзерРос, 2003, №3, с.32
15. В России помнят героев // АзерРос, 2004, №8,с.48


Redaksiyaya daxil olub 20.06.2024

Pedaqoji Universitetin Xəbərləri. Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası –2024, C.72, №3, s. 89-96
Transactions of Pedagogical University. Series of humanitarian, social, pedagogical and psychological sciences – 2024, V.72, №3, pp. 89-96

*UOT 94(479.24)*

***Z.H.Kərimov***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*zakir.kerimov.1955@mail.ru*

# İRƏVAN ŞƏHƏRİNDƏ MAARİFİN İNKİŞAFINDA XEYRİYYƏÇİLİYİN ROLU (XIX ƏSRİN II YARISI – XX ƏSRİN ƏVVƏLİ)

https://doi.org/10.30546/170899876.72.03.2024.24

*Açar sözlər: İrəvan şəhəri, ermənilərin İrəvana köçürülməsi, təhsil, xeyriyyə, maddi yardım*

İrəvan Azərbaycanın qədim şəhərlərindən biridir. Bu şəhərin həyatının bütün sferaları, o cümlədən maarifi uzun zaman Azərbaycanın ümumi həyatının üzvi hissəsi olmuşdur. Məqalədə göstərilir ki, çar Rusiyasının İrəvan xanlığını işğal etməsi (1827) burada maarifin inkişafını ləngitsə də, qarşısını tamamilə ala bilmədi. Əvvəlki kimi, şəhərdə təhsil ocaqları ibtidai məktəblər (mollaxanalar) və mədrəsələr olsa da, yeni – dünyəvi təhsil ocaqları yaranır və artırdı. Çar Rusiyası azərbaycanlıları yad, özgə xalq hesab etdiyi üçün onların maarif sahəsindəki ehtiyaclarına diqqət göstərmirdi. Buna görə də şəhərin azərbaycanlı imkanlı şəxsləri və ziyalıları maarifin inkişafına kömək üçün xeyriyyəçilik aksiyaları həyata keçirirdilər: məktəblərin təşkili və kasıb şagirdlərə maddi yardım üçün pul toplayırdılar.

Xeyriyyəçiliyin başqa formalarından da istifadə olunurdu: bəzi müəllimlər havayı dərs deyir, kimsə də öz evini məktəb üçün verirdi. Həvəskar teatr truppaları göstərdiyi tamaşalardan topladıqları pulu kasıb şagirdlərə ianə kimi bağışlayırdı. Bütün bunların nəticəsində azərbaycanlı milli kadrların sayı artırdı.

***З.Х.Каримов***

## РОЛЬ БЛАГОТВОРИТЕЛЬНОСТИ В РАЗВИТИИ ОБРАЗОВАНИЯ В ИРЕВАНЕ (ВТОРАЯ ПОЛОВИНА XIX ВЕКА – НАЧАЛО XX ВЕКА)

***Ключевые слова:*** *город Иреван, переселение армян в Ереван, образование, благотворительность, финансовая помощь*

Иреван – один из древних городов Азербайджана. Все сферы жизни этого города, в том числе образование, издавна были органичной частью общей жизни Азербайджана. В статье показано, что оккупация Иреванского ханства царской Россией (1827 г.) замедлила развитие здесь образования, но не смогла его полностью предотвратить. Как и прежде, хотя учебными заведениями в городе были начальные школы (моллаханы) и медресе, создавались и увеличивались новые – светские учебные заведения. Царская

Россия не обращала внимания на их нужды в области образования, поскольку считала азербайджанцев чужеродным народом. Поэтому состоятельные азербайджанцы и интеллигенция города проводили благотворительные акции, помогая развитию образования: собирали деньги на организацию школ и финансовую помощь бедным учащимся.

Использовались и другие формы благотворительности: одни учителя давали уроки, другие отдавали под школу свои дома. Труппы любительских театров жертвовали деньги, собранные от выступлений, бедным студентам. В результате всего этого увеличилась численность азербайджанских национальных кадров.

***Z.H.Karimov***

## THE ROLE OF CHARITY IN THE DEVELOPMENT OF EDUCATION IN IRAVAN (SECOND HALF OF THE XIX$^{th}$ CENTURY – BEGINNING OF THE XX$^{th}$ CENTURY)

***Keywords:*** *city of revan, resettlement of Armenians to Yerevan, education, charity, financial aid*

Iravan is one of the ancient cities of Azerbaijan. All spheres of the life of this city, including education, have been an organic part of the general life of Azerbaijan for a long time. The article shows that the occupation of the Iravan Khanate by Tsarist Russia (1827) slowed down the development of education here, but could not completely prevent it. As before, although the educational institutions in the city were primary schools (mollakhanas) and madrasahs, new - secular educational institutions were created and increased. Czarist Russia did not pay attention to their needs in the field of education because it considered Azerbaijanis to be a foreign people. Therefore, wealthy Azerbaijani people and intellectuals of the city carried out charity actions to help the development of education: they collected money for the organization of schools and financial assistance to poor students.

Other forms of philanthropy were also used: some teachers taught in Hawaii, others gave their homes for the school. Amateur theater troupes donated the money they collected from their performances to poor students. As a result of all this, the number of Azerbaijani national personnel increased.

Bəhs olunan dövrdə İrəvan şəhəri əhalisinin xeyli hissəsini Azərbaycan türkləri təşkil edirdi. Əvvəlcə cüzi olan ermənilərin sayı Türkmənçay (1828) və Ədirnə (1829) müqavilələrindən sonra Qacarlar və Osmanlı dövlətindən köçürülənlərin hesabına artmışdır. Türkmənçay müqaviləsindən sonra İrəvanda 9710 nəfər yaşayırdı ki, onlardan 7331 nəfəri azərbaycanlı idi [2, s.274]. Erməni millətçiləri İrəvan şəhərinin milli simasını dəyişdirmək üçün "çox iş" görmüş, lakin onun Azərbaycan

türklərinə məxsusluğunu indiyədək tamamilə silməyə müvəffəq ola bilməmişlər. Şəhərin maddi tarixi abidələrində, müxtəlif dillərdə yazılmış mənbə və ədəbiyyatlarda o, öz izlərini saxlamışdır. Şəhərin tarixini vərəqləyərkən onun sosial-iqtisadı, həmçinin mədəni həyatında Azərbaycan türklərinin geniş fəaliyyəti ilə rastlaşmaq olur.

İrəvan şəhəri həmin dövrdə azərbaycanlıların mədəniyyət mərkəzlərindən biri olmaqla yanaşı, həm də dini mərkəz rolunu oynayırdı. Çar hökuməti bütün dini müəssisələri, o cümlədən onların nəzdindəki məktəb və mədrəsələri də öz nəzarətində saxlayırdı. Qafqazın Baş İdarə rəisi senator, stats-sekretar Baron Nikolay Qafqazın İdarə olunması haqqında İmperatorun 1859-cu il 1 yanvar Əsasnaməsinə və 1872-ci il 5 aprel tarixdə təsdiq etdiyi Zaqafqaziya Şiə Müsəlmanları İdarəsi haqqında Əsasnaməyə müvafiq olaraq 1873-cü il 10 yanvar tarixli verdiyi əmrlə, Bakı quberniyasında Bakı şəhərində, Yelizavetpol quberniyasnda Yelizavetpol şəhərində, İrəvan quberniyasında İrəvan şəhərində müsəlman məclisi yaradıldı [1, v.17]. Zaqafqaziya ölkəsində qazilərin təyinatı barədə 1872-ci il 3 aprel tarixli Əsasnaməyə əsasən onlar aşağıdakı qaydada təyin olunurdu: Quberniyalar: Baki - 6 nəfər, Yelizavetpol - 6nəfər, İrəvan - 6 nəfər, Tiflis və Kutais - 2 nəfər [1, v.32]. Bu, İrəvan şəhərinin Azərbaycan türklərinin mühüm dini mərkəzlərindən biri olduğunu təsdiq edir.

İrəvanlı azərbaycanlıların mühüm spesifik xüsusiyyətlərindən biri maarifə meyilli olması idi. Rus çarizmi dövründə burada dünyəvi məktəblər şəbəkəsi təşəkkül tapsa da, əsas yeri uzun müddət əvvəlkitək ənənəvi məktəblər – məktəblər(mollaxana) və mədrəsələr tuturdu. İrəvan şəhərində fəaliyyət göstərən məscidlərin demək olar ki, hamısında mollaxanalar, böyük məscidlərdə isə mədrəsələr fəaliyyət göstərirdi.

1878-ci ildə Dağıstan vilayəti ilə birlikdə cəmi Cənubi Qafqazda 1557 ruhani məktəbində 18.604 şagird təhsil alırdı. Şagirdlərin çoxu İrəvan, Gəncə quberniyaları və Dağıstan vilayətinin payına düşürdü [2, s.166].

1879-cu ildə İrəvan şəhərində 12 məscid məktəbində 12 müəllim 208 şagirdin təhsil və tərbiyəsi ilə məşğul olurdu. Aylıq təhsil haqqı 50-60 qəpik təşkil edirdi [7, s.39].

1888-ci ilin məlumatına görə, İrəvan quberniyasında 63 məktəb (mollaxana) fəaliyyət göstərirdi. Bu məktəblərdə təhsil alanlar əsasən Azərbaycan türkləri idi. Bu məktəblər əsasən valideynlərin pulu hesabına saxlanılırdı [2, s.162].

Şəhərin maarif həyatında tədricən yeniliklər baş verirdi. 1882-ci il martın 28-də İrəvanda Məşədi Molla İsmayil Hacı Kazımov (1845-1886) 14 şagirdin oxuduğu "üsuli-cədid" (yeni-üsul) məktəbini açdı. Mirzə Həsən Rüşdiyyə Təbrizi də (1850-1943) şəhərdə belə bir məktəb təşkil etdi [2,

s.219]. Bu zaman şuşalı görkəmli pedaqoq Firidun bəy Köçərli də İrəvanda müəllimlik və ictimai fəaliyyətlə məşğul idi.

Qeyd etmək lazımdır ki, azərbaycanlı uşaqların təhsilə cəlb edilməsində maarifpərvər ziyalıların rolu da olduqca böyük əhəmiyyət daşıyırdı. Xalqın inkişafı üçün yeganə çıxış yolunu maariflənməkdə görən bu ziyalılar qarşılarına qoyduqları məqsədlərə çatmaq üçün şəxsi vəsaitlərini belə əsirgəmir, fədakarlıqla fəaliyyət göstərirdilər. Belə ziyalılara misal olaraq, öz vəsaiti hesabına İrəvanda oğlan və qız Leyli məktəbləri açmış (1901) əslən İrəvanlı olan keçmiş çar zabiti Məmmədqulu bəyi (1864-1905), azərbaycanlı uşaqlara təmənnasız dərs deyən Molla Tağı Mahmud oğlunu, Mirzə Ələkbər Elxanov kimi vətənpərvərləri göstərmək olar (6, s.56-60).

Qeyd etmək lazımdır ki, İrəvanda müxtəlif tipli dünyəvi maarif müəssisələri, o cümlədən XIX əsrin 80-ci illərinin I yarısında açılmış İrəvan Müəllimlər Seminariyası, İrəvan Kişi Gimnaziyası, İrəvan Qadın Progimnaziyası fəaliyyət göstərirdi.

İrəvanın maarifpərvər ziyalılarının yeni tipli məktəblər açılması istiqamətində təşəbbüsləri hakim dairələr tərəfindən cavabsız qalsa da, əhali öz vəsaiti hesabına 1898-ci ildə rus-tatar (Azərbaycan) məktəbi aça bilmişlər. Nəzarətçisi Haşim bəy Vəzirovun təyin edildiyi bu məktəbin birinci bölməsində artıq 1900-cü ildə 54 şagird oxuyurdu. Eynulla Sultanovun tərtib etdiyi siyahıya görə, yeni məktəbin açılması üçün Abbasqulu İrəvanski 50 rubl, Pənah xan Makinski 50 rubl, 17 nəfərin hər biri 25 rubl, 31 nəfərin hər biri 15 rubl, 51 nəfərin hər biri 10 rubl vermişdir. H.Əhmədovdan fərqli olaraq, F.Rüstəmov həmin məktəbin 1896-cı il oktyabrın 31-də 110 şagirddən ibarət kontingentlə açıldığını qeyd edir. İrəvana gələn İran şahı Müzəffərəddin şah məktəbin şagirdlərinə 300 rubl ianə vermişdir [6, s.52].

Gətirilən faktlar bir daha sübut edir ki, İrəvan bölgəsində maarifpərvər ziyalıların ana dilli məktəb uğrunda mübarizəsi Azərbaycan maarifçilik hərəkatının tərkib hissəsini təşkil etmiş, bölgədə təhsilin inkişafında əhəmiyyətli rol oynamışdır.

1850-ci ildə İrəvanda Qafqaz canişini M.Vorontsovun həyat yoldaşı Yelizaveta Vorontsovanın təşəbbüsü ilə Müqəddəs Ripsima qadın məktəbi fəaliyyətə başladı; 1854-1858-ci illərdə orada təhsil alan qızların 23 nəfəri azərbaycanlı olmuşdur [6, s.55].

Şəhərin mədəni-maarif həyatında azərbaycanlı xanımlar da fəal iştirak edirdilər.

İrəvandakı "Müqəddəs Ripsima" Qadın Xeyriyyə Cəmiyyətində 63 nəfər üzvdən 7 nəfər azərbaycanlı qadın idi: Mahşərəf xanım Vəzirova, Tavuş Bəyim, Xanımcan xanım, Tükəzban xanım, Xurşid Bəyim, Sara Bəyim, Sona Xocamirova. Sonrakı illərdə həmin cəmiyyətlərdə azə

rbaycanlı qadınların sayı xeyli artmışdır. Məsələn, İrəvan qadın xeyriyyə cəmiyyətində 1870-ci illərdə 42 nəfər müsəlman qadın iştirak edirdi [3, s.79].

Bakıda Azərbaycan teatrının əsası qoyulduqdan sonra (1873) İrəvan şəhərinin ziyalı kəsimi bundan ruhlanaraq əsasən şagird və tələbələri cəlb etməklə həvəskar teatr truppaları təşkil edir, əhalini maarifləndirmək və xeyriyyə məqsədi ilə tamaşalar göstərirdilər.

1881-ci il martın 31-də 37 nəfərin təşəbbüsü və iştirakı ilə 1884-cü ildə "Tamahkarlıq düşmən qazanar" və M.F.Axundovun "Müsyö Jordan və dərviş Məstəli şah" əsərinin tamaşaya qoyulduğu ehtimal olunur. 1882-ci il aprelin 2-də Qayane məktəbinin salonunda şəhərin yoxsul tələbələrinə yardım məqsədi ilə azərbaycanlı teatr həvəskarları tərəfindən "Tamahkarlıq düşmən qazanar" komediyası ikinci dəfə səhnəyə qoyuldu. 1886-cı ildə "Müsyö Jordan və dərviş Məstəli şah" ehtimal ki, ikinci dəfə F.Köçərlinin fəallığı nəticəsində İrəvan gimnaziyasında həvəskar artistlər tərəfindən göstərilmişdir [4, s.28].

1890-cu il aprelin 4-də İrəvan müəllimlər seminariyasının salonunda (seminariya 1881-ci il noyabrın 8-də açılmışdır. 1890-cı ildə orada 69 azərbaycanlı oxuyurdu). Müsəlman gənclər hökumətin rüsxəti ilə M.F.Axundovun "Məstəli şah" komediyasını oynadılar, ictimaiyyətin diqqətini və hörmətini qazandılar (2, s.28). 1896-cı il dekabrın 8-də türk həvəskar gənclərinin kiçik bir qrupu M.F.Axundovun "Müsyö Jordan" adlı əsərini tamaşaya qoydular (4, s.28).

"İrəvan şəhərinin erməniləri çox kinli, ədavətli, təkəbbürlü, xudpəsənd və xəmirləri fitnə-fəsad ilə yoğrulmuş adamlardır. Qafqaz vilayətlərində nə qədər iğtişaş və münaqişələr baş verirdisə, onların birinci səbəbkarı İrəvan erməniləri olurdu", - belə yazırdı Mir Möhsün Nəvvab [5, s.15-16].

1905-1906-cı illər çar Rusiyasının qızışdırdığı, daşnaqların, erməni kilsəsinin fəallığı ilə ermənilər tərəfindən İrəvanda üç dəfə (1903-cü il 20-22 fevral, 23-26 may,18 sentyabr) müsəlman-türk qırğınları törədilmişdir. Çoxlu sayda azərbaycanlı yandırılmış, qətl və ya şikəst edilmişdi. 1905-ci il avqustun 25-də teatr həvəskarları zərər çəkmiş həmyerlilərinə kömək məqsədi ilə bir tamaşa göstərirlər. 15 gün sonra eyni məqsədlə daha bir tamaşa göstərir və əldə edilən pulu şəhərin yoxsullarına paylayırlar [4, s.29].

1906-cı ildə İrəvanda milli ədavət yenidən kəskinləşir. Belə şəraitdə azərbaycanlı teatr həvəskarları fəaliyyətlərini dayandırmırlar.1906-ci ilin avqustunda onlar yenə də Pənah xan Makinskinin evində tamaşa göstərir və əldə edilmiş 426 manatı dağıdılmış qiraətxananın bərpasına verirlər. 1907-ci il avqustun 24-də İrəvandakı rus-tatar məktəbində teatr həvəskarlarının göstərdikləri tamaşadan toplanmış 277 manat pul həmin məktəbdə təhsil

alan üç nəfər kasıb şagirdə verilmişdir. 1908-ci ildə iyunun 17-də şəhərdə rus-tatar məktəbində təhsil alan şagirdlərə kömək məqsədi ilə teatr həvəskarları N.B.Vəzirovun "Ev tərbiyəsinin bir şəkli", "Yağışdan çıxdıq, yağmura düşdük" tamaşalarını göstərmişlər [4, s.30].

Bakının tanınmış aktyorlarının İrəvan şəhərinə qastrolları burada teatr mühitinin canlanmasına təkan verir. 1909-cu ildə Hüseyn Ərəblinskinin, Sidqi Ruhullanın, Cəlil Bağdadbəyovun, Yusif Ağayevin, xanım Şahnəzərovanın, 1910-cu il oktyabrın 4-də Mirzə Ağa Əliyevin və Zülfüqar Hacibəyovun truppası İrəvana gəlir, Göyərçin xanım Qayıbovanın iştirakı ilə 1913-cü il oktyabrın 14-də isə Zülfüqar Hacıbəyovun dəstəsi Rüxsarə xanımın ıştirakı ilə bir sıra tamaşalar göstərirlər [4, s.31-33].

Bəhs olunan dövrün mətbuatında və arxiv sənədlərində İrəvanda teatr tamaşalarının təşkilində və göstərilməsində rolu olmuş fədakar şəxslərin adları hifz olunur: Mirabbasov Bağırov, Mirzə Mustafa Rəcəbov, İbrahim Qədimov, Mehdi Qurbanzadə və başqaları belə şəxslərdəndir.

I Dünya müharibəsi İrəvan quberniyasında yaşayan azərbaycanlıların vəziyyətini ikiqat dözülməz etmişdir. "Məktəbi-islamiyyə"nin şagirdləri 1914-cü il mayın 16-da öz yoxsul yoldaşlarına kömək etmək məqsədi ilə yerli müəllif Məmməd Əli Nasirin "Millətpərəstlikmi, şərabxorluqmu" komediyasını tamaşaya qoymuşlar. 1917-ci ilin iyunun əvvəlində gənc teatr həvəskarları İrəvanda Azərbaycan dilində çıxan "Lək-lək" ("Leylək") adlı məcmuənin redaksiyasına kömək etmək məqsədi ilə tamaşa göstərmişlər. Çapına 1914-cü ilin fevralın 22-də başlanmış məcmuə müharibə təhlükəsi və maddi çətinliklər üzündən 12-ci sayından sonra iyunun 30-da bağlandı. Ən ağır şəraitdə belə ehtiyacı olan həmyerlilərinə yardım etmək məqsədi ilə tamaşalar vermək İrəvan teatr həvəskarlarının davam edən ənənəsinə çevrilmişdir. Avqustun ikinci yarısında artıq müharibədə yaralanan əsgərlərin ilk dəstələri İrəvana gətirilmişdi. Yaralı əsgərlərinə yardım məqsədi ilə həmin ayın 25-də zabitlər klubunda Üzeyir Hacıbəyovun "O olmasın, bu olsun" operettasını tamaşaya qoyurlar. Sentyabrın 4-də isə Əli xanın evində İrəvanın azərbaycanlı qadınlara kömək məqsəd ilə iki tamaşa göstərmişlər [4, s.35].

1915-ci ildə Osmanlı torpağında yaşayan türkləri qırır, İrəvan mahalındakı azərbaycanlıları ayaq altında əzirdilər. Hələ müharibə ərəfəsində nəşr olunan "Lək-lək" məcmuəsi uzaqgörənliklə xəbər verirdi: "Müharibə türkləri və biz azərbaycanlıları qırmaq və yaxud qovmaq hiyləsidir" (30 iyun 1914). Müharibə türksüz Ermənistan yaratmaq, azərbaycanlıları qətl-qarət etmək, fiziki və mənəvi soyqırımına məruz qoymaq üçün əlverişli şərait yaratmışdır. Rus qoşunları, erməni könüllü dəstələri, "erməni milli alayları" əsasən bu ərazidən Osmanlı hüdudlarını

keçirdilər. Osmanlı dövlətindən axın-axın gələn ermənilər Qərbi Azərbaycan ərazisində məskunlaşırdılar [4, s.36].

1916-ci ildə siyasi vəziyyətin son dərəcə gərgin və təhlükəli olmasına baxmayaraq, İrəvanın həvəskar teatr artistləri şəhərdə fəaliyyətlərini davam etdirirlər. Mayın 16-da “Nadanlıq”, 26-da “Dağılan tifaq”ı oynayırlar. Dram şirkətinin artistləri may və iyun aylarında bir neçə tamaşa, o cümlədən sentyabrın 11-də “Arşın mal alan” operettasını göstərirlər. Bu tamaşaların təşkilatçısı “Cəmiyyəti-xeyriyyə” idi. Oktyabrın 15-də “Cəmiyyəti-xeyriyyə”nin artistləri “Arşın mal alan”, “O olmasın, bu olsun” tamaşalarını səhnəyə qoymuşlar [4, s.36].

İrəvan teatrının tarixi fəaliyyətinə Azərbaycan Respublikasının Prezidenti İ.Əliyevin 2006-cı il 30 avqust tarixli sərəncamında verilən qiymətdə deyilir ki, “2007-ci ildə İrəvan Dövlət Azərbaycan Dram Teatrının 125 illiyi tamam olur. 1882-ci ilin əvvəllərində azərbaycanlılardan ibarət teatr truppasının göstərdiyi tamaşa ilə fəaliyyətə başlamış bu mədəni mərkəz teatr tariximizə parlaq səhifələr yazmışdır” [4, s.118].

İrəvan maarifçilik mühiti Azərbaycana onun gələcəyinə işıq saçan görkəmli ictimai-siyasi və mədəniyyət xadimləri bəxş etmişdir. Onlardan biri də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin babası Əziz Əliyev (1897-1962) olmuşdur. O, 1917-ci ildə İrəvan kişi gimnaziyasını qızıl medalla bitirmişdir. Rusiyada ali təhsil almaq üçün onun pula ehtiyacı var idi. Bakı milyonçusu H.Z.Tağıyevə müraciət etmişdir. O da dərhal 350 rubl pulu göndərmişdir. Ə.Əliyev Peterburq Hərbi Tibb Akademiyasına qəbul olur [7]. Oranı müvəffəqiyyətlə bitirib xalqına fayda verən tibb işçisi, alim, ictimai-siyasi xadim olmuşdur. O, bir sıra böyük dövlət vəzifələrində – Azərbaycan SSR xalq səhiyyə komissarı (1939-1941),n Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin üçüncü katibi (1941-1942), ÜİK(b)P Dağıstan Vilayət Partiya Komitəsinin katibi kimi məsul vəzifələrdə çalışmışdır.

Ümumiyyətlə, XIX əsrin ikinci yarısında Cənubi Qafqazın azərbaycanlıları arasında geniş miqyas almış maarifçilik hərəkatı İrəvan şəhərində də maarifin inkişafına və ziyalılar elitasının yaranmasına güclü təsir etmişdir. 1918-ci il mayın 29-da Azərbaycan Xalq Cümhuriyyətinin sosial-iqtisadi və mədəniyyət mərkəzlərindən biri olan İrəvanı Ermənistana bağışlamasını “Azərbaycan Respublikasının Prezidenti İ.Əliyev “böyük bir tarixi cinayət” (10.I.2024) adlandırmışdır.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Milli Arxiv İdarəsi. Dövlət Tarix Arxivi, f.290, siy. №1, s.v №4, iş: müxtəlif məsələlər üzrə yazışmalar, v.17

2. *Əhmədov H.* Azərbaycan məktəb və pedaqoji fikir tarixi. Bakı: Elm və təhsil, 2014, 431s .
3. *Məmmədov S.* Azərbaycanda qadın təhsili və Azərbaycanın tərəqqipərvər qadınlarının maarifçilik fəaliyyəti (XIX əsrin II yarısı – 1920-ci ilə qədər): tarix elm. ... diss. Bakı, 1966, 359 s.
4. *Məmmədov İ.* İrəvan dəftəri III: teatr tariximizdən səhifələr: deportasiya, qaçqınlıq, mədəni soyqırımı tarixindən. Bakı: Qismət, 2009, 160 s.
5. *Nəvvab M.M.* 1905-1906-cı illərdə erməni-müsəlman davası. Bakı: Azərbaycan,1993, 128 s.
6. *Rüstəmov F.* İrəvan müəllimlər seminariyası və onun məzunları. Bakı: Elm və təhsil, 2022, 240 s.
7. http://www/anl/az>2018/OI PDF Rüfət Hüseynzadə. İrəvan maarifçiliyi

Redaksiyaya daxil olub 08.07.2024

*UOT 94(479.24)*

***N.R.Məmmədov***
*AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu*
*mamedov-n@yahoo.com*

# XANKƏNDİDƏ REALLAŞAN YARIŞLAR DÜNYAYA SÜLH MESAJI VƏ TARİXİ ZƏFƏRİN GÖSTƏRİCİSİ KIMI

https://doi.org/10.30546/170899876.72.03.2024.26

***Açar sözlər:*** *Azərbaycan, Xankəndi, inkişaf, Qarabağ, Zəfər salnaməsi*

Azərbaycanın qədim yaşayış məskəni olan Xankəndi şəhəri 20 sentyabr 2023-cü ildə Ermənistan silahlı birləşmələrinin işğalından azad edildi. Birgünlük antiterror əməliyyatı nəticəsində Azərbaycan öz dövlət suverenliyini tam təmin etmiş və həmin gündən bütün Qarabağ bölgəsində Azərbaycan Bayrağı dalğalanır. Bu, böyük tarixi hadisədir və bu tarix bütün Azərbaycan xalqının qəlbində əbədi yaşayacaqdır. Azərbaycan xalqı, dünya azərbaycanlıları bu Zəfərlə bundan sonra da əbədi fəxr edəcəklər. Bu gün bu torpaqların əsil sahibi olan Azərbaycan xalqı bu ərazilərdə, o cümlədən Xankəndi şəhərində, Xocalıda, Ağdərədə, Əsgəranda, işğaldan azad edilmiş bütün digər ərazilərdə geniş quruculuq-abadlıq işləri aparılır. Xankəndində reallaşan yarışlar isə dünyaya sülh mesajı və tarixi zəfərin göstəricisidir.

***Н.Р.Мамедов***

# СОРЕВНОВАНИЯ, ПРОВОДИМЫЕ В ХАНКЕНДИ КАК ПОСЛАНИЕ МИРУ МИР И ПОКАЗАТЕЛЬ ИСТОРИЧЕСКОЙ ПОБЕДЫ

***Ключевая слова****: Азербайджан, Ханкенди, развитие, Карабах, летопись Победы*

Ханкенди, древнее поселение Азербайджана, был освобожден от оккупации армянских вооруженных формирований 20 сентября 2023 года. В результате однодневной антитеррористической операции Азербайджан полностью обеспечил свой государственный суверенитет, и с этого дня флаг Азербайджана развевается по всему Карабахскому региону. Это большое историческое событие, которое навсегда останется в сердцах всего азербайджанского народа. Азербайджанский народ, азербайджанцы всего мира будут вечно гордиться этой победой. Сегодня настоящий хозяин этих земель – азербайджанский народ на этих землях, в том числе в городе Ханкенди, Ходжалы, Агдере, Аскеране и на других освобожденных от оккупации территориях строит и создает, занимается восстановлением и благоустройством. Соревнования, проводимые в Ханкенди, являются посланием мира всему миру и показателем исторической победы.

***N.R.Mammedov***

## COMPETITIONS HELD IN KHANKENDY AS A MESSAGE TO THE WORLD PEACE AND AN INDICATOR OF HISTORIC VICTORY

***Keywords***: *Azerbaijan, Khankendi, development, Karabakh, chronicle of Victory*

On September 20, 2023, the city of Khankendi, an ancient settlement of Azerbaijan, was liberated from the occupation of the armed forces of Armenia. As a result of the one-day anti-terror operation, Azerbaijan fully secured its state sovereignty, and the Azerbaijani flag was waved all over the Karabakh region since that day. This is a great historical event and this history will live forever in the hearts of all Azerbaijani people.

The people of Azerbaijan and the Azerbaijanis of the world will forever be proud of this victory. Today, the people of Azerbaijan – the owners of these lands are building and creating, extensive construction and improvement works are being carried out including in the city of Khankendi, Khojaly, Agdere, Askeran and other areas liberated from occupation. The competitions held in Khankendi are a message of peace to the world and an indicator of historical victory.

## Giriş

20 sentyabr 2023-cü il tarixdə otuz il işğal altında qalan Azərbaycanın qədim Xankəndi şəhəri işğaldan azad edildi. Bununla da Azərbaycanın ərazi bütövlüyü və suverenliyi tam təmin olundu. Bu tarixdə analoqu olmayan bir hadisədir və Azərbaycan tarixində yeni dövrün başlanğıcı deməkdir [3, s.6]. Bundan sonra şəhərdə dinc quruculuq və bərpa prosesinə başlandı. Xankəndi şəhəri 2023-cü il dekabrın 23-də futbol yarışına, 2024-cü il martın 1-də isə Xankəndi – Bakı marafonuna ev sahibliyi etdi. Bu yarışlar bölgədə separatizminin kökünün kəsildiyinə və Qarabağın Azərbaycan olduğuna əyani bir mesajdır.

**Xankəndində reallaşan futbol yarışı dünyaya sülh mesajıdır.** 2023-cü il sentyabrın 20-də qazanılan qələbə Azərbaycan xalqının, dövlətinin milli hədəflərinə doğru onilliklərin o üzündən çıxdığı, böyük əzm, qətiyyət, qəhrəmanlıq tələb edən və ağır sınaqlarla dolu haqq yolunun Zəfər zirvəsi oldu. Heç şübhəsizdir ki, bu zəfərin Azərbaycanın daha parlaq eralara daşınmasında misilsiz rolu olacaq. Azərbaycan xalqı 21 dekabr 2023-cü ildə daha bir möhtəşəm tarixi hadisəyə şahidlik etmişdir. Xankəndi Stadionunda futbol üzrə Azərbaycan Kubokunun səkkizdə bir final mərhələsində Ağdamın “Qarabağ” və Bakının “MOİK” komandanları qarşılaşmışlar. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oyuna baxmaq üçün Xankəndi stadionuna gəlmişlər.

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səslənmiş, sonra isə Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçən Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad olunmuşdur. Dövlətimizin başçısı oyundan əvvəl Xankəndi stadionunda çıxış etmişdir: "Əziz dostlar, Xankəndiyə xoş gəlmisiniz! İlk dəfədir ki, işğaldan azad edilmiş ərazilərdə futbol matçı keçirilir. Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bu gün qəhrəman şəhidlərimizin uşaqları, ailə üzvləri bizim yanımızdadır. Gəlin, hamımız birlikdə onları salamlayaq. Bu futbol matçının Xankəndidə keçirilməsinin çox böyük mənası var. Xankəndi qədim Azərbaycan diyarıdır. Bu kəndin təməli Qarabağ xanı tərəfindən qoyulmuşdur və ondan sonra Azərbaycan Respublikasının vəsaiti hesabına Azərbaycan memarları, inşaatçıları tərəfindən böyük şəhər yaradılmışdır. Əfsuslar olsun ki, 30 il ərzində bu şəhərdə separatçılar yuva salmışdılar. Bu şəhər separatizmin rəmzinə çevrilmişdi. Torpaqlarımızı 30 il ərzində işğal altında saxlayan Ermənistan hesab edirdi ki, bunu əbədi edə biləcək. Biz, şanlı Azərbaycan Ordusu onlara və bütün dünyaya sübut etdik ki, bu, bizim tarixi, əzəli torpağımızdır. Bu torpaqlara sahibləri bizik, Azərbaycan xalqıdır. Biz buraya qayıtmalı idik və qayıtmışıq.

Bu, böyük tarixi hadisədir və bu tarix bizim qəlbimizdə əbədi yaşayacaq. Azərbaycan xalqı, dünya azərbaycanlıları bu Zəfərlə bundan sonra əbədi fəxr edəcəklər.

Biz – bu torpaqların sahibləri qurub-yaradırıq, o cümlədən Xankəndi şəhərində, Xocalıda, işğaldan azad edilmiş digər ərazilərdə geniş quruculuq-abadlıq işləri aparılır. Bu stadion cəmi iki ay ərzində, demək olar ki, yenidən inşa edilmiş, əsaslı təmir olunmuşdur. Separatizm simvolikasını əks etdirən bütün yazılar artıq tarixin zibilxanasına atıldı. Bütün başqa şəhərlər kimi, bu gün Ağdam şəhəri də yenidən qurulur. O cümlədən bir neçə aydan sonra Ağdam şəhərində "İmarət" stadionunun yenidən inşa edilməsinə başlanılacaq.

Bugünkü oyunun nəticələrindən asılı olmayaraq qalib bəllidir. Qalib Azərbaycan xalqıdır, Azərbaycan dövlətidir! Bugünkü oyunda "Qarabağ" və Mərkəzi Ordu İdman Klubunun qarşılaşması təbii ki, böyük rəmzi məna daşıyır. Qarabağ-Ordu-Xalq birliyi bizim Zəfərimizin əsas mənbəyidir.

Əziz dostlar, dörd il bundan əvvəl bu stadionda bəziləri "Qarabağ Ermənistandır və nöqtə" demişdilər. Biz onlara sübut etdik ki, Qarabağ Azərbaycandır!

İşğal edilmiş torpaqların böyük hissəsi üç il bundan əvvəl – İkinci Qarabağ müharibəsi nəticəsində işğalçılardan azad edildi. Qarabağın tacı olan Şuşa şəhərində Azərbaycan bayrağı qaldırıldı. Üç ay bundan əvvəl – sentyabrın 19-20-də Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə rayonları da işğalçılardan azad edildi. Oktyabrın 15-də bütün bu şəhərlərdə

mən Azərbaycan bayrağını ucaltdım. Noyabrın 8-də Xankəndinin mərkəzi meydanında Zəfər paradı keçirildi. Bu gün isə bu gözəl idman bayramını biz birlikdə qeyd edirik.

Bundan sonra bu torpaqlarda Azərbaycan bayrağı əbədi dalğalanacaq. Biz azərbaycanlılar burada əbədi yaşayacağıq! Yaşasın Qarabağ! Yaşasın şanlı Ordumuz! Qarabağ Azərbaycandır!” [1, s.1-5].

Azərbaycan Prezidenti İlham Əliyevin çıxışından sonra Ulu öndər Heydər Əliyevin idmançılarla görüşləri, idmanla bağlı fikirləri barədə videoçarx nümayiş etdirildi.

Azərbaycan Prezidenti İlham Əliyev Xankəndi Stadionuna daxil olub futbolçularla və oyunu idarə edən hakimlərlə görüşdü, onlarla xatirə şəkli çəkdirdi.

Azərbaycan Prezidenti İlham Əliyevin Xankəndi meydançasında topa rəmzi toxunuşundan sonra “Qarabağ” – MOİK görüşü başlandı. Maraqlı idman mübarizəsi şəraitində keçən görüş “Qarabağ” komandasının 1:0 hesablı qələbəsi ilə başa çatmışdır. “Qarabağ”ın futbolçusu Nəriman Axundzadənin yarışın əsas hissəsinə əlavə olunmuş vaxtın 5-ci dəqiqəsində vurduğu qol oyunun taleyini həll etmişdir. Bununla da N.Axundzadə işğaldan azad olunmuş ərazilərdə 30 ildən sonra keçirilən ilk futbol matçında fərqlənən hücumçu kimi tarixə düşmüşdür.

Yeri gəlmişkən onu da xatırlamaq yerinə düşərdi ki, Xankəndi şəhərində stadionun inşasına 1955-ci ildə başlanılmış və 1956-cı ildə istifadəyə verilmişdir. Bu arena ilk dəfə SSRİ-nin keçmiş diktatoru İosif Stalinin, bir müddət keçdikdən sonra isə çoxsaylı azərbaycanlıların daha bir qatili Stepan Şaumyanın adlarını daşımışdır. Süni ot örtüklü stadionda tamaşaçı tutumu 15 min nəfərdir [1, s.1-5]. 1991-ci ildə şəhərin tarixi adı qaytarıldıqdan sonra “Xankəndi şəhər stadionu” adlandırılmışdır. Keçmiş SSRİ dövründə stadionda “Qarabağ Xankəndi” futbol klubu ev oyunlarını keçirmişdir. Xankəndi şəhəri separatçılardan təmizləndikdən sonra stadionda təmir-bərpa işləri aparılmış və qondarma rejimin “bayrağı”nın rənglərində olan oturacaqlar zibilliyə atılmışdır [4, s.1]. Həmçinin ötən əsrdən qalan işıq dirəkləri yığışdırılmış, stadion müasir tələblərə cavab verən formada qurulmuşdur. Təxminən 30 illik fasilədən sonra – 2023-cü ilin sentyabrında arena öz sahiblərinə, Azərbaycan Gənclər və İdman Nazirliyinin nəzarətinə qaytarılmışdır. Saat $14^{00}$-da baş hakim Əli Əliyevin fiti ilə Xankəndində keçirilən tarixi oyuna start verilmişdi. Meydançanın süni ot örtüyü olmasından hiss edilirdi ki, bu, “Qarabağ” kimi sürətli və qısa ötürmələrə üstünlük verən komandalara çətinlik yaradır. Oyuna hər iki tərəf qarşılıqlı hücumlarla başladı. MOİK futbolçularının həyəcanlı və təcrübəsiz olmaları əldə etdikləri fürsətləri boşa vermələrindən sezilirdi. Ancaq unutmayaq ki, Ağdam klubunun əsas heyət üzvlərindən bir neçəsi oynamırdı. Bunlara

baxmayaraq, ağdamlılar daha çox topa sahib olur, xüsusilə cinahlardan qurulan hücumlara üstünlük verirdilər. Bütün səylərə baxmayaraq ilk hissədə qol olmadı.

İkinci qırx beş dəqiqədə təzyiqi artıran “Qarabağ” qol epizodları yaratsa da, bundan yararlana bilmirdi. Son dəqiqələrdə fiziki yorğunluq topsuz oyunda da oyunçuların iş əmsalını aşağı saldı. Nəhayət, gözlənilən qol son dəqiqədə gəldi. Nəriman Axundzadə ağdamlılara qələbə qazandıran qolu vurdu. Yekunda 1:0 hesabı ilə qalib gələn “Qarabağ” 1/4 finala vəsiqə qazandı. Oyun başa çatdıqdan sonra komandaların baş məşqçiləri Xankəndində keçirilən bu möhtəşəm yarışla bağlı təəssüratlarını bildirdi [8, s.131].

Mərkəzi Ordu İdman Klubunun baş məşqçisi Qəzənfər Abbasov oyunun Xankəndi kimi qədim, tarixi torpaqlarımızda keçirilməsinə görə Ali Baş Komandana, ordumuza minnətdarlığını bildirdi və şəhidlərimizə Allahdan rəhmət dilədi: “Çünki bu gün onların qəhrəmanlıqları sayəsində Azərbaycanın qədim diyarı Xankəndi şəhərindəyik”. Oyuna gəlincə, baş məşqçi dedi: “Qarabağ”ın gücü, futbolçuların səviyyəsi bəllidir. Əlimizdən gələni etməyə çalışdıq. Futbolçularıma təşəkkür edirəm, bacardıqlarını etdilər. Futbolçularımız kimə qarşı oynadığımızı bilirdilər. Gözəl oyun göstərmək niyyətində idik. Ev oyunlarımızı Xankəndində oynamaq istəyərdik. Bu, mənim üçün də şərəf olar”.

Ağdamın “Qarabağ” futbol klubunun baş məşqçisi Qurban Qurbanovun təəssüratları isə belə oldu: “Xankəndində ilk dəfədir ki, mətbuat konfransı keçirilir. Həddindən artıq həyəcanlıyam, neçə illərdir ki, bunu hamı həsrətlə gözləyirdi. İnanmırdıq ki, ilk oyunumuzu Xankəndində keçirəcəyik. Ali Baş Komandanımız, qəhrəman əsgərlərimizin şücaəti sayəsində buradayıq. Oyuna gəldikdə isə mübarizə aparmaq çətin idi. Çünki hər kəs Xankəndi, Şuşa haqqında danışırdı, düşünürdü. MOİK də sona qədər mübarizə apardı” [6, s.1-2].

Prezident İlham Əliyevin yaxın günlərdə “İmarət” stadionunun inşasına başlanılacağı ilə bağlı müjdəli açıqlamasına da münasibət bildirən Qurban Qurbanov dedi ki, dövlət başçısı həmişə əsl azərbaycanlı kimi davranır və tarixi ərazilərimizə sahib çıxır: “Dövlət başçısı “İmarət” stadionunun yenidən mövcud olmasını istəyir. Ümid edirəm ki, bir gün də orada oyun keçirəcəyik”.

Qeyd edək ki, 1986-cı ildə yerli “Qarabağ” komandasının bombardiri və heyətində yeganə azərbaycanlı olan Samir Ələkbərov təəssüratlarını bölüşür: “Uzun illərdən sonra Xankəndində olmağıma görə xoşbəxtəm. Qələbəmiz çox sevindiricidir. Mən Qarabağlı deyiləm. Amma Xankəndi şəhəri üçün çox darıxmışam. Mənim ən böyük arzum idi ki, Azərbaycan Xankəndi şəhəri geri qaytarılsın, burada futbol klubu yaradılsın və rəhbəri

mən olum. Müharibədən əvvəl belə bir klub fəaliyyət göstərdi, təəssüflər olsun ki, burada da erməni məkri var idi və heyətdə ancaq ermənilər yer alırdı. Yeganə azərbaycanlı mən idim... Şükürlər olsun ki, yenidən Xankəndi stadionuna ayaq basdıq. Bunu bizə yaşadan əsgərlərimizə minnətdaram. Allah şəhidlərimizə rəhmət etsin. Onların ruhu qarşısında baş əyirəm... Azərbaycanın sərvəti olan Xankəndində dövlət başçısının bu şəhərin separatçılar və terrorçulardan azad olunmasından sonra dediklərini qürurla xatırlayıram: “Azərbaycan xalqı elə bir Qələbə qazanıb ki, həm dillər əzbəri olub, həm də bu Qələbə əbədi bizimlə olacaq. Bu Qələbə bizim tariximizdə əbədi olacaq. Bizdən sonra gələn nəsillər bu Qələbə ilə əbədi və haqlı olaraq fəxr edəcəklər” [2, s.4].

2023-cü il dekabrın 21-də Xankəndi stadionunda futbol üzrə Azərbaycan Kubokunun 1/8 final mərhələsində Ağdamın “Qarabağ” və Bakının MOİK komandaları arasında keçirilən oyunun fasiləsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2023-cü ilin idman yekunları ilə bağlı təşkil olunmuş mərasimdə idman ictimaiyyətinin təltif edilmiş nümayəndələri ilə görüşmüş və dərin məzmunlu nitq söyləmişdir: “Xoş gəlmisiniz Xankəndiyə! İdmançılarla ənənəvi görüşü bu il Xankəndində keçiririk. Bunun çox böyük mənası var. Sizi, ilk növbədə, əldə edilmiş uğurlar münasibətilə təbrik etmək istəyirəm. Siz öz zəhmətinizlə dövlətimizin idman şöhrətini göylərə qaldırımsınız və Azərbaycan dövləti də sizi mükafatlandırmaqda tam haqlıdır, çünki siz buna layiqsiniz. Bu gün burada düzülən mükafatlar, mənzillərin orderləri, digər mükafat növləri sizə işğaldan azad olunmuş Xankəndi şəhərində tarixi futbol matçının fasiləsində təqdim edilir. Bu münasibətlə sizi ürəkdən təbrik etmək istəyirəm. Yarışlar çox olub. Ancaq bugünkü yarış tarixdə əbədi qalacaq, həm xalqımız üçün, dövlətimiz üçün, həm də dünya üçün. Dünyada hələ ki, belə bir nümunə olmayıb ki, xalq, dövlət öz torpağını – uzun illər işğal altında olmuş torpaqları döyüş meydanında qan tökərək, şəhidlər verərək azad etsin, qursun, yaratsın və cəmi üç ildən sonra artıq azad edilmiş torpaqlarda futbol matçı keçirilsin, vətəndaşlar Bakıdan, digər yerlərdən gəlib buna tamaşa etsinlər və qürur hissi yaşasınlar. Biz tarix yazmışıq, yazırıq və bu gün dediyim kimi, Xankəndi cəmi üç ay bundan əvvəl azad edilmişdir, ancaq artıq Xankəndi – Azərbaycan şəhəri olan Xankəndi yaşayır və dirçəlir. Mən bir daha sizi ürəkdən təbrik etmək istəyirəm. Mən sizi buraya dəvət etməklə sizə öz münasibətimi, hörmətimi bildirmək istəmişəm. Bu görüşü biz Bakıda da keçirə bilərdik. Ancaq hesab etdim ki, bu görüşün burada keçirilməsi və sizə bu yüksək mükafatların Xankəndində verilməsi tam ədalətli olacaqdır. Bir daha təbrik edirəm” [7, s.5].

Qalib idmançılarla xatirə şəkli çəkdirdikdən sonra Azərbaycan Respublikasının Prezidenti həmişə olduğu kimi, bu il də idmançılarımızı

sevindirib. Belə ki, dekabrın 20-də Prezident İlham Əliyev Azərbaycanda idmanın inkişafında xidmətləri olan bir qrup şəxsin təltif edilməsi haqqında sərəncam imzalamış və həmin Sərəncama əsasən, 1 nəfər "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu", 17 nəfər "Tərəqqi" medalı ilə təltif edilmişdir. Bundan başqa, Azərbaycanda idmanın inkişafında xüsusi xidmətlərinə və yüksək peşəkarlığına görə 3 nəfərə "Əməkdar bədən tərbiyəsi və idman xadimi" fəxri adı verilmişdir. Bütün bunlarla yanaşı, ölkə idmanının inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə 4 nəfərə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü təyin edilmiş və İdman ictimaiyyətinin 29 nümayəndəsinə isə mənzil verilmişdir [3, s.6].

**Xankəndi-Bakı Marafonu**

Xankəndində keçirilən futbol üzrə yarışla bərabər, bu günlərdə yenə həmin şəhərdə Azərbaycan idmanında daha bir əlamətdar tarixi hadisəyə şahidlik etdik. Belə ki, 2024-cü il fevralın 29-dan martın 4-dək ölkə idmanında ilk dəfə olaraq "İdman həftəsi" çərçivəsində "Qürurla irəli!" şüarı ilə təşkil edilən Xankəndi-Bakı ultramarafonu keçirildi. Marafonun startının Azərbaycanın qədim torpağı olan Xankəndində verilməsi isə bu əlamətdar günün əhəmiyyətini daha da artırdı.

2024-cü il fevralın 29-da Gənclər və İdman Nazirliyinin, Azərbaycan Atletika Federasiyasının və "Bakı Şəhər Halqası" Əməliyyat Şirkətinin birgə təşkil etdiyi marafonunun açılış mərasimində əvvəlcə torpaqlarımızın azadlığı uğrunda şəhidlik zirvəsinə ucalan qəhrəman hərbçilərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

İnsan orqanizminin bütün xassə və əlamətləri onun genotipi ilə idarə olunur. Bu baxımdan yüksək inkişafa malik olan beynin xüsusiyyətləri də ondan kənarda qala bilməz. Beyin mərkəzlərinin, əsəb sisteminin xassələri, insanın temperamenti, ağlın keyfiyyətləri, hiss və emosiyalarla bağlı olan çoxsaylı psixoloji proseslər, hallar və xassələr vardır ki, onlar beynin irsi mənşəyi ilə bilavasitə bağlı olub, ilk növbədə, bu amildən asılıdır. Melonxolik tipli insanların yüksək sürət tələb edən idman yarışlarında uğur qazana bilməsi çox çətindir. Yaxud xolerik tipli adamlar üçün saatlarla bir yerdə oturub elmi tədqiqatla, digər uzunmüddətli sakit fəaliyyət sahələri ilə məşğul olmaq əlavə enerji itkisi yaradır.

İnstinktlər. Hər hansı yaş mərhələsində davranışın, sadəcə olaraq nəzərdən qaçırılan və yalnız fizioloji, sosioloji anlayışlarla izah olunan "şüursuz", aralıq mərhələləri vardır. Bu instinktdir. İnstinktə şüur tərəfindən müşayiət olunmayan məqsədəuyğun hərəkətlər aiddir.

S.Rubinşteyn instinktiv hərəkəti mürəkkəb hərəkət adlandırır. O, üzvü motivlərdən (bioloji tələbatlardan) yaranır, avtomatik reaksiyalarla tamamlanır. İnkişafın müxtəlif mərhələlərində onlar müxtəlif formada təzahür edir. Psixoloji nöqteyi-nəzərdən instinkt özündə reflekslərə meyillilik əks etdirir. Bu, hər şeydən əvvəl qıcıqlayıcı və reaksiya arasındakı asılılıqdan irəli gəlir.

İnsanın sosial təcrübəni mənimsəməsində intuisiyanın rolunu verilmiş

tapşırıqların onun tərəfindən müstəqil qaydada yerinə yetirilmə tərzini öyrənməklə müəyyənləşdirmək olar. Ona görə də intuitiv təfəkkür hazırda tədqiqatçıların maraq dairəsində olan aktual mövzudur. Bu sahədə praktik psixologiyada psixoprofilaktik və korreksiyaedici məqsədlərlə tətbiq edilən bir sıra diferensiallaşdırılmış metodikalar məlumdur.

Həyatın ilk anlarında uşaq öz tələbatlarını instinktiv olaraq ifadə edir. Məsələn, K.Büler instinktlərin inkişafa təsirini izah edərək əminliklə bildirir ki, ilk insanın tarixi bizim uşaqlarımızın mənəvi inkişafı tarixidir. Əgər biz hər şeyə düşünülmüş şəkildə, obyektiv yanaşsaq, insanla heyvan davranışının oxşarlığını nəzərdən keçirməklə olduqca sadə və aydın şəkildə üç böyük mərhələnin yuxarıdan aşağıya qurulmasını görə bilərik. Bu mərhələlər: instinkt, məşq və intellektdir.

Tələbatlar. Şəxsiyyətin inkişafının hərəkətverici qüvvələrindən biri də tələbatlardır. A.Maslouya görə, insan tələbatları arasında möhkəm əlaqə var. Onların hər birinin ödənilməsi şərti digərinin reallaşmasına zəmanət verir (1, s.150):

a) fiziki tələbat;
b) təhlükəsizlik və müdafiə tələbatı;
c) mənsubolma və məhəbbət tələbatı;
ç) özünəhörmət tələbatı;
d) özünüvaciblik tələbatı;
e) özünüqiymətləndirmə tələbatı.

A.Maslou iddia edir ki, əgər insanın hər hansı fiziki tələbatından biri ödənilməzsə, o, razı düşmür. Bu tələbat ön plana keçərək yeni tələbat yaranmasını ləngidir.

Motivlər. İnsanın mühitlə əlaqəsində yaranan ən mühüm və ilkin sosial komponent sosial motivlərdir. Onun ilkin forması əxlaqi motivlərdir. İnsan ilk dövrlər daxili qüvvələrin təsiri altında ciddi şəkildə götür-qoy etmədən, əvvəlcədən planlaşdırmadan, situativ hisslərlə hərəkət edir. Yaşlıların rəğbətini qazanmağa yönəldilmiş özünəhörmət cəhdi ilə şərtlənir. 3 yaşlı uşaq ətraf mühitlə əlaqələr qurmaq üçün kifayət qədər sosial təcrübəyə malik olur. Bu təcrübəni müxtəlif sosial təsirlərlə fərdi qaydada mənimsəyir. Nə istədiyini izah etməkdə çətinlik çəkir. Onu fəaliyyətə sövq edən əsas səbəbi yalnız hərəkət məqsədindən müəyyənləşdirmək mümkün olur. Sosial motivlərin ilk dəfə nə zaman əmələ gəlməsi mübahisəli məsələdir, lakin əmələ gəlmə prosesinin elmi təhlili çoxsaylı nəzəriyyələrdə öz əksini tapmışdır.

C.Kelli insanda motivləşməni ümumiyyətlə inkar edir. Göstərir ki, motivləri fəaliyyətin hərəkətverici qüvvəsi kimi qəbul etmək düzgün deyil. O, motivləşməni "şəxsi konstrukt nəzəriyyəsi" ilə əvəz edərək sosiallaşmanın təhlilini də bu nöqteyi-nəzərdən aparır.

Hisslər və emosiyalar. Şəxsiyyətin inkişafında hisslərin də təsiredici

roluna, emosiyaların ifadəliliyinə mühüm əhəmiyyət verilir. Psixologiyada şəxsiyyətin sosial məzmunu da hisslərin məzmunu ilə əlaqələndirilir. Belədir ki, insan özünün konfiqurasiyasını, fiziki imkanlarını dəyişə bilmədiyi kimi, hisslərin məzmununa də təsir göstərə bilmir. K.Koffka problemə daha əhatəli yanaşır. Onun fikrinə görə, əgər ətraf mühitdə normal şərait yaradılarsa, hissi aləmə təsir göstərmək olar. Bu zaman tərbiyə mühiti təsiredici qüvvəyə malik olmalıdır.

A.E.Olşannikov insanda emosiyaların öz dərdini, müvəffəqiyyətsizliyi yaşamaqla bağlı tərəflərini "şəxsiyyətin əsas xüsusiyyətləri haqqında səmimi duyğular" adlandırır. Bu hissləri yaşayan insan başqalarının emosional problemlərini də qavramaq imkanı əldə edir. Uşaqlıq dövründən başlayaraq inşanın özünütənzimləməyə yönələn hər hansı hərəkəti: diqqətin səciyyəsi, nitq və hərəkət sürətinin dəyişməsi, daxili imkanların səfərbər edilməsi, sosial tələblərə daha ciddi yanaşmasında ifadə olunur. Beləliklə, şəxsiyyətin strukturunun davamlı tərəfləri formalaşır. Şəxsiyyətin ətraf aləm hadisələrinə yanaşma tərzi, fəaliyyət prosesi üçün seçdiyi fərdi üslubu, idrakı bütün imkanları ilə təzahür edir və onun xarakteri haqqında təsəvvür yaranır (5, s.148).

Ətraf mühit. Şəxsiyyətə təsir göstərən ən mühüm amillərdən biri olan ətraf mühit özündə bir neçə amili birləşdirir: tərbiyə, təlim, iqtisadiyyat, sosial şərait və s.

Tərbiyə. Psixika insan şüurunun əsasında durmaqla şəxsiyyətin formalaşmasında da mühüm əhəmiyyət kəsb edir. Bu iki amilin inkişafı bir-biri ilə qırılmaz əlaqədədir. Ona görə də mütəxəssislər hesab edirlər ki, şəxsiyyətin inkişafına yönəldilmiş tərbiyəvi təsirlər eyni zamanda psixikanın inkişafına da ciddi təsir göstərir.

İnkişafı hərəkətlərin, mülahizələrin, hisslərin, insanlara, canlı və cansız təbiətə həssas münasibətin sosial məzmunu ilə şərtlənir. Şəxsiyyətin ahəngdar inkişafı uşağın özünə və ətrafdakılara münasibətinin fərdi-tipik tərəfləri: müxtəlif situasiyalarda təkrarların, sabit cəhət kimi ifadə olunan davranış tərzini, münasibəti, maraqları, yönəlişliyi, fərdi iş üslubunu, mənəvi keyfiyyətlərini və s. ilə səciyyələnir. Bu elementlərin inkişafı elə şərait yaradılmasını tələb edir ki, bir tərəfdən etik normalara yiyələnməklə təsəvvürlərini inkişaf etdirməli, digər tərəfdən tələbat və onun təsiri ilə yaranan motivlər davranışın orijinal idarəedicisi olmalıdır. Bu imkanlar insanın sosiallaşması yolu ilə gedir və bir sıra tərbiyəvi təsirlərlə bağlı olaraq formalaşır. Bu baxımdan tərbiyə üsulları mühit amilinin təsiredici xüsusiyyətlərini özündə cəmləşdirən mühüm amildir.

Ümumilikdə tərbiyə metodlarının işlənməsi mürəkkəb prosesdir. E.V.Subbotski yazır: "Tərbiyə – konkret forma və metodların psixologiya, pedaqogika, etika və antropologiya kimi elmlərin birgə səyi ilə dərindən və

hərtərəfli işlənməsini tələb edir”. Müasir dövrdə tərbiyənin iki tərəfi ayırd edilir:

- milli adət-ənənələrlə tərbiyə;
- elmi-metodlarla tərbiyə.

Tərbiyə işinin qurulmasında ilk növbədə aşağıdakı tələblər gözlənməlidir:

♦Tərbiyə işində uşağa verilən tələblər və ona göstərilən tərbiyəvi təsir arasında məzmun vəhdəti təmin olunmalıdır.

♦ Tərbiyə metodu uşağın yaşına müvafiq seçilməlidir.

♦Tərbiyə metodu müvafiq yaş dövründəki aparıcı fəaliyyət növü ilə uzlaşdırılmalıdır.

♦Tərbiyə metodlarının seçiliməsində və tətbiqində sabitliyə yol vermək olmaz. Onlar vaxtaşırı inkişaf və şəraitlə bağlı olaraq digərləri ilə əvəz olunur.

♦Tərbiyə metodunun tətbiqi yalnız uşağın fərdi – tipik cəhətlərinin nəzərə alınması şəraitində psixoloji nöqteyi-nəzərdən effektli hesab olunur. Belə ki, hər bir uşaq hər bir yaş dövründə özünəməxsus metodlar kompleksi ilə tərbiyə edilməlidir.

Tərbiyə insanda hər hansı keyfiyyətin formalaşdırılmasından daha çox ona özünüinkişaf, özünüaktuallaşdırma və özünütərbiyənin yollarını öyrətməlidir. Bu mənada L.S.Vıqotski israrla bildirir ki, “tərbiyəni ruhun polisinə çevirmək olmaz”.

Təlim. Təlimin psixi inkişafda oynadığı rol müxtəlif nöqteyi-nəzərdən izah olunur. Təlim hər şeydən əvvəl idrak fəallığının bir formasıdır. Bu fəaliyyətin hansı şəraitdə, necə qurulması şərti şəxsiyyətə göstərə biləcəyi dinamik təsirlə bağlıdır. Tərbiyədən fərqli olaraq təlim prosesi xüsusi norma və tələblərlə, xüsusi vaxt məhdudiyyətində planlı şəkildə qurulur. Bu mənada onun nəticələrini, psixikaya və şəxsiyyətə təsiretmə ehtimalını əvvəlcədən müəyyənləşdirmək də mümkündür. Burada bir mühüm şərt var. Təlimə cəlb olunanın psixikası və psixologiyası haqqında təlim verəndə konkret məlumat olmalıdır. Təlim o halda inkişafetdirici amil kimi qiymətləndirilir ki, özündə bir sıra cəhətləri birləşdirsin:

- təlim verən şəxs psixoloji-pedaqoji bilikləri kamil bilməli, uşağın bioloji xarakteristikasını öyrənməlidir;
- təlim prosesində uşağın instinktiv, hissi və emosional reaksiyasının təbiəti nəzərə alınmalıdır. Təcrübələr göstərmişdir ki, emosional ifadə edilən fakt daha tez qavranılır və yadda qalır;
- təlim, uşağın həssaslıq dərəcəsinin yüksəldilməsi zamanı effektli təsir göstərə bilər;
- uşağın psixikasının ən intensiv dövrü payız və qış fəsli olduğundan digər dövrlərdə qısa məzmunlu materiallar seçilməlidir;

- milli təlim üsulları mövcud şəraitin tələbləri baxımından tətbiq edilməlidir;
- təlimdə sistemlilik, ardıcıllıq gözlənilməlidir;
- təlimdə müvəffəqiyyət qarşıya qoyulmuş məqsədin aydınlığı, məqsədyönlülüyü ilə şərtlənir.

Ə.Əlizadə insanı fəaliyyətə təhrik edən motivlər sistemində təlim motivlərinin məzmununu belə xarakterizə edir:

- təlim uşaq üçün şəxsi məna kəsb etməlidir. Əks halda motiv təlimin gedişinə real təsir göstərmir;

- təlim motivi uşağın şəxsi arzusu və yaşlıların təsiri ilə yaranır, lakin onun gedişində yaşlıların nəzarəti zəruridir. Bu halda uşağı təlim fəaliyyətinə normal münasibətdən yayındırmaq mümkündür;

- motivlər uşaq tərəfindən aydın dərk olunmalıdır. Bunun üçün müəllim (tərbiyəçi, valideyn) öz fəaliyyət və davranış motivlərini necə əsaslandırmasını öyrənməli, nəticələri təlim motivləri ilə əlaqələndirməlidir;

- eyni təlim motivindən müxtəlif sahələrdə əlverişli vasitələrlə istifadə etmək olar. Bu yolla uşaqların müxtəlif fənlərə marağını artırmaq mümkündür (3, s.132).

Sosial şərait. Şəxsiyyətin inkişafını şərtləndirən amillər və bu inkişafın hərəkətverici qüvvələri arasında qarşılıqlı əlaqə, asılılıq var. Bu baxımdan sosial şərait tələbatların təmin olunmasını, onlar da öz növbəsində psixi inkişafı şərtləndirir. Ona görə də sosial şərait psixi inkişafın vacib amili kimi səciyyələndirilir.

Şəxsiyyətin tərbiyəsi, təlimi üçün əlverişli, rahat mənzil şəraiti, avadanlıq, vəsait, mikro və makromühit lazımdır. Bu amillərin insanın maraq və meyillərini ödəməsi üçün yetərli təminatlı inkişafa dinamik təsir göstərir: tələbatlar ardıcıl yaranır, yeni fəaliyyətə maraq oyanır, yeni motivlər əmələ gələrək şəxsiyyəti inkişafa yönəldir. Psixoloqlardan məhz bu mövqedən çıxış edərək insan psixikasının inkişafı və təşəkkülündə sosial şərait və şəxsiyyətlərarası münasibətlərin, ünsiyyət tərzinin təsirinə üstünlük verirlər.

## ƏDƏBİYYAT


1. *Bayramov Ə.S.,Əlizadə Ə.Ə.* Sosial psixologiya. Bakı:Qapp-poliqraf,2003,345 s.
2. *Əliyev R.I.* Şəxsiyyət və onun formalaşmasının etno-psixoloji əsasları. Bakı: Araz, 2000, 195 s.
3. *Əlizadə Ə.Ə.* Yeni pedaqoji təfəkkür. Bakı: Adiloğlu, 2001, 161 s.
4. *Əmrahlı L.Ş.* Şəxsiyyət və cəmiyyət. Bakı: MBM, 2007, 206 s.
5. *Рубинштейн С.Л.* Основы общей психологии. М.: Педагогика, 1982, 484 с.


Redaksiyaya daxil olub 20.09.2024

*UOT 159.9*

***A.A.Hümbətova***
*abusova_a@mail.ru*
*Azərbaycan Respublikasının Təhsil İnstitutu*

# MÜƏLLİMIN EMOSİONAL İNTELLEKTİNİN TƏLİM PROSESİNİN KEYFİYYƏTİNƏ TƏSİRİNİN PSİXOLOJİ ASPEKTLƏRİ

https://doi.org/10.30546/170899876.72.03.2024.36

***Açar sözlər:*** *müəllim, emosional intellekt, emosiya, pedaqoji staj*

Məqalədə müəllim peşəsinə qoyulan mürəkkəb və çoxsaylı tələblərin həllində emosional intellekt mühüm şəxsi resurs kimi qiymətləndirilir. Müəllimin emosiyaları təlim prosesləri üçün çox aktualdır. Çünki onlar müəllim davranışına təsir edir, müəllim-şagird münasibətlərini formalaşdırır və son olaraq şagirdin təlim nəticələrinə təsir göstərir. Məqalədə müəllimin pedaqoji stajı ilə emosional intellekti arasında əlaqə araşdırılıb. Müəyyən olunub ki, pedaqoji stajı 1-5 il olan müəllimlərin şəxslərarası emosional intellekt göstəriciləri şəxsdaxili emosional intellekt göstəriciləri ilə müqayisədə daha yüksəkdir. Lakin pedaqoji staj artdıqca müəllimlərin şəxslərarası emosional intellektin göstəricisində azalma (1-5 il 44%, 31-45 ildə 37%) müşahidə olunur. Emosiyaları idarəetmə bacarığı pedaqoji fəaliyyətin növbəti illərində (6-15 il 47%) artsa da, daha sonra (16-30 il 41%, 31-45 il 33% ) azalır.

***А.А.Гумбатова***

# ПСИХОЛОГИЧЕСКИЕ АСПЕКТЫ ВЛИЯНИЯ ЭМОЦИОНАЛЬНОГО ИНТЕЛЛЕКТА ПЕДАГОГА НА КАЧЕСТВО ОБРАЗОВАТЕЛЬНОГО ПРОЦЕССА

***Ключевое слова***: *учитель, эмоциональный интеллект, эмоции, опыт преподавания*

В статье эмоциональный интеллект оценивается как важный личностный ресурс в решении сложных и многочисленных требований, предъявляемых к профессии педагога. Эмоции учителя очень важны для процесса обучения. Потому что они влияют на поведение учителя, формируют отношения учитель-ученик и, в конечном итоге, влияют на результаты обучения ученика. В статье рассматривается взаимосвязь педагогического опыта учителя и эмоционального интеллекта. Определено, что показатели межличностного эмоционального интеллекта у педагогов со стажем педагогической деятельности 1-5 лет выше, чем показатели внутриличностного эмоционального интеллекта. Однако по мере увеличения

педагогического стажа наблюдается снижение межличностного эмоционального интеллекта учителей (44% в 1-5 лет, 37% в 31-45 лет). Умение управлять эмоциями возрастает в последующие годы педагогической деятельности (6-15 лет 47%), но затем снижается (16-30 лет 41%, 31-45 лет 33%).

***A.A.Humbatova***

## PSYCHOLOGICAL ASPECTS OF THE INFLUENCE OF THE TEACHER'S EMOTIONAL INTELLIGENCE ON THE QUALITY OF THE EDUCATIONAL PROCESS

***Keywords:*** *teacher, emotional intelligence, emotion, teaching experience*
In the article, emotional intelligence is evaluated as an important personal resource in solving the complex and numerous demands placed on the teaching profession. The teacher's emotions are very relevant for the learning process. Because they affect the teacher's behavior, shape the teacher-student relationship and finally affect the student's learning results. The article examines the relationship between the teacher's pedagogical experience and emotional intelligence. It was determined that the interpersonal emotional intelligence indicators of teachers with 1-5 years of teaching experience are higher than the intrapersonal emotional intelligence indicators. However, as the pedagogical experience increases, a decrease in the interpersonal emotional intelligence of teachers is observed (44% in 1-5 years, 37% in 31-45 years). The ability to manage emotions increases in the following years of pedagogical activity (6-15 years 47%), but then decreases (16-30 years 41%, 31-45 years 33%).

Emosional intellekt insanın fəaliyyəti, rifahı və motivasiyası üçün əhəmiyyətli təsirləri olan fenomendir. Müəllim peşəsinə qoyulan mürəkkəb və çoxsaylı tələblərin həllində emosional intellekt mühüm şəxsi resursdur. Emosional intellekt (EQ) adətən insanların öz şəxsi hislərini, eləcə də digər insanların hisslərini necə qavraması, tənzimləməsi və ifadə etməsi ilə əlaqədardır [6]. Akademik sahədə emosional intellekt əsasən iki aspektdə nəzərdən keçirilir: qabiliyyət (bacarıq EQ) və xüsusiyyət (xüsusiyyət EQ). Birinci model emosional intellekti siqnalların və məlumatların başa düşülməsini və fərqləndirilməsini əhatə edən idrak qabiliyyətinin bir forması kimi konseptuallaşdırır, ikincisi isə emosional intellekti tipik davranışla əlaqəli şəxsiyyət xüsusiyyəti kimi görür [3]. Bu iki fərqli model fərqli ölçmə üsullarına və emosional intellektin əsas empirik əsaslarına gətirib çıxarır [4]. Yəni birinci model emosional intellektin strukturuna nəzarət edir, ikincisi bu fenomenin prosessual tərəfini idarə etməyə yönəlib. Məlumdur ki, emosional intellektin beş komponenti mövcuddur: 1) insanın öz emosiyalarını dərk etməsi; 2) öz emosiyalarını idarə etmək; 3) özünü motivasiya; 4) başqalarının emosiyalarını

anlamaq və ya fərqində olmaq; 5) münasibətlərin idarə edilməsi (yəni başqalarının emosiyalarını idarə etmək). Bütün bu struktur sosial kompetensiyaların emosiyaların diferensiallaşdırılması, mövcud emosiyaların dərki, emosional sferaya nəzarət, əldə edilmiş biliklərdən istifadə kimi funksionallığa malikdir.

Təlim emosional-koqnitiv proseslərin cəmləşdiyi dinamik bir prosesdir. Bəzi tədqiqatçılar tədrisin emosional proses olduğunu nəzərə alaraq, tədrisin effektivliyinə nail olmaq, şagirdləri motivasiya etmək və müsbət sosial-emosional öyrənmə mühiti yaratmaq üçün müəllimlərin hissləri idarə və nəzarət etməyin vacibliyini göstərirlər [8]. Müəllim emosiyalarının öyrənilməsi isə emosional intellektlə bağlı aparılan tədqiqatlara diqqəti artırdı. Aparılan tədqiqatların əksəriyyəti ilk növbədə müəllimin emosional intellektinin pedaqoji fəaliyyətin nəticələrinə təsirinə yönəlmişdir. Müəllimin emosional intellekti ilə özünü effektivlik arasındakı əlaqəni araşdırılarkən müsbət korrelyativ asılılıq müəyyən edilmişdir. Öz-özünə effektivlik insanın müəyyən nailiyyət əldə etmək üçün tələb olunan xüsusi hərəkətləri yerinə yetirmək qabiliyyətinə olan inancını əks etdirir. Başqa sözlə desək, müəllimin özünü effektivliyi onların tədrislə bağlı tapşırıqları uğurla yerinə yetirmək və şagirdlərin yüksək nəticələrini əldə etmək qabiliyyətinə dair təsəvvürlərinə aiddir (Klassen, 2011). Müəllimin özünü effektivliyinin strukturu üç aspekti əhatə edir:

1. Sinfin idarə edilməsində özünü effektivlik
2. Tədris strategiyaları üçün özünü effektivlik
3. Şagirdin diqqətini cəlb etmək üçün müəllimin özünü effektivliyi

Özlərinin tədris tapşırıqlarını uğurla yerinə yetirmək qabiliyyətinə malik olduğuna inanan effektiv müəllimlər öz işləri ilə daha çox məşğul olurlar (Granziera və Perera, 2019). Başqa sözlə, güclü effektivlik hissi olan müəllimlər daha həvəsli və öz işlərinə sadiq olurlar. Özünü effektiv şəkildə nümayiş etdirmə dedikdə, motivasiyalı və peşəni tərk etmək niyyətləri daha aşağı olan müəllimlər nəzərdə tutulur. Skalvikin (2014) fikrincə, müəllimin öz effektivliyinin yüksək səviyyədə olması onların daha yüksək səviyyəli işə qoşulmasına səbəb olur.

Lunun fikrincə (2016), müəllimin öz effektivlik səviyyəsi çətin şagirdlərlə iş zamanı onların əzmkarlığına, öhdəliklərinə və öyrətmə davranışlarına əhəmiyyətli dərəcədə təsir göstərə bilər. Müəllimlərin öz effektivliyinin də tələbələrin nailiyyətlərinə təsir edən ən əhəmiyyətli amillərdən biri olduğu qeyd edilmişdir. Öyrətmə qabiliyyətinə və tələbələri həvəsləndirmək qabiliyyətinə arxayın olan müəllimlər hətta tələbələrin akademik motivasiyası olmadıqda belə, tələbələrinin təlim nəticələrinə daha çox təsir göstərirlər (Kim 2018).

Digər tərəfdən emosional intellekt ilə emosional tükənmə (burn out) arasında əlaqə araşdırılarkən məlum oldu ki, ən yüksək emosional intellektə malik olan müəllimlər daha aşağı tükənmə və ya tükənmişlik səviyyələrini nümayiş etdirirlər (Platsidou, 2010; Pishghadam, Sahebjam, 2012). Bundan əlavə, bəzi tədqiqatlar müəllimin emosional intellekti ilə işə bağlılıq arasındakı əlaqəni araşdırmışdır. Bu araşdırmalara görə, emosional intellekt müəllimlərin enerjisinə, diqqətinə və əzmkarlığına müsbət təsir göstərir (Merida-lopes, 2017).

Göründüyü kimi, mürəkkəb konfliktli təlim situasiyalarının həlli yollarının tapılması çevik psixika və yüksək emosional intellektə sahib olan müəllimin psixoloji baxımdan özünün və digər təlim iştirakçılarının emosional vəziyyətini (emosiyalarını) nə dərəcədə idarə etməyə hazırlıqlı və bacarıqlı olmasını aktuallaşdırır. Bu məqsədlə müxtəlif ixtisaslı müəllimlər ilə aparılan tədqiqat zamanı emosional intellektin təyini üçün verilən 46 situasiya 4 - **ŞA EQ şkalası** (şəxslərarası EQ), **ŞD EQ şkalası** (şəxsdaxili EQ), **EA şkalası** (emosiyaların anlamaq ) və **EİE şkalası** (emosiyaların idarə olunması) üzrə bölünür.

Tədqiqata cəlb olunan 420 nəfərin 33%-i humanitar, 22%-i texniki, 30%-i ibtidai, 14%-i digər fənn müəllimləridir.




Diaqram 1.-dən göründüyü kimi, pedaqoji stajı 1-5 il aralığında olan 42% müəllimin emosiyaları anlamaq (EA) şkalası üzrə nəticəsi aşağı olub. **EA şkalası** (emosiyaların anlamaq ) – özünün və başqalarının emosiyalarını anlamaq, insanın emosional vəziyyətini xarici təzahürlərə əsasən anlamaq (üz ifadələri, jestlər, səslənən səs) intuitiv olmaq; başqalarının daxili vəziyyətlərinə həssas olmağı nəzərdə tutur. Burada maraqlı bir məsələ **ŞD EQ şkalası** (şəxsdaxili EQ) üzrə müəllimlərin 42%-nin aşağı nəticə göstərməsi olub. Şəxsdaxili emosional intellekt – öz emosiyalarını tanımaq, dərk və idarə etmək, səbəbləri dərk etmək, emosiyaları sözlə təsvir etməkdir.

Məsələ burasındadır ki, öz emosiyalarını tanımaqda və idarə etməkdə, yaranan emosiyanın səbəblərini dərk etməkdə çətinlik çəkən insanın empatiya qurmağı da asan olmur. Peşə fəaliyyətinin ilk illərində məktəb mühitinə adaptasiyası, fərqli yaş və fərdi xüsusiyyətlərə malik olan insan qrupları ilə işləmək təcrübəsinin olmaması və s. gənc müəllimlərdə emosional qıcıqlanma, psixi gərginliyik, stres, təşviş və s. emosional vəziyyətlər yarada bilər. Diaqram 1.-dən də göründüyü kimi, müəllim şəxsiyyətində **ŞA EQ şkalasının** (şəxslərarası EQ) göstəriciləri **ŞD EQ şkalasının** (şəxsdaxili EQ) göstəriciləri ilə müqayisədə daha yüksəkdir. Şəxslərarası emosional intellekt - digər insanların emosiyalarını anlamaq və idarə etmək, arzuolunan emosiyaları yaratmaq və saxlamaq, arzuolunmayan emosiyaları nəzarətdə saxlamaqdır. Şəxsdaxili emosional intellekt **ö**zünütanımaya, özünükəşfə, özünüqiymətləndirməyə xüsusi təsir göstərir. Belə ki, V.Ceyms nəzəriyyəsində şəxsiyyətdaxili münaqişənin inkişafı sahəsi insanın sosial şəxsiyyətə çevrilmə imkanlarını artırır. Bir insanın sosiallığı onun daxil olduğu insan qruplarının sayı və o qrupdakı fəaliyyəti ilə müəyyən edilir. Əgər fərd sosial şəxsiyyət kimi hər hansı bir şəkildə özü haqqında obraz yaratmaq istəməsə, bu, sosial şəxsiyyətdə disharmonik parçalanmaya səbəb ola bilər [2, s.138]. Şəxsiyyətlərarası münasibətlərdə yaranan konfliktlərin yaranma səbəblərindən biri də qrup üzvlərinin bir-birinin emosiyalarını anlamaq, müsbət emosiyaları yaratmaq və saxlamaq, mənfi emosiyaları nəzarətdə saxlamaq və idarəetmənin (EİE) aşağı səviyyədə olmasıdır.




Sorğu zamanı 23% müəllimin emosiyaları idarəetmə göstəricisi aşağı olub. Diaqram 2.-dən göründüyü kimi, staj artdıqca, (6-15 il) 27 % müəllim emosiyaları anlamaq (EA) göstərici üzrə aşağı nəticə göstərib. Diaqram 1.-dən göründüyü kimi, pedaqoji stajı 1-5 il aralığında olan 44% müəllimdə şəxslərarası emosional intellektin (ŞA) göstəricisi daha yüksəkdir. Maraqlı

burasındadır ki, pedaqoji staj artdıqca müəllimlərin şəxslərarası emosional intellektin göstəricisində azalma (1-5 il 44%, 31-45 ildə 37%) müşahidə olunur.




Fikrimizcə, təhsil prosesinin iştirakçıları ilə müxtəlif konfliktli situasiya ilə rastlaşma müəllimlərdə konfliktləri həll etmək, konfliktdən yayınma bacarıqları pedaqoji staj artdıqca formalaşdırır. Lakin pedaqoji fəaliyyət emosional baxımdan zəngin olduğundan ilk illərində konfliktləri həll etməyə maraqlı olan müəllimlərin sonrakı illərdə bu motivi azalır.




Diaqram 1.-dən göründüyü kimi, pedaqoji stajı 1-5 il olan müəllimlərin emosiyaları yüksək dərəcədə idarə etmə bacarığı üzrə göstəricisi 31%-dir. Emosiyaları idarəetmə bacarığı pedaqoji fəaliyyətin

növbəti illərində diaqram 2.-dən göründüyü kimi (6-15 il 47%), artsa da, daha sonra (diaqram 3.16-30 il 41%, diaqram 4. 31-45 il 33%) azalır. **EİE şkalası** (emosiyaların idarə olunması) - özünün və başqalarının hisslərini idarə etmək, başqa insanlarda bu və ya digər emosiyaları yaratmaq, arzuolunmaz duyğuların intensivliyini azaltmaq. İnsanları manipulyasiya etməyə meyilli olmaqdır. Bu isə onu göstərir ki, ilk illərdə gənc müəllimlərdə emosiyaları anlamaq bacarığı yaxşı, idarəetmə bacarığı zəif olsa da, staj artdıqca idarəetmə bacarığı nəzərəçarpacaq dərəcədə artır. Stajı 16 ildən çox olan müəllimlərdə idarəetmə bacarığında zəifləmə müşahidə olunur. Bu da müəllim peşəsinin mənfi dinamik emosional hallarla (stres, gərginlik) zənginliyi ilə əlaqədar olur ki, nəticədə müəllimdə emosional tükənmə baş verir.

A.A.Boçaverin fikrincə [1, s.151], məktəblərdə bir konfliktli situasiyanın təhlükəsiz həlli üçün seçilmiş müəllim davranışı digər konfliktli vəziyyətin həllinə uyğun gəlmir. Lakin artan təcrübə ilə bu bacarıq tez-tez deformasiyaya uğrayır və nəticədə pedaqoji vəziyyətlərin həlli üçün stereotip üsullardan istifadə edən müəllimlər tərəfindən müəyyən dərəcədə problemlər yaradır.

Akademik nailiyyət bir insanın təhsil müəssisələrində əldə etdiyi təhsil nəticələrinə aiddir. Lakin məktəb təhsil müəssisəsi kimi təkcə biliklərin verildiyi məkan deyil, müəllimlərin şagirdləri ruhlandırdığı və dəstəklədiyi yerdir. Bu isə müəllimləri öz emosiyalarını idarə etməyə və eyni dərəcədə effektiv təlim zamanı şagirdlərlə yaxşı qarşılıqlı əlaqə və münasibətlər qurmağa sövq etməlidir. Çünki emosional intellekt səviyyəsi yüksək olan müəllimlər şagirdlərə qarşı daha həssas olurlar. Onlar şagirdlərin ehtiyaclarını daha yaxşı dərk edə və bu ehtiyaclara müsbət cavab verə bilər. Tədqiqatlar (Velmilla, 2020) göstərir ki, yüksək emosional intellektə malik müəllimlər şagirdləri öyrənmə fəaliyyətlərinə cəlb etməkdə daha əzmkar olur və bu, şagirdin öyrənmə nəticələrinə müsbət təsir göstərir.

Beləliklə, tənqidi mövqe, tələblərin və şərtlərin daim dəyişməsi hər bir müəllimdə narahatlıq, stres, depressiya, bacarıqsızlıq və laqeydlik hissi yaradır. Subyektiv qiymətləndirmə müəllimi öz resurslarından məhrum edir, ona özünütəsdiq imkanı vermir və peşəkar yüksəliş istəyini azaldır. Fikrimizcə, bütün bu problemlərin həlli müəllim peşəsinə verilən mürəkkəb tələblərin azaldılması ilə yanaşı, peşə standartlarında da öz əksini tapmalıdır. Standartlara cavab vermək tələbi gənc kadrların (müəllim) hazırlığında və pedaqoji fəaliyyətinin psixoloji aspektində nəzərə alınmalıdır.

## ƏDƏBİYYAT


1. *Бочавер А.А*. Буллинг как объект исследований и культурный феномен / А.А. Бочавер, К.Д. Хломов // Психология, 2013, №3, с.149-159
2. *Левин К.* Решение социальных конфликтов / К.Левин. СПб.: Речь, 2000, 408 с.
3. Bar-On R. Emotional intelligence: An integral part of positive psychology. *S. Afr. J. Psychol,* 40, 2010, pp.54–62 / doi: 10.1177/008124631004000106
4. *Davis S. K., Nichols, R.* Does emotional intelligence have a “dark” side? A review of the literature. Front. Psychol, 2016, 7:1316 / doi: 10.3389/fpsyg.2016.01316
5. *Extremera N., Fernández-Berrocal P.* Inteligencia emocional en adolescentes. Padres y Maestros 352, 2013, pp.34–39 / doi: 10.14422/pym.v0i352.1170
6. *Maamari B. E., Majdalani, J. F.* The effect of highly emotionally intelligent teachers on their students’ satisfaction.Int. J. Educ. Manag. 33, 2019, pp.179–193 / doi: 10.1108/IJEM-11-2017-0338
7. *Palomera R., Fernández-Berrocal P., Brackett M.A.* Emotional intelligence as a basic competency in pre-service teacher training: some evidence. Electron. J. Res. Educ. Psychol. 6, 2008, pp.437–454 / doi: 10.25115/ejrepv6i15.1292
8. *Schonert-Reichl K. A.* Social and emotional learning and teachers. Futur. Child. 27, 2017, pp.137–155 / doi: 10.1353/foc.2017.0007


Redaksiyaya daxil olub 24.06.2024

***UOT 373.5:372.851***

***F.N.İbrahimov, V.Ə.Abdurahmanov***
*ADPU-nun Şəki filialı*
*firedun52@gmail.com, abdurahmanov_v@mail.ru*

# ROBERT QANYEYƏ MƏXSUS "ÖYRƏNMƏNİN ŞƏRTLƏRİ"NƏ DAİR İNFORMASİYANIN İNTERPRETASİYASI

https://doi.org/10.30546/170899876.72.03.2024.38

***Açar sözlər:*** *təlim prosesi, tədris fəaliyyəti, affektiv xüsusiyyət, motivasiya, elmi idrakın formaları, nəzəriyyə*

Məqalədə amerikalı təhsil psixoloqu Robert Qanyenin müəyyənləşdirdiyi "öyrənmənin şərtləri" barəsində sistem halına gətirmiş olduğu elmi informasiyanın şagirdmərkəzli təlim nəzəriyyəsinin vacib elementi olduğu göstərilir və məxsusiliyi ilə fərqləndirilən təlim prosesinin təşkilində və idarə olunmasında öyrənmənin pedaqoji, psixoloji, məntiqi əsaslarla dürüstləşdirilmiş şərtlərinin diqqət mərkəzində saxlanılmasının zəruriliyi vurğulanır.

Tədqiqat mövzusu üzrə araşdırmada diqqətə çatdırılır ki, hər hansı biliyin (informasiyanın) təbiətinə bələdlilik səviyyəsi ondan yaradıcılıqla faydalanmaq istəyən subyektin imkanlarını adekvat şəkildə yaxşılaşdırır. Odur ki, Robert Qanyenin müəyyənləşdirdiyi "öyrənmənin şərtləri"nin biliyin formal əlamətlərinə görə fərqlənən elmi idrakın hansı formasında – şagirdmərkəzli təlim nəzəriyyəsində məntiqi əsaslarla yer alan element olmasına aydınlıq gətirilir.

***Ф.Н.Ибрагимов, В.А.Абдурахманов***

# ИНТЕРПРЕТАЦИЯ ИНФОРМАЦИИ ОБ «УСЛОВИЯХ ОБУЧЕНИЯ» РОБЕРТА ГАНИ

***Ключевые слова:*** *процесс обучения, образовательная деятельность, аффективная черта, мотивация, формы научного понимания, теория*

В статье показано, что систематизированная им научная информация об «условиях обучения», определенных американским психологом-педагогом Робертом Ганье, является важным элементом теории личностно-ориентированного обучения, подчеркивается необходимость сосредоточить внимание на педагогических, психологических и логических условиях обучения в организации и управлении учебным процессом, который отличается своей спецификой.

В исследовании указывается, что уровень знакомства с природой любого знания адекватно совершенствует возможности субъекта, желающего творчески извлечь из него пользу. Таким образом, уточняется, что «условия обучения», определенные Робертом Ганье, представляют собой элемент,

логически расположенный в теории личностно-ориентированного обучения, которая различается по формальным характеристикам знаний.

**F.N.Ibrahimov, V.A.Abdurahmanov**

## INTERPRETATION OF ROBERT GANE'S "CONDITIONS OF LEARNING"

***Keywords:*** *teaching process, teaching activity, affective characteristics, motivation, forms of scientific cognition, theory*

The article shows that the scientific information systematized regarding Robert Gane's identified "conditions of learning" is an important element of student-centered learning theory. It emphasizes the necessity of maintaining the pedagogical, psychological, and logical conditions of learning, which have been accurately defined, in the organization and management of the teaching process.

The research highlights that the level of familiarity with the nature of any knowledge (information) adequately enhances the capabilities of individuals who wish to utilize that knowledge creatively. Therefore, it clarifies that Gane's "conditions of learning" serve as logically integrated elements in the framework of student-centered learning theory, distinguished by the formal characteristics of knowledge and relevant to the forms of scientific cognition.

**Tədqiqat mövzusunun aktuallığı.** Məlumdur ki, elmi idrakın quruluşu son dərəcə mürəkkəb və çoxcəhətli olub, müxtəlif elementlərdən təşkil olunur. Buraya biliyin spesifikliyini tam əks etdirməyib bir-birindən bir sıra formal əlamətlərinə görə fərqlənən və elmi idrakın "mikrostrukturunu" təşkil edən anlayış, mühakimə, əqli nəticə ilə yanaşı, məntiqi idrakın daha mürəkkəb xarakter daşıyan problem, məsələ, ideya, prinsip, qanun, model, hipoteza, nəzəriyyə və digər formaları da daxildir. Danılmazdır ki, elmi tədqiqatın zəruri şərtlərindən birini idrak prosesində qazanılmış biliklərin sistemləşdirilməsi təşkil edir. Yuxarıda adları vurğulanan elmi idrak formaları əldə olunan biliyin sistemləşdirilməsinin müəyyən səviyyələrə adekvat strukturlarıdır. Bizim formulə etdiyimiz tədqiqat mövzusu üzrə araşdırmada məqsədimiz "Robert Qanyenin müəyyənləşdirdiyi "öyrənmənin şərtləri"nin biliyin formal əlamətlərinə görə fərqlənən elmi idrakın hansı formasında ehtiva olunmasına aydınlıq gətirməkdir.

Elmi-nəzəri hazırlığımız və çoxillik təcrübəmiz bizi belə qənaətə gətirmişdir ki, hər hansı biliyin təbiətinə bələdlilik səviyyəsi ondan yaradıcılıqla faydalanmaq istəyən subyektin imkanlarını adekvat şəkildə yaxşılaşdırmış olur. Qənaətimizə rəğmən, Robert Qanyenin müəy-yənləşdirdiyi "Öyrənmənin şərtləri"nin biliyin formal əlamətlərinə görə fərqlənən elmi idrakın hansı formasında ehtiva olunmasına aydınlıq

gətirilməsini aktual və faydalı tədqiqat məsələsi hesab edirik, hansı ki, indiyədək sözügedən biliyin hansı elmi idrak formasına aid edilməsinin elmi əsaslı arqumentləşdirilmiş, dürüst interpretasiyası verilməmişdir.

**Tədqiqat materiallarının ümumiləşməsi üzrə interpretasiya.** Tərəfimizdən araşdırılan elmi mənbələrin birində göstərilir ki, "... şagirdlərin öyrənmə prosesinin səmərəliliyini təmin etmək üçün bir çox alimlər, pedaqoq və psixoloqlar araşdırmalar aparmış və müxtəlif nəzəriyyələr hazırlamışlar. Bu araşdırmaların içərisində səmərəli hesab edilənlərdən biri amerikalı təhsil psixoloqu Robert Qanyenin (1916-2002) "Öyrənmənin şərtləri" nəzəriyyəsidir... O, sözügedən nəzəriyyəsində öyrənmənin şərti proses olduğuna diqqət yönəldir və öyrənmənin səmərəliliyinin tədris prosesinin düzgün təşkil olunmasından asılı olduğunu qeyd edir. ...Qanyeyə görə, şagirdin necə öyrənməsi nə öyrəndiyindən daha önəmlidir" [6, s.140].

Bir qədər haşiyə çıxaraq qeyd edək ki, elmi mənbələrdə özünə yer alan bu mülahizədə "öyrənmənin səmərəliliyinin tədris prosesinin düzgün təşkil olunmasından asılılığı" şərtlənməsində məchulun məchulla ifadəsinə yer verilir, bu isə, fikrimizcə, məntiqi nöqteyi-nəzərdən qüsurlu hesab olunur. "Öyrənmənin səmərəliliyi" və "tədris prosesinin düzgün təşkil olunması" anlayışları qeyri-müəyyəndir. Qanyenin "şagirdin necə öyrənməsi nə öyrəndiyindən daha önəmlidir" mülahizəsi ilə də biz razılaşa bilmirik. XX əsrin otuzuncu illərindən etibarən L.Bertalanfinin "Sistem təhlili" ideyasından [7; 8] qaynaqlanaraq Dialektikanın inkişaf etmiş qolu kimi formalaşan "Sistem-struktur" nəzəriyyəyə istinad edərək vurğulayırıq ki, "nəyi, necə öyrənmək və inkişaf səviyyələrinə müəyyənlik gətirmək" prosesi tamın (təhsilin həyata keçirilməsi prosesinin) altsistemləridir – hissələridir, təkzib olunmazdır ki, necə öyrənmək öyrənilməli olan məchul biliyin təbiətindən asılı şəkildə mövcud olur. Burada öyrənilməli olan məzmundur, necə öyrənmək prosesi məzmunun idraki hərəkət formasıdır. Hərəkətin mövcudluğu üçün forma ilə məzmunun dialektik vəhdəti qanundur. Əslində bu cür yanaşma hafizə ilə təfəkkürün vəhdətini, hafizənin hərəkət halına gələrək təfəkkür səviyyəsinə yüksəlməsini əngəlləmiş olar.

Unutmaq olmaz ki, elmi və təlimi idrakda tətbiq olunan "necə öyrənmək prosesi", əslində bu, "fikrin hərəkət yolları" anlamına gəlir, hansı ki, fikrin hərəkət forması "metod" kimi dərk olunur. "Elmi idrakda tətbiq olunan metodun seçilməsi ixtiyari səciyyə daşımayıb, əsasən iki amillə – idrak obyektinin və elmi idrakda istifadə olunan idrak vasitələrinin xarakterindən əhəmiyyətli dərəcədə asılıdır" [5, s.16]. Burada onu da vurğulamaq yerinə düşər ki, metodun idrak obyektindən asılı olması o demək deyildir ki, biliyin müəyyən sahəsinə tətbiq olunan metod onun digər sahələrinə nüfuz edə bilməz. Eyni zamanda qəbul etmək gərəkdir ki, metodun tətbiq sahəsi və başqa elm sahələrinə köçürülmə imkanları yalnız

idrak obyektinin xarakterindən deyil, həm də praktikada istifadə olunan idrak vasitəsindən (idrak vasitəsi dedikdə, idrak obyekti ilə onu dərk edən subyekt arasında əlaqə yaradan maddi cisimlər nəzərdə tutulur) asılıdır.

Müasir dövrdə öyrənmə zamanı idraki və konstruktiv proseslərin əhəmiyyəti ön plana çəkilir və şagirddən öyrənmə prosesində passiv şəkildə informasiya qəbul edən tərəf deyil, öyrədilən biliyi idraki proseslərdən keçirən aktiv iştirakçı olmaq tələb edilir. Təlim prosesi zamanı şagirdlərdən gözlənilən odur ki, onlar əvvəlki biliklərinə, idraki və metakoqnitiv fəaliyyətlərinə əsaslanaraq onlara təqdim olunan informasiyadan özləri üçün bir məna çıxara bilsinlər [6, s.40].

Bilik elmin mənəvi elementi, şüurun mövcudluq üsuludur. Təbiət və cəmiyyət hadisələrinin obyektiv qanunauyğunluqlarını və mühüm əlaqələrini əks etdirən bilik nəzəri sistem olub, özünün sistemi, məntiqi strukturu, nəzəri və ictimai xarakteri ilə səciyyələnir. Bilik tam sistem əmələ gətirir. İ.Kant bu münasibətlə yazmışdır: "...adi bilik yalnız sistemli vəhdətin hesabına elmi bilik olur" [8, s.27].

Elmi mənbələrdə biliyin müxtəlif təsnifatları təqdim olunur. Biliklərin üstün yer verilən təsnifatı belədir: faktoroloji; konseptual; prosedural; metakoqnitiv. Subyektiv qənaətimizə görə, təlim sistemində biliklərin və fəaliyyət üsullarının şagirdin fəaliyyətinin nəticəsi kimi verilməsini özündə ehtiva edən altsistemlərin mövcudluğunu biliklərin strukturu şərtləndirir. Biz bu mülahizəni söyləyərkən təlim materialına daxil olan biliklərin üç qrupda birləşdiyini nəzərə alırıq: ümumiləşmiş biliklər, ümumiləşmiş fəaliyyət üsulları haqqında biliklər; konkret biliklər.

Birinci qrupa anlayış, qanun, prinsip, qaydalar və s. daxildir. Bu qrupa aid biliklər aşağıdakı yollarla mənimsənilə bilər: a) anlayışın və s. məzmun və mahiyyətini başa düşmədən əzbərləmək; b) hazır nəticə, ümumiləşdirmə şəklində öyrənmək, daha doğrusu, anlayışın və s. məzmununun müəllim tərəfindən və ya dərsliyin köməyi ilə açılması; c) müstəqil əldə etmə. İkinci qrupa gerçək aləmin cisim və hadisələrinin mahiyyətinin, habelə müvafiq anlayışların, qanunauyğunluq və qanunların, qaydaların dərk olunmasında işlədilən üsul və priyomlar haqqında biliklər daxildir. Bu qrupa daxil olan biliklərin hər bir konkret halda mənimsənilmə yolunu məqsədəuyğun şəkildə (didaktik əsaslarla) müəllim müəyyən etməlidir. Belə ki, anlayış, qayda, qanun və s. biri təlim probleminin həlli yolu, başqası isə izahlı-reproduktiv yol seçməklə mənimsənilə bilər. Üçüncü qrupa faktlar, terminlər, tarixlər, adlar, verilmiş kəmiyyət miqdarları, hadisələr və s. daxildir. Bu qrupa aid olan biliklər ümumiləşdirici xarakter daşımır, o sadəcə əzbərçilik, yadda saxlama tələb edir. Üçüncü qrup biliklər, bir qayda olaraq, problemli öyrənmə yolu ilə mənimsənilmir [5, s.543].

Bizim fikrimizcə, şagirdin nəyi və necə öyrənməsini IV sənaye inqilabının çağırışlarına adekvat formalaşan təhsil məkanı şərtləndirir, hansı ki, sözügedən məkanda zəruri bacarıqlar ehtiva olunur və təhsilin həyata keçirilməsi prosesində şagirdlər həmin bacarıqların subyektinə çevrilməlidirlər, bunlar gözlənilən nəticələr olaraq hədəflənir. Sözügedən bacarıqların əsasında duran biliklərin və bunların bir obyekt üzərindən digərinin üzərinə keçirilməsi bacarıqlarının subyekti şagird olur. Təlim prosesində tətbiq olunan tapşırıqlar məhz bu biliklərə və bacarıqlara – gözlənilən nəticələrə uyğun sistem halına gətirilir və tədris prosesinin zəruri komponenti funksiyasını daşıyır, onun tətbiqi sayəsində tədris situasiyası, tədris əməliyyatları, nəzarət və qiymətləndirmə reallaşmış olur.

Biz R.Qanyenin öyrənmənin müşahidə olunan davranışın nəticəsi qismində başa düşülməsi, effektiv öyrənməni təmin etmək üçün təlim prosesində baş verənləri anlamağın vacib olması, təlim prosesinə təsir edən əsas daxili amillərin şagirdin əvvəllər öyrəndiyi biliklərin, bacarıqların və strategiyaların olması düşüncəsinə və bunlara affektiv xüsusiyyətlərin (hansı ki, bunlar da bizim maraqlarımız, baxışlarımız və dəyərlərimizlə bağlı fikirlərimizdir) əlavə olunması kimi mövqe sərgiləməsi ilə bağlı mülahizələrinə qarşı çıxmırıq, əksinə bunları təqdir edirik.

Elmi mənbələrdə vurğulanır ki, Robert Qanye öyrənmə prosesində doqquz addımın tətbiq edildiyini bildirir və sözügedən addımları aşağıdakı kimi formulə edir:

1.Şagirdlərin diqqətini dərsə cəlb etmək;
2.Şagirdlərin təlim nəticələrini elan etmək;
3.Əvvəlki təlimdən qazanılmış bilik və bacarıqları stimullaşdırmaq;
4.Dərsin mövzusunu təqdim etmək;
5.Öyrənməni təmin etmək;
6.Bilik və bacarıqların tətbiqini təmin etmək;
7.Əks-əlaqə qurmaq;
8.Təlim nəticələrini reallaşdırmaq səviyyəsini müəyyən etmək;
9.İnformasiyanı möhkəmləndirmək və bacarığa çevirmək. [6, s.141-142] .

Müqayisə edərək məntiqi nəticə hasil olunmasına dəstək vermək məqsədi ilə xatırlamaq yerinə düşər ki, fəal/interaktiv təlimin əsas təşkilat formasında şagirdin öyrənmə fəaliyyəti aşağıda özünə yer alan addımlar (mərhələlər) üzrə yönəldilir: 1)motivasiya, problemin qoyulması; 2) tədqiqatın aparılması; 3) informasiya mübadiləsi; 4) informasiyanın müzakirəsi və təşkili; 5) nəticə və ümumiləşmə; 6) yaradıcı tətbiqetmə; 7) ev tapşırıqları. Biz hesab edirik ki, fəal/interaktiv təlim prosesində qeyd olunan mərhələlərə adekvat şəkildə reallaşan şagirdin öyrənmə fəaliyyəti – tədris idrak fəaliyyəti məxsusi xüsusiyyətləri ilə fərqlənməklə elmi-idrak (elmi-tədqiqat) fəaliyyətinə uyğun hala gəlmiş olur [1, s.333-339]. Robert

Qanyenin formalaşdırdığı addımların formulәsindәn belә bir qәnaәtә gәlmәk olmur, görmәk çәtin deyildir ki, tәsnifatın mәntiqi әsası tәrtibçinin özünәmәxsusdur, ciddi mәntiqi әsasa söykәnmir. Bu nöqteyi-nәzәrdәn R.Qanyenin tәqdim etdiyi addımlar sisteminin mükәmmәl olmasını qәbul etmirik.

Mülahizәlәrimizә davam verәrәk qeyd edәk ki, burada "tәlim fәaliyyәti", "öyrәnmә fәaliyyәti", "mәnimsәmә fәaliyyәti" vә "tәdris fәaliyyәti" anlayışları arasındakı münasibәtlәr dәqiqliklә fәrqlәndirilmir. Mәlum olduğu kimi, tәlim pedaqogikanın başlıca anlayışlarından biridir, pedaqoji psixologiyada tәlimin psixoloji problemlәri müxtәlif yönümdә araşdırılmışdır. Tәlim psixologiyasında, "şagirdlәrin tәlim fәaliyyәti" әmәlә gәlib bәrqәrar olmuşdur. XX әsrin 60-70-ci illәrindә bir tәrәfdәn yeni pedaqoji tәfәkkürün bәrqәrar olması, digәr tәrәfdәn fәaliyyәt konsepsiyası sahәsindә әldә edilmiş uğurlar bu mәsәlәlәrә yeni baxışdan yanaşmaq imkanı vermiş vә pedaqoji psixologiyada "tәdris fәaliyyәti" anlayışı yaranmışdır. Tәdris fәaliyyәti çoxcәhәtlidir. Tәlim tәdris fәaliyyәtinin mühüm xarakteristikası olsa da, onun bütün tәrәflәrini әks etdirmir. Tәlim, sözün geniş mәnasında, yeni bilik, bacarıq vә vәrdişlәrin mәnimsәnilmәsini nәzәrdә tutur. Halbuki mәnimsәmә vә tәdris fәaliyyәti mahiyyәtcә müxtәlif hadisәlәrdir. Mәnimsәmә tәkcә tәlim prosesinin deyil, hәr bir fәaliyyәt sahәsinin ayrılmaz tәrәfidir. Tәdris fәaliyyәti isә fәaliyyәtin bir növüdür, şәxsiyyәtin sosial aktivliyinin özünәmәxsus formasıdır [2, s.150]. Şagirdin öyrәnmә vә müәllimin öyrәtmә fәaliyyәti qavrama, anlama vә tәtbiq mәrhәlәlәrini әhatә edir. Tәlimin göstәrilәn bütün ünsürlәri mәnimsәmәnin mәrhәlәlәridir [4, s.131].

Unudulmamalıdır ki, tәdris-idrak prosesinin tәşkilindә müәllimin bu vә ya digәr әqli fәaliyyәt növlәrinin (әqli fәaliyyәtin bu növlәri barәdә әtraflı mәlumat almaq üçün bax: [19, s.21-22]) – mәntiqlәrinin optimal münasibәtlәrini tәnzimlәmәsi sayәsindә şagirdin öyrәnmә fәaliyyәti şәrtlәnir. Burada mәxsusi olaraq analitik vә evristik әqli fәaliyyәt növlәrinin vahidin tәrәflәrinә çevrilmәsi mәchula yönәlmәnin şәrti kimi qәbul edilmәlidir, baxmayaraq ki, әqli fәaliyyәtin sözügedәn növlәri struktur baxımından fәrqlidirlәr. Hәmkarlarımızın yaddaşlarının bәrpası üçün qeyd edәk ki, әqli fәaliyyәtin analitik növünün strukturu pedaqogika vә psixologiyada belә tәqdim olunur: 1)çәtinliyin dәrki vә problem situasiyasının tәhlili; 2)әsas çәtinliyin müәyyәnlәşdirilmәsi vә problemin situasiyasının analizi; 3)mәlum alqoritmlәrin tәtbiqi vә ya analitik yollarla hәllin axtarışı; 4) hәll vә onun düzgünlüyünün yoxlanılması. Әqli fәaliyyәtin evristik növünün strukturu prinsipcә müxtәlif ola bilәr. Onun ayrı-ayrı mәrhәlәlәri analitik növün mәrhәlәlәrinә yaxındır, lakin özünün mәxsusiliyi (spesifikası) vardır: 1) çәtinliyin dәrki vә problem situasiyasının analizi; 2)

əsas çətinliyin müəyyənləşdirilməsi və problemin formulэsi; 3) a) fərziyyə irəli sürmək yolu ilə həll üsullarının axtarışı və onların inkişafı (yeni alqoritm tərtibi) və ya b) hipoteza (əsaslandırılmış fərziyyə) irəli sürmək və intuitiv yolla həllin tapılması; 4) əldə olunmuş nəticəni praktikaya tətbiq etmək yolu ilə hipotezanın (fərziyyənin) doğruluğunu yoxlamaq. Şübhəsiz ki, ikinci yol şagirdin əqli qabiliyyətlərinin inkişafı prosesinin idarə olunması praktikasını yaxşılaşdırır [3, s.72].

Yeri gəlmişkən onu da vurğulayaq ki, təlim prosesində iki idarəetmə komponenti mövcud olur: müəllim və şagird (təhsilverən və təhsilalan), hansı ki, həmin komponentlər müəyyən səviyyədə öz fəaliyyətlərini də məqsədəuyğun yönümdə nizamlayırlar (bu proses məntiqi-psixoloji məzmunludur). Sözügedən idarəetmə prosesinin sxematik təsviri belədir (Sxematik təsvir görkəmli tədqiqatçı E.A.Klimova məxsusdur (Bax: Климов Е.А. Четыре задачи програмированного обучения. Казань,1965):

*Sxem 1.*




Arzuolunan haldır ki, paradiqması “*imkan*”→ "*hərəkət*" → yeni keyfiyyət” olan bu prosesdə şagirdmərkəzli (təhsilalanmərkəzli) əlamət emercent funksiya daşısın. Burada qeyd etmək yerinə düşər ki, didaktikanın problemi belə bir prosesin təşkil və idarə olunmasının sistemləşdirilmiş nəzəriyyəsini və texnologiyasını çağdaş sənaye inqilablarının çağırışlarına uyğun hasilə gətirməklə bağlıdır. Bu problem həmişəyaşar təbiətlidir. Bəşərin gerçəyi dərk etmək, dərk olunanları hifz etmək və yaradıcılıqla dəyişdirmək təcrübəsinə dayanaraq biliyin əsasən hazır ötürülməsini və müstəqil əldə olunmasını altsistemlər kimi özündə ehtiva edən təlim sisteminin formalaşdırılması, analitik və evristik fəaliyyətlərin optimal münasibətlərini özündə ehtiva edən təlim sisteminin nəzəri və texnoloji əsaslarının müəyyənləşdirilməsi, sinxron və asinxron tədrisin xüsusiyyətlərinə aydınlıq gətirilməsi, sorğu və araşdırma əsaslı təlim modelinin yaradılması, problem əsaslı öyrənməni özünə transformasiya edən təlim yanaşmasının təbiətinin “sistem-struktur yanaşma” yolu ilə aşkarlanması, layihə əsaslı öyrənmənin interpretasiyası, oyun əsaslı öyrənmənin təlimin

həyata keçirilməsi prosesindəki əhəmiyyətli rolunun arqumentləşdirilməsi, təlimdə alqoritmləşdirməyə, şaxəli və xətti proqramlaşdırmaya məxsusi yer verilməsi, təlimdə korporativliyin və konstruktivizmin diqqət mərkəzinə çəkilməsi, təlim prosesində hər bir təhsilalana bərabər şəraitin yaradılmasına yön verilməsi və digər bu kimi idrak məsələlərinin həllinə cəhd yuxarıda barəsində bəhs olunan problemlə bağlı məsələlərdir.

Tədqiqat prosesində əldə olunmuş materialların ümumiləşdirilməsi sayəsində biz belə qənaət hasil etmişik ki, Robert Qanyenin müəyyənləşdirdiyi "öyrənmənin şərtləri"nin (bu sistemləşdirmə optimal halda formulə edilmiş olduğu halda belə) biliyin formal əlamətlərinə görə fərqlənən elmi idrakın nəzəriyyə formasıda, fikrimizi konkret hala gətirərək söyləsək, "Şagirdmərkəzli təlim nəzəriyyəsi"ndə məntiqi əsaslarla yer ala biləcək elementdir. Başqa sözlə, "Öyrənmə şərtləri"nin müəyyənləşdirilməsi "Mükəmməlliyi praktikada təsdiqini tapa bilən şagirdmərkəzli təlim nəzəriyyəsi"nin yaradılması probleminin həllində özünə yer alan əsas məsələlərdən biridir.

Mülahizəmizi aidiyyəti elmi idrak formalarına zəruri və lakonik interpretasiyalar etməklə arqumentləşdirməyə çalışaq. Bu məqsədlə öncə vurğulayaq ki, problem (təhsilin həyata keçirilməsi prosesində isə təlimi problem) elmi idrakın mühüm formalarından biridir. Elmi tədqiqat bir-birini əvəz edən problemlər silsiləsi, problem isə biliyin forması, köhnə bilikdən yeni biliyə keçid formasıdır.

Məlumdur ki, elmi tədqiqatın zəruri şərtlərindən birini idrak prosesində qazanılmış biliklərin sistemləşdirilməsi təşkil edir. "Problem qazanılmış biliyin sistemləşdirilməsinin rüşeym halında olan strukturudur. O, obyektin mövcudluğu haqqında sistemləşdirilməmiş biliklə onun mövcudluğu haqqında artıq sistemləşdirilmiş bilik arasında aralıq bir həlqədir" [18; 19]. Elmdə problemlər, adətən, köhnə biliyin kifayət etmədiyi, yeni biliyin isə hələ tam inkişaf etmədiyi vaxtlarda meydana çıxır. Bu isə o hallarda olur ki, elm faktlara malik olur, lakin onları nəzəri cəhətdən izah edə bilmir. Problemlər həm də nəzəriyyənin mövcud olduğu, lakin onların meydana çıxan yeni-yeni faktları izah edə bilmədiyi vaxtlarda da yarana bilir [15, s.217]. Elmdə problemlər, bir qayda olaraq, həll olunmuş məsələlər vasitəsi ilə reallaşırlar [16, s.10]. Məsələnin həlli problemin həllinə aparan yoldur, problemin həll edilməsində bir mərhələ, onun qismən həll olunmasıdır. Digər tərəfdən, məsələnin özü problemin irəli sürdüyü şərtlərlə müəyyən olunduğundan, elmi idrakda problemin həlli məsələnin həlli ilə, məsələnin qoyuluşu isə öz növbəsində problemin qoyuluşu ilə şərtlənir [7, s.118].

Elmi mənbələr üzərində apardığımız araşdırmalar bizi belə qənaətə gətirir ki, "Mükəmməlliyi praktikada təsdiqini tapa bilən şagirdmərkəzli

təlim nəzəriyyəsi"nin yaradılması probleminin həllinə yönələn məsələlərin həlli ilə bağlı tələbat bir sıra didaktik sistemlərin, yanaşmaların formalaşmasına səbəb olmuş, bunlara müxtəlif pedaqoji anlayışlar vasitəsi ilə şərhlər verilmişdir. Məsələn: problemli təlim, layihə əsaslı təlim, diferensial təlim, alqoritmik təlim, fəal təlim və s. Qeyd edək ki, bəzən onlara "elmi nəzəriyyə" statusunun verilməsinə cəhd edilmişdir. Unutmaq olmaz ki, biliyin təşkilinin ən yüksək forması nəzəriyyədir. Struktur və məntiqi təhlili nəzəri biliyin xüsusiyyətlərini daha tam şəkildə müəyyənləşdirməyə imkan verən nəzəriyyə bütün bilik sistemi ilə həm bir sıra ümumi, həm də spesifik cəhətlərə malikdir. Nəzəriyyə gerçəkliyin müəyyən sahəsinə daxil olan hadisələri təsvir və izah edən, bu sahədə kəşf olunan qanunları vahid bir başlanğıcda birləşdirən bilik sistemidir [12, s.148].

Burada vurğulamaq yerinə düşər ki, gerçəkliyin müxtəlif sahələrində təsir göstərən qanunların kəşf və formulə edilməsi elmi idrakın əsas formalarından olan hipotezaların yaradılması üçün mühüm əhəmiyyət kəsb edir, hansı ki, hipoteza yalnız elm və bəşəriyyətin praktikası tərəfindən təsdiq edildikdən sonra elmi nəzəriyyəyə çevrilir. Bununla da elmi idrakın yeni, nisbətən daha yüksək forması olan nəzəriyyə yaranmış olur. Aralarındakı bir sıra prinsipial fərqlərə baxmayaraq, hipoteza və nəzəriyyə elmi biliyin sistemləşdirilməsinin öz aralarında qarşılıqlı əlaqələnən iki müxtəlif formasıdır: idrakın inkişafı prosesində hipoteza nəzəriyyəyə çevrilir. P.V.Kopninin təbirincə desək, "hipoteza ilə səhih nəzəriyyənin qarşılıqlı əlaqəsi o dərəcədə ayrılmazdır ki, onlar bir-birinə elə qarşılıqlı nüfuz edirlər ki, nəticədə səhih nəzəriyyənin inkişafı hipoteza vasitəsi ilə baş verir... Elmi nəzəriyyənin prinsipinin daha da inkişaf etməsi və təkmilləşməsi də hipoteza vasitəsi ilə mümkün olur [14, s.248-249].

Qeyd edək ki, "nəzəriyyə" anlayışına birmənalı tərif verilməmişdir. Əksər hallarda nəzəriyyə dedikdə, ümumiyyətlə, praktikadan fərqli olaraq insan idrakı, hipotezadan fərqli olaraq səhih elmi müddəalar məcmusu, bəzi hallarda isə sadəcə olaraq idrakın bu və ya digər sahəsinə aid edilən mühakimələrin məcmusu nəzərdə tutulur [7, s.141]. Bu məna müxtəlifliyinə baxmayaraq, mövcud elmi ədəbiyyatda nəzəriyyənin aşağıdakı tərifi xüsusilə geniş yayılmışdır: "Elmi biliyin keyfiyyətcə xüsusi forması olan nəzəriyyə dedikdə, bu və ya digər predmet sahəsinin mühüm, başqa sözlə, qanunauyğun, ümumi və zəruri daxili əlaqələrini əks etdirən, öz aralarında məntiqi surətdə əlaqələnən fərziyyələrin müəyyən sistemi kimi mövcud olan həqiqi bilik nəzərdə tutulur" [1, s.141]. P.B.Kopninə görə isə nəzəriyyə "hadisələr qrupunu təsvir və izah edən geniş bilik sahəsinə deyilir" [14, s.302].

Tədqiqat mövzusu ilə bilavasitə bağlı olan bir cəhətə də nəzər yetirək. Unutmayaq ki, nəzəriyyənin əsas məqsədi – gerçəkliyin, öz aralarında qarşılıqlı surətdə əlaqələnən qanunlar sistemini kəşf və izah etməkdir. Bu mənada izahat nəzəriyyənin, onun həqiqiliyinin sübuta yetirilməsi ilə bağlı olan mühüm məsələsi olsa da, hər halda onun məqsədi deyil, belə ki, nəzəriyyə ayrı-ayrı fakt və hadisələrə deyil, predmetin strukturuna, onun mahiyyətinə bütövlükdə aid olur. Nəzəriyyənin zəruri səciyyə daşıyan momentləri isə problem, ideya, prinsip, kateqoriya, universal qanunlar və nəzəriyyədən çıxarılan nəticələridir [18, s.10].

Yeni yaradılmış hər bir elmi nəzəriyyə bütün əvvəlki idrak fəaliyyətinin qanunauyğun nəticəsi kimi meydana gəlir. Buna görə də nəzəriyyə bir sıra tələblərə cavab verməlidir [21, s.160]. Elmi mənbələrdə bunların sırasına daxil edilir:

1) nəzəriyyə bilik sistemi olmaq etibarı ilə predmet sahəsinə malik olmalıdır [7, s.143];

2) elmi nəzəriyyə gerçəkliyin müəyyən sahəsini adekvat və tam təsvir etməlidir [7, s.143 ];

3) nəzəriyyəyə daxil olan müxtəlif komponentlərin qarşılıqlı əlaqəsi izah edilməli, bir mühakimədən digərinə keçməyə imkan verən müxtəlif müddəaların əlaqəsi yaradılmalıdır [15, s.247-268];

4) nəzəriyyə təcrübədə, ictimai praktikanın gedişində yoxlanıla bilməlidir [7, s.45];

5) elmi nəzəriyyə həqiqi və səhih olmalıdır [7, s.146];

6) elmi nəzəriyyə daxilən ziddiyyətli olmamalı və təcrübi faktlarla yaxşı uzlaşmalıdır [13, s.105];

7) "yeni yaranan hər bir nəzəriyyə qabaqgörən, irəlini söyləyən olmalıdır. [11, s.21; 20, s.350-351].

Söylənilənlərə rəğmən, aydınlaşmış olur ki, Robert Qanyenin "Öyrənmənin şərtləri" adı ilə təqdim etdiyi informasiya nəzəriyyə yox, şagirdmərkəzli təlim nəzəriyyəsinin yaradılması probleminin həllinə yönələn idrak məsələlərindən biridir.

**Nəticə**

1. Paradiqması "*imkan*"→ "*hərəkət*" → yeni keyfiyyət", şagird mərkəzlilik (təhsilalan mərkəzlilik) emercent əlaməti olan təlim nəzəriyyəsinin işlənilməsi pedaqogi psixologiyanın həmişəyaşar problemidir; 2. Robert Qanyenin formalaşdırdığı "Öyrənmənin şərtləri"nə dair informasiya (elmi-tədqiqat "kateqorial aparatı"na "idrak məsələsi" anlayışı kimi daxil edilə bilən) şagirdmərkəzli təlim nəzəriyyəsi formalaşdırılması probleminin həllinə yönələn və məntiqi əsaslarla özünə yer alan məsələlərdən biridir; 3.Robert Qanyenin həll etdiyi etdiyi idrak

məsələsinin: a)bəşərin gerçəyi dərk etməsi, dərk olunanları hifz etməsi və yaradıcılıqla dəyişdirməsi təcrübəsinə dayanaraq biliyin əsasən hazır ötürülməsini və müstəqil əldə olunmasını altsistemlər kimi özündə ehtiva edən təlim sisteminin formalaşdırılması, b)analitik və evristik fəaliyyətlərin optimal münasibətlərini özündə ehtiva edən təlim sisteminin nəzəri və texnoloji əsaslarının müəyyənləşdirilməsi, c)problem əsaslı öyrənməni özünə transformasiya edən təlim sisteminin təbiətinin interpretasiyası kimi idrak məsələlərinin sırasında məxsusi yeri vardır və bunlar şagirdmərkəzli (təhsilalanmərkəzli) təlim nəzəriyyəsinin yaradılması probleminin həllinə yönələn elmi-tədqiqat işləridir (məsələləridir).

## ƏDƏBİYYAT


1. *Abbasov A.N., Məmmədzadə R.R., Məmmədli L.A.* Pedaqogika: Müntəxəbat: Ali təhsil müəssisələri üçün dərs vəsaiti. Bakı: Mütərcim, 2021, 608 s.
2. *Əlizadə Ə.Ə.* Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı: Pedaqogika, 2004, 145 s.
3. *İbrahimov F.N.* Təlimdə alqoritmik və evristik fəaliyyətin optimal münasibətlərinin əsaslarına dair oçerklər. Bakı: Mütərcim, 1998, 290 s.
4. *İbrahimov F.N., Hüseynzadə R.L.* Pedaqogika: Dərslik: 2 cilddə, I c., Bakı: Mütərcim, 2014, 708 s.
5. Metodika və pedaqogika: Yenilənmiş çərçivə sənədi əsasında hazırlanmış vəsait. Bakı: Maksima, 2024, 182 s.
6. *Mirzəcanzadə A.X.* İxtisasa giriş: Neft və qaz profilli ali məktəblər üçün dərs vəsaiti. Bakı: Bakı Universiteti, 1990, 432 s.
7. *Nəsirov B.H., Məmmədov Ə.B.* Elmi idrakın metod və formaları: Tədris-metodiki vəsait. Bakı: Maarif,1980, 32 s.
8. *Андреев И.Д.* Проблемы логики и методологии познания. М.: Наука, 1972, 320 с.
9. *Асмус В.Ф.* Логика. М.: Госполиздат,1947, 388 с.
10. *Вахтомин Н.К.* Генезис научного знания. М.: Наука, 1973, 286 с.
11. *Виноградов В.Г.* Научное предвидение. М.:Высшая школа, 1973, 188 с.
12. *Зотов А.Ф.* Структура научного мышления. М.: Наука, 1973, 182 с.
13. *Иолон П.Ф.* Система теоретического знания. Логика научного исследования. Отв. ред. П.В. Копнин и М.В. Попович , М., 1965, с.81-113
14. *Копнин П.В.* Диалектика как логика и теория познания. М.: Наука, 1973, 463 с.
15. *Копнин П.В.* Логика научного исследования. М.: Наука, 1965, 362 с.
16. *Олицкий А.А.* Функциональный и генетический методы как средство исследования биологических структур // Проблемы методологии системного исследования. М.: Мысль, 1970, с.247-267

17. *Оруджев З.М.* Научная теория как система категорий. Развитие теории / Диалектика и методологические проблемы развития науки. Баку: Элм, 1976, 254 с.
18. *Попова П.В*. Методологические основы научного познания. М.: Высшая школа, 1972, 272 с.
19. *Пушкин В.Н.* Оперативное мышление в больших системах. М.-Л.: Энергия, 1967, 272 с.
20. *Ракитов А.И.* Предвидение научное. Философская энциклопедия в 5-и томах, т 4, М., 1967, 591 с.
21. *Штофф В.А.* Введение в методологию научного познания. Л.: ЛГУ, 1972, 191 с.

Redaksiyaya daxil olub 23.09.2024

*UOT 37*

***P.Y.Mədədov***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*m.polad@mail.ru*

# MÜƏLLİMLƏRİN İNNOVATİV KOMPETENSİYASININ İNKİŞAF ŞƏRTLƏRİ

https://doi.org/10.30546/170899876.72.03.2024.43

***Açar sözlər:*** *innovasiya, innovativ səriştə, struktur komponentləri, yaradıcı müəllim, müəllimin innovativ fəaliyyəti*

Məqalədə müəllimin innovativ səriştəsinin xüsusiyyətləri, onun mahiyyəti, komponentləri və formalaşma şərtləri, müasir şəraitdə təhsil müəssisəsinin səmərəliliyini artırmaq üçün strateji vasitələrdən biri kimi müəllimin innovativ səriştəsi təhlil edilir. Müasir şəraitdə təhsil təşkilatlarının innovativ fəaliyyəti inkişafın əsas mənbəyi kimi qəbul edilməsi, yüksək innovativ inkişaf səviyyəsinə malik pedaqoji kadrlar təhsilin keyfiyyətinin yüksəldilməsi istiqamətində peşəkar fəaliyyətləri şərh edilir. Beləliklə, müəllimin innovativ səriştəsi rəqabət mühitində təhsil təşkilatlarının səmərəliliyinə nail olmaq üçün əsas vasitə kimi göstərilir.

***П.Ю.Мададов***

# УСЛОВИЯ РАЗВИТИЯ ИННОВАЦИОННОЙ КОМПЕТЕНТНОСТИ ПЕДАГОГОВ

***Ключевые слова:*** *инновация, инновационная компетентность, структурные компоненты, творческий педагог, инновационная деятельность педагога*

В статье анализируются характеристики инновационной компетентности педагога, ее сущность, компоненты и условия формирования, инновационная компетентность педагога как одно из стратегических средств повышения эффективности образовательного учреждения в современных условиях. В современных условиях инновационная деятельность образовательных организаций рассматривается как основной источник развития, трактуется профессиональная деятельность педагогических кадров с высоким уровнем инновационного развития в направлении повышения качества образования. Таким образом, инновационная компетентность педагога показана как главное средство достижения эффективности образовательной организации в конкурентной среде.

**P.Y.Madadov**

## DEVELOPMENT CONDITIONS OF TEACHERS' INNOVATIVE COMPETENCE

***Keywords:*** *innovation, innovative competence, structural components, creative teacher, innovative activity of the teacher*

The article analyzes the characteristics of the innovative competence of the teacher, its essence, components and conditions of formation, the innovative competence of the teacher as one of the strategic means to increase the efficiency of the educational institution in modern conditions. In modern conditions, the innovative activity of educational organizations is accepted as the main source of development, the professional activities of pedagogical personnel with a high level of innovative development are interpreted in the direction of improving the quality of education. Thus, the innovative competence of the teacher is shown as the main means to achieve the efficiency of educational organizations in a competitive environment.

Sosial-iqtisadi sferada baş verən dəyişikliklər təhsil sistemində dəyişikliklərə gətirib çıxardı ki, bu da pedaqoji fəaliyyətin təşkilinə təsir etdi. Getdikcə daha çox yeni çoxşaxəli təcrübələr müasir müəllimdən təkcə bilik deyil, həm də biliyi formalaşdırmaq və əldə etmək bacarığını tələb edir. Pedaqoji fəaliyyətin xüsusiyyətləri kompleksi genişlənir, stereotipləri dəf etmək bacarığı, yenilik hissi, yeniliyə hazır olmaq, innovativ ideyaların istehsalı və həyata keçirilməsi əlavə olunur.

Hazırda təhsil təşkilatının inkişafının ən vacib şərti davamlı özünü inkişaf etdirməyə qadir olan pedaqoji heyətin yüksək peşəkarlıq səriştəsidir. Bacarıqlı müəllim təbiətcə universaldır, müxtəlif biliklərə, bacarıqlara malikdir və onları öz işində lazımi vəziyyətlərə uyğun olaraq səmərəli tətbiq edə bilir, tələbələri əhəmiyyətli məhsuldarlıq və irəliləyiş nümayiş etdirirlər. Buna görə də müəllimin səriştəsi təhsil müəssisəsinin innovativ fəaliyyətini müəyyən edir və onun fəaliyyətinin səmərəliliyinin əsas mənbələrindən biri kimi çıxış edir.

Müəllimin innovativ səriştəsinin formalaşması məqsədyönlü fəaliyyətin dinamik və mürəkkəb prosesidir, nəticəsi məhsuldar innovativ fəaliyyət üçün tələb olunan və kifayət qədər müəyyən bir səriştə səviyyəsinin formalaşmasıdır. İnnovativ səriştəli müəllim öz pedaqoji fəaliyyətinin nəticələrini proqnozlaşdırmaq, tədris prosesində yenilikləri layihələndirmək və həyata keçirmək bacarığına malikdir.

Təhsil müəssisəsində yeniliklərin yaranması, elmi pedaqoji təcrübə bütün kollektivin yüksək peşəkarlıq fəaliyyəti tələb edən əmək tutumlu

prosesdir. Təhsil təşkilatının innovativ fəaliyyəti də digər fəaliyyətlər kimi idarə olunmalıdır.

Təhsil innovasiyası iki əsas problem yaradır. Birincisi, bu, pedaqoji prosesə yeniliklərin tətbiqi yolu ilə təhsil təşkilatının fəaliyyətinin təkmilləşdirilməsidir. Bu vəzifə yeni ideyaların işlənib hazırlanması və həyata keçirilməsi imkanlarının axtarışı ilə bağlıdır. İkincisi, yüksək səviyyəli innovativ səriştəli, öz yanaşmalarını, ideyalarını təqdim etmək və həyata keçirmək qabiliyyətinə malik müəllim heyətinin cəlb edilməsi. Bu vəzifə tədris prosesinə yeni texnologiyaların, forma və metodların tətbiqi üçün müəllimlərdən təşəbbüskarlıq, yaradıcı fəaliyyət və maneələri dəf etmək bacarığı tələb edir.

Təhsil sistemində innovativ fəaliyyət bu gün ən populyar sahəyə çevrilir. Bu, İKT səriştələrinə malik yüksək peşəkar müəllimlərin tapılması ilə bağlı problemlərin həlli zərurətindən irəli gəlir. Bu baxımdan müəllimin innovativ səriştəsi peşə fəaliyyətində yeniliklər yaratmaq və tətbiq etmək bacarığı kimi qəbul edilir.

Pedaqoji heyətin innovativ səriştəsi böyük əhəmiyyət kəsb edir və təhsil fəaliyyətinin məzmununun keyfiyyətcə genişləndirilməsinin əsas şərtinə çevrilir. Buna görə də innovativ səriştələrə malik müəllim həyata keçirməyə qadir olan yüksək peşəkar işçi kimi tanınır.

Tədrisə səriştə əsaslı yanaşma müəllimin peşəkar səriştələrinin yenilənməsi kimi qəbul edilir. Bu günə qədər elm "müəllimin innovativ səriştəsi" anlayışının konkret şərhini hazırlamamışdır.

Bu araşdırma çərçivəsində biz “müəllimin innovativ səriştəsi” anlayışını aydınlaşdırmağa çalışacağıq.

*Kompetensiya* (latınca “competere” - yaxınlaşmaq, uyğunlaşmaq) fərdin müəyyən və kifayət qədər bilik, bacarıq və bacarıq səviyyəsi, habelə peşəkar problemlərin həllinə yönəlmiş fəaliyyət üsullarıdır. Kompetentlik müəyyən bir mövzu sahəsində səmərəli fəaliyyət üçün zəruri olan bilik, təcrübə və bacarıqların olmasıdır. Bacarıqlılıq istənilən sahədə hərtərəfli biliyə malik olan və buna görə də fikri ağır və mötəbər olan insanın keyfiyyətidir [11].

B.E.Stariçenko qeyd edir ki, səriştənin əsasını yüksək məhsuldarlıq və bacarıq tələb edən yaradıcı fəaliyyət üçün zəruri olan fərdin nəzəri və praktiki biliklərinin və şəxsi keyfiyyətlərinin məcmusu təşkil edir [9].

N.V.Kuzminin əsərlərində səriştə müəllimin məhsuldar və keyfiyyətli fəaliyyətində əsas amil hesab olunur. Müəllif hesab edir ki, pedaqoji işçinin səriştəsi onun qabiliyyət və şəxsiyyət yönümünün səviyyəsini formalaşdırır və metodoloji, sosial-psixoloji və pedaqoji səriştə kimi məcburi elementləri özündə cəmləşdirir [8].

A.K.Markova səriştəni peşəkar fəaliyyətin yüksək səviyyədə mənimsənilməsini təmin edən zəruri xüsusiyyətlər kompleksi kimi, müəllimin bacarığı kimi müəyyən edir [10].

İnnovativ səriştənin formalaşması və inkişafı, yüksək ixtisas tələb edən peşə fəaliyyətini həyata keçirməyə nəzəri və praktiki hazırlığı müəyyən edən şəxsiyyətdə uzun və sistematik keyfiyyət dəyişiklikləri prosesidir. Müəllimin innovativ səriştəsi tədris fəaliyyətinə yeni ideya və yanaşmaların məqsədyönlü şəkildə həyata keçirilməsi ilə bağlıdır.

Müəllimin innovativ səriştəsinin formalaşması onun peşəkar fəaliyyəti ilə ayrılmaz şəkildə bağlıdır. Bu proses, bir qayda olaraq, müəllimin özünü tanıma və introspeksiya qabiliyyəti, yaradıcı fəaliyyət istəyi, qeyri-müəyyənlik şəraitində işləmək və problemlərin həlli yollarını tapmaq bacarığı ilə təmin edilir.

Müəllimin innovativ səriştəsinin inkişafı prosesinin əsas şərti fəaliyyət aspektidir, yəni inkişaf müəllimin fəaliyyəti şəraitində baş verə bilər. Bundan əlavə, müəllimin innovativ səriştəsi təsadüfi və ya kortəbii şəkildə yarana bilməz. Bu, müəllimin təhsil mühitində innovasiyalara sabit münasibəti ilə xarakterizə olunan, innovasiyalar yaratmaq və onları peşəkar pedaqoji fəaliyyətə tətbiq etmək qabiliyyətini müəyyən edən dinamik bir prosesdir.

Müəllimin innovativ fəaliyyət qabiliyyətini inkişaf etdirməyə imkan verən əsas pedaqoji şərtləri nəzərdən keçirək.

*Müasir müəllim daim inkişafa və keyfiyyətcə dəyişməyə ehtiyac duyur.* Bu günün reallığı ondan ibarətdir ki, fəal yaradıcı mövqe və özünü inkişaf etdirmək istəyi olmadan müəllimin yüksək göstəricilərindən danışmaq mümkün deyil. Biliyin ötürülməsi ilə yanaşı, o, özünü tanıyan və inkişaf etdirən subyekt olmalıdır.

*Müəllimin peşə fəaliyyəti tədqiqat və metodik işlə sıx bağlıdır.* Buna görə də o, öz ixtisasını sistemli və davamlı olaraq təkmilləşdirməli, kollektivin elmi-tədqiqat və metodik işində fəal iştirak etməlidir.

İnnovasiya sahəsində bilik və bacarıqların əldə edilməsi üçün ən vacib şərtlər bunlardır:

- özünütəhsil (təkmilləşdirmə, peşəkar yenidən hazırlıq, əlavə peşə hazırlığı);
- yaradıcı qrupların, metodik birliklərin işində iştirak;
- elmi və tədqiqat tədbirlərində (konfranslar, dəyirmi masalar, seminarlar və s.) iştirak;
- seçilmiş kollegial şuraların (tədris şurası, təhsil müəssisəsinin şurası, həmkarlar ittifaqı və s.) işində iştirak;
- ustad dərslərinin, açıq dərslərin keçirilməsi;
- müstəqil tədqiqat və eksperimental fəaliyyət.

Təhsil təşkilatında innovasiya və innovativ fəaliyyət müəllim heyətinin bu mühitə daxil olmasını nəzərdə tutur. Təhsil təşkilatında innovativ mühitin yaradılmaşı pedaqoji innovasiyaların işlənib hazırlanması və mənimsənilməsinin, tədris təcrübəsində yeni metod və texnologiyaların tətbiqinin vacibliyi haqqında təbliğatın yayılmasına öz töhfəsini verir. Təhsil təşkilatı pedaqoji təcrübənin və tədqiqat nəticələrinin yayılması üçün daim çalışmalıdır. Bu məqsədlə ən fəal müəllimlər arasından rəhbərin və ya rəhbərin tədris və ya elmi-tədqiqat işləri üzrə müavininin rəhbərliyi ilə işçi qrup yaradıla bilər. Belə bir qrupun yaradılması formalaşmanın ən vacib şərtidir.

Pedaqoji tədqiqat prosesində müəllimlərin innovativ səriştəsi aşağıdakılarla bağlıdır:

- tədris prosesinə yeni ideyaların, təkmilləşdirmələrin, tədris metodlarının və s. daxil edilməsinin zəruriliyi;
- təhsil fəaliyyətinə yeniliklərin tətbiqi;
- təhsil təşkilatının innovativ fəaliyyətinin nəticələrinin sistemli və kollektiv müzakirəsi;
- innovasiyaların tətbiqi sahəsində perspektivlər və iş planları haqqında hesabatın formalaşdırılması [8].

Müəllimin innovativ səriştəsinin formalaşması üçün müasir şərtləri dörd qrupa birləşdirəcəyik:

1. Müəllimin innovativ səriştəsinin inkişaf etdirilməsi vasitəsi kimi metodik resursların yenilənməsi.

Təhsil təşkilatının metodik işi pedaqoji heyətin müəllimlərin peşə bacarıqlarının və innovativ texnologiyalar sahəsində savadlarının təkmilləşdirildiyi işə cəlb edilməsini nəzərdə tutur.

Metodiki iş pedaqoji heyətə peşəkar səriştənin artırılmasında kömək etmək məqsədi daşıyır. Metodiki birliyin fəaliyyəti müəllimlərin yaradıcılıq və təşəbbüskarlığını aktuallaşdırır, bununla da müəllimin tədris-pedaqoji prosesə innovativ texnologiyaların tətbiqi bacarıqlarını mənimsəməsinə şərait yaradır.

2. Müəllimin innovativ fəaliyyətinin keyfiyyətinin qiymətləndirilməsi.

Bu və ya digər şəkildə hər bir müəllim öz peşə fəaliyyətinin keyfiyyətini qiymətləndirmək məcburiyyətindədir. Bu, müəllimi peşəkarlıq səviyyəsini yüksəltməyə sövq edir. Müəllimlərin peşə səriştəsinin qiymətləndirilməsi beş ildə bir dəfə keçirilən sertifikatlaşdırma formasında həyata keçirilir. Müəllimin fəaliyyətinin bir çox göstəriciləri sertifikatlaşdırmanın nəticələrindən asılıdır. Məsələn, əmək haqqının məbləği, tutduğu vəzifəyə uyğunluq, karyera və peşə pilləsində yüksəlmə imkanı, hazırkı vəzifədə işləməyə davam etmək imkanı, vaxtaşırı peşəkar inkişafı, davamlı özünü inkişaf etdirmə və özünütəhsil və s.

Pedaqoji kollektivin səmərəliliyinin qiymətləndirilməsi çərçivəsində təhsil təşkilatı hər bir müəllimlə səmərəli müqavilə bağlayır. O, əmək müqaviləsinə əlavədir ki, burada əmək vəzifələri, qiymətləndirmə meyarları, maddi və qeyri-maddi həvəsləndirmə göstəriciləri və s. aydın şəkildə göstərilir.

3. Müəllimin özünüinkişafının stimullaşdırılması.

Özünü inkişaf etdirmə, işçinin peşəkarlığının artırılmasına yönəlmiş davamlı təhsil prosesidir. Özünü inkişaf etdirmək insanın fəaliyyətini təhlil etməyə və tənzimləməyə kömək edir. Bu, özünüzü təkmilləşdirmək üçün daimi işdir. Mövcud özünüinkişaf ehtiyacları müəllimi şəxsi və peşəkar inkişafı üçün məsuliyyətli edir.

4. İdarəetmə şərtləri.

Müəllimin innovativ səriştəsinin inkişafını müəyyən edən idarəetmə şərtlərinə müəllimin innovativ səriştəsinin elmi, metodiki və normativ təminatı daxildir. Müəllimin innovativ səriştəsinin inkişafı tədqiqat fəaliyyətində baş verir, bu müddət ərzində yeni ideyalar yaradılır və təhsilin məzmununa daxil edilir [7, s.189].

Beləliklə, müəllimin innovativ səriştəsinin formalaşması məqsədyönlü fəaliyyətin mürəkkəb və dinamik bir prosesidir, nəticəsi məhsuldar innovativ fəaliyyət üçün tələb olunan və kifayət qədər müəyyən bir səriştə səviyyəsinin formalaşmsıdır. Təhsil təşkilatı şəraitində müəllimin innovativ səriştəsinin formalaşması üçün bütün lazımi şərait yaradılmalıdır.

Müəllimin innovativ səriştəsinin mahiyyətini, komponentlərini və xüsusiyyətlərini öyrənmək nəticəsində aşağıdakı nəticələrə gəlmək olar:

Müəllimin innovativ səriştəsi onun peşəkarlığının struktur komponentidir. Müəllimin innovativ səriştəsi onu müəyyən edir ki, təhsil sahəsində keyfiyyət dəyişikliklərinə yönəlmiş kifayət qədər bilik, bacarıq və fəaliyyət səviyyəsi, nəticədə rəqabətqabiliyyətli mütəxəssislərin formalaşmasına yönəlmişdir. Bu, müəllimin tədris fəaliyyətini yüksək səviyyədə həyata keçirmək bacarığından xəbər verir. Müəllimin innovativ səriştəsi rəqabət mühitində təhsil təşkilatının səmərəliliyinə nail olmaq üçün əsas vasitədir.

Öz pedaqoji fəaliyyəti kontekstində müəllimin innovativ səriştəsi ona özünü həyata keçirmək və özünü təkmilləşdirmək imkanlarını genişləndirməyə imkan verir. Lazımi səviyyədə innovativ səriştələrə malik olan müəllim öz fəaliyyətini təşkil etməyi, şəxsi və peşəkar inkişafı idarə etməyi bacarır.

İnnovativ səriştənin strukturuna motivasiya-dəyər, məzmun-fəaliyyət (yaradıcı), texnoloji və əksetdirici komponentlər daxildir. Müəllimin innovativ səriştəsinin bütün komponentlərinin birləşməsi müəllimin yüksək peşəkarlıq səviyyəsində özünü göstərir ki, bu da ona öz fəaliyyətini vasi-

tələrin, metodların, texnologiyaların və tədris prosesinin həyata keçirilməsi yollarının mənalı çevrilməsinə yönəltməyə imkan verir.

Təhsil təşkilatı şəraitində müəllimin innovativ səriştəsinin formalaşması üçün bütün lazımi şərait yaradılmalıdır. Müəllimin innovativ səriştəsinin inkişafı prosesinin əsas şərti fəaliyyət aspektidir, yəni inkişaf müəllimin fəaliyyəti şəraitində baş verə bilər. Bundan əlavə, müəllimin innovativ səriştəsi təsadüfi və ya kortəbii şəkildə yarana bilməz. Bu, müəllimin təhsil mühitində innovasiyalara sabit münasibəti ilə xarakterizə olunan dinamik bir prosesdir, müəllimin yeniliklər yaratmaq və onları peşəkar pedaqoji fəaliyyətə tətbiq etmək qabiliyyətini müəyyənləşdirir.

Müəllimin innovativ fəaliyyətinin bütün komponentləri bir-biri ilə sıx bağlıdır və müəllimin innovativ səriştəsinin modelini təşkil edir.

Bundan əlavə, bəzi müəlliflərin tədqiqatlarında müəllimin innovativ səriştəsinin strukturuna peşəkar uyğunluq, peşəkar yönümlülük və idarəetmə qabiliyyətləri də daxildir. Beləliklə, belə bir nəticəyə gələ bilərik ki, təhsil təşkilatında müəllimin innovativ səriştəsi yaradıcılıq qabiliyyətləri, özünü təhlil etmək qabiliyyəti ilə müəyyən edilmiş, müəllimin praktiki innovativ fəaliyyətində formalaşmış bilik, bacarıq, səriştə və təcrübədən ibarət sistemli bir kompleksdir.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli nömrəli Sərəncamı ilə təsdiq edilmişdir / Azərbaycan məktəbi, 2013, №5, s.12
2. *Eminov A., Mədədov P.Y.* Pedaqogika. Bakı: Kövsər, 2012, 316 s.
3. *Nəzərov M.H.* Təhsilin sosial-fəlsəfi əsasları: Monoqrafiya. Bakı: ADPU, 2023, 456 s.
4. *Mədədov P.Y, Eminov A.İ.* Pedaqogika və evriologiya. Bakı: Gənclik, 2014, 238 s.
5. *İlyasov M.İ.* Müasir təhsil: ənənədən innovasiyaya. Bakı: Elm və təhsil, 2021, 372 s.
6. "Təhsil haqqında" Azərbaycan Respublikasının qanunu (2009). Bakı, 2012, 64 s.
7. *Ilyina N.F.* Formation of innovative competence of a teacher in the regional space of continuing education: dis. ... candidate of pedagogical sciences. Krasnoyarsk, 2014
8. *Кузьмина Н.В.* Основы вузовской педагогики. Л.: ЛГУ, 1972, 288 с.
9. *Стариченко Б.Е.* О формировании общепрофессиональных ИКТ-компетенций студентов направлений подготовки «Педагогическое образование» // Педагогическое образование в России, 2016, №7, с.97-103

10.*Маркова А. К.* Психологические критерии и ступени профессионализма учителя // Педагогика, 1995, №6, с.55-63
10.https://ru.wikipedia.org › wiki › Компетентность

Redaksiyaya daxil olub 23.09.2024

*UOT 159.9*

***X.T.Novruzova***
*Bakı Slavyan Universiteti*
*novruzovaxumar@gmail.com*

# İKT MÜHİTİNDƏ TƏLİMİN PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

https://doi.org/10.30546/170899876.72.03.2024.46

***Açar sözlər:*** *İKT, müəllim, tələbə, riyaziyyat, kompüter stresi, motivasiya*

Məqalədə ali pedaqoji təhsildə İKT vasitələrindən istifadənin müəllim-tələbə münasibətlərinə təsiri və auditoriyada yaranan psixoloji atmosferə həsr edilmişdir. Məlumdur ki, hazırda İKT həyatımızın bütün sferalarına nüfuz etmişdir. Tədris prosesində İKT-dən istifadə etmədən müsbət nəticələrin əldə edilməsi demək olar ki, qeyri-mümkündür. Bu nöqteyi-nəzərdən müəllim-tələbə, müəllim-kompüter, tələbə-kompüter münasibətləri zəminində yaranan psixoloji vəziyyəti təhlil etmək, araşdırma aparmaq və qiymətləndirmək zərurəti yaranır.

Məqalədə bu problemlə bağlı müxtəlif elmi-metodik ədəbiyyat nəzərdən keçirilmiş, müəllifin öz fikirləri və əldə etdiyi nəticələr qeyd edilmişdir. Kompüterin təlim prosesində yaratdığı müsbət və mənfi amillər nəzərdən keçirilmiş, tələbələrin dünyagörüşlərinin formalaşdırılması, şəxsiyyətyönümlü və tələbəyönümlü təhsildə İKT-nin əhəmiyyəti, motivasiyanın yaradılmasında rolu kimi məsələlərə baxılmışdır.

***Х.Т.Новрузова***

# ПСИХОЛОГИЧЕСКИЕ ОСОБЕННОСТИ ОБУЧЕНИЯ В СРЕДЕ ИКТ

***Ключевые слова:*** *ИКТ, преподаватель, студент, математика, компьютерный стресс, мотивация*

Статья посвящена влиянию использования средств ИКТ в высшем педагогическом образовании, на отношения преподавателя и студентов, психологическую атмосферу, создаваемую в аудитории. Известно, что в настоящее время ИКТ проник во все сферы нашей жизни. Добиться положительных результатов без использования ИКТ в образовательном процессе практически невозможно. С этой точки зрения возникает необходимость анализа, исследования и оценки психологической ситуации, возникающей на основе отношений учитель-студент, учитель-компьютер, студент-компьютер.

В статье рассмотрена различная научно-методическая литература, посвященная данной проблеме, отмечены собственные мнения и выводы автора. Рассмотрены положительные и отрицательные факторы, создаваемые компьютером в процессе обучения, рассмотрены такие вопросы, как

формирование мировоззрения студентов, значение ИКТ в личностно-ориентированном образовании, роль создания мотивации в учебном процессе.

***Kh.T.Novruzova***

## FEATURES OF PSYCHOLOGICAL READINESS OF TEACHING TO USE ICT

***Keywords:*** *ICT, teacher, student, mathematics, computer stress, motivation*

The article is devoted to the influence of the use of ICT tools in higher pedagogical education, on the relationship between the teacher and students, and the psychological atmosphere created in the classroom. It is known that nowadays ICT has penetrated into all spheres of our life. It is practically impossible to achieve positive results without using ICT in the educational process. From this point of view, there is a need for analysis, research and assessment of the psychological situation that arises on the basis of teacher-student, teacher-computer, student-computer relations.

Different scientific and methodological literature devoted to this problem is considered in the article, the author's own opinions and conclusions are noted. The positive and negative factors created by the computer in the learning process were reviewed, issues such as the formation of students' worldviews, the importance of ICT in personality-oriented and student-oriented education, and the role of creating motivation were considered.

Elmi-texniki tərəqqi, informasiya selinin artması məktəblərdə şagirdlərin və ali pedaqoji məktəblərdə isə onlara dərs deyəcək gələcək müəllimlərin hazırlıq səviyyəsinin, onlara verilən tələblərin də artmasına səbəb olur. Şagirdlər arasında keçilən sorğudan məlum olmuşdur ki, şagirdlərə “Əsl müəllim necə olmalıdır?” sualını verdikdə, onlar bu suala “uşaqları başa düşən, hər şeyi bilən müəllim” kimi cavab verirlər. Təlimin hər bir mərhələsində şagirdlərin nəyə qadir olduqlarını, onların maraq və meyillərini düzgün müəyyənləşdirən müəllim təlim metodlarını düzgün seçməli, təlim prosesində şagirdlərin yaş, gender, inklüziya kimi fərdi xüsusiyyətlərini nəzərə almalıdır. Təlim materialının asan mənimsənilməsi və uzun müddət yadda qalmasını təmin etmək üçün müəllim çalışmalıdır ki, şərh prosesində şagirdin daha çox duyğu üzvü iştirak etsin. Bu zaman həm material bütün təfərrüatı ilə yadda qalır, həm də lazım gəldikdə onu yada salmaq daha asan olur. Lakin burada belə bir amili unutmaq olmaz: müəllim dərsdə əyaniliyə üstünlük verməsinə baxmayaraq, bəzən şagirdin yaş xüsusiyyətlərini nəzərdən qaçırır. İdrak prosesində canlı müşahidə mərhələ-sini təşkil edən qavrayışın xüsusiyyətləri barədə müəllim ətraflı biliyə malik olmalı, qavrayışın çox mühüm və xüsusi növü olan müşahidənin inkişafına qayğı ilə yanaşmalı, onu düzgün istiqamətə yönəltməyi bacarmalıdır. Təlim

prosesində qavrayış digər idrak prosesləri ilə qarşılıqlı əlaqə və asılılıqla cərəyan edir. Cisim və hadisələr insan tərəfindən qavrayışın mənalılıq xüsusiyyətinə əsasən tanınır. Tanış olmayan cisim və hadisələr qavranıldıqda insan onları əvvəllər tanıdığı məlum obyektlərlə müqayisə edir, nə üçün lazım olduğunu, hansı məqsədə xidmət etdiyini, özünün malik olduğu anlayışlar və təsəvvürlər sistemində onların yerini müəyyənləşdirməyə səy göstərir [3].

Tələbələrin informasiyanı qavraması, mənimsəməsi və yadda saxlaması dörd pilləli səviyyə üzrə baş verir [5, s.143]:

“Birinci pillə - primitiv başlanğıc qavrama səviyyəsidir.

İkinci pillə - şüuraltı qavramadır. Bu, informasiyanın ilkin dərk edilməsi mərhələsidir.

Üçüncü pillə - məna və məzmunun qavranılması, semantik qavramadır.

Dördüncü pillə - praqmatik və ya praktik qavrama pilləsidir”.

Riyazi anlayışların öyrədilməsində bu mərhələlər bir-birilə əlaqəli şəkildə, vəhdət halında təzahür edir. Belə ki, hər bir mühazirə və ya məşğələdə ilk 6-7 dəqiqə ərzində tələbələrə motivasiya yaradacaq, maraq doğuracaq informasiya, ilkin məlumat çatdırılmalıdır. Bunu şifahi nitqlə və ya kompüter texnikası ilə yerinə yetirmək olar. İkinci mərhələ tədricən tərif və teoremlərin, nəzəri materialın mənimsədilməsinə kömək edəcək praktik məzmunlu misallarla, üçüncü mərhələ materialın mənimsədilməsi, nəhayət, onun praktik tətbiqinə aid tapşırıqların yerinə yetirilməsi ola bilər. Bu mərhələlərin hər birində İKT-dən istifadə etmək olar.

Y.Baxşəliyev göstərir ki, orta və ali məktəblərdə riyaziyyat təlimində bir-birilə bağlı və bir-birinə qarşılıqlı təsir edən üç mühüm istiqamət var: psixoloji, didaktik və metodik istiqamət. Nəzərə alsaq ki, təlimdə fərqli psixoloji və pedaqoji konsepsiyalar mövcuddur, deməli, onlar riyaziyyat təlimində də müxtəlif didaktik nəzəriyyələrə əsaslanmalıdır. Ali məktəblər üçün vahid, ümumi bir konsepsiyaya əsaslanan nəzəriyyənin olmaması riyaziyyat təliminin tələbələr tərəfindən mənimsəmələrində mənfi hallara yol açır, fənnə olan marağı azaldır. Müəllif qeyd edir ki, məhz cəbri strukturlar psixoloji cəhətdən bu problemin uğurlu həlli ola bilər [1, s.144].

“Ali məktəblərdə riyaziyyat təlimində aşağıdakı psixoloji məsələlər böyük əhəmiyyət kəsb edir: təlimin psixoloji nəzəriyyəsinin əsas konsepsiyaları, tələbələrin yaş xüsusiyyətləri, dərketmə prosesini müəyyən edib istiqamətləndirən əsas psixi fenomenlər – qavrayış, diqqət, hafizə, təfəkkür, təxəyyül və s. Bu məsələlər şəxsiyyətyönümlü təlim prinsipi kökündə şəxsiyyət psixologiyası kontekstində araşdırılmalıdır” [1, s.144]. Bu məqsədlə müxtəlif psixoloqların yanaşmalarını nəzərdən keçirmək maraqlıdır.

Şaripov F.B. göstərir ki, şəxsiyyətyönümlülük müasir təlim prosesində təhsilalanların tələbatının, maraqlarının, qabiliyyətlərinin və bacarıqlarının

nəzərə alınması deməkdir. Başqa sözlə desək, təlim prosesində yalnız bilik, bacarıq və vərdişlərin mənimsədilməsi deyil, həmçinin tələbələrin şəxsi və fərdi keyfiyyətləri də nəzərə alınmalıdır. Bu isə müəllimin məsuliyyətini daha da artırır. Tələbənin psixikasını, dünyagörüşünü, intellektini, emosiyalarını, hətta sağlamlığını və həyat tərzini dərs prosesində nəzərə almaq, prosesi buna uyğun şəkildə qurmaq müəllimdən böyük pedaqoji ustalıq tələb edir. Müəllif qeyd edir ki, müasir tədris prosesini keyfiyyət cəhətdən yüksəltməyin əsas şərti şəxsiyyətin özünütədrisi və özünü inkişaf etdirməsi ola bilər. Bu yeni paradiqmanın əsas baza postulatları isə aşağıdakılardır [12, s.75]:

- hər bir şəxsiyyətin özünü qiymətləndirməsi, özünəməxsusluğunu dərk etməsi;
- şəxsiyyətin yaradıcılıq imkanlarının genişləndirilməsi;
- daxili azadlığının, özünü kifayət qədər azad və sərbəst hiss etməsinin təmin edilməsi;
- şəxsiyyətin özünü dərketməsi, özünü idarə etməsi, özünü təkmilləşdirə bilməsi və həyatda özünütəsdiq kimi komponentlərdən ibarət olan refleksiv dərketmə modelinin formalaşdırılması.

Şəxsiyyətyönümlü təhsil – təhsili şəxsiyyətin özünütəsdiq sferası etmək deməkdir. Bu halda müəllim informasiyanı ötürmək funksiyasını tədris prosesinin meneceri olmaq funksiyası ilə əvəz etməlidir. Tədrisin məzmunu isə tərsinə dəyişməlidir – fəaliyyət haqqında informasiya deyil, informasiyaya əsaslanan fəaliyyət olmalıdır. Müəllif ali təhsil pedaqogikasının fəlsəfə, psixologiya, tibb, etika, sosiologiya, iqtisadiyyat və menecerlik kimi elmlərlə əlaqəli şəkildə sxemini quraraq, bunların hamısının metodika ilə, metodikanın özünü isə İKT ilə əlaqələndirir [12, s.22].

Akademik Samarin A.Y. fəaliyyətin psixoloji analizini apararaq belə bir qənaətə gəlmişdir ki, "psixi proseslər fəaliyyət nəticəsində formalaşır və özünü büruzə verir. İnsanın fəaliyyəti – insan psixologiyasının açıq kitabıdır. Biz insan haqqında onun nə düşündüyünə əsasən deyil, onun nə etdiyinə əsasən fikir yürüdürük". İnsan xarakterinin formalaşmasında təhsilin böyük rolunu qeyd edən alim akademik İ.P.Pavlovun birinci və ikinci siqnal sistemləri ilə bağlı fikirlərinə əsaslanaraq göstərir ki, beynin böyük yarımkürələrinə həm xarici mühitdən, həm də insanın öz daxili aləmindən aramsız olaraq siqnallar daxil olur. Bunun nəticəsində beyin mozaikaya bənzər mürəkkəb bir konstruksiyaya oxşayır. Beyindəki siqnallar bir-birilə qarşılaşır, toqquşur, sistemləşdirilir. Bu isə beynin dinamik bir sistemə çevrilməsinə səbəb olur. İnsanın məqsədyönlü inkişafında təhsilin böyük rolunu və əhəmiyyətini qeyd edərək, psixoloq qeyd edir ki, insanın aldığı biliklər onun maraqlarına uyğun olmalıdır [10, s.36-37].

Keçən əsrin 50-ci illərində yazılmış bu fikirlər müasir dövrümüzdə də

özünü doğruldur. Təhsil sistemində fəaliyyətin, praktikanın əsas rol oynaması, həyati situasiyalara əhəmiyyət verilməsi bir daha onu göstərir ki, inşanın bir şəxsiyyət kimi formalaşması üçün, onun mənəvi aləminin zənginləşməsi üçün maraq və istəklərinə uyğun tapşırıqların seçilməsi, düzgün motivasiyanın yaradılması vacibdir. Bu isə öz növbəsində İKT vasitələrindən istifadəni zəruri edir; çünki müasir dövrü, gənclərin indiki və gələcək fəaliyyətini İKT-dən ayrı təsəvvür etmək qeyri-mümkündür.

Oxşar fikirlərə 70-ci illərdə Y.Linqartın əsərlərində də rast gələ bilərik. Təlimə ali sinir fəaliyyətinin reflektor nəzəriyyəsinə əsaslanan proses kimi baxan psixoloq göstərir ki, təfəkkür prosesi real həyat situasiyalarının dərk edilməsi sistemidir. Təlim birinci və ikinci növ siqnalların müvafiq inteqrasiyası və koordinasiyası əsasında həyata keçirilir [12, s.145].

Tədris fəaliyyətində mövcud olan motivasiyaları formal olaraq iki qrupa ayırmaq olar: öyrənmə ilə əlaqədar olan motivasiya və sosial motivasiya. Bu qrupların hər birində isə öz növbəsində iki faktor mövcud olur: daxili və xarici. Həm daxili, həm də xarici faktorlar istənilən şəxsin fərdi xüsusiyyətləri ilə yaranır və müəyyən edilir. Əgər hər hansı bir şəxs üçün yeni biliklərin qazanılması, yüksək ixtisaslı mütəxəssis olması, öz vəzifə və peşə borclarını yerinə yetirmə istəyi, özünü savadlı, elmli hesab etməsi və s. kimi keyfiyyətlər vacibdirsə, bunlar daxili faktorlarla müəyyən edilir. Lakin əgər hər hansı bir şəxsdə daha çox cəmiyyətdə hər zaman birinci olmaq, yeniliklər edərək sosial mövqelərini möhkəmlətmək, ictimaiyyət tərəfindən tanınmaq və s. kimi motivlər daha çoxdursa, üstünlük təşkil edirsə, bunlar xarici motivlərdir [8].

İnsan və kompüterin əlaqəsində müsbət və mənfi halları araşdırarkən mütəxəssislər aşağıdakı nəticələrə gəlmişlər [6]:

Kompüterdə uzun müddət işləyən insanlar adətən daha məqsədyönlü, daha yaradıcı, özünün şəxsi fikirlərinə daha çox inanan və bu fikirlər əsasında qərarlar qəbul edən, insanlarla münasibətdə soyuqqanlı və özünəqapalı, nəhayət, daha az məsuliyyətli olur.

Psixoloqlar belə hesab edirlər ki, insanda görmə analizatorları eşitmə analizatorlarına nisbətən daha çox təsir qüvvəsinə malikdir. İnsan gözü saniyədə milyonlarla bit, insan qulağı isə on minlərlə bit informasiya qəbul edə bilər. O cümlədən, insanın gözü ilə qəbul etdiyi informasiya onun yaddaşında daha yaxşı qalır və daha təsirli olur. "Yüz dəfə eşitməkdənsə bir dəfə gör" atalar sözü də bunu göstərir. Hələ IKT vasitələrinin yaranmasına qədər olan dövrdə bir çox ekspertlərin apardıqları tədqiqatlarda müəyyən edilmişdir ki, tədris materialının mənimsənilməsi metodu ilə onun yaddaşda saxlanılması arasında əlaqə mövcuddur. Əgər material səs informasiyasından ibarətdirsə, onun həcminin təxminən ¼ hissəsi yadda qalır, əgər bu informasiya vizualdırsa, 1/3-i, görmə və eşitmə orqanlarının hər ikisinin də

iştirakı ilə alınan informasiyanın isə təxminən yarısı uzun müddət yaddaşda saxlanılır. Əlavə olaraq insanın özü də bu prosesdə həm eşidir, həm görür və həm də aktiv şəkildə iştirak edirsə, həmin informasiyanın 75%-ni yadında saxlaya bilir [4; 9, s.52-53].

Öyrədici kompüter proqramlarının tədris sistemindəki rolunun araşdırılması nəticəsində insanda dominantlıq edən (xoş, aydın, maraqlı, şən), neytral (sakit, stabil, diqqətli), neqativ (apatiya, passiv, cansıxıcı) və aktiv (emosional, stress, gərginlik, qıcıq, təhlükə hissi) kimi çox müxtəlif halların yarandığı müəyyən edilmişdir. 18-25 yaş arasında olan və humanitar fakültələrdə təhsil alan tələbələr arasında keçirilən pedaqoji eksperimentdən alınan nəticələrə görə, tədris prosesində kompüterdən istifadə zamanı onların emosional vəziyyəti nəzərə alınmazsa, əlverişli və rahat işləyə biləcəkləri şərait təmin olunmazsa, müsbət nəticə əldə etmək olmaz [11, s.158].

İKT-nin tətbiqi ilə təşkil olunan dərslərdə müəllim faktoru – onun səsinin qoyuluşu, riyazi məsələləri aydın şəkildə izah etməsi, ümumiyyətlə, müəllimin nitqi tələbələrin eşitmə analizatorlarına birbaşa təsir edir. Bu faktı nəzərə alaraq, informasiyanın səs (eşitmə) və eşitmə-görmə vasitələri ilə ötürülməsini İKT vasitələrindən istifadə etməklə gücləndirmək və bununla da tələbələrin dərketməsini yüksəltmək olar.

İKT-dən cəbrin tədrisində istifadə edilməsi sayəsində öyrədilən materialın yadda qalması prosesi məntiqi nəticənin alınması kimi təzahür edir. Bu zaman biliklərin möhkəmləndirilməsi, kompüter effektləri ilə yaradılan riyazi modellərin vizuallaşdırılması materialın sistematik şəkildə, məntiqi əlaqələri nəzərə alaraq öyrənilməsi üçün əlverişli şərait yaradır. Tələbələrin diqqətini mövzunun məzmununa yönəldərkən, müəllim emosiyaların müsbət hiss və maraq doğurmağına ciddi yanaşmalıdır. Əgər ötürülən informasiya həddindən çox maraq doğurursa, bu faktın özü də dərketməni ləngidə bilər. Cəbrin tədrisində monitordakı rənglərdən, kompüter effektlərindən və s. bu kimi amillərdən düzgün şəkildə yararlanmaq lazımdır.

Moskva Dövlət Pedaqoji Universitetinin neyro-psixolinqvistika sahəsində alimi, biologiya və filologiya elmləri doktoru Tatyana Çerniqovskaya keçirdiyi təlimlərdə bu məsələlərə toxunaraq qeyd edir ki, insan beyni çox mürəkkəb bir sistem olaraq, özündə 100 milyard neyron və kvadrilyon sinaptik əlaqələri, 2,5 petabayt – 1000 terabayt informasiyanı (bu isə təxminən 300 il ərzində 3 milyon saat televiziya verilişlərinə baxılmasına bərabərdir) saxlayan analoq və ya kvant (təkcə rəqəmsal deyil!) kompüterlərinə bənzəyir. O, biliklərimizin beynimizə necə təsir etdiyini, neyronların xassələrini və s. tədqiq edərək, tədris prosesində çox istifadə edilən beyin neyronlarının güzgü sistemləri (brain, mind and mirror systems) nəzəriyyəsinin əhəmiyyətini göstərir. Bu nəzəriyyəyə görə insanda belə bir qabiliyyət vardır: o, başqasında müşahidə etdiyi hər hansı bir vəziyyəti

özünə tətbiq edir, sanki güzgüyə baxır və orada əslində mövcud olmayan bir halı reallıq kimi beynində canlandırır. İlk dəfə 1952-ci ildə nevroloq V.Mauntkasl tərəfindən heyvanlarda aşkarlanan bu neyronlar 1990-cı illərdə italiyalı alimlər qrupu tərəfindən insanlar arasında eksperiment keçirməklə aşkarlanmışdır [13].

Güzgü sistemini konkret olaraq cəbr fənninə aid olan anlayışların öyrədilməsində tətbiq etmək, İKT vasitələrindən düzgün istifadə etmək fənnin tədrisində yüksək nəticələrin alınması üçün səmərəli üsul ola bilər. Bunun üçün müəllim internet şəbəkəsində ayrı-ayrı mövzulara aid hazır elektron dərslərdən, kiçik həcmli videofayllardan və ya özü hazırladığı elektron vəsaitlərdən istifadə edə bilər. Məsələn, qruplar nəzəriyyəsi mövzusunu tədris edərkən, bu nəzəriyyənin yaranma tarixi, iki, üç, dörd dərəcəli cəbri tənliklərin həllinin tapılması məsələləri, nəhayət, dərəcəsi beşə bərabər və beşdən böyük olan tənliklərin həllərinin araşdırılması məsələləri mütləq nəzərdən keçirilməlidir. Adıçəkilən mövzulara aid “Youtube” sosial şəbəkəsində kifayət qədər maraqlı internet keçidləri və filmlər mövcuddur. Əsrlər boyu alimləri düşündürən bu məsələnin 19-20 yaşlarında olan gənc alimlər – N.Abel və E.Qalua tərəfindən müvəffəqiyyətlə həll edilməsi, bunun əsasında nəinki cəbrin, eləcə də müasir riyaziyyat elminin inkişafına təkan verilməsi olduqca əhəmiyyətli və parlaq tarixi faktdır. Tələbələrdə bu üsulla cəbrə, qruplar nəzəriyyəsinin öyrənilməsinə maraq oyatmaq və onları da bu tip araşdırmalarla məşğul olmaları üçün psixoloji cəhətdən ruhlandırmaq olar.

